AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M.FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 2

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2018

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası
Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Əzizxan Tanrıverdiyev, f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2018, № 2

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2018

www. filologiyameseleleri. net

Проф. МАСУД МАМЕДОВ
Lənkəran Universiteti

ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ ТОПОНИМОВ РАЗНОСИСТЕМНЫХ ЯЗЫКОВ (на материале Ленкоранской низменности)

Açar sözlər: Toponim, dil, komponent, bölgə, bulaq.
Ключевые слова: Топоним, язык, компонент, местность, родник.
Key words: Toponym, language, component, region, spring

Следует заметить, что анализ отдельных географических названий Ленкоранской низменности требует осторожности, так как он часто затрудняется тем, что заимствованные слова воспринимаются носителями языка как исконные. Приступая к изучению этимологии географических названий необходимо учитывать следующие обстоятельства: во-первых, слово заимствуется вместе с обозначаемым им предметом, поэтому нужно выяснить, у какого из данных народов впервые появились обозначенными этим словом реалии и соответствующие понятия; во-вторых, следует выяснить, какой из данных языков дает возможность этимологизировать это слово. В качестве пример, хотел бы вспомнить слова проф. Мирзы Рагимова, что пишет: «в шамахинском диалекте Азербайджанского языка сохранился глагол ***бы*** – *«мерзнуть, замерзать».* Этот глагол почти в таком же звучании имеется и в маньджурском языке: ***веуе*** - *«замерзать*». Этот факт позволяет рассматривать данный глагол как праалтайский элемент (с.16). Если бы автор статьи обратился к ближайшему иранскому говору или языку, соседствующем с шамахинским диалектом, то обнаружил бы, что, например, в лахиджском говоре татского языка имеется слово ***бы,*** обозначающееся *«мороз», «лед», «мерзнуть», «замерзать»,* то же то же значение имеет в талышском языке bujə - buyə. Так, например, южные села Туради- Астаринского района, на вершине горы. ***Би*** имеется родник с холодной как лед водой. Он носит название ***Бијə һони*** *«холодный родник»*. Все эти и другие факты языков, соседствующих с Азербайджанскими диалектами и говорами, позволяют предложить, что глагол ***бы*** в шамахинский диалект проник посредством лахиджского говора татского языка.

Как правило, гораздо большое количество слов попадает из азербайджанского языка через него в другие национальные языки, нежели из них в азербайджанский. Однако в отдельные диалекты и говоры азербайджанского языка, контактировавшие с неродственными языками, проникло определенное количество иноязычных слов, о чем свидетельствуют географические названия Ярдымлинского, отчасти Масаллинского и Джалилабадского районов, где, за исключением, неологизмов, основной пласт топонимов имеет иранское происхождение. Относительно влияния Талышского языка на Ленкоранский говор азербайджанского языка.

И.Абдуллаев пишет, что «в виду исторически сложившихся многовековых политических культурно-экономических и бытовых связей, а также территориальный общность в ленкоранский говор азербайджанского языка проник ряд талышских слов: ***джия-*** *«веревка»,* ***молошк-*** *«невод»,* ***гәсто-*** *«нарочно»* и др., а также такие вокативные слова, как ***мамули, бойли, гызәли*** и т.д.

Влияние Талышского языка на ленкоранский говор оказалось и на его звуковой системе. Здесь нередко перед гласными заднего ряда среднеязычные ***к*** произносятся как заднеязычные по Талышскому образцу. Нами наблюдались и многие другие фонетические особенности, характерные также для географических названий Ленкоранской низменности. Они встречаются в Ярдымлинском говоре азербайджанского языка, будучи заметным и в ираноязычной топонимии данного региона, и довольно легко выявляются, ибо часто компоненты соответствующих топонимов представляют собой формы различного происхождения. Например, первый компонент сложного топонима ***Тавони булағы*** включает др- тюрк. ***Тав –****”скала, холм”* и ***они*** <от Тал. ***һони*** *– родник*> . *Тав һони* а второй компонент азербайджанское слово ***булаг*** и что означает также *«родник».* Подобные словосочетания являются полукальками, так как значение первого сложного компонента не было понятным для азербайджанцев данной зоны. Следовательно, одной из характерных причин возникновения полу калькированных названий является непонимание значения какого-то компонента словосочетания носителями другого языка. Словосочетания, не поддающиеся полному калькированию, нередко подвергаются фонетической адаптации типа азерб. ***Дашты һамар***, тал. *Дашти һәмо* – степной простор, азерб. ***Тәнкәвәрә чайы,*** *Тангәвәрә ру- река,* протекающая в данной местности, узкий проход, азерб. ***Бөјүк пора***, тал. ***Йолә пор*** – большая площадка и мн. др. Если компоненты заимствуемых названий понятны, то в этих случаях возникает полная калька, типа как ***Нил булаг*****,** тал ***Нилә һони*** или ***Нилә до тони бә һони*** *– родник, находящийся окло дерева Нил* (дзельква

Гирканская). Эти и другие примеры еще раз доказывают, что исторически в Ярдымлинском районе (особенно в южной полосе, по берегам реки Виләш), когда то жили талыши и пришельцы, вытесняя их, воспринимали от них готовые географические названия, к которым ими прибавлялись элементы родного языка. И это естественно, поскольку в этих (Лерикском, Ярдымлинском, Масаллинском, от части Ленкоранском) районах Азербайджанцы и Талыши находятся в непосредственном контакте, причем их общение осуществляется на азербайджанском языке.

Отдельные исследователи считают, что калькирование географических названий (Топонимах) происходит редко, и топонимы обычно заимствуются в той форме, в какой употребляются в языке- источнике. Но, как показывает наш полевой материал и исследование топонимы Киргизии, проведенное Н.П.Бутенко, заметил, что калькированные географические названия встречаются довольно часто. В частности, с появлением первых русских поселений на Ленкоранской и Муганской зонах (начало 40-х годов XIX в.).

Следует отметить, что в условиях активного двуязычия почти любое слово азербайджанского разговорного языка может быть употреблено в талышской речи и естественно будет понятно всем. Обратный же процессе можно ожидать там, где исторически азербайджанцы жили (компактно) среди талышей в селе Кәлвәз, Кәлхан, Һосимәлиһийон (Госмалян)и в Ярдымлинского районов Азербайджана и это заметно сказывается на произношения азербайджанцев. Так, например они говорят: ***Агмәд*** *"Агамәммәдли тајфасы"- род Агамамеда*; ***Алвери*** "*Аллаһверәнли тајфасы*" *– род Аллахверан* и др. Следует заметить, что эти усечённые формы влияло в большинство азербайджанских диалектов и на аффиксации, типа как ***//лы, ли, лу, лү//*** в результате ассимиляции произносятся как ***//ды, ди, ду, дү*** или ***ры, ри, ру, рү//*** *атды* в место "*атлы"*- всадник»; *әтди "әтли"*- "мясистый", *гарры "гарлы"*- снежный и др.

Как уже отмечалось тюркские географические названия и термины широко представлены в Ярдымлинском и Масаллинском районах. Так, в названиях рек наряду с иранскими компонентами (***рү****-река*, ***дә****-овраг*, ***бүл*** и ***бүл****-ущелье,* ***һони****-родник,* ***һи****-башня,* ***ло****-часть чего-то, участок*, ***кер****-камень, скала,* ***сы***ғ*-камень*, ***һол****-холм* и др.), широко распространены тюркские: ***чай****- река,* ***булаг-*** *родник,* ***дирсәк****- возвышенность,* ***тәпә-*** *холм*, ***дағ-*** *гора,* ***бел-*** *спина, вершина горы*, ***кәнд-*** *село* и мн. др.

Большая группа тюркских топонимов в Ленкоранской низменности образуется с помощью аффиксов. Наиболее продуктивными

являются аффиксы ***//лы, ли, лу, лү//***; ***//лыг, лиг, лар, ләр.*** Семантическую основу топонимов, образованных присоединением аффикса ***//лы, ли, лу, лү//*** к личным именам, составляет отношение принадлежности, например, Казымханлы (Лерик, село Кәлвәз) – квартал, где живут представители рода Казымхана; Рзаханлу (Ярдымлы с Черимбел) – квартал, где живут представители рода Рзахана и др. Подобные географические названия не следует рассматривать не как прилагательные образованные с помощью аффикса ***//лы, ли, лу, лү//*** от существительных, а как произвольные существительные, не обладающие атрибутивной семантикой. Именно поэтому они не употребляются в функции определения.

Анализ собранных материалов показывает, что число топонимов, образованных с помощью аффикса ***//лыг, лиг, лук, лүк//*** несколько меньше, чем с аффиксом ***//лы, ли, лу, лү//.*** Это связано с редукцией конечного согласного, хотя ***лыг*** в значении - ***лы*** наблюдается во многих языках и их памятниках в качестве топокомпонента. Среди топонимов, образуемых на основе атрибутивной связи между компонентами наиболее распространенным видом являются именные определительные словосочетания: ***гышлаг*** *<гыш - зима, <лаг* - суффикс, ***Дашбулаг*** *<даш - камень*, ***<булаг*** *- родник* идр. Характерные также словосочетания существительных с компонентами йер-и (аффикс пренадлежности 3-го лица); ***Дәйирман йери*** *< Дәйирман - мельница, < йери - место*; ***Кәнд йери*** *<кәнд - село, <йери - место* и мн. др.

Словосочетания прилагательного с существительными *дирсәк, булаг, йер, даш, су, чай, бағ, йурд, гыцлаг, дәрә* и др. Например, ***Кичик дәрә*** *– маленький овраг,* ***Койдәрә*** (ойконим) *<кой - зеленый, <дәрә - овраг* и мн.др. Кроме того, эти компоненты часто употребляются с личными именами, т.е. превый компонент обозначает субъекта принадлежности: ***Алыдирсәйи***- букв. Изгиб горы Ахмеда; ***Һәси колу***- букв. *Кустик, принадлежающий Хаси;* ***Алычан дашы*** – букв. *камень, принадлежащий Алыджану*; ***Агаммәд йурду*** *хозяйство или очаг Агамамеда* и т.д. Участие личного имени в качестве компонента сложных топонимов свидетельствуют о том, что основной образования данного топонима является обозначенный вторым компонентом объекта, который когда-то принадлежал указанному лицу, ибо это лицо положило начало данному населенному пункту.

Сложные топонимы, образованные на основе определительных словосочетаний, в свою очередь, делятся на следующие группы и подгруппы:

1). Топонимы, первые компоненты которых являются существительными выражающими:

а). пространственные отношения: ***Дәрәбулаг, Дашбулаг, Нилдәрә, Биләчај*** и др;

б). отношения принадлежности: ***Асадбә, Кәлханкәнд, Кәлвәзкәнд*** и др;

в). внешний облик, подобие, качество: **Дикдағ** – *вертикальная гора*, **Күлзәми** – букв. *цветушая земля* и др;

г). отношение цели: ***үзүм бағы*** – *виноградный сад*, ***Арпа тала*** – *поле, где растет ячмень.*

2). Топонимы, первые компоненты которых выражены прилагательными, обозначающими:

а). цвет, а иногда пространственное расположение. Сюда входят в основном оронимы и гидронимы: ***Гара колат*** «гара – черный, ***колат*** – *очищенное место*»; ***Сарыгайа*** *«сары- желтый, гайа- холм»;* ***Гызылгайа*** *«гызыл- золото, гайа- холм»;* ***Гарайел***- *черный ветер* и др. Кроме того, чаще всего в качестве первого компонента выступают прилагательные этих топонимов ***аг***- *белый*, ***сары***- *желтый*, ***гара***- *черный*, ***гырмызы***- *красный* и др., а в качестве второго компонента существительные ***гайа*** – *холм,* ***колат***- *очищенное место*, ***су***- *вода,* ***чай***- *река* и др.

б). В ареале Ленкоранской низменности как для иранской, так и для тюркской топонимии характерны сочетания числительных с именами существительными: ***Алтыағач, Шашагач*** (на картах Шаһағач), ***Гызылағач*** и др. Здесь компонент ***агач*** обозначает ***«дерево»*** и расстояние в 6 км.

Так, например, Алтыағач- 36 км, а также Шашагач -36 км. В последнем ***Шаш*** – *шесть*- иранского, а ***агач*** в указанных значениях- древнетюркского происхождения. Подобные географические названия появились в связи с переселением из одной местности в другую, т.е. в зависимости от того, на какое расстояние (агач) продвигалось род, племя, или жители селения.

В топонимах Ленкоранского региона можно отметить группу тюркских топонимов, представляющих с различными глагольными формами. Так, существительные могут сочетаться с причастиями настоящего времени на – ***ан, -ән***: ***Адам отуран*** “адам”- *человек*, “отуран” –прич. от глагола “*отурмаг”*- сидеть; ***Дары әкилән*** “дары”- *просо*, “әкилән” прич. от глагола “әкмәк”- *сесть;* ***Сейфуллагыран*** “Сейфулла”- *личное имя*, “гыран”- прич. от глагола “*гырмаг*” – ломать и др. Многие из этих сложных топонимов образованы на основе определительных словосочетаний первого и третьего типа.

Таким образом, топонимия Ленкоранской низменности мы имеем в основном два топонимических пласти: азербайджанский и

талышский. И наличиствующие гибридные топонимы отосятся к этим языкам. Незначительный пласт русского топонима является новым как для данного региона, так и для для топонимического ландшафта Азербайджана.

Лингвистический анализ географических названий в смешанных ареалов позволяет внести конкретные предложения по употреблению, унификации и правописанию топонимов; выявить общие и отличительные особенности способов образования тюркских и иранских географических названий; установить причину биноминации и кальки топонимов.

Литература

1. Мамедов М.А. Лингвистический анализ географических названий в смешанных ареалах. Ташкент, 1984
2. Пахалина Т.Н. Ишкашимский язык. М.,1959
3. Фрай Ричард. Наследие Ирана. М.1972
4. Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. М.1970
5. Словарь географических терминов и других слов, формирующих топонимию Ирана. М.,1971
6. Миллер Б.В. Талышский язык. М.,1953
7. Мамедов М.А. Сравнительный анализ родственных языков (на материале языка Халаджей). Ташкент, 1984

M.Məmmədov

“Müxtəlif mənşəli toponimlərin linqvistik təhlili” (Lənkəran bölgəsinin materialları əsasında)

Xülasə

Məqalədə Lənkəran bölgəsinin coğrafi adları linqvistik təhlili olunur. Bu bölgə müxtəlif xalqların yaşadığı tarixi bir məkandır. Demək, toponimlər də, yeni coğrafi adlar da mənşəcə müxtəlifdir. Hər hansı tədqiqatçı bölgənin coğrafi adlarının etimologiyası ilə məşğul olmaq niyyətində olsa, ən azı iki dili, yəni Azərbaycan və Talış dillərini mükəmməl bilməlidir, Sözlə oynamaq istəyən, müqayisələr aparmalıdır. Bu tipoloji tədqiqat kök sözləri üzə çıxarır, bu və ya digər adın düzgün mənasını, xüsusiyyətlərini aşkar edir.

Məqalədə söz birləşmələri ilə yaranmış adlardan daha çox söz açılır və adların çoxu binominasiya tiplidir. Məsələn, ***Honi bulaq*** hidroniminin hər iki tərəfi bir mənanın daşıyıcılarıdır. Belə ki, Talış dilində ***honi*** bulaq deməkdir. Demək, bu coğrafi adın mənası bulaq+bulaqdır. Digər bir misal: ***Sığdaş*** "Talış dilində ***sığ-*** *"daş"* deməkdir və Azərbaycan dilində ***daş*** deməkdir. Bu sözün komponenetləri bir məna daşıyır. Bu cür binominlər Cənub bölgəsinin Lənkəran, Yardımlı, Masallı və Lerik rayonlarının coğrafi adlarında özünü göstərir. Bundan əlavə türk mənşəli toponimlərin yaranmasında **– *lı, -li, -lu, -lü; -lıq, -liq, -lar, -lər*** affikslə də iştirak edir. Məsələn *Kazımxanlı, Rzaxanlı, Əhmədli* və s. Mürəkkəb toponimlərdə ikinci komponentlər ***dirsək, bulaq, yer, daş, su, çay, bağ, yurd, qışlaq, dərə*** və s. sözlərdən ibarət olur: *dəyirman yeri, kənd yeri, böyük bulaq, göydərə, Aslan yurdu, Alıdirsəyi* və s.

Bu bölgədə say bildirən coğrafi adlar da özünə yer tapmışdır. Məsələn Altı ağac- 36 km, Türk mənşəli bu toponimin birinci tərəfi şəffafdır, ikinci tərəf ağac ilkin mənasına görə arxaikdir. Belə ki, qədim türk dillərində, xüsusən qədim Azərbaycan dilində ölçü vahidi "ağac" olmuşdur və bir ağac 6 km. bərabər sayılır.

Beləliklə, bu məqalədə ərazidə məskunlaşanların toponimləri yer tapmışdır. Müəllif məqalədə elmə lazım olan faktları üzə çıxarmağa səy göstərmişdir.

M.Mammadov

Lingusitic analysis of toponyms having different origins

Summary

The article deals with linguistic analysis of geographical names of Lankaran region. This region is a historical place where different peoples dwell. Thus, toponyms as well as geographical names are different by their origin. Any researcher studying etymology of geographical names should perfectly know at least two languages, in our case, Azerbaijani and Talish. This typological research reveals root words and finds out the meaning and characteristics of this or that name. The article mainly deals with the names originated from word combinations and most of them are of binomination type. For example, both parts of hydronium "Honibulag" carry the same meaning. That is, in Talish language honi- is a spring (as well as "bulag"). Another example, "sığdaş" (in Talish "sığ"- is a stone as well as "daş" – in Azerbaijani). The components of this word have the same meaning. Such binoniums in Azerbaijan language are found in geographical names of

Yardimli, Masalli and Lerik regions. Besides, toponyms of Turkish origin are formed with ***–lı, -li, -lu, -lü, -lıq, -lar, -lər*** affixes. For example, Kazimkhanli, Uzakhanli, Əhmədli, etc. In complex toponyms, the second components are ***dirsək, bulaq, yer, daş, su, çay, bağ, yurd, qışlaq, dərə,*** etc. Dəyirman yeri, kənd yeri, böyük bulaq, göydərə, Aslanyurdu, Alıdirsəyi, etc. The geographical names containing numeral are also found in this region. For example, Altıağac-36 km. The first component of this Turkish word is pure, the second one is archaic according to its original meaning. Thus in old Turkish language, mainly in Azerbaijanian, a tree (ağac) was unit of measurent and one tree was equalled to 6 kms consequanly, this article describes toponyms belonging to peoples dwelling in this territory. The author investigated scientifically important facts in the article.

Rəyçi: Nadir Məmmədli
filologiya üzrə elmlər doktoru, professor

LEYLA MAHMUDOVA
BDU-nun dosenti
mahmudova.1969@mail.ru

MÜASİR FARS DİLİNDƏ XƏBƏR BUDAQ CÜMLƏLİ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏR

Açar sözlər: tabeli mürəkkəb cümlələr, mübtəda budaq cümləsi, analitik tipli mübtəda budaq cümləsi, sintetik tipli mübtəda budaq cümləsi, mürəkkəb cümlələr, baş cümlə, budaq cümlə
Ключевые слова: сложные предложения, сложноподчиненные предложения, сложноподчиненные предложения с придаточными подлежащее, аналитические придаточные предложения, синтетические придаточные предложения, главное предложение, придаточное предложение.
Key words: complex sentences, subject clause, subordinate clause, analytic subject, synthetic subject, complex sentences with a subordinate clauses, principal clause.

Tabeli mürəkkəb cümlənin cox zəngin semantik və quruluş xüsusiyyətlərini onun ayrı-ayrı budaq cümlələrində öz əksini tapır. Yəni hər bir budaq cümlə üçün səciyyəvi olan xüsusiyyətlər bütünlükdə tabeli mürəkkəb cümlənin fərqləndirici əlamətlərini təşkil edir. Tabeli mürəkkəb cümlə sadə cümlədən böyük vahid olub, bir neçə sadə cümləni əhatə etdiyi üçün sadə cümlənin hər bir üzvü tabeli mürəkkəb cümlədə genişlənib sadə cümlə səviyyəsinə qalxır. Deməli, sadə cümlə söz və ya söz birləşmələrindən təşkil olunduğu halda, tabeli mürəkkəb cümlə bütövlükdə sadə cümlələrdən qurulur. Hər bir budaq cümlənin səciyyəvi qrammatik xüsusiyyətləri və intonasiyası vardır. Lakin budaq cümlə baş cümlədən müəyyən mənada asılı olduğu üçün o, tabeli mürəkkəb cümlənin bir hissəsi və onun üçün də tabeli mürəkkəb cümlədə ifadə olunan fikrin elementi hesab edilir. Məsələyə bu cəhətdən yanaşdıqda budaq cümlədə ifadə olunan fikrin tam müstəqil liyini qəbul etmək olmaz. Yoxsa bu, budaq cümlənin baş cümləyə bağlılığının inkarı demək olardı və baş cümlənin, ümumiyyətlə isə tabeli mürəkkəb cümlənin işlənməsinə ehtiyac qalmazdı. Hər halda budaq cümlədə ifadə olunan fikrin müstəqilliyini sadə cümlədəkinə bərabər tutmaq olmaz.

Tabeli mürəkkəb cümlələrin bir növü olan xəbər budaq cümləsi dilin sintaksisində mühüm yer tutur. Məna çalarlığının rəngarəngliyi ilə fərqlənən zaman budaq cümlələrində budaq cümlənin ifadə tərzi, budaq cümlə ilə əlaqədar olaraq baş cümlənin xəbərinin zamanı, baş və budaq cümlələrin qrammatik əlaqəsi və s. dilçilik baxımından mühüm məsələlərdir.

Xəbər budaq cümləsi baş cümlədə işlənən xəbəri aydınlaşdırmağa xidmət edir. Tabeli mürəkkəb cümlənin baş cümləsində xəbər feillə deyil, ad hissəsi əvəzliklə ifadə olunmuş ismi xəbərlə ifadə olunarsa, belə xəbər "natamam" xəbərdir və onun mütləq izaha ehtiyacı vardır. Məhz buna görə də, belə baş cümlələrin xəbər budaq cümləsi olmalıdır. Belə ki, bu xəbərlərin əsil məzmunu budaq cümlədə açılır. Əks təqdirdə, yəni baş cümlənin xəbəri feillə ifadə olunaraq xəbərin mənasını bütünlüklə ifadə edə bilsəydi, xəbər budaq cümləsinə ehtiyac qalmazdı.

نقطه ی مهم آن است که مهم ترین رودهای افعانستان جیحون به سمت شمال جریان می یابد.[noğte-ye mohemm an əst ke mohemtərin-e rudha-ye əfğanestan ceyhun be səmt-e şomal cərəyan miyabəd]

Əsas məsələ budur ki, Əfqanıstanın ən mühüm çayı olan Ceyhun şimala tərəf axır.

از همه مهم تر این است که علی رغم محدودیت آب، میوه های کشور شهرت زیادی دارد.
[əz həme mohemtərin in əst ke əlarəğm-e məhdudiyyət-e ab miveha-ye keşvər şohrət-e ziyadi darəd]

Hər şeydən mühüm budur ki, suyun az olmasına baxmayaraq ölkənin meyvələri böyük şöhrətə malikdir.

مقصود آن ها این است که به این هدف برسند.
[məğsud-e anha in əst ıe be in hədəf berəsənd]
Onların məqsədi budur ki, bu hədəfə çatsınlar.

بهترین راه این است که همه از این خانه فرار کنیم.
[behtərin rah in əst ke həme əz in xane fərar konim]
Yaxşısı (ən yaxşı yol) budur ki, hamımız bu evdən qaçaq.

Müasir fars dilində xəbər budaq cümləsi baş cümlənin xəbərinin aşağıdakı əvəzliklərin است xəbər şəkilşisi ilə və ya بودن və شدن köməkçi feillərinin üçüncü şəxs sonluqları ilə birləşməsi yolu ilə əmələ gətirdiyi ismi xəbərlə ifadə olunduqda işlənir:

1. این، آن

فایده ی کتاب خواندن این است که ما را به تفکر بیش تری وامی دارند.[fayide-ye ketab xandən in əst ke ma ra be təfəkkor-e biştəri va midarəd]

Kitab oxumağın faydası budur ki, bizi daha çox düşünməyə vadar edir.

2. همین، همان

طبیعت انسان و قدرت ذهن او همان است که دو هزار سال پیش بوده است.[təbi'ət-e ensan və ğodrət-e zehn-e u həman əst ke do hezar sal piş bude əst]

İnsanın fitrəti və insan zehninin gücü iki min il əvvəl olduğu kimidir.

3. چنین، چنان

عیب کار این است که اهالی هر چهار روستا می خواهند مدرسه در روستای آنها باشد.

[eyb-e kar in əst ke əhali-ye hər çəhar rusta mixahənd mədrəse dər rusta-ye anha başənd]

İşin pis tərəfi (eybi) budur ki, dörd kəndin əhalisinin hamısı istəyir ki, məktəb onların kəndində olsun.

4. طور، جور

این چطور شد که کارت را انجام نداده ای؟

[in çetour şod ke karət ra əncam nədadei?]

Bu necə oldu ki, işini yerinə yetirməmisən?

Xəbər budaq cümləsi baş cümlənin yuxarıda göstərdiyimiz əvəzliklərlə ifadə olunan xəbərinin məzmununu izah etdiyi üçün uyğun olaraq baş cümlənin mübtədasına aid əlaməti, istəyi, arzunu, məqsədi, fikri, xüsusiyyəti, vəziyyəti və s. göstərir. Baş cümlənin mübtədası müxtəlif lüğəvi mənalara malik ola bilər. Buna görə də, xəbər budaq cümləsi müxtəlif məna çalarlıqları kəsb edə bilər. Lakin bu lüğəvi məna çalarlıqlarından çıxış edərək xəbər budaq cümləsini başqa budaq cümlələrlə qarışdırmaq olmaz.

Aşağıdakı misallarda xəbər budaq cümləli tabeli mürəkkəb cümlələrdə ifadə oluna bilən məna çalarlıqlarını nəzərdən keçirək.

1.Məqsəd çaları:

نتیجه ی همین کار آن بود که فعالیت این عوامل در همهٔ سواحل یکسان نیست.

[nətice-ye in əmr in əst ke fə'aliyyət-e in əvamel dər həme-ye səvahel yeksan nist]

Bu işin nəticəsi budur ki, bu amillərin fəaliyyəti bütün sahillərdə eyni deyil.

2.Səbəb çaları:

مسئلهٔ اصلی این شد که افغانستان برای دسترسی به دریا محتاج پاکستان است.

[məsələ-ye əsli in əst ke əfğanestan bəra-ye dəstrəsi be dərya mohtac-e pakestan əst]

Əsas məsələ budur ki, Əfqənistanın dənizə çıxışı Pakistan ərazisindəndir.

3.Şərt çaları:

شرط اصلی غلبه این است که نباید روحیه خود را از دست داد.[şərt-e əsli-ye ğələbe in əst ke nəbayəd ruhiye-ye xod ra əz dəst dad]

Qələbə çalmağın əsas şərti budur ki, heç vaxt ruhdan düşməməlisən.

Ədəbiyyat

1. Шахматов А. А. Синтаксис русского языка. 2-е издание. Ленинград, Учпедгиз, 1941.
2. Грамматика русского языка. Том II. Синтаксис, Москва, 1960.
3. Seyidov Y. Cümlə. Müasir Azərbaycan dili (sintaksis), II kitab, Bakı, 1962.
4. Фортунатов Ф. Ф. Сравнительное языкознание, Москва, 1900.
5. Məmmədov N. Dilçiliyin əsasları. Bakı, 1961.
6. Şirəliyev M., Hüseynzadə M. Azərbaycan dilinin qrammatikası. II hissə, Sintaksis, Bakı, 1983.
7. Рубинчик Ю. А. Современный персидский язык. Москва, 1960.
8. شفائی احمد. مبانی علمی دستور زبانی فارسی. تهران، 1342
9. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 1972.
1. صادق هدایت. لاله. منتخبات فارسی. گردآوردۀ کوبیدزه، تبیلیسی،1967
3. صادق هدایت. آبجی خانم. منتخبات فارسی. گردآوردۀ کوبیدزه، تبیلیسی، 1967
4. علوی بزرگ. نامه ها و داستان های دیگر. تهران، 1933
5. Əfəndiyev İ. Seçilmiş əsərləri. Bakı, 1978.
6. İbrahimov M. Gələcək gün. Bakı, 1966.
7. Mehdi H. Səhər. Bakı, 1956.
8. Mircəlal P. Seçilmiş əsərləri. Bakı, 1966.

L.Mahmudova

The complex sentences with time **subject in modern persian language**

Summary

The article is dedicated to the complex sentences with a subject clause, which is one of the types of complex sentences with a subordinate clauses in modern Persian language.

The analytic subject clause appeares when principal clause douses not have a subject clause performs this function.

The article points out that there are two types of subject clauses in modern Persian language: analytic subject clause and syntetich subject clause.

The analytic subject clause appeares when principal clause douses not have a subject clause performs this function.

The syntetic subject clause comes with principal clause which has its own subject but this subject is incomplete and may difficult to be recognized.

Л. Махмудова

Сложноподчиненные предложения с придаточным сказуемым в современном персидском языке

Резюме

Статья посвящена придаточному предложению времени, который является одним из видов сложноподчиненных предложений в современном персидском языке.

В статье указывается на то что в современном персидском языке существуют два вида придаточных предложений времени: аналитический и синтетический.

В аналитическом виде придаточных предложений времени в главном предложении подлежащее отсутствует и придаточное предложение вступает в роли подлежащего главного предложения.

В синтетическом виде придаточных предложений времени подлежащее главного предложения выражается местоимениями и требует уточнения.

Rəyçi: **Mənzərə Məmmədova**
filologiya elmləri namizədi, dosent

SEVİNC ƏLİYEVA
AMEA-nın Nəsimi adına Dilçilik İnstitu
filologiya üzrə fəlsəfə doktoru, dosent
sevinc-novruzqizi@yandex.com

"KİTABİ-DƏDƏ QORQUD"UN ZAMANLA İŞLƏNMƏ MƏHDUDLUĞUNA MƏRUZ QALMIŞ BƏZİ MÜRƏKKƏB FEİLLƏRİNƏ DAİR

Açar sözlər: "Kitabi-Dədə Qorqud" dastanı, mürəkkəb feillər, işlənmə məhdudluğu, semantik arxaikləşmə
Ключевые слова: эпос «Книга моего Деда Коркута», сложные глаголы, ограниченное использование, семантическая архаичность
Key words: the epos of "Kitabi-Dede Korkut", compound verbs, limit of usage, semantic archaize

"Kitabi-Dədə Qorqud" dastanında işlənən mürəkkəb quruluşlu feillər arasında semantik deformasiyaya uğramış vəziyyətdə günümüzədək gəlib çatmış feillər də mövcuddur. KDQ-da yer alan və klassik ədəbiyyatımızda yüksək işlənmə tezliyi nümayiş etdirən ***kərəm eyləmək*** feilinə nəzər salaq: *Babası ağladı, aydır:"Oğul, ocağımı issüz qoma,* ***kərəm eylə****, varma!"–dedi* (KDQ)[2;101]. Dastan mətnində müxtəlif morfoloji və sintaktik tərtibatda 8 dəfə təkrarlanan ***kərəm*** sözü ərəb dilində "*mərhəmətli olmaq, mərhəmət göstərmək*" mənalarını bildirən [**kərəmə**] I bab məsdər forması əsasında düzəlmiş [**kərəmun**] sözünə istinad edir. [**Kərəmun**] ərəb dilində "*mərhəmət, alicənablıq, böyüklük*" [3;406] mənalarını ifadə edir. Müasir Azərbaycan dilində işlənən və Mübarək Allahımızın adlarından olan Kərim sözü (məs:"*Allah kərimdir*"), habelə İkram, Əkrəm şəxs adları da məhz həmin feil kökündən törəmişdir. Azərbaycan dilinin izahlı lüğətində köhnəlmiş söz statusunda təqdim edilən ***kərəm*** sözünün "*lütf, mərhəmət, inayət*" anlamında mənimsənildiyi, ***kərəm eyləmək*** feilinin də müvafiq olaraq "*mərhəmət etmək, rəhm göstərmək, lütf etmək*" mənalarını əks etdir-diyi qeyd olunur [1;685]. ***Kərəm etmək, kərəm eyləmək*** feili, habelə ***kərəm qılmaq*** sinonim anlayışlı feili "Dastani-Əhməd Hərami"də yüksək işlənmə tezliyi nümayiş etdirir:

Kərəm eylə *sözümdən çıxma, ey dost,*
Bəni həsrət oduna yaxma, ey dost. (DƏH)

Bu dənli ki ***kərəmlər qıldı*** *bana*
Qızımı verirəm şükranə ona. (DƏH)

Füzuli lirikasında da bu ərəb alınmalı komponentin işləkliyi müşahidə edilir: *Ya Rəb,* ***kərəm et*** *ki, xarü zarəm,*

Dərgahə bəsi ümidvarəm (Füzuli) [4;15]

*Saqi, **kərəm eylə**, cam gəzdir!*

Durma, qədəhi müdam gəzdir! (Füzuli) [4;34]

XIX əsrdə həmin feilin S.Ə.Şirvani, M.P.Vaqif, M.V.Vidadi əsərlərinin dilində yüksək işləkliyə malik olduğunu görmək mümkündür:

*Çün gəlibsən, **kərəm et**, sən dəxi bizdən getmə!*

Görməsəm gər səni bir dəm, ölərəm mən, getmə! (M.P.Vaqif) [5;190]

*Sənə **kərəm eylər** əzizü həkim,*

Nə çəkərsən xovfü xətər, ağlarsan! (M.V.Vidadi) [6;89]

*Əhli-dünyayə o kəs kim, **kərəm etdi** dövlət,*

Kərəmindən sənə bir təbi-səlim etdi əta. (S.Ə.Şirvani) [7 ;356]

Lakin XX əsrin ortalarından etibarən bu ifadənin işlənmə dairəsi məhdudlaşmış və zamanla tam arxaikləşdiyi təsbit edilmişdir.

Müasir Azərbaycan ədəbi dilində tamamən işləkliyini itirmiş digər ərəb alınma komponentli mürəkkəb felin – dastanda "*etiraf etmək*" mənasında çıxış edən ***iqrar etmək*** felinin leksik-semantik özəlliklərinə nəzər salaq. Söhbət dilimizdəki *qərar, qərar vermək, qərardat, qərarlı, qərarlılıq* və s. kimi sözlərlə homogen mahiyyətli olan ***iqrar*** alınma leksik vahidinin yer aldığı ***iqrar etmək*** "KDQ" mürəkkəb felindən gedir. ***İqrar*** sözü ərəb dilindəki [**QRR**] üç samitli kökdən törəyən müdaaf felin IV bab formasının, yəni "*1) yerləşdirmək, qərarlaşdırmaq; 2) təsis etmək, əsasını qoymaq, qərar vermək; 3) isarar etmək, təsdiq etmək (məsələn, müqaviləni); 4) etiraf etmək*" mənalarını ifadə edən [**əqarra**] felinin məsdərinə əsaslanır.- Bu alınma leksem orijinala yaxın tələffüzdə [**iqra:r**] transkripsiyasına malik olmalıdır. Dastanın orijinal və müasir Azərbaycan ədəbi dilinə adaptasiya olunmuş variantında oxuyuruq:

*Üç kərrə ağzından **iqrar eylədi**. Günahını tövbə eylədi* (KDQ;56)– "*Dediyini üç dəfə **təsdiq elədi**. Günahını tövbə etdi*" (KDQ; 154). M.Ergin tərəfindən müasir türkcəyə adaptasiya edilmiş mətndə oxuyuruq: *Üç kerre ağzından **ikrar eyledi**, günahına tövbe eyledi.* V.V.Bartoldun tərcüməsində həmin hissə belə təqdim edilmişdir: "*Так он сказал, трижды **повтерdил** свое обещание, покаялся в своих грехах"* (tərcümədə: "*Beləliklə, o, üç dəfə öz vədini, verdiyi sözü **təsdiqlədi** və günahlarını tövbə etdi"*). Ərəb dilindən alınma sözün ilkin mənbədəki semantikasında həm "etiraf", həm də "təsdiq" mənalarının əks olunduğunu nəzərə alsaq, hər üç təfsirin doğru olduğu bir daha təsdiqlənər.

Azərbaycan dilinin izahlı lüğətində ***iqrar etmək*** felinin "*boynuna götürmək, qəbul etmək, etiraf etmək, **öz dili ilə təsdiq etmək***" mənalarını əhatə etdiyi qeyd olunur (kursiv bizimdir. – S.Ə.). Məsələn: *C ə b i. Mən ərz eləyirəm ki, qız **öz dililən**yanımda **iqrar eləyib** və məni özünə vəkil tutub. .... D i v a n b ə y i .Çünki tələbkar öz tələbini sübut edə bilmədi və **öz dililə***

iqrar etdi *ki, malı dayısı oğlundadır* (kursiv bizimdir. – S.Ə.) (N.Vəzirov) (http://www.anl.az/el/v/vn_e.pdf ; 109, 331);

Maraqlıdır ki, müasir türk ədəbi dilində öz işləkliyini davam etdirməkdə olan ***iqrar*** sözü hüquq termini kimi "*günahın etirafının təkrarən təsdiqlənməsi*" və ya "*təkrarən təsdiq edilməklə etirafi*" anlamına gəlir. Belə ki, "Türkiyə Cümhuriyyəti Ədliyyə Nazirliyi Hüquq lüğəti"ndə ***ikrar*** terminin təfsiri ilə bağlı oxuyuruq: "*Aleyhine hukuki neticeler husule getirebilen maddi veya hukuki bir vakıanın doğruluğunu tasdiktir*"("Türkiye Cumhuriyyeti Adalet Bakanlığı Hukuk Sözlügü") ."Hüquq Terminləri lüğəti"ndə isə qeyd edilir: "***Tekrarlama***, ***önceki şeyi bir daha söyleme*** *veya* ***yapma,- tanıma, kabullenme***,*Muhakeme Hukukunda Iddiacının Iddıasını kabul etme*, ***Aynısını itirafta bulunma.****Ikrâr*, *Hukuk davalarinda hakimleri bağlayıcıdır*. *Ceza Davalarında ise Bağlayici değildir*. *Hâkimin Takdir Hakki vardir. Hukukta yine Ikrarin birkaç şekli ve çeşidi vardir. Basit, Mevsuf, Bileşik Ikrarlar gibi*".(kursiv bizimdir. – S.Ə.).

Müasir Türkiyə türkcəsində ***ikrar*** termini ilə paralel olaraq, ***ikrar etmek*** *"etiraf etmək", "boynuna almaq"* mürəkkəb felinin aktiv işləkliyi müşahidə edilməkdədir. Məsələn, *Suriye'de Selefi Vatandaşlarının Bulunduğunu* ***İkrar Etti*** ; *Paşa, tevil yoluyla* ***ikrar etti*** ; *Arınç: Genelkurmay tevil yoluyla* ***ikrar etti*** .

Müasir Azərbaycan dilində həmin mürəkkəb felin işləkliyi məsələsinə qayıdaraq onu əlavə edək ki, müxtəlif vaxtlarda "Dastani-Əhməd Hərami"də, Nəsimi, S.Ə.Şirvani, M.Ə.Sabir əsərlərinin dilində işlədilmiş bu alınma komponent hal-hazırda müasir ədəbi dilimizə nəzərən tamamən arxaikləşmişdir. Onu da qeyd edək ki, klassik ədəbiyyatımızda ***iqrar*** sözü yalnız ***etmək/eyləmək*** köməkçi felləri ilə deyil, ***olmaq, qılmaq*** felləri ilə də kombinasiya təşkil edərək işlənmişdir:

Güləndam dəxi söyləmədi təkrar,
Həqiqət dinməməklik ***olur iqrar***. (DƏH)
Qanı dil ilə ***iqrar eyləyən*** *kim,*
Həqə yoxdur anın könlündə inkar? (Nəsimi)
Münkirin iqrarı yoxdur həqqə, ey sahibnəzər,
Həqqə ***iqrar eylə*** *sən, münkirdən iqrar istəmə!*

XIX əsr ədəbi dilimizdə iqrar etmək felinin işlənmə mövqeyinə nəzər salaq:

Ağa Seyyid Hüseyn bir neçə il dərs oxuyub,
Edir iqrar ki, *hala bilirəm Qurani* (S.Ə.Şirvani)
Məni əfv eylə ki, öz cürmümə ***iqrar etdim****,*
Anladım səhvimi, iqrarımı inkar etdim (S.Ə.Şirvani)

Sonuncu iqtibasda H.Sultanova ünvanladığı şeirində S.Ə.Şirvani öz***cürmünü***, yəni "***günah***"nı ***iqrar***, yəni ***etiraf edərək*** əfv diləyir.

Gəl mənim sən'ətimdə sür'ətimi
Görüb, ***iqrar qıl*** *məharətimi*... (M.Ə.Sabir)
(http://www.anl.az/el/s/mes_h2.pdf ; 132)

Bu nümunədə isə M.Ə.Sabir mükalimini öz "məharətinin etirafına" dəvət edir

Axırda polis naziri dedi: – Görünür, bu qız atası ilə getmək istəyir və güclə gətirilməyini ***iqrar etməyə*** *qorxur* (Ə.Haqverdiyev).

Ədəbiyyat:

1. Azərbaycan dilinin izahlı lüğəti, I cild, Bakı: Şərq - Qərb, 2006, 792 s.
2. Kitabi-Dədə Qorqud (tərtib, transkripsiya, sadələşmiş mətn variantı və müqəddimə S.Əlizadə və F.Zeynalov) Bakı: Yazıçı, 1988, 265 s.
3. Белкин В.М. Арабско-русский словарь,М.: «Русский язык», 1986,528

MƏNBƏLƏR:

4. Füzuli M.. Əsərləri, II cild, Bakı, "Şərq-Qərb", 2005, 336 s.
5. Vaqif M.P. Əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 264 s.
6. Vidadi M.V.. Əsərləri.Bakı, "Öndər nəşriyyat", 2004, 128 s.
7. Şirvani S. Ə.Seçilmiş əsərləri. II cild, Bakı:AVRASİYA PRESS, 2005, 384 s.
8. "Dastani-Əhməd Hərami", Bakı: Şərq - Qərb, 2004, 120 s.

S.Aliyeva

About some compound verbs which have taken place in the epos of "Kitabi-Dede Korkut" and in due course have undergone to limited usage

Summary

The lexico-semantic analysis of a few compound verbs which have taken place in the epos of "Kitabi-Dede Korkut" and have undergone to limited usage were represented in the article. The author compares the borrowed components in compound verbs with the source language. The author defines the level of semantic deformation on the basis of comparisons.

In the language of the epic, there are so many complicated examples that have come to our day in terms of semantic deformations. Among these

phenomena are “kərəm eyləmək”, “iqrar etmək” and so on. Complex phenomena are of particular interest. From the mid-twentieth century, “Kərəm eyləmək” has lost its functionality and has been abandoned. It is also interesting in this aspect of the verb of “iqrar etmək”. In modern Azerbaijan, this phenomenon has completely lost its functionality. The Turkish language is still in process.

С.Алиева

О сложных глаголах эпоса «Книги моего Деда Коркута», подвергшихся к с сужению функциональности

Резюме

В статье предлагается лексико-семантический анализ некоторых сложных глаголов эпоса «Книги моего Деда Коркута», подвергшихся к сужению функциональности. Автор сопоставляет заимствованные компоненты данного рода глаголов с языком-источником. На основе этих сопоставлений автор выявляет степень семантических деформаций этих сложных глаголов.

На языке эпоса существует так много сложных примеров, которые дошли до наших дней с точки зрения семантических деформаций. Среди этих явлений есть «kərəm eyləmək», «iqrar etmək» и т. д. Особый интерес представляют сложные явления. С середины двадцатого века «Kərəm eyləmək» потерял свою функциональность и был оставлен.

Это также интересно в этом аспекте«iqrar etmək». В современном Азербайджане это явление полностью утратило свои функциональные возможности. Турецкий язык все еще находится в процессе.

Rəyçi: Zemfira Əliyeva
Filologiya elmləri doktoru

FİRUDİN RZAYEV
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Naxçıvan Bölməsi
firudinrzayev@gmail. com

NAXÇIVANIN ORONİM VƏ HİDRONİMİK ADLARINDA QƏDİM TÜRK MİFİ

Açar sözlər: Ares, Anu/Ana, Kasər, Nuh, Şar, Sax, Kiur, Qurd oronim, hidronim
Ключевые слова: Арес, Ану/Ана, Касер, Ной, Сах, Шар, Киур, Бори-Волк, ороним и гидроним.
Key words: Ares, Anu/Ana Kaser, Noah, Sakh, Sar, Kiur, Bori-Kurt, oronim, hydronym.

Məqalə Azərbaycanın tərkib hissəsi olan Naxçıvan ərazisində yaşamış prototürk tayfalarının inancında yer alan tanrı adlarından və onların Naxçıvan oronim və hidronimik adlarındakı izlərindən bəhs edir. Bu mövzu indiyədək Azərbaycan və türk alimləri tərəfindən araşdırmamışdır. Bu məqalədə qədim Naxçıvan ərazilərində yaşamış As, Türük, Naxər, Kassi, Kuti, Hürrü, Sak, Şirak, Kimmer və s. tayfa inanclarından bəhs olunur. Mifik inanclar əsasında bu tayfa inanclarında tanrı adları və onların bu ərazidəki oronimik və hidronimik adlarda təkrarı mənbə və mifik məlumatlara əsasən araşdırılmışdır. Əsas tarixi faktlar və dil elementləri sübut edir ki, bu tayfalar qədim türklər olduğunu onlarla bağlı oykonimlər də qədim türk tayfası və Tanrı adları ilə adlanmışdır.

Tədqiqat zamanı Naxçıvan coğrafi arealında yer alan adlardakı Ares, Anu/Ana,Tork, Sax,Şar, Nuh, Kiur, Böri-Qurd kimi mifik tanrı adları da mənaca izah olunmuş, və onlarla bağlı oronim və hidronimlərin etimoloji izahları verilmişdir. Linqvistik təhlilər zamanı türk tanrı adlarını daşıyan oronim və hidronimlərin m.ö. VI-I minilliklərlə bağlılığı elmi dəlillərlə sübut edilir. Tədqiqat zamanı yeni elmi nəticələr əldə olunmuşdur.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan ərazisinin qədim dünya sivilizasiyası mərkəzlərindən biri olması və bəşər sivilizasiyalara öz mədəniyyəti və mifik inancı ilə təsiri tarixi mənbələrlə tam olaraq sübut olunur. Son dövrlər Amerika, İngiltərə, Almaniya, Fransa, Rusiya kimi ölkələrin arxeoloji ekspedisiyalarının da maraq dairəsinə çevrilən bu qədim ərazinin arxeoloji nümunələrindən əldə edilmiş elmi nəticələr ərazidə oturaq həyatın və şəhər mədəniyyətinin m.ö. VIII minilliklərdən formalaşdığını tarixi faktlarla təsdiq etmişdir. Bu haqda yazılan elmi

məqalələr müxtəlif dillərdə dünya ictimaiyyətinə də çatdırılmışdır (6, s. 25-28; 12, s. 451-453; 13, s. 39-66).

Bütün bunlarla yanaşı hər bir xalqın adət və ənənəsində yer alan mifik inanclar o xalqların düşüm tərzinin məhsulu olduğu kimi, Azərbaycan xalqının, o cümlədən də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan əhalisinin mifik təfəkküründə da tarixi m.ö. minilliklərə söykənən inanclar xüsusi yer alır. Ərazidəki arxeoloji nümunələr, əsasən də onun toponimik sistemindəki mifoloji əlamətlər bu mədəniyyətin ərazidə yaşamış as, türükkü, kuti, lulubu, naxər, hürrü, şu, koman, və b. prototürk tayfalarına aidliyini birmənalı olaraq təsdiq etməkdədir (25, s. 192, 381, 514-515).

Biz bu tayfalar haqqında məlumatlara Herodot, Strabon, Kvint Krutiy-Ruf, Plutarx, K.Ptalomey və b. yazılarında da xatırlandığına dair 2016-cı ilin geniş hesabatında məlumat vermişik. Onların məlumatlarında bu prototürk-Azərbaycan tayfaları m.ö. VI minilliklərdən Zaqafqaziyada oturaq həyata malik özlərinin əlifbası, xüsusi inancları, məişəti, olan sivil xalqlar kimi göstərilmişdir (8, s. 252, 254; 10, II 30; 22, XI, s. 137).

Əgər xatırlasaq, yəhudi tarixçisi İosif Flavi də öz yazılarında Naxçıvanı bəşər nəslinin ilk beşiyi kimi göstərmiş, Nuhun gəmisinin bu torpağa endiyini, bu şəhərin Nuh tərəfindən salınan ilk şəhər olduğunu yazmışdır (5, s. 14). Bununla bağlı bir məsələni xüsusi olaraq qeyd etmək istərdik ki, Nuh tufanı qədim mifdən daha çox tarixi bir hadisə olmuşdur. Təbii ki, ən qədim hadisələr isə istənilən bir xalqın tarixində mifik yaddaşa çevrilmişdir.

Biz m.ö. VI-I minilliklərdə tarix səhnəsində olmuş prototürklərin inanclarını izləyərkən, qədim türk mifləri bizə öz inancı ilə bağlı **Aser, Asallaxu, Tork, Tal, Kiur, An/Anu/Ana, Kaşşu, Harbe, Kamulda, Şuxi, Şar, Sax** kimi tanrı adlarını və Böri-Qurd mifini təqdim edir (25, s. 316, 379, 448, 457, 515; 26, s. 304-305). Bu adlar içərisində m.ö. V-IV və III-I minilliklərlə bağlı qədim türk tanrı adların o dövr yazılarında yer aldığına rast gəlirik ki, onlar şumerlərdə Asallaxu, Ana, Kiur (ildırım allahı), En-Komi və s. tanrı adlarında təkrarlanır (15, s. 75, 109, 112, 434; 4, s. 51, 62). Qədim qaynaqlara diqqət etdikdə biz bu tanrı adlarının həm prototürklərdə, həm də qədim şumer türklərinin dövlət qurumundakı mifik inanclarında müxtəlif hüquqlar daşıyan tanrılar olduğunu görürük.

Bundan sonra m.ö. IV minilliyə dair salnamə və qaynaq məlumatlarında Ea, Enlil, Enqi (baş allah), Ki, Utu, Luma, Huma, Şar, Sar (qüvvə Allahı), Nanna (ilahə), Aşşur, Suen-Zuən (Günəş, ay allahı), Adad, Namtar kimi tanrı adlarına da rast gəlirik (Ətraflı bax. 9; 15; 16).

Qeyd edək ki, bu tanrı adlarının xeyli hissəsi müəyyən türk dialektlərinə xas səsəvəzlənmə fərqləri ilə Naxçıvan toponimik sistemində də təkrarlanır. Məlumatlara diqqət etsək, antik müəlliflərin əsərlərində, qədim

qaynaqlarda, yazılı mənbələrdə də bu adlar mövcud dil imkanları hesabına cüzi dəyişikliklərlə verilmişdir.

Bütün bunlar Naxçıvan torpağının aborigen-yerli sakinləri olmuş prototürk tayfalarının m.ö. VI-I minilliklərin tarixinə söykənən inanclarındakı mifoloji-teofor adların tədqiqi zərurətini ortaya çıxarır. Bəs Naxçıvan ərazisində bu tanrı adları hansı tayfaların mifində yer almışdır?

Biz bir çox araşdırmalarımızda m.ö. VI minilliyə dair tayfa birliklərindən biri olaraq As türklərinin adını qeyd etmişik. Strabon asları o dövr əlifbaya sahib xalqlar kimi göstərmiş və onların böyük güc olduqlarını yazmışdır (17, s. 61). Dünya mifinə dair yazılarda isə As türkləri ilə bağlı **Ares (Aras)** tanrısı müharibə allahıdır. O bir çox mənbələrdə **Asallaxu** tanrısı kimi təqdim olunsa da dünya xalqlarına Ares tanrı adı olaraq, Kuar şəhərini fəth edən tanrı kimi təqdim edilir (15, s. 109, 112).

Bu inancların hansı tayfalara məxsus olduğuna diqqət edərkən, tarix səhnəsində m.ö. V minillikdən yer alaraq qədim Naxçıvan əhalisinin etnogenezi tarixində iştirak etmiş tayfalardan Kas türklərinin inancında, mifik dünyagörüşündə xeyli sayda tanrı adına təsadüf edirik. Onu da qeyd edək ki, bu qədim Azərbaycan türk tayfası dünya xalqlarına ilk dəmir əşyaları verən tayfa olmaqla həm də böyük gücə və mədəniyyətə sahib olmuşdur. Bununla bərabər qaynaqlarda onları Naxçıvan ərazisindəki toponimlərdə təkrarlanan **Kasər** (diqqət edək Kas+ər-"Kas igidləri, ərləri") və **Kaşşu** tanrı adlarına rast gəlirik. Tayfa öz adını bu tanrı adından götürdürmüşdür və o, işıqla, Günəşlə bağlı tanrıdır. Bununla yanaşı biz kaslarda Harbe, Buriaş, kutilərdə İnqe, lulubilərdə Utu (günəş Allahı), Ama (Ana tanrı), Kiur/Kuar-ildırım allahı, kimi tanrı adlarına da təsadüf edirik (25, s. 316, 379, 448, 457, 515; 26, s. 304-305). Naxçıvan toponimik sistemində bu adlarla bağlı xeyli adlara rast gəlirik.

Ərazinin toponimik adlarındakı bu miflərə Q.Qeybullayev öz yazılarında qısaca olaraq toxunmaqla Kas türkləri və şumerlərlə bağlı bəzi tanrı adları haqqında məlumat vermiş, Kas, Midiya, Manna dövlətlərindəki onomastik vahidlərin formalaşmasındakı tanrı adlarının etimoloji izahlarına toxunmuşdur (11, s. 51, 62). Bununla bərabər M.Seyidov da öz tədqiqatlarında Sak, Şirak, Oğuz, Sarmat, Basil, Alban, Xəzər, Aros kimi tayfa adları və onlardakı inanclardan bəhs etmiş, Naxçıvan toponimik sistemində kosmoqonik təfəkkürlə bağlı adlar olduğunu qeyd etməklə, mənbələrdə **Arba**-Oğlanqala, **Çauq**-Çalxanqala, **Erıncaq**-Əlincəqala, **Xaxi**-Gavurqala (tərəfimizdən seçilmiş adlar qalaların ilk adıdır-F.R.) kimi düşmüş bu adların etimoloji mənalarına toxunmuşdur (19, s.23, 35,44, 54-55,81-83). Bu adlar isə, m.ö. III-I minilliklər qaynaqlarda yer almış mifoloji adlardır.

O burada Kuar-Quar tanrısının da adını çəkərək, onu **küy ər**-"coşqun ər" kimi izah etmişdir (20, s. 209-215). **Qurd** mifi ilə bağlı fikirlər, eyni zamanda onlarla bağlı yeni versiyalar M.Seyidov, A.M Şerbak, M.H.Təhmasib kimi görkəmli araşdırıcıların tədqiqat əsərlərində geniş yer almışdır (20 s. 28-29; 21, s. 32, 38-40, 45-47, 60-63). Biz "Dədə Qorqud" dastanında da qurd mifi ilə rastlaşırıq və M.H.Təhmasib öz yazılarında bu miflə bağlı xeyli faktlar göstərmiş və M. Seyidov tərəfindən bu faktlar müqayisəli şəkildə geniş tədqiq edilmişdir (7, s. 45; 20, s. 24,28). A.M Şerbakın tədqiqatlarında da "Oğuznamə"də **Qurd** mifi **Böri** yazılışında ayrıca qeyd edilməklə "Gök tüklü, gök yallı" qurdun Oğuz kağanın çadırına gün kimi bir şüanın içərisində gəldiyi göstərilir. Bu bənd bütövlükdə M.Seyidovun tədqiqatında da yer alır (19, s.164; 21, s. 37). Biz M.Təhmasibin də tədqiqatlarında əsasən əski Qurd mifik inancı və bunun "Kitabi Dədə Qorqud" dastanında Qazan xan tərəfindən anılması versiyasının təhlilinə rast gəlirik (23, s. 24; 24, s.17-18;). Bu mif əski türklərdən başlayaraq bütün türklərdə inanc olaraq davam etməklə onların mifində yer almışdır. Əgər yadımıza salsaq, qədim türk "Ergənəkon" dastanında **Qurd** türkləri azadlığa çixarır və burada qurd mifi m.ö. IV minilliklə səsləşir (18, s. 86-97).

Bununla bərabər biz dünya xalqlarının mifologiyasına dair yazılarda əski türk miflərində **Anu/Ana**-(Anum)-göyün allahı adına rast gəlirik və o, allahların atasıdır (9, s. 32). Onun övladları isə **İm-**tufan, fırtına allahı, İşkur, Martu, İnanna, Baba, Qatumduq, Nisaba, Nininsina adlı tanrılardır ki, onlar kainatı və insanları müxtəlif istiqamətlərdən idarə etmə gücünə malikdirlər. Bu kiçik tanrılar Anunakkinin tanrılarıdır. Mənbələrdə Anunun arvadı Uraş isə yer allahıdır. Burada biz **Amazon** tanrı adına da rast gəlirik. O Amazon qadınlarının döyüş allahıdır. Bu tanrı adı sovetlər dövrü elmi əsərlərdə Yunan mifinə aid edib sonradan onun Kiçik Qafqazda, Ön Qafqaz xalqları arasında yayılıb döyüşən qadınların tanrısı olduğu göstərilir. Onlar Ares tanrısının övladı olması göstərilməklə, Ana icması dövrünə aid edilirlər. Bunlara aid döyüş rəsmləri m.ö. IV əsrdə Britaniya muzeyində Londonda göstərilib (15, s. 63-65, 75).

Mənbələrə diqqət etsək, şamançılıq **Maq-Qam (Qoq Maqoq)-** ölkənin adı kimi verilməklə Bibliyada "Yəcuc və Məcuc" kimi xatırlanir, bu döyüşkən xalqların tanrısıdır, skiflərlə bir yerdədir (2, Bıte 10, 2;1 Paral,1, 5). Lakin bu Midiyaya aid qədim mif olmaqla (15, s. 307), buradakı Maq tayfasına məxsus olmuşdur. Diqqət etsək, Bu miflərin bütövlükdə Naxçıvan toponimik sisteminin ayrı-ayrı qollarında təkrarı ərazi qədimliyinin danılmaz sübutları kimi dəyərlidir. Bu tanrı adların hansı oronimik adlarda təkrarlandığına diqqət edək.

Biz As türklərinin **Asallaxu** tanrı adna Culfa və Ordubad rayonlarının sərhəddində Süzüt qalasından şərqə Qaranlıq dərənin sağ sahilində Asalak qayası adında rast gəlirik. Ad "Uca Asal" mənasında izah olunur. Kas tayfalarındakı **Kaş** və **Kaser** tanrı adına isə, yenə də Culfa rayon Xanağa kəndi ərazisində Kaskalan təpə adında təsadüf edirik. Qeyd edək ki, təpənin şərqində qədim Kaskalan məntəqəsi yerləşirdi ki, onun tarixini arxeoloqlar m.ö. III minilliyə aid edirlər. Burada qala məntəqə, qala istehkam formasında tikililər də movcud idi. Eyni adda Kaskalen qəsəbə adı hazırkı dövrümüzdə Qazaxıstanda, Daşkənd şəhərinin 20 kilometrliyində yerləşməkdədir. Kas tayfa və tanrı adına malik olan bu ad, **kal-**"ulu" sözü və **an-** mənsubluq şəkilçisi ilə "Ulu Kas tanrısının yurdu" mənasında izah olunmaqla mifoloji məna daşıyır.

Kas tayfalarının **Dor** tanrı adı da Naxçıvan oronimlərində təkrar-lanmaqdadır. Bu mif Culfa rayon Dardağ, Dardağ silsiləsi,Ordubad rayonunun Darkənd qayası oronimlərində tam mif olaraq qalmaqdadır. Biz Naxçıvan ərazisində kasların **Kiur** (İldırım allahı) tanrı adı ilə bağlı oronimlərə də rast gəlirik. Kırna kənd adı ilə yanaşı Kırna təpəsi, Kırna massivi oronimlərində bu əski mif özünü qoruyur. Onu da qeyd edək ki, İlan dağın qərb ətəyində yerləşən bu ərazilər həqiqətən daha çox ildırım çaxması qeyd olunan yerlərdir. Adlar "Kiur tanrısının verdiyi" təpə və ərazi kimi izah olunur.

Maraqlı və digərlərinə nisbətən Naxçıvan oronimlərində son dərəcə geniş yayılmış mifik adlardan biri də An/Ana tanrı adı ilə bağlı oronimlərdir. Ordubad rayonunda Anaqut-"Qüvvətli Ana" dağı, Anabad "Ana yurdu" dağı, Anabad təpəsi, Anabad gədiyi, Anabad aşırımı oronimləri, Tivi kəndi ərazisində Anaqut dağı kimi oronimlər Ana/Anu tanrısı mifinin daşıyıcı-larıdır. Bu mif Culfa rayonu ərazisində İl+An -"Anu yurdu"- İlan dağ adını formalaşmasında da öz izlərini yaşatmaqdadır.

Naxçıvan oronimik sistemində **Şar** tanrı adı da geniş yayılmışdır. Şərur rayonu ərazisində Şarur/Şərur-"Şar tanrısının qurduğu" düzü, Culfa rayonunda Şurut-"Şar tanrı yurdunun" daşı, Şurut yarpaqlısı, Şurut düzü kimi oronimlər bu mifi özündə yaşatmaqdadır.n daşıyıcılarıdır. Bu mifik inanclarımızı daşıyan oronimik sistemdə **Sax** tanrı adı ilə bağlı Sak dağı da oronimik adlarda yer alır.

Biz "Oğuznamə"lərdən başlayan Böri-Qurd mifini daşıyan oronimik adlara Culfa rayonu ərazisində Berdik dağı adında qarşılaşırıq (1, s. 191-210; 4, s. 213-234). Bu oronimdəki Qurd söz kökünə qoşulan duk/dik komponenti qədim türk dillərində "əzib doyan", "döyüb doyan", "doymuş", "sakitləşmiş" mənalarında rast gəlirik (3, s. 3, 576). Oronim bu sözlə "Doymuş qurd dağı" mənasını daşıyır. Bununla bərabər biz Aznameri aşırımı Az+na+meri/böri şəklində əski türk sözləri ilə "Mən qurd Asam" mənasında izah olunur.

Ərazidə **Nuh** tufanı ilə bağlı xeyli sayda oronimik adlar da qeydə alınır. Naxçıvan ərazisindəki Nuhdaban daşı, Nuh gədiyi, Nuhbatı- Nuh yurdu, Ordubad rayonunun Gəmiqaya ərazisində Nuh tufanı ilə bağlı mifik Nəbi-Peyğəmbər yurdu oronimləri bu miflə bağlı orornimlərdir. Nuhun daşqını ilə bağlı Gəmiqaya daş rəsmlərindəki mifoloji rəsmlər, dünyanın təsvirini əks etdirən svastik işarə və yazılar, bütün bu ərazi tarixinin qədimliyini və Yəhudi tarixçisinin fikirlərini də bir daha təsdiq etməkdədir.

Xüsusi olaraq qeyd edək ki, Naxçıvan ərazisi hidronimik adları da bu mifləri özündə daşıyan əsl mənbə yerindədir. Biz ərazidə **Ares (Aras)** tanrısı adı ilə bağlı Naxçıvan toponimik sisteminin hidronimləri içərisində bu tanrı adını olduğu kimi daşıyan **Araz/Ares** yazılışında hidronim olaraq Araz çayı, Araz su anbarı adlarına rast gəlirik. Naxçıvan ərazisində bu çay adı, Orta Asiya türkləri, eləcə də altaylarda Arasatuba, Ares, Arıs, rumın türklərində Ares kimi xeyli sayda müxtəlif coğrafi adlarda bu tanrı adı olduğu kimi təkrarlanmaqla yalnız ümumtürk toponimik adlar sistemində təsadüf olunur (15, s. 54-69).

Yuxarıda qeyd etdiyimiz **Kiur** tanrısı adı ilə bağlı Culfa rayonu Kırna kəndi ərazisində Kırna dərəsi, Kırna çeşməsi kimi hidronimlər bu mifik inancla bağlıdır. Eyni zamanda **Ana/Anu** tanrı adı ilə bağlı Anaqut çeşməsi, Anabad dərəsi və Anabad çayı, Anzır-Anunun işığı çayı, Anzır bulağı**, Şar** tanrı adı ilə bağlı Şurut gölü, Sirab-Şir evinin gölü, Sirabçay, Sirab su anbarı, Şarşar bulağı, **Nuhla** bağlı Nehrəm su anbarı, **Sax** tanrı adı ilə bağlı Saxar su, **Qurd** mifi ilə bağlı Berdik çeşməsi və s. bu kimi hidronimik adlar əski türk minin izlərini özlərində yaşatmaqdadır. Xüsusi olaraq qeyd edək ki, Naxçıvan ərazisindəki bütün bu mifik hidronimik sistem də bir çox qaynaq və tədqiqatlarda yer almışdır (1, s. 191-210; 4, s. 213-234).

Bütün bu ornimik və hidronimik adların daşıdığı mif və onlarla bağlı mənalar bir daha ərazi toponimik sisteminin ümumtürk mifi və Mesopotamiya ərazisində yaşamış qədim tayfalarla mədəni və mifik əlaqələrinin olduğunu sübut edir. Ərazinin qədimliyi, adlarda yaşayan inanclar bu toponimik sistemin tam tədqiq olunması zərurətini ortalığa qoyur. Biz inanırıq ki, gələcəkdə bu istiqamətdə geniş tədqiqat aparılacaqdır.

Ədəbiyyat

1.Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü. (Məlumat toplusu). Bakı: “N-Print” MMC
mətbəəsi, 2013, 487 s.
2. Библия. Ветхий завет. Москва: Российское Библейское Общество, 1994, 303 с.
3. Дрвнетюркский словрь. Ленинград: Наука.1969, 676 с.

4. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı: Universitet nəşr., 1991, 312 s.
5. Флавии Иосиф. Иудейские древности. (Пер. с греч. Г.Г. Генкеля) т. I, СПб., 1900, 716 с.
6. Katerino Marro. Duzdağında tuz madenciliğininbaşlanğıcı hakkında (İngilis dilində).//
Naxçıvan: İlkin şəhər və Duzdağ" (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq
simpoziumun materialları) Naxçıvan: Əcəmi, 2013, s. 25-28, 360 s.
7. Kitabi-Dədə Qorqud. Bakı:Yazıçı, 1988, 265 s.
8. Клавдий Птолемей. Географическое руководство. См. Латышев В. В. Известия //
Вестник древней истории. Москва: Наука, 1948, XXIV, №2 с. 252, 254;
9. Kramer S.N. Tarix Şumerdən başlanır. Bakı: Kasımi, 2009, 280 s.
10. Геродот. История. Пер. и примеч. Г.А Стратановского. Ленинград: Наука, 1972, 599 с.
11. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
12. Голубкина Т.И. Находки кувшинных погребений в Нахчыванской АССР//ДАН АзССР,
1952. № 8, т. с. 451-453
13. Lauren Listvet, Hilary Gopnik, Veli Bakhshaliev, Safar Ashurov/ 2010-2011 American-
Azerbaijani excavations at Oğlanqala. Naxçıvan: ilkin şəhər və Duzdağ" (27-28 iyul 2012-ci
ildə keçirilmiş beynəlxalq simpoziumun materialları. İngilis dilində) Naxçıvan: Əcəmi, 2013,
s.39-66, 360 s.
14. Малый атлас мира. Москва: Картография ГУГК, 1985, 331 с.
15. Мифы народов мира. Энциклопедия. Т. I, Москва: Советская энциклопедия. 1987, 671 с.
16. Мифы народов мира. Энциклопедия. Т. II, Москва: Советская энциклопедия.1988, 719 с.
17. Rzayev F.H.Naxçıvan əhalisinin etnogenezi tarixindən (miladdan öncə VI-III minilliklər).
I c. Bakı: ADPU-nun mətbəəsi, 2013, 528 s.
18. Rzayev F.H. Milli dəyərimiz "Novruz-Tura" bayramının tarixinə və ondan oğurlananlara bir
baxış// Naxçıvan (İctimai-siyasi, ədəbi- bədii, elmi-publisistik jurnal), № 25. Naxçıvan:Əcəmi,
2012, s. 86-97, 191 s.

19. Seyidov M.M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
20. Seyidov M.M. Azərbaycan mifik təfəkkürünün qaynaqları Bakı: Yazıçı, 1983, 326 s.
21. Щербак А.М. Огуз-наме. Мухаббат-наме. Москва:Наука, 1959, 320 с.
22. Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г.А. Стратановского.
Москва: Наука, 1964, 941 с.
23. Təhmasib M.H. Dədə Qorqud boyları haqqında//Azərbaycan şifahi xalq ədəbiyyatına dair
tədqiqatlar. Bakı: Elm, 1961 s. 24 .
24. Təhmasib M.H. VII əsrə qədər Azərbaycan şifahi xalq ədəbiyyatı, Azərbaycan ədəbiyyatı tarixi.
Bakı: Elm 1960
25. Всемирная история. Т. I, Москва: Госиздат, 1956, 746 с.
26. Yusifov Y. B. Qədim şərq tarixi. Bakı: Bakı Universitet, 1993, 496 s.

Ф. Рзаев

Древнетюркская мифы в именах Нахчыванских оронимах и гидронимах

Резюме

Статья говорит об имени несущих прототюркских богов в оронимах и гидронимах в неразделимой части Азербайджана на территории Нахчывана. Эта тема до тех пор не была исследована учеными Азербайджана и тюрков. В статье говорится о мифических верований племени Ас, Турук, Нахар, Кассии, Кути Хурри, Сак, Ширак, Киммер и др. племен, живущих на территории Нахчывана. На основе мифических сведений, исследуется их племенных божеств, которые повторяются в оронимах и гидронимах на этой земли. Основные исторические факты подтверждают, что они были тюрки и путём всестороннего анализа исторических материалов и языковых элементов выявлено, что ойконимы наименованы с именами этих племен и Тенгри.

При исследовании также этимологически выяснены название прототюркские боги как Арес, Ану/Ана, Торк, Сах, Шар, Ной, Киур, Волк-Курт/Бёри в оронимах и гидронимах на Нахчыванском географи-

ческом ареале. Путём лингвистического анализа подтверждены, что названия всевышних в оронимах и гидронимах связываний с VI- I тысячелетиями до н.э. При исследовании выявлены новые научные результаты.

F.Rzayev

Ancient turk myth used in the oronyms and hydronyms situated in the territories of Nakhchivan

Summary

The article deals with mythical prototurk God names used in the oronyms and hydromyms exist in all Azerbaijan and the same time in Nakhchivan territories. Till today this topic had not been invested by Azerbaijan and Turkish scientists. In this article the believes of As, Turuk, Nakhar, Kassi, Kuti, Hurri and etc. tribes who lived in ancient Nakhchivan territories had been investigated according to the place of their be called, sources and mythical information. Substantial historical facts prove that in these prototurk and their tsars were Turkish. During the detailed investigation of historical materials it is clear that the oykonyms have been formed from these tribe names Tenqri.

During the investigation the author has given the ethomological explain of the following God names as Ares, Anu/Ana Kaser, Noah, Sakh, Sar, Kiur, Bori-Kurt used in the oronyms and hydronyms situated in the teritories of Nakhchivan.

During the investigation the author also explains the mythical God names which are reflected in the place names of Nakhchivan geographical territory. During the linguistic investigations the author by scientific facts proves that in the oykonyms which reflects turk God names also shows the prototurk tribe names which exist in VI-I milennium B.C. Result of the investigations the author got many new scientific facts in the article.

Rəyçi: Əbülfəz Quliyev
Akademik

GÜLNARƏ QURBANOVA
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti
gulnare.qurbanova@rambler.ru

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ KÖHNƏLMİŞ VƏ YENİ SÖZLƏRDƏN İSTİFADƏ

Açar sözlər: qloballaşma, yeni sözlər, köhnəlmiş sözlər, klassik ədəbiyyat, dilin lüğət tərkibi, dildə özləşmə meyilləri.
Key words: globalization, new words, obsolete words, classical literature, composition of language, linguistic tendencies.
Ключевые слова: глобализация, новые слова, устаревшие слова, классическая литература, состав языка, лингвистические тенденции.

Sürətlə dəyişən dünyamızın inkişaf tempi yeni sözlərin avtoxrom şəkildə dilə qəbul edilməsinə səbəb olur. Bu zaman ən vacib olan bir məsələ diqqətdən yayınmamalıdır: dil hər təzə sözü birbaşa qəbul etmir. Xalq ona yad olan söz və ifadələri özləşdirərək qəbul edir.

Yeniləşmək xatirinə dili yad sözlərlə korlamaq olmaz. Tarixin müxtəlif dövrlərində bu proses sürətli və ya zəif şəkildə daim baş verib. Hər yaxşı başa düşür ki, yeniliyi qəbul edib köhnənin üzərindən xətt çəkmək olmaz . Dünəni dərindən öyrənmədən bu gündən sabaha yol açmaq mümkün deyil.

Tədris olunan materiallarla bağlı müşahidələr göstərir ki, klassik ədəbiyyatdan verilən nümunələr yeni nəslə "çətin" gəlir. Səbəbi isə aydındır: Dilin lüğət tərkibinə bələd deyillər. Nə etməli, yeni nəslə klassik irsi necə yaxın etməli? Təcrübə göstərir ki, klssik ədəbiyyatı öyrədərkən, ilk növbədə, dilin lüğət tərkibini də açıqlamaq gərəkdir. Mərhələlərlə öyrədilən söz və ifadələr klassik nümunələrin daha anlaşıqlı, daha aydın başa düşülməsinə istqamətlənmiş olacaq.

Demokratik inkişaf yoluna qədəm qoymuş müstəqil Azərbaycan Respublikası sürətlə inkişaf edir və dünyanın ən nüfuzlu ölkələrinə çevrilməkdədir. Ölkə iqtisadiyyatının dünya standartlarına uyğunlaşması, bazar iqtisadiyyatı münasibətlərinin formalaşması və möhkəmlənməsi, sahibkarlıq fəaliyyətinə geniş meydan verilməsi, xarici sərmayə qoyuluşu Azərbaycan iqtisadiyyatının durmadan inkişafını şərtləndirən amillərdəndir. Son dövrlərdə bu münasibətlər beynəlxalq miqyasdan və inteqrasiyadan xəbər verir. İnteqrasiya və qloballaşma bugünki dünyanın inkişafında 2 obyektiv prosesdir və nəticə etibarıilə hər bir millətin taleyi digər millətin taleyi ilə sıx bağlıdır.Bu tarazlaşma, qloballaşma və inteqrasiya bir çox çətinliklər dədoğurur. Qloballaşma iqtisadi əlaqələr sahəsində daha geniş

şəkildə özünü büruzə verir. Bununla bağlı Azərbaycanın coğrafi mövqeyi və sürətli inkışafı onun terminologiyasında da öz əksini tapmışdır. Alınma terminlər müasir Azərbaycan dilinin terminologiyasında xeyli yer tutmuşdur. Bu gün Azərbaycan dilində avtoxrom terminləri artmaqdadır.

Azərbaycan dilinin terminologiyası digər dillərin leksikasından geniş miqyasda faydalanmaq əsasında inkişaf edir, formalaşır.Bu proses dilimizi milli səviyyəsindən, özünəməxsusluqdan məhrum etmir, əksinə, termin sisteminin ümumilikdə ədəbi dilimizinin kişafı və təkmilləşdirilməsini sürətləndirir, intellektual səviyyəsini yüksəldir, həmçinin terminoloji leksikanın potensial imkanlarını üzə çıxarmış olur.

Azərbaycan dili böyük inkişaf yolu keçmiş, qədim tarixə malik dillərdəndir. Bu dilin keçdiyi yol hər bir sözün, hər bir ifadənin yaddaşında daşlaşaraq qalıb. Müasir dövrdə işlənən bir çox sözlərin tarixini öyrənmək, onların məna çalarını daha dəqiq bilməklə dildə yaşamasına, düzgün işlənməsinə, istifadə olunmasına nail ola bilərik. Böyük ədib Firidun bəy Köçərli məqalələrinin birində yazırdı: “Bir millətin mal - dövlətini və hətta vətənini əlindən alsan, ölüb - itməz, amma dilini alsan, fövt olar, ondan bir nişan qalmaz”.

Qeyd etməliyik ki, ana dilimizdə VII əsrdə ərəb mənşəli sözlər daxil olduğu kimi, XV əsrdə Şah İsmayıl Xətainin başçılıq etdiyi Səfəvilər dövləti zamanı da xeyli sayda türk mənşəli sözlər istifadə edilmişdir. Böyük dilçi alim Ə.Dəmirçizadə bununla bağlı yazırdı:“Azərbaycan ədəbi dili geniş surətdə işlənən rəsmi dil olaraq digər dillərə, o cümlədən ərəb və fars dillərinə də təsir etməyə başlayıbmış”.

Göründüyü kimi, ictimai hadisə olan dil cəmiyyətə xidmət edir. Cəmiyyətdə baş verən hər bir dəyişiklik dilə, onun lüğət tərkibinə güclü şəkildə təsir edir. “Deyilən söz yadigardır,” - deyən şair yanılmayıb. Zaman öz ahənaginə uyğun olaraq yeni sözləri dilə daxil edir. Bu xüsusda bəzi sözlər isə dildə öz “ömrünü” başa vuraraq unudulur. Dildən çıxan sözlər ya yeni sözlərlə əvəzlənir, ya da passiv fondda yer alır. Zaman-zaman köhnələn məhfumları bildirən sözlər istifadədən qalır. Dilin aktiv hissəsinə isə hazırda geniş şəkildə istifadə edilən sözlər daxil olur. Dahi söz ustadı Məhəmməd Füzuli yazırdı: “Elə vaxtlar olmuşdur ki, gündüz axşama qədər düşüncə dəryasına dalıb, söz almazı ilə məna göhərini deşmişəm. Bu məzmun anlaşılmır, bu ləfz xalq arasında işlənilmir və xoşagəlməzdir,- deyər-deməz o məzmun gözümdən düşmüş, hətta onun üzünü köçürməmişəm. Qəribə bir haldır, söylənmiş bir sözü söyləndiyinə görə, söylənməmiş bir sözü isə əvvəlcə söylənilmədiyinə görə işlətmək olmur”. Bu,həqiqətən, belədir. Zaman keçdikcə dildəki sözlər dəyişir. Bu dəyişmələr müxtəlif istiqamətdə gedir və daha çox ictimai-siyasi hadisələrlə xarakterizə edilir.

Alp - cəsur
Ayıtmaq - demək
Aş – buğda
Ləfz - söz, ifadə
Yey – yaxşı
Döş – yuxu
Göz – payız
Dəyə - koma
Əllaf - ot satan
Pitik – yazı
Kəsim – qərar
Kəpənək – yapıncı
Görklü - müqəddəs
Yaz – çöl
Qara – böyük, möhtəşəm
Çağ - zaman
Qövl etdi mənə ki,dan atan çağ,
Bülbül budağa qonub ötən çağ.(Xətai)
Çağlamaq – axmaq
Çovkan – çovkan oyununda topu vurmaq üçün əyri ağac
Xəlayiq – cariyələr, qadın xidmətçilər
Şol- ol-o 3-cü şəxsin təki və işarə əvəzliyi
Tuğ – at quyruğundan bayraq
Tümən – on min, çoxsaylı
Sürahi – şərab şüşəsi
Ulaşmaq – çatmaq
Saqınmaq – özünü gözləmək
Gədik – dağ dikindən keçən cığır

Açılıb yamaclar tozdan, qubardan,
Silinib gədiklər qardan, borandan.(H.Əlizadə)
Biyaban – otsuz, bitkisiz düz yer, səhra, çöl
Bulmaq – tapmaq
Darğa – keçmişdə vergi yığmaq üçün hakim və ya xan tərəfindən göndərilən məmur
Daməd – kürəkən
Əba – müsəlman ruhanilərinin və mömin adamların üstdən geyindikləri qolsuz və ya gödəkqollu, yaxası açıq uzun kişi paltarı
Elat – bir yerdə,bir yurdda yaşayan camaat, xalq, el
Məşk – tuluq, su qabı

Nizə - uzun ağaca keçirilmiş,ucu şiş deşici qədim silah, cida, mizraq
Məlal - dərd, qəm
Kimsə bilmirdi heç onun halını,
Deyə bilmədilər can məlalını.
Obaşdan – sübh tezdən, alaqaranlıq, gün çıxmamış, hava işıqlanmamış
Ürgə - ikiyaşar at
Tüləк – tükünü tökmüş
Tünlük – basırıq, qələbəlik,izdihamlı və s.

Verilmiş nümunələr klasiik ədəbiyyatda işlənən sözlərdir. Bunların mənasını anlamadan dilimizin o dövründə yazılmış əsərləri öyrənmək mümkün deyil.

Dil məxsus olduğu xalqın özü qədər bir var-dövlətdir. Bu sərvətin qorunmasını müdriklər bizlərə əmanət ediblər. Xalq şairi Səməd Vurğun yazırdı: "Xalqın böyük bir dövləti də vardır. O da xalqımızın dilidir. Dil xalqın namusu deməkdir, tarixi deməkdir, vicdanı deməkdir. Biz dil məsələsini hər bir yerdə göz bəbəyimiz kimi gözləməliyik".

Dil insanın özüdür

Dünya mədəniyyətinin və tarixinin inkişaf edən intibahından qaynaqlanan yeni sözlərin dilə nüfuzetmə prosesini heç bir qüvvə dayandıra bilməz. Beləliklə, ictimai həyat dəyişdikcə baş verən yeniliklərlə bağlı olaraq, dildə ayrı-ayrı anlayış, hadisə və əşyaları bildirən yeni sözlər yaranır. Dilin lüğət tərkibinə sürətlə daxil olan bu sğzlərdən - neologizmlərdən çox həssaslıqla istifadə olunmalıdır. Lazım oldu- olmadı yeni söz işlətmək xatirinə bu sözləri işlətmək düzgün deyil (təssüf ki, bu gün dilə "ipəzor", "geygəz" və s.kimi sözləri dilə gətirmək istəyənlər də var). Azərbaycan xalqının zəngin yaradıcılığında dil insanın zehni, ruhi, əxlaqi yaşayışının təşkilatçısı kimi göstərilir. Xalq arasında haqlı olaraq belə bir deyim var: "Söz canın cövhəridir". Ünsiyyət üçün dili əvəz edəcək qədər geniş imkanlara malik olan heç bir şey yoxdur. "Dil insanın özüdür," -deyib babalar. Yalnız dil vasitəsilə insanlar fikirlərini, arzularını çətinlik çəkmədən bir- birinə çatdıra bilirlər. Həzrət Əli deyib: "İnsan öz dilinin altında gizlənibdir, danışmağa başlayandan sonra ağıllı və ya ağılsız olması bilinir".

Hər bir dil onu əhatə edən dəyişkən mühitlə əlaqədar olaraq fasiləsiz olaraq inkişafdadır. Dilin lüğət fondunu zənginləşdirən yeni sözlərin – neologizmlərin yaranma üsul və yollarının öyrənilməsi tədqiqatın aktuallığını şərtləndirən amillərdəndir. Dildə rast gəlinən bütün sözləri neologizm adlandırmaq olmaz. Bəzən neologizmlər bir müddət dildə işlənəndən sonra öz yeniliyini itirir və lüğət tərkibindəki adi sözlərdən seçilmir. Məsələn: bir vaxtlar neologizm hesab olunan telefon, təyyarə, radio, televiziya, vertolyot və s. sözlər indi neologizm hesab edilmir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dilimizdə bir sıra yeni sözlər – neologizmlər yaranmışdır. Ulu öndərimiz Heydər Əliyev deyirdi: "Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də bu dildə danışdığımıza görə öz dilimizin zənginliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu, həqiqətdir. Ona görə də bunu heç bir şeyə dəyişmək olmaz".

Azərbaycan dili də, digər dillər kimi, inkişaf edir, zənginliyini qoruyur, dəyişən və yeniləşən dünya xalqlarının dilləri arasında özünəməxsusluğunu saxlayır

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları ümüummilli lider Heydər Əliyevin dil siyasətini uğurla davam etdirərək dilə dövlət qayğısını "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 23 may 2012-ci il tarixli Sərəncamı bir daha göstərmiş oldu. Sərəncamda deyilr: "...son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imlanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqət çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarını xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə veri". Bu gün dilimizə qondarma sözlər gətirməklə onu korlayanlar bilməlidirlər ki, dil xalqın özüdür, ruhudur. Böyük türk yazıçısı Nazim Hikmət tez-tez təkrarlayardı: " Öz dilinizdə danışın. Dilimizi qoruyun. Azərbaycan türkcəsi təmizdir, safdır, şirindir".

Minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Onun daim bir xəzinətək qorumaq gərəkdir. Öyrənərək qorumaq və yaşatmaq gərəkdir.

Bu dil şirinlikdə şərbət kimidir,
Saflığı qorunan sərhəd kimidir,
Anamız Vətən də qürbət kimidir
Öz ana dilini bilməyənlərə!

(T. Bayram).

Г. Курбанова

Использовать устаревшие и новые слова в глобализации

Резюме

Темп нашего быстро меняющегося мира заставляет новые слова выражаться в автоматическом режиме.

На данный момент одной из наиболее важных проблем является игнорирование: язык не принимает каждое новое слово напрямую. Люди принимают слова и выражения, которые ему чужды.

Ради обновления язык не может быть испорчен чужими словами. Этот процесс был быстро или пренебрежимо в разные периоды истории.

Каждый интеллектуал понимает, что невозможно принять инновацию и провести линию над старой. Сегодня невозможно выйти из этого мира, не изучая прошлое.

G. Gurbanova

Use obsolete and new words in globalization

Summary

The pace of our rapidly changing world causes the new words to be expressed in autocomplete.

At this point, one of the most important issues is to ignore: the language does not accept every new word directly. People adopt the words and expressions that are alien to him.

For the sake of renewal, language can not be spoiled by alien words. This process has been rapidly or negligibly in different periods of history. Each intellectual understands that it is impossible to accept the innovation and draw a line over the old one. It is impossible to get out of this world tomorrow without learning the past.

Rəyçi: Həsən Quliyev
filologiya üzrə elmlər doktoru, professsor

ZƏMİNƏ MUSTAFAYEVA
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Tibb Universiteti
zamina@mail.ru

ALMAN VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SINONIMLƏR LÜĞƏTI HAQQINDA

Açar sözlər: Alman dili, Azərbaycan dili, lüğət, sinonim, söz, mətbuat.
Keywords: German, Azerbaijani, vocabulary, synonym, word, publication.
Ключевые слова: немецкий язык, азербайджанский язык, словарь, синоним, слово, издание.

Dilçilik tarixində leksikoqrafiyanın iki böyük növü mövcuddur: ensiklopedik və filoloji lüğətlər. Tərtib olunmuş sinonimlər lüğəti də filoloji lüğətin əsas növlərindən biridir. İstər Azərbaycan dilində, istərsə də alman dilində sinonim haqqında bir çox məqalələr, monoqrafiyalar, dissertasiya işləri yazılmış, bu sahəyə aid müxtəlif fikirlər irəli sürülsə də, tərifi haqqında fikir ayrılığı yaransa da, ona üslubi nöqteyi-nəzərdən yanaşılmamışdır. Lakin N.Seyidəliyev "Müasir Azərbaycan dilində üslubi sinonimlər" adlı monoqrafiyasında yazır ki, sinonimlərin özləri üslubi rənglərə görə bir-biri ilə eyniyyət və oxşarlıq təşkil edirlər [1, 25].

Alman dilçiliyində də sinonimlər eyni və yaxın mənaları ifadə edən sözlər kimi qeyd edilir [2, 215].

Hər iki dildə sinonimlərin iki əsas növü göstərilir: mütləq sinonimlər və nisbi sinonimlər. Əsli sinonimlərə aid aşağıdakı nümunələri göstərmək olar. Azərbaycan dilində: yaz – bahar, masa – miz –stol, qış – zimistan. Alman dilində: Frühstück – Morgenimbiβ, Stäbchen – Zigarette. Nisbi sinonimlər də - ideoqrafik və üslubi sinonimlər adı altında qruplaşdırılır.

İdeoqrafik sinonimlərdə - nisbi və mətni sinonimlər araşdırılır. Məsələn, alman dilində Ufer – Strand – Küste – Kai sözlərini, mətni sinonimlərə isə çoxmənalı sözlər: lediq – frei – los – unverheiratet və s. misalları göstərmək olar.

Birinci sinonim cərgəsinin Azərbaycan dilində mənası "sahil", ikinci sinonim cərgəsinin mənası isə "subay, evlənməmiş" kimi səsləndirilir.

Sinonim cərgələr, adətən lüğətlərdə daha çox nəzərə çarpır. Bu cür lüğətlərin tərtibinə gəldikdə, onu vurğulamaq lazımdır ki, alman dilində bu prosesə bizim dilimizə nisbətən çox-çox əvvəl başlanmışdır. Alman dilçiliyində "Synonymische Handwörterbuch der deutschen Sprache" adlı ilk sinonimlər lüğəti J.A.Eberhard tərəfindən hazırlanaraq 1802-ci ildə nəşr

olunmuşdur. Sonralar həmin lüğət O.Lyon tərəfindən yenidən təkmilləşdirilərək bir neçə dəfə nəşr olunmuşdur.

İkinci sinonimlər lüğəti P.F.L.Hoffman tərəfindən hazırlanmış və "Volstümliche Wörterbuch der deutschen Synony ume" adı altında nəşr olunmuşdur. Lüğət professor W.Oppermann tərəfindən təkmilləşdirilərək bir neçə dəfə çap olunmuşdur. Onuncu dəfə nəşri isə 1936-cı ilə təsadüf edir.

1964-cü ildə isə Dudenin "Wergleichendes Synonymwörterbuch (Sinnerwandte Wörter) kitabı P.Qrebe və V.Müller yenidən işləyərək təkmilləşdirmiş və çap etdirmişdir.

Bu sahə ilə rus dilçiləri də (germanistlər) maraqlanmış və 1963-cü ildə pedaqoji institut tələbələri üçün «Пособые по синонимии современного немецкого языка» adlı sinonimlər lüğəti nəşr olunmuşdur. Lüğətin müəllifləri M.Q.Arsenyeva, D.B.Zamçuk və A.P.Xazanoviçdir. həmin lüğət müəlliflər tərəfindən təkmilləşdirilərək 1967-ci ildə ikinci dəfə nəşr olunmuşdur. Lüğətin adı rus dilində olsa da, içəridəki materiallar sırf alman dilindədir.

Həmin lüğətdən nümunə üçün bir parça veririk:

Angst (f), Furcht (f), Schreck(en) (m) - стpax (qorxu)

G e m e i n s a m e s

Die drei Substantive bezeichnet das Gefühl der Bangigkeit, der Beangstigung. Das Substantiv Angst drückt den Begriff allgemeiner aus, Furcht und Schreck(en) deuten auf einen hören Grad dieses Gefühls. Im Vergleich zu Angst und Fursht ist Schreck (en) nie von langer Dauer.

Im Hof herrste di Stille der namenlosen Angst. (L.Frank)

Er hatte qrosse Angst. (L.Renn)

Haben Sie keine Frucht, keine Angst vor dem Aufsehen? (W. Steinberg)

Aber wenn ich es tate, dann geschehe es nicht aus Frucht. (L.Feuchtwanger)

Das Gefühl der Furcht sonderte sich von Nebengefühlen. (A.Seghers)

Furct überkam ihn. (St. Zweiq)

Sie starrte ihn vol Furcht an und wagte nichts zu sagen. (J.Weidenheim)

Er erwachte vor Schreck. (A.Zeghers)

Sein Schrech war so gewaltig, dass er nicht langer als eine Sekunde dauern konnte. (L.Frank)

Aber so schnell war dieser Schreck, so gross die Frucht Annas vor ihrem Vater, dass sie zu schwanken anfing. (A.Seghers)

Lüğətdə sinonim sözlərin ayrı-ayrılıqda üslubi cəhətdən işlənmə mövqeyi göstərilmiş və hər birinə aid bədii ədəbiyyatdan illüstrativ nümunələr verilmişdir.

Bu növ ikinci bir lüğət "Destuch – russisches synonymwörterbuch" adı altında Moskvada "Russkiy yazık" nəşriyyatı tərəfindən 1983-cü ildə buraxılmışdır. Lüğətin müəllifləri İ.B.Baxmanov, N.M.Minina, D.Q.Malseva və L.İ.Raxmanovadır. Lüğətdə 2680 sinonim söz verilmişdir.

Alman dilçiliyində geniş yayılmış sinonimlər lüğətlərindən biri də Herbert Qörner və Qünter Kempckenin redaktorluğu ilə 1973-cü ildə Leypsiqdə nəşr olunan "Synonymwörterb uch (Sinnverwandte Ausdrücke der destschen Sprache)" kitabıdır. Lüğətdə 50 min sinonim söz və ifadə verilmişdir. Lakin buna baxmayaraq, onu tam, mükəmməl lüğət hesab etmək olmaz.

Alman dilçiliyindən fərqli olaraq Azərbaycan dilçiliyində ilk sözlük şəklində tərtib edilmiş sinonim nümunələr S.Cəfərovun 1958-ci ildə nəşr olunmuş "Müasir Azərbaycan dilinin leksikası" adlı kitabında verilmişdir. 1990-cı ildə isə İ.Məmmədov və H.Həsənovun həmmüəllifliyi ilə "Azərbaycan dilinin sinonimlər lüğəti" çapdan çıxmışdır. Bu, ilk təcrübə lüğəti idi və yalnız sözlüklərdən ibarətdir.

N.Məmmdovun 1991-ci ildə çapdan çıxmış "Müasir Azərbaycan dilində feillərin leksik sinonimliyi" monoqrafiyasında da feili sinonimlərin qısa lüğəti verilmişdir.

Müasir Azərbaycan dilçiliyində ən mükəmməl sinonimlər lüğəti Nəriman Seyidəliyevin prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə 2007-ci ildə nəşr olunan "Azərbaycan dilinin sinonimlər lüğəti"dir. Lüğətdə 11 minə qədər sinonim söz və ifadə verilmişdir ki, onların da əksəriyyəti bədii ədəbiyyatdan gətirilmiş nümunələrdə əksini tapmışdır. Lüğətə olan ehtiyac nəzərə alınaraq ikinci dəfə 2012-ci ildə təkrar nəşr olunmuşdur.

Ümumiyyətlə, alman və Azərbaycan dillərində mövcud sinonimlər lüğəti hələ tam akademik lüğət deyildir. Bunları mükəmməl şəkildə inkişaf etdirmək vacib məsələlərdəndir.

Böyük həcmdə almanca – azərbaycanca sinonimlər lüğətinin hazırlanıb çap olunmasının artıq vaxtı çatmışdır. Belə bir lüğətin tərtib olunub nəşr edilməsi hər iki xalqın marağına səbəb ola bilər və diqqəti daha çox cəlb edər.

Ədəbiyyat

1. N.Seyidəliyev. Müasir Azərbaycan dilində üslubi sinonimlər. Bakı, 2012.
2. A.İskos, A.Lenkova. Deutsche Lexikologie. Leninqrad, 1970.
3. М.Г.Арсеньева, Д.Б.Замчук, А.П.Хазанович. Пособие по синонимии современного немецкого языка (для студентов педагогических институтов) изд. 2-е. Ленинград, 1967.
4. L.W.Rachmanov, N.M.Minina, D.G. Malzewa, L.İ.Rachmonowa. Deutschrussisches synonymwörterbuch. Moskva, 1983.
5. İ.Məmmədov, H.Həsənov. Azərbaycan dilinin sinonimlər lüğəti. Yazıçı, 1990.
6. N.Məmmədov. Müasir Azərbaycan dilində feillərin leksik sinonimliyi. Bakı, 1991.
7. N.Seyidəliyev. Azərbaycan dilinin sinonimlər lüğəti. Bakı, 2007; 2012.
8. Synonymwörterbuch (sinnverwandte Ausdrücke der deutschen Sprache). Leipzig, 1973.

Z.Mustafayeva

About the Vocabulary of Synonyms in German and Azerbaijani

Summary

The presented article is dedicated to the available vocabulary of synonyms in the German and Azerbaijani languages. Firstly, it is informed about synonyms and then it is spoken about their types. In both languages there are two types of synonyms: original and relative synonyms.

There are also two types of relative synonyms: stylistic and ideographic synonyms. Relative and textual synonyms are investigated within ideographic synonyms. Samples for relative synonyms are Ufer-Strand-Küste-Kai and samples for textual synonyms are ledig-frei-los-unverheiratet. Information about the publication of the vocabulary of synonyms in both languages is also given in the presented article.

З.Мустафаева

О словарях синонимов в немецком и азербайджанском языках

Резюме

В статье говорится о словарях синонимов имеющихся в немецком и азербайджанском языках. Здесь, в первую очередь приводятся все лексические и грамматические характеристикой синонимов. Далее говорится о разрядах (видах) синонимов.

В обоих языках различаются два вида синонимов: истинные синонимы и относительные синонимы. Относительные синонимы, в свою очередь, делятся на стилистические и идеографические синонимы.

Среди идеографические синонимов выделяются относительные и текстуальные. Например: Ufer-Strand-Küste-Kai; из текстуальных синонимов: ledig-frei-los-unverheirated.

В статье также приводятся данные об изданных на обоих языках синонимических словарьях.

Rəyçi: Nəriman Seyidəliyev
filologiya elmləri doktoru, dosent

LALA MASIMOVA
Filologiya üzrə fəlsəfə doktoru
Azerbaijan State Oil and Industry University
lala_masimova@mail.ru

SEMANTIC GROUPING IN THE VOCABULARY SYSTEM OF THE ENGLISH LANGUAGE

Key words: linguistics, semantic grouping, vocabulary system, meaning, classify, word groups
Ключевые слова: dilçilik, semantik qruplaşdırma, lüğət sistemi, məna, təsnifat, söz qrupları
Açar sözlər: лингвистика, семантическая группировка, система словаря, значение, классификация, группы слов

Semasiology is a branch of linguistics concerned with the meaning of words and word equivalents. The main objects of semasiological study are as follows: types of lexical meaning, polysemy and semantic structure of words, semantic development of words, the main tendencies of the change of word-meanings, semantic grouping in the vocabulary system, i.e. synonyms, antonyms, semantic fields, thematic groups, etc.

Being an adaptive system the vocabulary is constantly adjusting itself to the changing requirements and conditions of human communication and cultural and other needs. This process of self-regulation of the lexical system is a result of overcoming contradictions between the state of the system and the demands it has to meet.

Lexical system of the English language is composed of several parts. In this paper some information about them is given.

Synonyms — are two or more words belonging to the same part of speech and possessing one or more identical or nearly identical denotational meanings, interchangeable in some context.

Look — to stare, to gaze, to glance, to peep.

Pretty-good-looking, handsome, beautiful. Each group comprises a dominant element.

Synonymic dominant — is the most general term of its kind potentially containing the specific features rendered by all the other members of the group.

Types of synonyms:

- **Ideographic** — synonyms which differ in the denotational component of meaning i.e. between which a semantic difference is stable.
- **Stylistic** — which differ in the connotation component of meaning, i.e. all kinds of emotional, expressive and evaluative overtones.
- **Absolute** — which can each other in any given context, without the slightest alteration in denotative or emotional meaning and connotations.
- **Contextual** — are synonyms which are similar in meaning only under some specific distributional conditions.
- **Dominant-** the notion common to all synonyms of the group without contributing any additional.

information as to the manner, intense, duration or any attending feature of the referent.

The sources of synonyms: borrowings, shift of meaning, dialectical words, compounds, shortenings, conversion, euphemisms.

Synonyms are words different in their outer aspects, but identical or similar in their inner aspects. In English there are a lot of synonyms, because there are many borrowings. There are some absolute synonyms in the language, which have exactly the same meaning and belong to the same style, e.g. to moan, to groan; homeland, motherland etc.

Sometimes one of the absolute synonyms is specialized in its usage and we get stylistic synonyms, e.g. «to begin»/ native/, «to commence» /borrowing/.

Among stylistic synonyms we can point out a special group of words which are called euphemisms. These are words used to substitute some unpleasant or offensive words, e.g. «the late» instead of «dead», «to perspire» instead of «to sweat» etc.

There are also phraseological synonyms, these words are identical in their meanings and styles but different in their combining with other words in the sentence, e.g. «to be late for a lecture».

Antonyms — words of the same category of parts of speech which have contrasting meanings such as hat — cold, light — dark, happiness — sorrow.

Morphological classification:

- Root words form **absolute antonyms**. (write — wrong).
- The presence of negative affixes creates — **derivational antonyms** (happy — unhappy).

Semantical classification:

- **Contradictory notions** are mutually opposed and denying one another, i.e. alive means «not dead» and impatient means «not patient».

- **Contrary notions** are also mutually opposed but they are gradable; e.g. old and young are the most distant elements of a series like: old — middle — aged — young.
- **Incompatibles** semantic relations of incompatibility exist among the antonyms with the common component of meaning and may be described as the relations of exclusion but not of contradiction: to say «morning» is to say «not afternoon, not evening, not night».

Antonyms are words belonging to the same part of speech, identical in style, expressing contrary or contradictory notions.

V.N. Comissarov in his dictionary of antonyms classified them into two groups: absolute or root antonyms Absolute antonyms have different roots and derivational antonyms have the same roots but different affixes. In most cases negative prefixes form antonyms / un-, dis-, non-/. Sometimes they are formed by means...

of suffixes -ful and -less.

Not every word in a language can have antonyms. This type of opposition can be met in qualitative adjectives and their derivatives, e.g. beautiful- ugly, to beautify — to uglify, beauty — ugliness. It can be also met in words denoting feelings and states, e.g. to live — to die, alive — dead, life — death.

If a word is polysemantic it can have several antonyms, e.g. the word «bright» has the antonyms «dim», «dull», «sad».

Homonyms are words different in meaning but identical in sound or spelling, or both in sound and spelling.

Homonyms can appear in the language not only as the result of the split of polysemy, but also as the result of levelling of grammar inflexions, when different parts of speech become identical in their outer aspect, e.g. «care» from «caru» and «care» from «carian».

Polysemy is characteristic of most words in many languages. All the lexical and lexico-grammatical variants of a word taken together form its semantic structure or semantic paradigm.

Thus, in the semantic structure of the word *youth* three lexico-grammatical variants may be distinguished: the first is an abstract uncountable noun, as in *the friends of one's youth,* the second is a countable personal noun 'a young man' (plural *youths)* that can be substituted by the pronoun *he* in the singular and *they* in the plural; the third a collective noun 'young men and women' having only one form, that of the singular, substituted by the pronoun *they.*

Within the first lexico-grammatical variant two shades of meaning can be distinguished with two different referents, one denoting the state of being young, and the other the time of being young. These shades of

meaning are recognized due to the lexical peculiarities of distribution and sometimes are blended! together as in *to feel that one's youth has gone,* where both the time and the state can be meant. These variants form a structured set because they are expressed by the same sound complex and are interrelated in meaning as they all contain the semantic component 'young' and can be explained by means of one another.

Other oppositions are concrete: abstract; main/ primary: secondary; central: peripheral; narrow: extended; general: special/particular, and so on. In each case the comparison takes place within the semantic structure of one word. They are characterized one against the other.

Take, for example, the noun *screen.* We find it in its direct meaning when it names a movable piece of furniture used to hide something or protect somebody, as in the case of *fire-screen* placed in front of a fireplace. The meaning is figurative when the word is applied to anything which protects by hiding, as in *smoke screen.* We define this meaning as figurative comparing it to the first that we called direct. Again, when by a screen the speaker means 'a silver-colored sheet' on which vocabulary as compared with Russian, due to the monosyllabic character of English and the predominance of root words. The greater the relative frequency of the word, the greater the number of variants that constitute its semantic structure, i.e. the more polysemantic it is. This regularity is of course a statistical, not a rigid one.One can hardly acquire a perfect command of English without having knowledge of all these things, for a perfect command of a language implies the conscious approach to the language's resources and at least a partial understanding of the "inner mechanism" which makes the huge language system work.

References:

1. Crabb A.M. English Synonyms Explained.- London, 1958.
2. Kuznetsova V.S. Notes on English Lexicology.- K., 1968.
3. Маковский М.М. Английская этимология. - М., 1986
4. Handbook of Word-Formation, ed. by Pavol Štekauer and Rochelle Lieber. Springer, 2005.

L.Məsimova

Ingilis dilinin lüğət sistemində semantik qruplaşma

Xülasə

Məqalə ingilis dilinin lüğət sistemində semantik qruplaşmadan bəhs edir. Bu baxımdan sinonim, antonim, omonim və çoxmənalılıq haqqında məlumatlar məqalədə öz əksini tapır.

Məlumdur ki, lüğətin dil öyrənməsində büyük əhəmiyyəti vardır, çünki o dilin mahiyyəti hesab edilir. Lüğətsiz, heç bir cümlə, mətn və ya dil yoxdur. Lüğət dil üçün əsasdır və ümumi dil öyrənəninə çox vacibdir. Xarici dil öyrənmə sahəsində lüğətin vacib rolu geniş qəbul olunmuş və daha çox tanınmışdır.

Yuxarıda qeyd edilənlər, yəni, sinonim, antonim, omonim dildə mühüm əhəmiyyətə malikdir və dilin lüğət tərkibinin zənginləşməsində böyük rola malikdir.

İngilis dilini daha effektiv öyrənmək və normal ünsiyyət ehtiyaclarına cavab verə biləcək bir lüğət qazanmaq vacibdir. Semantik qruplaşma ingilis dili lüğətinin effektiv və sistemli öyrənilməsində əhəmiyyətli dərəcədə böyük rol oynayır.

Л.Масимова

Семантическая группировка в словарной системе английского языка

Резюме

В статье рассматривается семантическая группировка в словаре английского языка. В этой связи в статье отражена информация о синонимах, антонимах, многозначности.

Известно, что лексика имеет большое значение в изучении языка, потому что она считается сущностью языка. Без словаря нет предложения, текста или языка. Словарь необходим для языка и очень важен для учащихся, изучающих общий язык. Важная роль словарного запаса в области изучения иностранных языков широко признана и известна.

Синоним, антоним, омоним имеют большое значение в языке и играют важную роль в обогащении словарного запаса языка.

Важно более эффективно изучать английский язык и получать словарь, который может отвечать потребностям обычного общения. Семантическая группировка играет важную роль в эффективном и систематическом изучении лексики английского языка.

Rəyçi: **Rəna Şamiyeva**
filologiya elmləri namizədi, dosent

NAİLƏ MİRZƏYEVA
Azərbaycan Texniki Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
naila.aztu@gmail.com

GÖYÇƏ MAHALININ TARİXİ VƏ SOSİAL-MƏDƏNİ MƏNZƏRƏSİ

Açar sözlər: İrəvan, Göyçə gölü, aşıq, folklor, «Oğuznamə», dastan.
Ключевые слова: Иреван, озеро Гойче, ашуг, фольклор, «Огузнаме», эпос.
Key words: Iravan, lake Goycha, ashug, folklore, «Oguzname», epos.

Azərbaycan dünya sivilizasiyasına məlum olan ən qədim yaşayış məntəqələrindəndir. Ərazinin yerləşdiyi çoğrafi mövqe, heyvanat aləmi və bitki örtüyü, su hövzələrinin çoxluğu bunları deməyə əsas verir. Azərbaycan ərazisində araşdırmalar zamanı tapılmış qədim insan və heyvan qalıqları, xüsusilə, Füzuli bölgəsində aşkar edilmiş «azıxantrop» adlandırılan eksponat dediklərimizin sübutudur. Demək lazımdır ki, Azərbaycanda insan həyatının davam etdirilə biləcəyi ərazilərdən biri də qədim yaşayış məskənimiz olan Göyçə mahalıdır. Irəvan xanlığının ən böyük mahallarından biri olan Göyçə, minillər boyu « Göyçə gölü», sonralar isə «Sevan gölü» kimi təqdim olunan su hövzəsinin kənarında yerləşən ərazinin tarixi adıdır. Ərazinin hansı səbəbdən «Göyçə» adlanması haqda müxtəlif fikirlər mövcuddur. Bir qrup tədqiqatçı (bu sətirlərin müəllifi də həmçinin) bu vahidin rəng anlayışı ilə bağlı olduğunu qəbul edir. Leksik vahidin «göy» sifəti ilə, kiçiltmə anlayışı yaradan (-çə) şəkilçisindən yarandığı ehtimalı, zənnimizcə, daha ağılabatandır. Yaşı milyon illərlə ölçülən dağların qoynunda yerləşən gölün səmanın bir hissəsini əks etdirərək «göyçə» adlanması, onun ətraf ərazilərinin də bu səbəbdən eyni adı daşıması məntiqəuyğun bir haldır. Bir qrup alim isə vahidin rəng anlayışı ilə bağlılığı fikrini inkar edərək, onun meydana gəlməsini vaxtilə bu ərazidə yaşamış türk tayfasının adı ilə əlaqələndirir. Tədqiqatçı N. Əhmədli yazır: Bəzi tədqiqatçılar, o cümlədən İ.Şopen «Göyçə» sözünün etimologiyasını «göy», «mavi» sözü ilə bağlamağa çalışsalar da, araşdırmalarımız nəticəsində belə bir ehtimal irəli sürə bilərik ki, bu toponim bir vaxtlar buralarda yaşamış gökcə/göyçə adlı türk tayfasının adından yaranmışdır. [5.13] Tədqiqatçı Türkiyə və İraqın müxtəlif yerlərində «göyçə» vahidi əsasında yaranmış onomastik vahidlərdən nümunələr də göstərməkdədir. İrəvan mahalının XVI əsrdə yaradıldığı məlum olsa da, Göyçə adının işlənməsinə daha öncəki tarixi sənəd və mənbələrdə təsadüf edirik. Oğuz türklərinin «həyat kodeksi» adlanan «Kitabi-Dədə Qorqud» dastanında bu

vahidə iki dəfə təsadüf edirik. Dastanın «Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boyu bəyan edər» hissəsində oxuyuruq: « Kafir sərhəddinə, Cızığlara, Ağlağana, Gökçə Dağa, alıban çıxayın. Sonra oğlana gərək olar, a bəylər!-dedi ». [1.71] Göründüyü kimi dastan yaradanlar bu boyda Göyçə və onu əhatə edən dağlardan bəhs etmişlər. Deməli, ərazi yalnız göl və çəmənlərdən ibarət olmamış, yüksək zirvəli dağlarla əhatələnmişdir. Dastanın digər, «Uşun Qoca oğlu Səgrəgin boyunu bəyan edər» boyunda «Göyçə dəniz» ifadəsi ilə qarşılaşırıq. «Şərukun ucundan Göycə dənizə təkin el çarpdı. Qələbə doyum oldu». Deməli, bu ərazi həm dağ, həm də göl/dəniz anlayışları ilə birgə işlənmişdir. 2003-cü ildə Türkiyədə nəşr olunmuş «Dede Korkut kitabı» kitabında da eyni ifadələrə bir qədər fonetik fərqlə rast gəlirik: «Ciziğlara, Ağlağan, Gökçedağ'a çıkacağım» dedi». [2.129] «Göyçə» vahidinin inzibati bölgü vahidi kimi işlədilməsi halına ilk dəfə XV əsrdə rast gəlirik. Belə ki, Qaraqoyunlu sultanı Cahanşahın (1436-1467) imzaladığı bir neçə fərmanda bu mahalın adı keçmişdir. Papazyan A. D. yazır: «Göyçə» adının inzibati-ərazi vahidi kimi işlədilmədinə isə ilk dəfə Qaraqoyunlu hökmdarı Cahanşahın (1436-1467) fərmanında rast gəlinir. Onun 1449-cu ildən sonra, 1462-ci ildən əvvəl imzaladığı tarixi olmayan bir fərman var ki, burada «Göyçə vilayəti» ifadəsi işlədilir ». [11.164]. Göyçə vahidinə daha sonralar da müxtəlif əmr və fərmanlarda rast gəlirik. XV əsrin 60-cı illərində hakimiyyətə gəlmiş Ağqoyunlu sülaləsi də bu ərazini öz tərkibinə qatmış, hökmdar Uzun Həsənin 1468-ci ildə verdiyi fərmanda «Göyçə vilayəti» ifadəsi işlənmişdir. Səfəvi dövlətinin möhkəmlənməsi, bu dövlətin qərb sərhədlərinin müdafiəsi məqsədi ilə yaradılmış İrəvan bəylərbəyliyi sonradan Göyçə ərazisinin də daxil olduğu inzibati əraziyə çevrilmişdir. Şah I İsmayılın 1503-cü ildə imzaladığı fərman fikrimizin doğruluğunu sübut edən əsas dəlildir. Göyçə mahalının oğuz-Azərbaycan türklərinin vətəni olduğunu, bu onomastik vahidin çox qədimlərlə səsləşdiyini o dövrlərdə yaranmış atalar sözü və məsəllər, nəsihətlər toplusu olan «Oğuznamə»lər də göstərməkdədir. XV əsrdə yaşamış məşhur Azərbaycan yazıçısı Əbu Bəkr Tehraninin yazdığı, məzmun və mahiyyət etibarilə «Oğuznamə» adlanmağa layiq olan «Kitabi-Diyarbəkriyyə» əsəri də Göyçə dənizi haqda məlumat verir. Əsərdə bu ərazilərin qədim oğuz torpağı olduğu, Oğuz xaqan, Bayındır xan və digər bu kimi şəxsiyyətlərin də bu ərazidə yaşaması əks olunur. Yuxarıda verdiyimiz məlumatlardan da göründüyü kimi Göyçə mahalı çox qədim tarixə malik olan ata-baba yurdumuzdur. 1747-ci ildə Nadir şahın sui-qəsd nəticəsində öldürülməsi Azərbaycan tarixində yeni, daha acınacaqlı dövrün-xanlıqlar dövrünün başlanmasına səbəb oldu. Göyçə inzibati-ərazi bölgüsü baxımından İrəvan xanlığının ən böyük mahalı olaraq, onun tərkibinə daxil oldu. Bu hadisələrin baş verdiyi tarix Azərbaycan üzərində Rusiya və Iran dövlətlərinin marağının daha da artdığı dövrə təsadüf edir. Iki işğalçı dövlətin döyüş meydanına çevrilən Azərbaycan

tarixin ən ağır zərbəsini aldı. Müəyyən fasilələrlə davam edən Rusiya-İran müharibəsi öncə Gülüstan, bir qədər sonra isə Türkmənçay «sülh» müqavilələri ilə başa çatdı. Bu müqavilə nəticəsində strateji baxımdan əhəmiyyətli mövqedə yerləşən İrəvan xanlığının Rusiya İmperiyasının hakimiyyətinə keçməsi digər xanlıqların mövqeyini zəiflətdi və onlar da bir-birinin ardınca Rusiya təbəəliyini zor və ya xoş qəbul etməyə məcbur oldular. Türkmənçay müqaviləsində qəbul olunmuş maddələrə əsasən həm İran, həm də Türkiyə ərazisindən İrəvan və Qarabağ mahallarına köçürülən erməni əhalisi tədricən yerli türk əhalisini sıxışdıraraq öz ata-baba yurdlarından qovmağa çalışmış, hətta tarixin müəyyən dövrlərində buna nail olmuşlar. Son zamanlarda aparılan tədqiqatlar, xüsusilə də 1831-ci ildə tərtib edilmiş «Göyçə mahalının kameral təsviri» kitabı, bu ərazinin azərbaycanlılara məxsus olduğunu bir daha sübut edir. Kameral təsvirin tərtibçısı İ. Şopen Göyçə mahalının 59 kəndində 3.164-kişi, 2.443-qadın olmaqla 999 türk ailəsinin yaşadığını, onların müxtəlif sənət, kənd təsərrüfatı və heyvandarlıqla məşğul olmaları haqda da məlumat verir. [5.27] Qeyd etmək lazımdır ki, İ.Şopen tarixi gerçəkliyə sadiq qalaraq Göyçə ərazisinə köçürülmüş erməni əhalisinin dəqiq sayı, haradan və nə vaxt köçürülməsi haqda bilgi verməkdədir. 1988-ci ildə baş vermiş məlum hadisələrə, Dağlıq Qarabağda başlamış Vətən müharibəsinə qədər olan tarixi dönəmdə həm İrəvan və ətraf ərazilərdə, həmçinin Göyçədə baş vermiş qarşıdurmalarda əvvəl çar Rusiyasından, sonra isə sovet Rusiyasından dəstək alan ermənilər azərbaycanlı əhalini o torpaqlardan tamamilə çıxarmışlar. Çox böyük maddi və mənəvi mədəniyyət beşiyimiz olan o yerlər illərdir ki, düşmən əlindədir.Göyçə yerləşdiyi mövqe baxımından strateji əhəmiyyət daşımaqla bərabər, həm də qədim saz-söz məbədimizdir. Bu ərazidə yaranmış minlərlə şifahi ədəbiyyat nümunələrimiz: frazeoloji ifadə, deyim, atalar sözü, zərb-məsəllər, bayatılar, nağıl və dastanlarımız, bu nümunələrdə adları keçən tarixi yerlərimiz Göyçənin, həqiqətən, Azərbaycan torpağı olması fikrini təsdiqləyir. Bunlarla yanaşı ozan-aşıq sənəti və ədəbiyyatı sahəsində Göyçə aşıq məktəbinin özünəməxsus yeri və sambalı vardır. Təkcə onu demək kifayətdir ki, türk dünyasının üç nəhəng ozanı: Ağ Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələsgər Göyçə mahalında yaşamış və anadilli ədəbiyyatımızın ən gözəl nümunələrini yaratmışlar. Doğrudur, Göyçə aşıq məktəbi yalnız bu sənətkarlarla məhdudlaşmamış, onlardan sonra yenə də aşıqlar «ordusu» yaranmışdır. Lakin onlar nə Alı, nə Allahverdi, nə də Ələsgər zirvəsinə yüksələ bilməmişlər. Bütün deyilənlərdən belə bir nəticəyə gəlmək olur ki, qədim tarixə malik, adı həm şifahi xalq ədəbiyyatı nümunələrində yer alan, həm də müxtəlif dövrlərdə mövcud olmuş dövlət fərmanlarında keçən, onlarla aşığın, yüzlərlə şairin şeirlərində təsvir və tərif edilən Göyçə mahalı Azərbaycan xalqının əzəli-əbədi vətənidir.

Ədəbiyyat:

1. Kitabi-Dədə Qorqud . Bakı, Yazıçı.1988.-265 səh.
2. Dede Korkut kitabı. İstanbul, Timaş yayınları, 2003. 280 s.
3. Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası. Bakl, Elm və təhsil,2011.440 s.
Müasir komputer əsrində ölkələr arasında iqtisadi-siyasi əlaqələrin inkişaf etdiyi bir dövrdə, beynəlxalq dillərin içərisində, dünyada daha çox istifadə edilən ingilis dilinin tədrisinə ölkəmizdə xüsusi yer ayılır. Bu dil nəinki respublikamızın bir çox orta ümumtəhsil məktəblərində, eyni zamanda ali məktəblərində də tədris edilir.

Amma daha çox iqtisadiyönümlü ali məktəblərdə, eləcə də gələcəyin bank işçilərini, maliyyəçilərini, mühasibatçılarını və digər istiqamətli iqtisadçıları hazırlayan ali məktəb tələbələrinə gündəlik məişət mövzularıyla bağlı lüğət ehtiyatı, adi danışıq dili, qrammatik qaydaların ətraflı formada tədrisi çox da önəm daşımır. Çünki bu materialların müəyyən qədəri onlara hələ təhsil aldıqları orta məktəblərində aşılanmışdır.

Bu tədris müəssisələrin tələbələri üçün daha önəmlisi onlara işgüzar ingilis dili fənninin tədrisidir. Belə ki onlar, bu fənni öz gələcək iş fəaliyyətlərində asanlıqla

tətbiq edərək ondan yararlana bilərlər. Çünki xarici və eləcə də ölkəmizdə olan digər ölkənin iş adamlarının da yer aldığı işgüzar görüşmələri zamanı onlar işgüzar ingilis dilindən istifadə etməli olurlar; aparılan söhbətləşmələr, bir və ya bir neçə xarici şirkətlərin imzaladıqları müqavilə zamanı işgüzar terminoloji leksik bilikləri onlara kömək edir. ″Terminoloji leksikaya elmin, texnikanın, istehsalatın, kənd təsərüffatının, iqtisadi və ictimai həyatın, ədəbiyyat və incəsənətin müxtəlif sahələrinə aid olan müəyyən anlayışları dəqiq əks etdirən söz və söz birləşmələri daxildir″ [1, s.74)

Bu istiqamətdə olan terminologiya və digər işgüzar danışıqlar zamanı istifadə edilən müəyyən leksik və hətta qrammatik materialların tədrisi işgüzar ingilis dili fənninin üzərinə düşür.

Əlbəttə ki, bu fənni də digər fənlər kimi daha da geniş və maraqlı şəkildə tələbəyə aşılamaq üçün ilk öncə internet resurslarından istifadə etmək lazımdı. ″ Təhsilin həqiqətən zəmanəyə uyğun yeni keyfiyyətini əldə etmək üçün bugünkü ingilis dili müəlliminin vəzifəsi nəinki İKT-yə yiyələnmək, həmçinin tədris prosesinin funksiyalarının nisbətinə yanaşmanın necə dəyişdiyini dərk etməkdir″ [2, s422].

Işgüzar ingilis dilinin tədrisi zamanı bu fənni tədris edən müəllimlərə köməyə gələn bir sıra vebsaytlar vardır. Bu veb səhifələrə aşağıdakı internet səhifələri misal gətirmək olar:

www.about.com
www.businessenglishsite.com
www.esllibrary.com və s.

Bu internet mənbələrindən birincisi (www.about.com), özündə bir sıra işgüzar məzmunlu kiçik mətn və leksik materialları ehtiva edir. Digər ikincisində isə (www.businessenglishsite.com) işgüzar ingilis dili fənni müəllimləri bir sıra, öz tələbələri üçün faydalı ola biləcək çalışmalar tapa bilər. Ən sonuncu qeyd etdiyimiz internet resursu isə həm müəllim, həm də tələbələr üçün faydalı ola bilər.

Əlbəttə ki, bu fənni yüksək səviyyədə tədris etməkdə yalnız müxtəlif internet veb səhifələr, işgüzar danışıqların yer aldığı qısa video yazıları kifayət etmir. Bu zaman daha önəmlisi həmişə müəllimin istifadə etdiyi dərsliklər olmuşdur. Bu dərsliklərə misal olaraq, Bill Mascullın müəllifi olduğu, çətinlik dərəcəsinə görə elementar səviyyədən tutmuş ən yüksək səviyyəyə qədər çap edilmiş ″Business Vocabulary in Use″ kitabını nümunə gətirmək olar. Kitabda işgüzar İngilis dilində istifadə edə bilinəcək müxtəlif məzmunlu söz, söz birləşmələri və ifadələr bir sıra başlıqlar altında verilir. Məsələn, ″İşlər, insanlar və təşkilatlar″, ″İstehsal″, ″Marketing″, ″Pul″, ″Maliyyə və iqtisadiyyat″, ″Telefon, faks və elektron poçtu″ və s. Terminlərin belə təsnifatlar altında oxucuya təqdim olunması, onun üçün daha önəmlilərinin və mütəxəssis, və ya tələbənin artıq ixtisaslaşdığı və ya ixtisaslaşacağı sahəyə aid olanlarının daha da asanlıqla tapılmasına zəmin yaradır.

Bu dərslikdə verilən bir sıra söz və ifadələri hələ də işgüzar danışıqların aparıldığı, bir sıra dövlətlər üçün önəmli olan anlaşmaların imzalandığı salonlarda eşitmək olar. Belə söz və ifadələrə aşağıdakılarını misal gətirmək olar:

Share option – yüksək rütbəli məmurların şirkətin səhmlərini aşağı qiymətlə almaq hüququ [3,s 18]

Performance review – rəhbərliklə keçirilmiş müntəzəm iclas [3,s22]

Glass ceiling – iş yerlərində qadınlara qoyulan qadağa [3, s 24]

Food processing - ərzaq emalı sahəsi [3, s 36]

Inputs – daxil olunan əmtəələr [3, s 56]

Performance related bonuses – iş fəaliyyəti ilə bağlı ödənilən bonuslar [3, s.78] və s.

Belə misallara adını çəkdiyimiz dərslikdə kifayət qədər rastlaşmaq mümkündü.

İşgüzar ingilis dili tədris edilərkən, bu dildə müəyyən qədər istifadə edilən cümlə konstruksiyaları, onların işlənmə meyarları, bu zaman əməkdaşlar və ya müəyyən danışıq aparan tərəflər üçün faydalı ola biləcək qrammatik qaydaların tədrisinə də xüsusi yer ayrılmalıdır.

Qrammatikanın tədrisi zamanı xüsusilə qeyd etmək vacibdir ki, danışıq dilindən fərqli olaraq işgüzar dildə daha çox geniş, çox zaman isə müxtəsər tipli sadə cümlələrdən istifadə edilir. Konkretlik və lakoniklik bu dil üçün səciyyəvi xüsusiyyətlərdən biridir. Yəni əgər tələbə ingilis dilinin qrammatikasını ən mükəmməl səviyyədə bilməsə belə, asanlıqla xarıcı iş adamı ilə ünsiyyətə girə bilər.

Beləliklə, əvvəldə də qeyd etdiyimiz kimi işgüzar İngilis dili tədris edilərkən auditoriyalarda daha çox işgüzar leksikanın tələbələrə aşılanmasına yer ayrılmalıdır. Bu zaman müəyyən hazır leksik materiallardan, lüğətlərdən başqa müəllimənin köməyinə dinləmə materialları da gəlir. Bu materialları dinləyərkən tələbə həm işgüzar və eləcə də gündəlik mövzularala bağlı sözləri, söz birləşmələrini və digər ifadələri eşidir və onun həmin dilin daşıyıcıları tərəfindən canlı səslənməsinin şahidi olur. Dinləmə mətninin belə səslədirilməsi tələbələrə onun əsl tələffüzü və işgüzar intonasiyasına mükəmməl yiyələnməyə imkan yaradır.

İşgüzar ingilis dilinin tədrisi ilə bağlı bir sıra ali məktəb dərslikləri vardır ki, onların tərkibində biz dinləmə tapşırıqlarıyla rastlaşa bilərik. Bunlardan biri 3

müəllifin (David Cotton, David Falvey və Simon Kent) həmmüəllifliyi ilə ərsəyə gəlmiş ″Market leader″ kitabına nəzər salaq; dərslikdə hər bir dərs giriş, lüğət, oxu, dinləmə və müəyyən iqtisadi problemin öyrənilməsi və müzakirəsi bölmələrinə bölünür.

Elə ilk dərsin dinləmə materialına nəzər salsaq, görərik ki, bölmə üç çalışmadan ibarətdir [4, s9]. İlk çalışmada (CD1.4) bir televiziya şirkətinin maliyyə işləri üzrə rəhbərinin müsahibəsi tələbələr tərəfindən dinlədilir. Tələbələr onu dinlədikdən sonra aşağıdakı suallara cavab verməlidirlər. Bu suallar onun cari və əvvəlki işinin təsviri və maliyyə aləmində bir şöbədən digərinə keçmənin niyə asan olmağı ilə bağlıdır. Çalışmanın özəlliyi onunla bağlıdır ki, əsasən maliyyə fakultəsində təhsil alan tələbələr bu mətni dinləyən zaman maliyyə sahəsinin terminologiyasını elə o sahənin rəhbər vəzifəsini daşıyan bir işçinin səsləndirilməsi ilə dinləyir. Digər dinləmə

çalışması isə (CD 1.5) müsahibənin ikinci hissəsini dinləyib, boş qalan xanaların doldurulması ilə bağlıdır. Növbəti üçüncü tapşırıq müsahibə zamanı xatırlanan mövzuların ardıcıllığının tələbələr tərəfindən müəyyənləşdirilməsi ilə bağlıdır. Bu dinləmə materialları dərslikdə kifayət qədər öz əksini tapmışdır.

Bu maraqlı, eyni zamanda günümüzün tələbi ilə səsləşən fənn ölkəmizdə artıq qeyd etdiyimiz kimi bir neçə ali məktəblərdə tədris edilir. İşgüzar ingilis dilinin tədrisi zamanı hal-hazırda daha çox xarici müəlliflərin dərsliklərindən istifadə edilir. Əlbəttə bir sıra ali təhsil ocaqları vardır ki, orada universitet əməkdaşlarının birgə qələmə aldıqları dərsliklərindən də istifadə edilir. Amma bu bir danılmaz faktdır ki, bu kitabların quruluşu və onların məzmunu dünyanın bir çox xarici ölkələrində tədris edilən iqtisadi yönümlü dərsliklərdən tamamilə fərqlənir.

Müstəqilliyimizi əldə edəndən bəri ölkəmizin iqtisadi həyatı sürətlə inkişaf edir. 1994- cü ildə Azərbaycan Dövlət Neft Şirkətinin dünyanın ən böyük 11 ən iri neft şirkəti ilə imzaladığı müqavilə, ölkəmizin qapılarını xarıcı iş adamlarına açıq

etdi. `Artıq vətənimiz üçün çox əhəmiyyətli olan bu müqavilə imzalanandan bəri ölkəmizin neft sənayesi dayanmadan inkişaf edir. Və ölkənin iqtisadi əlaqələrinin

dayanmadan irəliləməsi bütün tələbatlara cavab verəcək bir fənnə aid müasir tələblərə cavab verən yeni dərsliyin yaranmasına inamı daha da artırır.

Ədəbiyyat

1. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı: Şərq-Qərb, 2007
2. Qazıyeva M. Tədris prosesində kompüter texnologiyalarından səmərəli istifadə/ Xarici dillərin tədrisinin aktual problemləri. Respublika elmi-praktik konfransının materialları. Bakı: 7-8 may, 2014
3. Mascull B. Business Vocabulary in Use. Cambridge University Press: 2002
4. Cotton D, Falvey D, Kent S. Market leader. Pearson: 2009

С.Оруджева

Обучение деловому английскому языку и его важность

Резюме

В статье говорится об изучении делового английского языка в высшех вузах Азербайджана. Преподавание этой темы имеет большое значение в то время, когда экономика быстро развивается в стране. Основой делового английского языка является терминологическая лексика, которая является ключевой особенностью в деловых выступлениях.Чтобы представить этот предмет студенту более интереснее, в первую очередь необходимо использовать интернет-ресурсы. Конкретность и лаконичность - одна из типичных особенностей этого языка.В этой статье перечислены некоторые учебники по этому предмету. К сожалению, большинство авторов этих учебников - иностранные авторы. Современные учебники по этому тему не соответствуют требованиям. Некоторые упражнение из этих учебников имеют большое значение для студентов. Упражнения для прослушивания имеет особенно важную роль среди них.

S.Orujova

Teaching business English and its essential importance

Summary

The article speaks about the study of the business English in Azerbaijan. Teaching this topic is of great importance at a time when the economy is rapidly developing in the country. The basis of business English is terminological vocabulary, which is a key feature in business presentations. To present this subject to the student more interesting, first of all it is necessary to use Internet resources. Concreteness and brevity is one of the typical features of this language.

This article lists some textbooks on this subject. Unfortunately, most authors of these textbooks are foreign authors. Modern textbooks on this topic do not meet the requirements. Some of the exercises from these textbooks are of great importance to students. Exercises for listening has a particularly important role among them.

Rəyçi: Xavər Hacıyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

XOŞQƏDƏM HÜSEYNZADƏ
ADNSU
Khanim.huseynzade@mail.ru

XARICI DİL TƏDRİSİNİN MƏQSƏDI, MƏZMUNU VƏ ONUN BAŞQA ELMLƏRLƏ ƏLAQƏSİ

Açar sözlər: praktiki məqsəd, texniki və bədii ədəbiyyat, canlı nitq, xarici dilin tədrisi, beynəlxalq əlaqələr
Ключевые слова: практическая цель, техническая и художественная литература, живая речь, обучение иностранных языков, международные отношения
Key words: practical purpose, technical and fiction, live speech, teaching of foreign language, international relations

Ali məktəblərdə tədris edilən hər bir fənnin məqsədi olduğu kimi, xatici dil tədrisinin də məqsədi vardır. Bu haqda xarici dil proqramında yazılır: "Məktəbdə xarici dillərin tədrisi praktik, təlim və tərbiyəsi məqsəd daşıyır. Tədrisin praktik məqsədi tələbələrə xarici dil mətnlərini müstəqil oxumağı, müəyyən mövzuya dair və oxuduqları mətnlə əlaqədar söhbət aparmağı öyrətməkdən ibarətdir. Ali məktəbi bitirən hər bir tələbə xarici dil üzrə aşağıdakı bacarıq və vərdişlərə yiyələnməlidir:"tədris materialı əsasında qurulmuş canlı nitqi və lentə yazılmış 4- 5 dəqiqə müddətində səsləndirilən, dəqiqədə sürət etibarilə 80- 100 sözdən ibarət olan nitqi başa düşmək;proqramda nəzərdə tutulan mövzular üzrə söhbətdə iştirak etməyi və söhbət zamanı sual- cavab verməyi bacarmaq";Yuxarıda verilən tələblər məqsəddən doğan tələblərdir. Onları yerinə yetirən hər bir müəllim tədrisdə yüksək keyfiyyət əldə edə bilər. Bundan başqa tədris edilən fənnin qarşısında təlim- tərbiyə məqsədi qoyulur ki, bu da proqramın tələbindən irəli gəlir. Proqramda bu barədə yazılır: "Gənc nəslin xarici dilləri öyrənməsi xalqlar arasında qarşılıqlı anlaşmanı asanlaşdırır, dostluq, işgüzar və mədəni əlaqələrin genişlənməsinə və möhkəmlənməsinə kömək edir. Xarici ədəbiyyatda müstəqil işləmə bacarığına yiyələnmək, elmı, texniki və bədii ədəbiyyatdan istifadə etmək üçün geniş imkanlar açır. Xarici dil tədris fənni kimi tələbələrin ümumi təhsilini artırır, onların təfəkkür və nitqlərinin inkişafına təsir edir". Tədrisin məqsədinə dair müxtəlif fikirlərlə razılaşmaq mümkündür. Bu mübahisələr əsasən iki səbəbdən irəli gəlir. Birincisi, xarici dil tədrisinin spesifik xüsusiyyətlərinin müəyyənləşdirilməsində olan anlaşılmazlıq, ikincisi isə, başqa fənnlərdən fərqli olaraq xarici dil tədrisinin cəmiyyətin ictimai quruluşun və hakim sinfin siyasəti ilə səslənməsidir. Hər

bir cəmiyyət xarici dili öz quruluşunun tələbləri fonunda öyrədir. Ölkəmizdə xarici dillərin tədrisi, yuxarıda proqramın göstərdiyi kimi ümumtəhsil və tərbiyəvi məqsəd daşıyır. Bunlar aşağıdakılardır:

a) ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsi;

b) elm və texnikanın, incəsənətin müxtəlif sahələrində qazanılan fikir mübadiləsi;

v) nümayəndələrin gediş – gəliş məsələsi;

Bundan başqa qərarda deyilir ki, tələbələr praktik vərdişlərə yiyələnməlidirlər. Xarici dilin tədrisinə tətbiq edilən dilə "praktik yiyələnmə"terminini, başqa adamların fikirlərini anlama bacarıq və vərdişlərinin aşılanması kimi başadüşmək lazımdır. Bu bacarıqlar sonra formalaşır, nitqə çevrilir. əgər insanlar arasında ünsiyyət bilavasitə yaradılırsa, onda dilə praktik yiyələnmə nitq fəaliyyətinin müxtəlif növlərini: şifahi nitqə, oxu və yazıya xarakterik olan bacarıqların formalaşmasını tələb edir. Ünsiyyət məsələsi şifahi nitqlə bağlı məsələdir. Bəs "şifahi nitq" nədir? Sualına bir qədər diqqət yetirmək lazımdır. Xarici dil proqramlarında "şifahi nitq"terminini "cümlələrin şifahi qurulması məhfumu" kimi qəbul edirdilər. Son zamanlar isə "şifahi nitq" və "danışıq nitqi" terminlərinə daha çox təsadüf edilir. Sifahi nitq dedikdə, "şifahi ünsiyyət" başa düşülür. Əgər bir adam dil materiallarını yaxşı mənimsəyibsə, o həmin dildə şifahi danışmaqda heç bir çətinlik çəkməyəcəkdir. Ona görə də dil materiallarının avtomatlaşması şifahi nitqin əsasını təşkil edir və aşağıdakıları nəzərdə tutur:

a) eşitmə və anlama;

b) danışıq vasitəsilə öyrətmə;

Dildə ünsiyyət yalnız şifahi deyil, yazılı şəkildə də aparıla bilər. Buna görə də xarici dilə praktik yiyələnmək üçün onu oxu və yazı ilə əlaqələndirmək lazımdır. Tələbə oxuduğu mətni başa düşməli, onun məzmununu yazılı şəkildə başqasına başa sala bilməlidir. Bu vəhdəti nəzərə almadan xarici dili öyrətmək məsələsi normal hesab edilə bilməz. Yazı üçün qarşıya qoyulan məqsədi nəzərdən keçirərək qeyd etmək lazımdır ki, yazı oxuya nisbətən çox yayılmış və təhsilin məqsədini aydınlaşdıran əsas nitq formalarından hesab edilir. Buna görə də tələbələrə yazılı nitq bacarıq və vərdişlərini öyrətmək lazımdır. Akademik Şerba ana dilinin öyrədilməsində əsas etalon müqayisəni hesab edirdi. O, yazır: " Ana dili xarici bir dil ilə müqayisə vasitəsilə öyrədildikdə, tələbə verilən materialı daha yaxşı qavrayır. Belə olmadıqda tələbələr öz ana dilində belə qaydaları ləng öyrənirlər." Əgər xarici dil ana dilinin daha yaxşı öyrədilməsində belə əvəzedilməz üstünlüklərə malikdirsə, nə üçün ondan yeri gəldikdə istifadə edilməsin? Müəllim hər hansı bir qrammatik qaydanı keçərkən ana dili ilə müqayisə apararsa, onun tələbələri həmin məsələni daha tez, daha keyfiyyətli qavrayar. Azərbaycanlı tələbələr ingilis dili dərsində qram-

matikadan “artikl” sözünün tədrisini ilk gündən eşidirlər. Çünki bu qrammatik kateqoriya onların ana dilində yoxdur. Demək, Hind- Avropa dillərinə məxsus olan bu qayda müəllim tərəfindən izah olunmalı və mümkün qədər tələbənin ana dilində ona uyğun ekvivalent göstərilməlidir. Belə olduqda tələbələr xarici dili mexaniki yox, şüurlu öyrənirlər. Onlar dil öyrənərkən düşünür, nəticə cıxarırlar. Tələbələr xarici dili öyrənməyə başlarkən, onlar hər şeyi müqayisə etməyə, nəticə cıxartmağa qadir olurlar.

Onlar artıq keçilən materialları təsnif etmək, onları müqayisə edərək fikir söyləmək, cümlədə olan sözləri, sözlərdə olan səsləri ayırmaq, onların hər birinə aid qayda söyləməyi bacarırlar. Bəzi müəllimlər tələbələrin məntiqi təfəkkürünün inkişafına lazımi qayğı göstərmirlər. Onlar hesab edirlər ki, tələbə yalnız xarici dildə danışsa kifayət edər. Müəllimlər unutmamalıdırlar ki, onların tələbələri xarici dili öyrəndikdə həmin dildə çoxlu informasiyaları qəbul edir və belə informasiyalar onların məntiqi təfəkkürünün inkişafına müsbət təsir göstərir. Xarici dilin tədrisi zamanı müəllim tələbələrə dili öyrənilən xalqın keçmişini izah etməli, tələbələrdə beynəlmiləlçilik, vətənpərvərlik hisslərini inkişaf etdirməlidir. Deyilənlərdən belə nəticəyə gəlmək olar: Ölkəmizdəki məktəblərdə xarici dillərin tədrisi praktik, ümumtəhsil və tərbiyəvi məqsəd daşıyır. Praktik məqsəd, tələbələrə şifahi nitq, bacarıq və vərdişləri aşılamaq, oxu və yazı vərdişləri öyrətməkdən ibarətdir. Ümumtəhsil məqsədi tələbələrdə təfəkkürün və ümumdünya- görüşün inkişafı məsələlərini yaratmağı nəzərdə tutur, onlara elmlərin əsasını öyrətməyi tələb edir. İngilis dili tədrisinin məzmunu məsələsi maraqlı və izahata ehtiyacı olan problemdir. Bir qrup metodist- alim hesab edir ki, təlimin məzmunu tələbələrin öyrəndikləri dil materiallarından ibarətdir. Başqa bir qrup isə sübut etməyə çalışır ki, təlimin məzmununa dil materialları ilə yanaşı bacarıq və vərdişlər də daxildir. Didaktika ilə məşğul olan alimlər isə təlimin məzmununa müxtəlif dərslərdə verilən və şüurlu hərəkətlərin əsası olan təlim materialını aid edirlər. Bir sözlə, didaktika fənnlərin elmi əsasını nəzərə alaraq təhsilin məzmununu təyin edir. Hər hansı bir xarici dilə yiyələnmək üçün yalnız söz və qrammatik qaydalar öyrənmək kifayət deyildir. Bunun üçün tələbəyə şifahi nitq, oxu, yazı, bacarıq və vərdişləri də öyrətmək lazımdır. Metodistlərin söylədikləri fikirdən belə müəyyən olur ki, təlimin məzmunu iki hissədən ibarətdir: qazanılmış biliklər, və nitq bacarıq və vərdişləri. Ingilis dili təlimi məzmununun birinci hissəsi konkret dil materiallarını, fonetika, leksika, qrammatika, orfoqrafiyanı bilməkdən ibarətdir. Tələbələr bu dil materiallarını mənimsəmək üçün həmin materialları düzgün təsəvvür etməlidirlər. Məzmunu düzgün başa düşmək üçün dil materiallarının həcmini dəqiq müəyyənləşdirmək lazımdır.

Ingilis dilinin təliminin ikinci tərkib hissəsi bacarıq və vərdişlərdən ibarətdir. əgər ikinci tərkib hissəsinə şifahi nitq, oxu, yazı bacarıq və vərdişlərini

daxil etsək, onda tələbələr təlimi kompleks şəklində almış olarlar. Bundan başqa ingilis dili təliminin məzmununa şifahi nitq və oxu üçün tematika da daxil olmalıdır. Mətnlərin seçilməsi xüsusi məharət tələb edir. Mətnlər elə olmalıdır ki, onlar şifahi nitq bacarıq və vərdişlərin inkişafına müsbət təsir edən amillər olsun. Çünki oxu, yazı bacarıq və vərdişləri mətnlər vasitəsilə yaradılır. Bundan başqa ingilis dilinin qrammatikası ilə azərbaycan dilinin qrammatikası arasında olan fərq məsələsi təlim prosesində tələbəyə başa salınmalıdır. Nitq materialını qavramaq prosesində tələbələrə öyrədilən bir sıra spesifik anlayışlar nitqi davamlı edir. Bu iş isə ilk növbədə tələbənin lüğət ehtiyatı ilə ölçülür. Çünki lüğət ehtiyatı olmadan şifahi nitqdən danışmaq olmaz. Xarici dil təlimi məzmununun müəyyən edilməsi problemi dilçilik elminin sürətlə inkişafı nəticəsində XIX əsrin sonu və XX əsrin əvvəllərində olmuşdur. Bu dövrdə ən çox işlənə sözlərə aid lüğətlər meydana gəlməyə başlamışdır. Nitq materialları dil işarələrinin məcmuudur. Fikrini yazılı və şifahi formada ifadə edən tələbə ona məlum olan nitq işarələrindən istifadə edə bilər. Nitq kommunikasiyasının bu xüsusiyyəti yalnız xarici dildə deyil, anadilində də belə olur. Bizim ana dilində də işlətmədiyimiz çoxlu "passiv" leksika vardır. L. A. Bulaxovski bu məsələ haqqında yazır: " Rus dilində bizim başa düşdüyümüz lakin demək olar ki, nitqimizdə heç vaxt işlətmədiyimiz "passiv" leksika vardır".

Təlimin məzmunuvə məqsədi haqqında aparılan mübaisələr bir daha sübut edir ki, bu məsələ hələ də metodikada öz yerini lazımi şəkildə tuta bilməmişdir. Xarici dilin kommunikativ məqsəd və ya təlim- tərbiyə məqsədi daşıması məsələsi uzun müddət mübahisəli qalmışdır. Təlimin məzmununu müəyyən etdikdə aşağıdakı məsələlər nəzərə alınmalıdır:

a)nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün seçilmiş təlim məzmununun kifayət etməsi;

b) təlim məzmununun tələbələr tərəfindən mənumsənilməsinin konkret şəraitinin nəzərə alınması;

deyilənləri yekunlaşdıraraq bu qənaətə gəlirik ki, ingilis dilinin təlimi məzmununa leksik, qrammatik, fonetik material, şifahi nitq, oxu, yazı bacarıq və vərdişləri daxildir.

Məzmun düzgün müəyyən edilmədən ingilis dilini öyrətmək qeyri-mümkündür.

Ədəbiyyat:

1. Barsuk R.Y. Azərbaycan məktəblərində xarici dil tədrisinin bəzi problemləri.
2. Orta məktəb proqramları, Bakı, 1973
3. Щерба Л. В. Преподавание иностранных языков в средней школе.
4. Булаховский Л. А. Введение в языкознание

X.Huseynzade

Objectives of the special language table, context and continuous scientific sciences

Summary

This article is about the purpose and contents of some teaching problems of foreign languages. It has been noted in the schoolprogramme too. The practical aim of methodical education is to teach the students of foreign topics freely. The students must take part in dialoge and answer the given questions. There are two aims of teaching foreign languages:the using of language as the means of communication and the improving of knowledge. The student must understand the texts they read and explain their contents. They correspond to the phraseological compounds of V. Vinogradov's classification, are an integral part of the language and enrich the vocabulary of the German language. This classification is based on a functional principle and therefore they can be applied both in style and in lexicology.

Х.Гусейнзаде

Цели специального языковых таблиц, контекстов и непрерывных научных наук

Резюме

В этой статье речь идет о цели и содержании, некоторых проблемах обучения иностранных языков. Это отмечено и в школьной программе. Практической целью методики является обучиться студентов к самостоятельному чтению текстов по иностранным языкам.

Студенты должен владеть умением участия в диалоге и ответить на задаваемые вопросы. Существует две цели обучения иностранных языков: использование языка как средство общения и повышение знания студентов. Студент должен понимать читаемый им текст и уметь объяснить им другим.Они соответствуют фразеологическим соединениям классификации В.Виноградова, являются составной частью языка и обогащают словарный запас немецкого языка. Эта классификация основана на функциональном принципе и потому их можно применять как в стилистике, также и в лексикологии.

Rəyçi: Dürdənə Nağıyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent

SƏKİNƏ SEYİDOVA
ADU
sakinaseyidova@yahoo.com

ÇOXMƏNALILIĞIN AÇILMASINDA TRANSFORMASİYA METODUNUN ROLU

Açar sözlər: törəmə qrammatika, nominal transformasiyalar, müəyyənlik, qeyri-müəyyənlik, transformasiya
Key words: derivative grammar, nominal transformations, definiteness, indefiniteness, transformation
Ключевые слова: производная грамматика, номинальные трансформации, определенность, неопределенность, трансформация

Müasir dilçilikdə özunə möhkəm yer tutmuş törəmə qrammatikasının strukturalizm cərəyanında artıq ənənəyə çevrilmiş anlayışlarına əlavə etdiyi məhz "transformasiya"dır.

Ə.Orucovun redaktəsi altında çapdan çıxmış "Rusa-azərbaycanca lüğət"də trasformasiya sözü belə açılır – transformasiya 1) şəklini dəyişmə, başqa şəkilə girmə, bir haldan başqa hala keçmə; dəyismə, dəyişilmə; 2) elektrik dəyişən, elektrik cərəyanının transformator vasitəsi ilə artırılıb-azaldılması; 3) göz bağlayıcılıq və s. [2, 340]

Təxminən oxşar və biraz geniş açmaya biz M.T.Tağıyevin rəhbərliyi altında çap edilmiş "Azərbaycanca-rusca lüğət"ində rast gəlirik. [3, 535]

Ancaq bu anlayışı ilk dəfə dilçilik elminə gətirən XIX əsrin sonuna yaxın fransız məntiqçisi L.Kutura olmuşdur [1, 74]

O ismlərin feldən düzəlməsinə nominal trasformasiyalar kimi yanaşırdı. müq.et:

/to work/ /work/ (işləmək,iş)

/to teach/ /teacher/ (öyrətmək, müəllim) və s.

Qeyd etmək lazımdır ki, qrammatikanın ənənəvi yolla tədrisində transformasiya prinsipi implicit şəkildə vasitəçi kimi çıxış edir. Məs., ingilis dilində müəyyənliyi və qeyri-müəyyənliyi bildirmək üçün müvafiq olaraq ismi xəbər düzəldən qeyri-müəyyən və ya müəyyən artikldən istifadə etməklə biz bunu müəyyənləşdirə bilərik. Müq. et:

/ He reads a book / (O bir kitab oxuyur) – qeyri-müəyyənlik

/He reads the book/ (O, kitab oxuyur) – müəyyənlik

Bu cümləni /Kitab o oxuyur// şəklində işlətmək qeyri-mümkündür. Beləliklə, bu cümlənin iki mənalı olması istisna edilir.

Azərbaycan dilində danışan hər kəs bilir ki, /atlı/ sözü /at/ sözündən yaranıb, əksinə yox. Eynilə bu mürəkkəb sintaktik konstruksiyalarda budaq

cümlə baş cümlənin hissələrə transformasiyası kimi də başa düşülə bilər. Məsələn, /Mən deyirəm// ifadəsində fikir tamamlanmayıb. Bu ifadəyə /Əhməd gəldi// əlavə etməklə və həmdə /ki/ bağlayıcısı artırmaqla Azərbaycan dilində /Mən deyirəm ki, Əhməd gəldi// cümləsini yarada bilərik.

Müəyyən danışıq məqamında, diskursda aşağıdakı ifadələrə rast gəlmək olur.

-Kim deyir bunu?

-Mən deyirəm?

-Sən kimsən axı?

-Məni tanımadın, mən müəlliməm də.

-Sənə nə deyə bilərəm axı? Nədən bilirsən? Əhməd gəldi, gəlmədi?

-Mən deyirəm. Sözümün üstündə də dururam.

Bu cür dialoqda həmin cümlənin işlənməsi adi haldır. Ancaq fikri tamamlayanda bu artıq cümlədə ikincinin birinciyə obyektidir. Biz burada ikinci cümləni sadə tamamlıqla əvəz edə bilərik: /Mən nəsə deyirəm// və ya /Mən Əhmədin gəlməsini deyirəm//

Bu çevirmə əməliyyatı ilə biz cümlənin tipini asanlıqla müəyyən edə bilirik. Beləliklə, təhlil zamanı transformasiya bir metod kimi həmişə geniş tətbiqedilir. Bu da onunla bağlıdır ki, dil daşıyıcıları öz dillərinin müxtəlif paradiqmləri arasındakı müəyyən əlaqələri xatırlayır və işlədirlər [6, 23].

Trasformasional qrammatika həm konstitusional və funksional, həm morfoloji qaydaları və funksiyaları, həm də qrammatik əlaqələri əhatə edir. Transformasiyalar dilin təsviri və müxtəlif dillərin müqayisəsi üçün çox əlverişli metod olaraq sintaksisdə geniş tətbiq olunur.

1) Törəmə qrammatika çox mürəkkəb bir cərəyan olmaqla vahid kriteriyalarla müəyyənləşmir;

2) mürəkkəblik təkcə təsvir qaydalarında və isarələr sistemində deyil, həm də vahid yanaşma prinsiplərinin olmamasındadır;

3) törəmə qrammatika özündən əvvəlki cərəyanlara (rasionalizm, humboldtçuluq, blumfildçilik) və s. söykənməklə dilçilik tarixində yeni mühüm mərhələdir;

4) N. Xomski həmişə ideal danışan-ideal dinləyən modelini əsas götürərək, dil daşıyıcılarının ana dili bilgisinə söykənməklə onların danısıqda-dinləmədə insani niyyətlərinin sirrlərini açmağa çalışır. Bu da, sözsüz, dilin tədrisində mühüm əhəmiyyətə malik, didaktik məqsədli yanaşma hesab edilə bilər;

5) törəmə qrammatika N. Xomskinin təliminə söykənən yeni bir cərəyanın praqmatik dilçiliyin yaranmasına təkanverib. [5, 122]

Beş bənddən ibarət bu tezislər N. Xomskinin elmi konsepsiyasının əsil mahiyyətini açmır. Ancaq bizim qarşımızda qoyulan məqsəd heç də o konsepsiyanı şərh etmək deyildir.

Əvvəlki modellərdən daha elastik bir model yaratmaq üçün sintaktik struktur söyləmə (Syntactic Stucture Phrase) N.Xomski transformasional komponeti əlavə etməklə öz baxışlarında ciddi dönüş yaratdı. O, öz təhlil modelini sadələşdirərək bu metodu təkminləşdirməyə nail oldu.

Bunun üçün o danışanla - dinləyənin intuasiyasını nəzərə almağa çalışırdı. O çox zaman oxşar cümlələri ayrı-ayrı söyləm sturuktur diaqramlarında təsvir edir və bu oxşarlığı üzə çıxardan insan intuisiyasını inkar edirdi. Bunu biz aktiv və passiv, eləcədə nəqli və sual cümlələrinin timsalında aydın görürük.Biz irəlidə, hər şeydən əvvəl, mütləq transformasiyalara nəzər salmaq istərdik. Bunun üçün aşağıdakı misallara müraciət edək: /The boy hit the bal// (Oğlan topu vurdu) cümləsinin əvəzinə /The boy sold the flat// (oğlan mənzili satdı) cümləsi göstərirki, birinci cümlədə \hit\ infintivlə (məsdər, felinin şəxsiz forması) eyni cür səslənir, ancaq ikincidə çox ciddi dəyişikliyə uğrayan /sold/-un keçmiş zaman forması işlənib.Eyni zamanda o da nəzərə almalıdır ki, xəbər yerində digər mürəkkəb zaman formaları işlənə bilər: Məsələn, /has sold/ (satdı), /will have sold/ (satacaq), /will be solding/ (satıldı). Buna görə də /Aux +V/ (Aux-köməkçi fel +V –fel) simvolu işlənilmılidir. Mürəkkəb zamanlarda və zaman dəyişmələrində köməkçi felin gəlməsi labürdır. Bunun sadə forması belə ifadə oluna bilər: Aux+ zaman +şəkilçi+ (have+en)+ ($be_{+}ing_{)}$. Zaman da prezent və şəkilçi /can, may, must, shall/ modal felləri keçmiş zaman kimi ifadə olunur. Will /-en/ və /-ing/ isə feli sifət formaların düzəlməsinə xidmət edir. (Müq. et: sold, solding, send, sending). /The boy hit the ball// cümləsində Aux (köməkçi fel) yanlız indiki zamanda 3-cü şəxsin təkini bildirir.Deməli, /The boy hit the ball// cümləsi morfo fonemik qaydalar tətbiqində aşağıda göstərilən son həlqəyə malik olacaqdır: /the+boy+Prezens +will+have+en+catch+the+ball//. Deməli, söyləm strukturu qaydaları ilə düzələn, son həlqələrə uyğun gələn və istənilən halda mütləq, ancaq heç bir vəchlə fakültativ transformasiyalara məruz qalmayan cümlələri nüvə cümlələri aldandırırlar. [6, 48].Bir qayda olaraq, bunlar adi nəqli cümlələrdir. Bununla yanaşı fakültativ transformasiya qaydaları da vardır. Onların köməyilə nüvə cümlələrdən yeni cümlələr düzəldilir. Fakültativ transformasiya qaydaları ümumilikdə simvol ilə göstərilir. Fakültativ transformasiya qaydalarında transformasiyanın təsir etdiyi özək bütöv həlqə olur. Transformasiya qaydasından öncə özək həlqənin struktur təsviri olmalıdır. Nəticə isə struktur dəyişiklik kimi verilir.

Transformasiyanın tipologiyası aşağıdakı 4 qayda üzrə həyata keçirilir: [4, 144]

1. Obliqativ və fakültativ kriteriyalara görə;

2. Özüldə duran söyləm strukturlarının sayına görə (phrase markers);

3. Transformasiya əməliyyatının formasına görə:

4. Transformasiya əməliyyatlarının sintaktik nəticələrini biz sual, bağlayıcılı, məchul və nisbi konstruksiyalarda görə bilərik.

Kartezian dilçiliyindən danışarkən ötən əsrin 60-cı illərinin sonlarında N. Xomski yazır ki, son bir neçə ildə XVII, XVIII əsrlərdə və XIX əsrin əvvəllərində aparılmış tədqiqatlara yenidən maraq artmaqdadır. Bu dövr dilçiliyini "Kartezian linqvistikası" adlandıran N. Xomski buna belə münasibət bildirir: "Kartezian dilçiliyi" anlayışı ilə elə ideyalar və maraqlar toqquşmasını səciyyələndirirəm ki, onlar Por – Royal Grammaire generale et rasionnee (1660) - dan inkişaf etmiş "universal" və ya "fəlsəfi" qrammatikanın romantika vaxtındakı və ondan sonra yaranan ümumi dilçiliyin və birlikdə hər ikisinin ümumi arxa planının hissəsinə çevrilmiş ruhun rasionalist fəlsəfəsinin ənənəsini təşkil edirlər.

İstifadə olunmuş ədəbiyyat

1. Koseriu E. Ümumi dilçiliyə giriş. 1992-ci almanca nəşrindən tərcüməsi, "Giriş" məqaləsi və "Qeydlər" prof. F.veysəllinindir. Bakı: Mütərcim, 2005, 270 s.
2. Orucov Ə. Rusca-azərbaycanca lüğət. 3 cilddə. 1 c. Bakı: Azərbaycan Sovet ensiklopediyasının baş redaksiyası, 1991, 605 s.
3. Orucov Ə. Rusca-azərbaycanca lüğət. 3 cilddə. 2 c. Bakı: Azərbaycan Sovet ensiklopediyasının baş redaksiyası, 1991, 712 s.
4. Veysəlli F. Dilçilik ensiklopediyası. Bakı: Mütərcim, 2006, 514 s.
5. Veysəlli F.N. Struktur dilçiliyin əsasları. Studia Philologica II, -Bakı: Təhsil NPM, 2008, 307 s.
6. Chomsky N. Syntactic structure. The Hague, 1957, 264 p.

S.Seyidova

The Role of Transformation Method in Disclosure of Polysemantism

Summary

The article deals with the role of transformation in disclosure of polysemantism. It is noted that Homsky's derivative grammar not only distinguishes the lower and upper layers, but also justifies the approach based on semantic representation. Trasformational grammar covers both constitutional and functional, morphological rules and functions, also

grammatical relationships. Transformations are widely used in syntax as a very convenient method for language descriptions and comparisons of different languages. Thus, derivative grammar is a very complex flow and it is not defined by one criteria. The complexity is not only in the description rules and in the system of signes, but it is also in the absence of a single approach, and derivative grammar is a new important stage in the history of linguistics, leaning on previous flows.

There is explained the transformation analysis methodology and processed the typology of transformation on basis of a large number of examples and all this, is generally implemented according to the four rules outlined in the article.

C.Сеидова

Роль метода трансформации в раскрытии полисемантизма

Резюме

В статье рассматривается роль трансформации в раскрытии полисемантизма. Отмечается, что производная грамматика Хомского не только отличает нижний и верхний слои, но и оправдывает подход, основанный на семантической репрезентации. Трасформационная грамматика охватывает как конституционные, так и функциональные, морфологические правила и функции, а также грамматические отношения. Как очень удобный метод описания языков и сопоставления разных языков трансформации широко используются в синтаксисе. Таким образом, производная грамматика является очень сложным потоком и неопределяется одним критерием. Сложность заключается не только в правилах описания и в системе знаков, но и в отсутствии единого подхода, а также, опираясь на предыдущие потоки, производная грамматика является новым важным этапом в истории лингвистики.

Здесь объясняется методология анализа трансформации и на основе большого числа примеров обрабатывается типология трансформации и все это, как правило, осуществляется в соответствии с четырьмя правилами, изложенными в статье.

Rəyçi: Kamalə Cəfərova
filologiya üzrə fəlsəfə doktoru, dosent

САИДА КАМАРЛИ
АГУНИП,
кафедра «Иностранных языков»
saidaqamarli@mail.ru

ВИДЫ ОБУЧЕНИЯ

Açar sözlər: təhsil, təlim, forma, üsul, fənn, düşüncə, məna,səviyyə, ibtidai məktəb, təcrübə.
Key word: education, teaching, form, method, subject, thought, meaning, level, primary school, experience.
Ключевые слова: образование,обучение,форма, метод, дисциплина, мышление, значение, уровень, начальная школа, опыт.

Введение

Любая деятельность состоит из трёх частей:
- ориентировочно-мотивационной;
- операционально-исполнительной;
- рефлексивно-оценочной.

Отсутствие первой части превращает деятельность в хаотическое скопление отдельных действий без ясной и осознанной цели, когда человек не видит личностного смысла в совер-шаемых действиях, не как значимые, важные, необходимые для себя. Отсутствие же третьей части также приводит к потере цели деятельности, поскольку у человека не сформирована при этом способность оценить своё поэт-апное продвижение к желаемому результату, воз-можность его дос-тижения, перспективы и последствия своего поведения в дальнейшем.

Поэтому учебная деятельность, как и любая другая, должна обязательно содержать все три указанных компонента и важнейшая задача образования – научить учащихся строить свою деятельность как полноценную, разумную, в которой все три части сбалансированы, достаточно развёрнуты, осознанны и полностью осуществлены. При этом имеется в виду, что все действия, в том числе контроль и оценку, осуществляет сам обучаемый.

Формы обучения

Форма – характер ориентации деятельности. В основе формы лежит ведущий метод.

Метод - способ совместной деятельности учителя и обучаемого целью решения задач.

Формы обучения бывают конкретными (урок, домашняя работа, факультативные заня-тия, курсовые, консультации, дополнительные занятия, формы контроля и т.п.) и общими.

Рассмотрим некоторые из форм более подробно.

Урок – коллективная форма обучения, которой присущи постоянный состав учащих-ся, определённые рамки занятий, жёсткая регламентация учебной работы над одним и тем же. Анализ проводимых уроков показывает, что их структура и методика во многом зависит от тех дидактических целей и задач, решаемых в процессе обучения, а также от тех средств, что имеются в распоряжении учителя. Всё это позволяет говорить о методическомразнообразии уроков, которые могут быть классифицированы по типам:

1. уроки – лекции (практически – это монолог учителя на заданную тему, хотя при

известном мастерстве учителя такие уроки приобретают характер беседы);

2. лабораторные (практические) занятия (такого рода уроки обычно посвящены

отработке умений и навыков);

уроки проверки и оценки знаний (контрольные работы и т.п.);

3. комбинированные уроки, такие уроки проводятся по схеме:

- повторение пройденного – воспроизведение учащимися ранее пройденного

- освоение нового материала. На этом этапе новый материал излагается учителем,

либо «добывается» в процессе самостоятельной работы учащихся с литературой.

Отработка навыков и умений применения знаний на практике (чаще всего – ре-

шение задач по новому материалу);

- выдача домашнего задания.

Факультативные занятия как форма обучения были введены в конце 60-х – нача-

ле 70-х г.г. в процессе очередной безуспешной попытки реформировать школьное образо-вание. Эти занятия призваны дать более глубокое изучение предмета всем желающим, хотя на практике, они очень часто используются для работы с отстающими обучаемыми.

Экскурсии – форма организации обучения, при которой учебная работа осуще-ствляется в рамках непосредственного ознакомления с объектами изучения.

Домашняя работа – форма организации обучения, при которой учебная работа ха-рактеризируется отсутствием непосредственного руководства учителя.

Внеклассная работа – олимпиады, кружки и т.п., должны способствовать наилуч-шему развитию индивидуальных способностей учащихся.

Виды обучения

Существует множество подходов к классификации видов обучения. В реферате будутрассмотрены три из них: традиционное, дистанционное и развивающее обучение.

Традиционное обучение

Этот вид обучения является самым (на сегодняшний день) распространённым (особенно – в средней школе) и представляет собой обучение знаниям, умениям и навыкам по схе-ме: изучение нового – закрепление – контроль – оценка.

Увеличение научных знаний не может обойти и школу, проецируясь на содержание дисциплин. Учителя сохраняя ориентацию на передачу, а не на самостоятельное освоение необходимых ученику знаний, повышают требования к объёму усвоенных учеником попытки учителей, школы предусмотреть различные варианты жизнеопределения учеников и обеспечить их необходимым запасом знаний, также ведут к увеличению и усложнению учебного материла. Всё это приводит к перегрузкам учеников. Отсюда можно сделать вывод, что в условиях сегодняшнего дня, школе необходимо от информационной ориентации перейти к личностной и преодолеть большую инертность традиционного обучения в преподаваемых дисциплинах. Этому и служат развивающее и дистанционное обучение.

Учитываются индивидуальные способности, потребности, темперамент и занятость сту-дента.

Он может изучать учебные курсы в любой последовательности, быстрее или медленнее.

Всё это делает дистанционное обучение качественнее, доступнее и дешевле традиционного.

Лекции дистанционного обучения (ДО), в отличие от традиционных аудиторных, исклю-чают живое общение с преподавателем. Однако, имеют ряд преимуществ. Для записи лекций

Используются CD-ROM диски, фляш карты и т.д.. Использование новейших технологий (гипер-текста, мультимедиа, ГИС-технологий, виртуальной реальности и др.) делает лекции вырази-тельными и наглядными. Для создания лекций можно использовать все возможности кине-мотографа: режиссуру, сценарий, артистов и т.д.. Такие лекции можно слушать в любое вре-мя и на любом расстоянии. Кроме того, не требуется конспектировать.

Развивающее обучение

Среди большого числа новаций, захлёстывающих сегодня школу, развивающее обучение (РО) занимает достаточно стабильное положение и стоит на одном из первых мест по значи-мости и связываемых с ним ожиданий по повышению качества образования. Вместе с тем, теория и технология развивающего обучения далеки от завершения, особенно для старшего и среднего звена.

Смысл сказанного выше в последующем конкретизируется путём выделения двух типов мышления: рассудочно-эмпирического и теоретического.

Есть и более простые формулировки этих понятий.

Эмпирическое мышление – ориентация на внешние, чувственно воспринимаемые свойства. Обобщение, если оно выполняется на материале многих задач, также базируется на внешних признаках.

Теоретическое мышление – способ ориентации, обеспечивающий выделение всеобщего для этого класса задач отношения (это первый, аналитический уровень обощения). Использо-вание общего способа и способность выделить особенные формы этого всеобщего отноше-ния, то есть существенных отношений, необходимых для построения подклассов задач пред-ложенного класса (содержательная группировка решённых задач) – это рефлексивный уро-вень. Если дополнительно человек может предложить условия задачи нового подкласса решаемого класса, т.е. способен вывести особенное отношение из всеобщего, то он выходит на синтетический уровень обобщения.В дальнейшем, по мере развития технологии (РО), на первый план вышло ещё одно понятие: учебная деятельность. А освоение учебной деятельности, наряду с развитием теоретического мышления, стало одной из главных задач (РО), по крайней мере на уровне начальной школы.

Итак, с термином **развивающее обучение** мы не связываем никаких конкретных сис-тем развивающего обучения и понимаем его как учебный процесс, в котором, наряду с пере-дачей конкретных знаний, уделяется должное внимание процессу интеллектуального разви-тия человека, направлен на формирование его знаний в виде хорошо организованной систе-мы, на отработку когнитивных структур и операций в рамках этой системы.

Литература

1.Образование: идеалы и ценности (историко-теоретический аспект) под ред. З.И. Равкина – М.:ИТПиО РАО, 1995г. 361-стр.
2.Кумунжиев К.В. Когнитивные основы развивающего обучения. Рукопись, Ульяновск, 1997,82-стр.
3.Пугач В.И., Добудько Т.В. Методика преподавания информатики: Учебное пособие для студентов пед. институтов, Самарский Гос. Пед. Ин-т, 1993 г., стр. 250.
4.Лукьянова М.И., Калинина Н.В. Учебная деятельность школьников: сущность и возможности формирования. Методические рекомендации для учителей и школьных психологов.
Ульяновск: ИПК ПРО, 1998 г., стр. 64.

Səidə Qəmərli

Tədrisin növləri

Xülasə

Yeni təhsil sistemi şagirdlərə məntiqi düşünməyi,tənqidi yanaşmağı,problemləri müstəqil həll etməyi və aşılamağa öyrədir.Bu,təhsilin hər bir sahəsində özünü büruzə verməkdədir.O cümlədən,müasir təhsil prosesində xarici dilin yüksək səviyyədə tədrisi, şagirdlərin xarici dildə sərbəst ünsiyyətə başlaması bu sahəni tədris edən müəllimlərin asas məqsədidir.

Ənənəvi təhsil sistemində şagirdlərə ingilis diliniənçox qrammatik cəhətdən öyrədilirsə, müasir təlim texnologiyaları şagirdin nitqini leksik cəhətdən zənginləşdirir və onu sərbəst istifsdə etməyə yönəldir.

Qloballaşan dünyada daha çox iş adamları və peşəkarlar beynəlxalq biznes biliklərinə,o cümlədən aparici xarici dillərdə yüksək səviyyə biznes kommunikasiya bacariqlarina malik olmalidir.Bu bilik və bacariqlar artiq hər bir iş adamının rəqabətlik üstünlüyünə çevrilmişdir. Beynəlxalq biznes aləmində ən çox istifadə edilən dil – ingilis dilidir. Bu baximdan işgüzar ingilis dilinin yüksək səviyyədə bilməsi xüsusi əhəmiyyət əsb edir. Belə ki, işgüzar ingilis dili bacariqlarinin artırılması iş effektivliyinizin,biznes vəkaryera perspektivlərinin yüksəldirməsinə köməklik edəcəkdir.

Saida Gamarly

Types of teaching methods

Summary

Today, teaching methods have become varied and diversified even more with the advent of new technology. Advances in technology have paved way to an increasing number of new teaching methods to help in student learning. Computers, the internet, digital presentations, audio and video lectures and many others are now available for a better learning experience. While such advancements have made things simpler for most teachers and students, traditional teaching methods will remain to play an important role in student education. Teachers face so many challenges in teaching them a huge amount of knowledge. Imparting information to a roomful of students can be hard, but by using a selection of proven teaching methods, it can also be manageable.

To enumerate all the types of teaching methods would be to create a long list of methods. However, in this article, we will discuss the main types of teaching methods used widely in United States as well as in other countries.Education plays a huge part in people's lives. It prepares a person to face the real – world challenges in life through years of education and training since childhood.

Rəyçi: **Sevil Əliyeva**
Filologiya elmləri namizədi

LALA İLDRIMZADA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
lalai2706@outlook.com

XARİCİ DİL SİNİFLƏRİNDƏ TƏLƏBƏLƏRİN ÜNSİYYƏT PROBLEMLƏRİ

Açar sözlər: hədəf dil, tələbə, dil bacarıqları, dil sinfi, təlim, ünsiyyət, birgə təlim, danışıq, ikinci dil
Key words: target language, student, language skills, language class, learning, communication, collaborative training, speaking, second language
Ключевые слова: целевой язык, учащийся, языковые навыки, языковой класс, обучение, общение, совместная подготовка, разговор, второй язык

Hal-hazırda mövcud metodlar, texnika və ya resursların qaçılmaz tənqidinə baxmayaraq, danışıq, ümumiyyətlə, əldə etmək üçün ən əsas bacarıq kimi qəbul edilir. Kommunikativ dövrün başlanğıcından etibarən dil tədrisinin əsas məqsədi olaraq qəbul edilmiş və onun düzgün inkişafı həm müəllimlərin, həm də tələbələrin diqqət mərkəzinə çevrilmişdir. Bununla yanaşı, sinif şəraitində xarici dildə danışma bacarığının əldə edilməsi asan deyildir. Hətta qabaqcıl tələbələr dil kursunu başa vursa da sinifdən kənarda danışmaq üçün özlərini kifayət qədər hazır hiss etmirlər. Bu çətinlik əsasən şifahi ünsiyyət növləri və janrları ilə müqayisədə sinifdəki danışma imkanlarının xarakterindən və qeyri-adekvatlığından asılıdır. Əslində, müəyyən bir dil kursunda sinif praktikası üçün ən uyğun danışıq növlərini seçmək təəssüf ki, bəzi hallarda kommunikativ halların baş verməsini çətinləşdirir.

Bundan əlavə, inkişaf etmiş dil kursu, tələbələrin sosioloji biliklərini inkişaf etdirmək üçün optimal şərait yaratmalıdır ki, bu da hədəf dilin qrammatikası, lüğət və fonologiyası üzrə biliklərini özündə ehtiva edən dil biliklərıdir. Bununla yanaşı, bu bilik sahələri sinifdə və ondan kənarda müntəzəm olaraq ünsiyyət təcrübəsində istifadə etmək üçün lazımi şəkildə aktivləşdirilməlidir.

Mühüm olaraq, danışığı əhatə edən zehni emal mərhələsinə gəlincə, ana dil və hədəf dil arasında çox fərq yoxdur. Hər ikisi konseptuallaşdırma, formalaşdırma, ifadə etmə, özünü əks etdirmə və danışıqlar proseslərini birləşdirir. Bununla belə, danışma bacarığı ana dilindən ikinciyə avtomatik ötürülə bilməz. Hətta xarici dil şöbələrinin qabaqcıl tələbələri tərəfindən təqdim olunan hədəf dilinin qrammatikası və lüğətinin geniş biliyi düzgün şəkildə inteqrasiya olunmadığı və ya əldə edilmədiyi zaman şifahi ünsiy-

yətdə müvəffəqiyyəti təmin etmir. Danışıq problemləri əlavə olaraq özünü əks etdirmə proseslərinin həddindən artıq istifadəsi və ilk növbədə ana dilində sözlərin formalaşdırılması tendensiyası ilə daha da ağırlaşa bilər.

Bir çox müəllimin müşahidələrində qeyd edildiyi kimi, yuxarıda göstərilən hallar bilik səviyyəsindən və qrupdakı tələbələrin sayından asılı olmayaraq dil siniflərində baş verir. Üstəlik, hər bir tələbə əvvəlki öyrənmə və kommunikativ təcrübələr, həm müsbət, həm də mənfi şəkildə formalaşmış bütün xarakterləri ilə hər hansı öyrənmə və ünsiyyət mühitinə daxil olur. Bu fərdi ölçü xüsusilə yaşca böyük və daha qabaqcıl tələbələr arasında fərdi çətinliklərin xüsusiyyətinə, onların inkişaf etdirdiyi bacarıqların dəqiq qiymətləndirilməsinə və dolayısı ilə dəqiq müəyyən edilmiş ehtiyaclara yaxşı fikir verənlər arasında fərqlənir.

Danışıq bacarığı üzrə tədriq proqramını (sillabusu) tərtib etmək bir neçə faktordan asılıdır: tələbələrin yaşı və dil üzrə bilik səviyyəsi, təlim konteksti və tədrisin məqsədi. Birincisi, müəyyən bir kursda danışığın nə dərəcədə vacib olacağı və danışığın ayrı-ayrılıqda öyrədilməsi və ya digər dil bacarıqlarının tədrisi ilə inteqrasiya olunduğunun müəyyənləşdirilməsi lazımdır. İkincisi, tədris prosedurunu müəyyən edən yanaşma (metod) seçmək vacibdir. Tapşırıq əsaslı yanaşmanın seçilməsi kursun tərtib edilməsində ən mühüm addımdır və bu da tədris prosesinin bütün elementlərinə təsir göstərir. Buna baxmayaraq, müasir çox-funksiyalı tədris proqramı tədris ediləcək danışıq bacarıqlarının hədəf aspektlərini, həmçinin qrammatika və lüğət komponentlərini müəyyən etməlidir.

Ali məktəblərdə xarici dil sinifində, ilk əvvəl tələbələr dili orta məktəb səviyyəsində öyrəndikləri şəkildə nümayiş etdirirlər. Müəllimlər sinif qarşılıqlı əlaqələrin strukturuna nəzarət etmək üçün hədəf dildən istifadə edirlər, tələbələr müəllimlərin dil istifadəsinə cavab verməyə çalışırlar. Bununla yanaşı, sinif ünsiyyətinin ümumi görünüşü müəllimlər və tələbələr arasındakı münasibətlər növlərindən və müntəzəm dərslər zamanı qurulmuş və saxlanılan faktiki əlaqələrdən asılıdır. Maraqlıdır ki, bu nümunələr daimi deyildir, lakin onlar davam edən öyrənmə prosesinin tələblərinə uyğun olaraq yenidən qurulub və dəyişdirilirlər. Sinif mühakiməsinin bu çevik təbiəti bir çox oxşarlıqlara baxmayaraq həmişə unikal və gözlənilməz olan sinif ünsiyyətinin xüsusi dinamikasını yaradır. İkinci dil sinif otaqlarında inteqrasiya ünsiyyət qurmaq məqsədilə tədqiqatlar sinif münasibətlərinin təhlil və təsvir edilməsi üçün istifadə edilə bilən bir konstruksiya təqdim edir. Konstruksiyanın əsas elementləri aşağıdakılardır:

• müəllimlərin sinif ünsiyyətinə nəzarət formaları - əsasən onların peşəkar və praktiki bilikləri ilə formalaşmışdır;

• tələbələrin bu nümunələri qəbul etmələri - əvvəlcədən öyrənmə təcrübəsinə əsaslanan normalar və gözləntilər, o cümlədən "müvafiq" sinif ünsiyyətinin əvvəldən düşünülmüş anlayışları;

• tələbələrin hədəf dilindən istifadəsi;

• mövcud ünsiyyət modelləri tələbələrin hədəf dilindən istifadə etmələri üçün imkanlar yaradır.

Yuxarıda göstərilən elementlərin təhlili təlim səviyyəsinin uyğunlaşdırılmasına və müəyyən bir öyrənmə kontekstində sosial söhbətin daha çox elementlərini tətbiq etməyə imkan verdiyi üçün qabaqcıl səviyyədə danışma tədrisində xüsusilə faydalı ola bilər. İkinci və xarici dil siniflərində müşahidə oluna biləcək iki əsas qarşılıqlı əlaqə var: müəllim-tələbə və tələbə-tələbə qarşılıqlı əlaqəsi. Müəllim-tələbə qarşılıqlı münasibətinin ənənəvi versiyası TRQ adlı model (müəllimin təşəbbüsü, tələbə reaksiyası, müəllimin bu cavabı qiymətləndirməsi) tərəfindən təsvir edilmişdir. Bununla yanaşı, müəllimin sinif ünsiyyəti üzərində nəzarət səviyyəsi dil kursunun və ya dərsinin pedaqoji məqsədi ilə bağlı ola bilər. Müəllim adətən müxtəlif interaktiv sorğu strategiyalarına əsaslanır, lakin TRQ modelində daha az sıx nəzarət edilən sinif modifikasiyalarında tez-tez müşahidə olunur və tələbələr bu ardıcıllığın bir hissəsini əldə edə bilərlər.

Tələbələr bütün bunları qəbul etdikdə (təşəbbüs, cavab, qiymətləndirmə), ardıcıllıq tamamilə tərk edilir və tələbə-tələbə qarşılıqlı əlaqə dəyişir. Ümumilikdə tələbə-tələbə qarşılıqlı əlaqəsi tələbələr arasında ünsiyyət müddətini genişləndirdiyindən, tələbə mərkəzli siniflərdə aparıcı ünsiyyət nümunəsidir. Birgə təlim üzrə qruplarda işləyən tələbələr, tələbələrin təhsil nailiyyətlərini, istəklərini, motivasiyasını, özünə hörmətini, öyrənməyə müsbət münasibətlərini artırmaq və sosial bacarıqların inkişaf etdirilməsinə kömək edən bir çox konstruktiv tələbə-tələbə qarşılıqlı əlaqələri yaradır. Bununla birlikdə birgə təlim və danışıq bacarığı üzrə təlim, müəllim-tələbə qarşılıqlı əlaqələrinin üstünlük təşkil etdiyi müəllim mərkəzli dərslərdə baş verə biləcək münaqişələr yarada bilər.

Müəllimin tələbə-tələbə qarşılıqlı təsirindən istifadə etdiyi nəzarət ölçüsü dəyişə bilər, ancaq bu kontekst danışıq üçün uyğun atmosfer yaratmaq məqsədi daşıyır. Beləliklə, sinifdə olan atmosfer rəqabətdən daha çox əməkdaşlıq yaratmalıdır və tələbələrin düşüncələri, onların fərqli perspektivləri ilə məşğul olmalıdır. Tələbə-tələbə qarşılıqlı təlim fəaliyyətinin müxtəlif növlərində tətbiq olunan qarşılıqlı əlaqələr yüksək səviyyəli tələbələr üçün xüsusilə uyğun olduğu iddia edilə bilər. Qabaqcıl və daha yetkin tələbələr hədəf dildən həm bir vasitə (bir qrupda tapşırıq həyata keçirərkən), həm də bir məqsəd kimi istifadə edə bilirlər (vəzifənin nəticəsi kimi xüsusi bir ifadə nümunəsi yaradır). Sinifdə mövcud şərtlərin tələblərinə uyğun olaraq, onlar müxtəlif ictimai məqsədlər üçün istifadə edə bilərlər.

Başqa sözlə, çox şey öyrənmiş olduqları üçün, tələbələrə dili daha geniş şəkildə tətbiq etməyə və ana dilindən hədəf dilə keçmədən ünsiyyət qurma fürsətindən istifadə etməyə imkan verir.

Tələbə-tələbə qarşılıqlı əlaqəsi, müəllim-tələbə qarşılıqlı əlaqəsindən fərqli olaraq, hədəf dilinin öyrənilməsi və istifadəsi üçün optimal şəraiti təmin edir, həm də məna mərkəzli və forma yönəldilmiş dil praktikası üçün bir yer açdıqda, tələbələrə qarşılıqlı təsir yaratmağa, nəzarət etməyə imkan verir və son olaraq, ən azı, tələbələrin məna danışıqlarına qatılmaq və müxtəlif dil funksiyalarını yerinə yetirməklə mövcud dil səviyyəsindən kənarda fəaliyyət göstərmələrini təmin edir.

ƏDƏBİYYAT

1. Babu, Rameş, (2010). Danışıq ingilis dilinin tədrisi: problemlər, həllər and üsullar.

2. Baldwin, Caroline, (2011). Şifahi təqdimat zamanı utancaqlığı necə aradan qaldırmaq olar?

3. Broun, H.D. (2001). Prinsiplər əsasında tədris. Dil pedaqogikasına interaktiv yanaşma.

4. Liu, Meihua, Huang, Venhong. (2010). Xarici dil narahatlığı və İngilis dili öyrənmə motivasiyasının tədqiqi. Təhsil Araşdırma Beynəlxalq Konfrans, 2011.

5. Riçard, J.C. (2008). Dinləmə və danışmanın tədrisi: Nəzəriyyədən praktikaya. Kembric Universiteti.

L.ldrimzade

Problems of students' oral communication in foreign language classroom

Summary

"Speaking" is the delivery of language through the mouth. Speaking is the second of the four skills that we learn. This is vocalized form of language usually requires at least one listener. When two or more people speak or talk to each other, the conversation is called a "dialogue". Speech can flow naturally from one person to another in the form of dialogue. It can also be planned and rehearsed, as in the delivery of a speech or presentation.

The use of English as a second language or foreign language in oral communication is, without a doubt, one of the most common but highly complex activities necessary to be considered when teaching the English language especially because we ―live at a time where the ability to speak English fluently has become a must, especially who want to advance in certain fields of human endeavor.

The focus of teaching speaking, of course, is to improve the oral production of the students. Therefore, language teaching activities in the classroom should aim at maximizing individual language use.

Л.Илдрымзаде

Проблемы коммуникации студентов в классе иностранного языка

Резюме

«Говорить» - это доставка языка через рот. Говорить - это второе из четырех навыков, которые мы изучаем. Это вокализованная форма языка обычно требует по крайней мере одного слушателя. Когда два или более человека говорят или разговаривают друг с другом, разговор называется «диалогом». Речь может протекать естественным образом от одного человека к другому в форме диалога. Его также можно планировать и репетировать, как при доставке речи или презентации.

Использование английского языка как второго или иностранного языка в устном общении является, без сомнения, одной из наиболее распространенных, но очень сложных мероприятий, которые необходимо учитывать при обучении английскому языку, особенно потому, что мы - в то время, когда говорить по-английски свободно стало обязательным, особенно тем, кто хочет продвинуться в определенных областях человеческой деятельности.

В центре внимания преподавания речи, конечно, заключается в улучшении устного производства студентов. Поэтому преподавание языка в классе должно быть нацелено на максимальное использование языка.

Rəyçi: Gülnarə Əhmədova
filologiya üzrə fəlsəfə doktoru, dosent

ФАРИДА МЕХБАЛИЕВА
BSU
faridamehbaliyeva@mail.ru

КАК СТУДЕНТЫ МОГУТ ИСПОЛЬЗОВАТЬ МОБИЛЬНЫЕ ТЕЛЕФОНЫ ПРИ ИЗУЧЕНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

Ключевые слова.Мобильная технология. учебным контентом. мобильное приложение, социальных сетей. неформального обучения вне класса.
Açar sözlər. Mobil texnologiyalar. təhsil məzmunu. mobil tətbiq, sosial şəbəkə. sinif xaricində qeyri-formal təhsil.
Keywords. Mobile technology. educational content. mobile application, social networks. informal learning outside the classroom.

Мобильная технология повсюду, но ограничиваете ли вы ее или используете в своем классе?

Технология трансформирует то, как мы общаемся, играем, совершаем покупки и ведем бизнес. Эти глубокие изменения оказывают давление на традиционные модели изучения языка, такие как обучение в формальной классной комнате. Они также предоставляют нам потрясающие возможности перепроектировать способ обучения и изучения английского языка.

Обучение с помощью настольных компьютеров и мобильных устройств

Мы все еще используем настольные компьютеры в своем классе для доступа к языковым веб-сайтам например Документы Google, чтобы позволить студентам работать вместе. Вы также можете подключить настольный компьютер к доске и проецировать на него изображения Google. Это бесценный ресурс для преподавания языка.

Однако мобильные устройства позволяют вам и вашим учащимся беспрепятственно взаимодействовать друг с другом, как в формальном, так и в неформальном контексте обучения. Например, учитель может поощрять учащихся к созданию персональной визуальной истории о своей повседневной жизни. Студент может взять ряд снимков моментов в свое время - например, их будильник, зубную щетку, чашку кофе, прогулку на работу и т. д. - и описать действия учителя. Например, «Я принимаю душ и одеваюсь ...» Это часто будет подчеркивать аспекты языка, требующие ввода учителя.

Камеры и микрофоны полезны для изучения английского языка

Телефоны с камерой обеспечивают отличный способ попросить учащихся «заметить» грамматику вокруг них. Вы можете поощрять учащихся фотографировать уличные знаки, меню, рекламные объявления или другие примеры письменного английского, которые они видят вокруг них. То, что неправильно употребляют апострофы или неправильное написание.

Другим полезным инструментом является функция записи на мобильных устройствах. Вот три примера:

1. Учащиеся могут записывать себя, говоря по-английски, и делиться ими с друзьями, которые могут предлагать отзывы. Это отличная возможность практиковать произношение

2. Учащиеся могут записывать разговоры с носителями языка по целому ряду тем и интегрировать их в проекты.

3. Учащиеся могут использовать микрофон творчески и включать записи голоса в отредактированные видео.

Мобильная технология ставит вопрос «Что вы делали в прошлые выходные?» В личную историю, поскольку учащиеся могут делиться с групповыми фотографиями или видеороликами того, что они сделали, куда они пошли и как они себя чувствовали. Они также могут делиться своей деятельностью в социальных сетях, предоставляя возможность изучить, что думают их друзья в выходные.

Два приложения, которые мы можем использовать, и почему.

Нас могут заинтересовать способы персонализации опыта обучения и поощрения иэучающих английский язык учащихся всех возрастов. создавать и делиться своим собственным учебным контекстом. Два приложения, которые помогают, это Vine и FiftyThree. Vine - это мобильное приложение, которое позволяет своим пользователям создавать и публиковать короткие клипы. FiftyThree позволяет пользователям рисовать, наброски и цвета на экране.

Вы можете использовать Vine для получения информации о вас. Попросите ваших учеников создать смешное или причудливое видео о себе, а остальная группа должна угадать, кто это.

Вы можете использовать FiftyThree в качестве визуального учебника для тетради и поощрять учащихся рисовать изображение слова и хранить его для последующего использования. Я также использую приложение в качестве мобильного фотоальбома, в первую очередь для генерации идей.

Советы по использованию мобильных технологий с успехом.

Интеграция технологий в класс - это долгосрочная стратегия. Если это необходимо, надо учитывать следующие моменты.

1. Как учитель, вам нужно заниматься мобильными технологиями самостоятельно, прежде чем вы сможете начать применять его в классе.

2. Чтобы ученики не отвлекались от социальных сетей, задавали четкие цели обучения. Найдите творческие способы использования социальных сетей в планах уроков. Подумайте, как использовать мобильные технологии для деятельности по расширению. «Почему бы вам не опубликовать образ своей работы на своей странице Facebook?», Более интересен, чем «Мы не используем Facebook в этом классе».

3. Если ваша школа не имеет мобильной учебной политики, вам нужно ее для своего класса, прежде чем вы начнете.

4. Проведите некоторое исследование. Требуется много времени, чтобы найти подходящие приложения. Процесс модерации не существует, поэтому даже с платными приложениями трудно понять, подходят ли они или нет.

5. Не перегружайте свой класс технологией. Учащиеся часто не понимают преимуществ технологии обучения языку. Таким образом, он помогает внедрять приложения и мобильные учебные занятия по одному за раз. Затем, как группа, вы можете подумать, полезны ли они.

6. Если у вас недостаточно времени для использования мобильных устройств в классе, подумайте, как их можно использовать для неформального обучения вне класса. Ваши ученики выиграют от этой идеи.

Использование мобильных телефонов на уроках английского языка.

В эти дни кажется, что мобильные телефоны используются повсеместно и для всего, что приводит к очевидному вопросу: как технология мобильных телефонов может поддерживать при обучении второму языку? Ответ «по-разному», потому что мобильные телефоны имеют все возрастающие функции, которые большинство учеников умело используют. Мобильное обучение языку. Недавняя заинтересованность в потенциале мобильных телефонов и других портативных устройств для поддержки обучения и обучения обусловлена тем, что мобильные телефоны относительно дешевы и становятся все более мощными. Другое преимущество заключается в том, что учащиеся привыкли работать с ними, часто более, чем с компьютеры. Учащиеся предпочитают использовать мобильные телефоны для многих видов деятельности: от электронной почты до чтения книг. Исследования использования мобильных телефонов для доставки лексических материалов учащимся, изучающим английский, показывают, что студенты пользуются своими телефонами из-за легкого доступа к материалам и способности практиковать в любое время и в любом

месте; Кроме того, некоторым учащимся нравятся ограничения на размер экрана, которые делают количество контента более управляемым, чем количество других учебных материалов. Существует несколько педагогических причин, которые следует учитывать при использовании мобильных телефонов при изучении второго языка. Самое главное, телефоны - это социальные инструменты, которые облегчают аутентичное и актуальное общение и сотрудничество между учащимися.

Использованная литература.

1.Google website
2.Facebook page
3.Twitter

F.Mehbalieva

How students can use mobiles to learn English

Summary

Technologies change people's communication, play, shop and business. These profound changes put pressure on traditional language learning models, such as formal education. We still use desktop computers in our class to access language sites such as Google Docs that allow students to work together. You can also add a plaque to a desktop computer and take Google photos on it. This is an indispensable source of language teaching. Camera phones offer a good way to ask students to "distinguish" the surrounding grammar. We may be interested in personalizing the teaching experience and encouraging learners of English at all ages. Creating and sharing your own learning context allows mobile devices to create a comprehensive, personalized learning environment. Students are now active researchers and are more adapted to their needs. Mobile technology also helps make better use of time planning lessons. If you do not have enough time to use mobile devices in your classroom, consider how to use informal learning outside your classroom. Your students will benefit from this idea.

F.Mehbalıyeva

İngilis dili öyrənmək üçün tələbələr nece mobil telefondan istifadə edə bilərlər

Xülasə

Texnologiyalar insanlarin ünsiyyət, oyun, dükan və iş aparmağını dəyişdirir.Bu dərin dəyişikliklər formal sinifdə təhsil kimi ənənəvi dil öyrənmə modellərinə təzyiq göstərir. Şagirdlərin birlikdə işləməsinə imkan verən Google Docs kimi dil saytlarına daxil olmaq üçün hələ də bizim sinifdə masa üstü kompüterlərdən istifadə edirik. Ayrıca bir masa üstü kompüterə lövhə qoşula və üzərinə Google şəkillərini çəkə bilərsiniz. Bu, dilin tədrisi üçün əvəzsiz bir qaynaqdır. Kamera telefonları tələbələrə ətrafdakı qrammatikanı "fərqləndirmək" üçün sual vermək üçün yaxşı bir yol təqdim edir. Biz tədris təcrübəsini fərdiləşdirmək və hər yaşdan ingilis dili öyrənənləri həvəsləndirmək yolları ilə maraqlana bilərik. öz öyrənmə kontekstini yaratmaq və bölüşmək mobil qurğular hərtərəfli, fərdiləşdirilmiş öyrənmə mühitinin yaradılmasına kömək edir.Tələbələr artıq fəal tədqiqat-çılardır və dərsləri ehtiyaclarına uyğun olaraq daha çox uyğunlaşdırılırlar. Mobil texnologiyalar da vaxt planlaşdırma dərslərindən daha yaxşı istifadə etməyə kömək edir. Sizin sinif otağınızdakı mobil cihazlardan istifadə etmək üçün kifayət qədər vaxtınız yoxdursa, sinif xaricində qeyri-formal öyrənmə üçün necə istifadə olunmasini düşünün. Tələbələriniz bu fikirdən fayda-lanacaqlar.

Rəyçi: **Afət Musayeva**
filologiya üzrə fəlsəfə doktoru, dosent

MEHRİBAN ƏFƏNDİYEVA
ADU
mehribanefendi.@gmail.com

FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN TƏHLİLİ

Açar sözlər: frazeologiya, müqayisə, analitik dillər, ekvivalent, yaradıcı funksiya
Key words: phraseology, comparison, analytical languages, equivalent, creative function
Ключевые слова: фразеология, сравнение, аналитические языки, эквивалентны, творческая функция

Frazeoloji birləşmələr elə çox qədim və sonsuz mövzudur ki, aid olduğu dilə zənginlik, dolğun məna və çalarlıq gətirir. Elə bir dil yoxdur ki, frazeoloji birləşmələrdən istifadə edilməsin. Bu birləşmələr dilin mənəvi-əxlaqi dəyərlərini, düşüncələrini və onları yaradan xalqın adətlərini qoruyub saxlayır. Çox vaxt bu birləşmələr fikrin düzgün çatdırılmasında həlledici rol oynayır. Hər bir dilin özünəməxsus frazeologiyası vardır. Müxtəlif dillərin frazeoloji vahidləri praktik yolla daha asan mənimsədilir. Ana dili ilə müqayisəli tədqiq ediləndə isə tərcümə prosesində xeyli məsələlər aydınlaşır, müxtəlif dillərin quruluşu, daxili məna imkanları, oxşar və fərqli cəhətləri üzə çıxır. Müqayisəli tədqiqat göstərir ki, fransız dili analitik dillər qrupuna daxil olduğundan müxtəlif məna çalarları yaratmaq üçün sözönülərindən istifadə olunur. Mövzuda bir sıra frazeoloji birləşmələr və onların Azərbaycan dilindəki qarşılığı təqdim olunur. Frazeoloji birləşmələr insanların uzunmüddətli müşahidə və həyat təcrübələrinin məhsulu olub, məxsus olduğu xalqın həyata baxışını, dünyagörüşünü, düşüncə tərzini, mentalitetini özündə əks etdirir. Onlar hər bir dildə təbiət hadisələrinin, əşyaların, bitki və heyvanların timsalında verilir. Zaman keçdikcə bu dəyərli folklor nümunələrinin böyük əksəriyyəti məzmunca öz aktuallığını qoruyub saxlamaqda davam edir. Təqdim olunan frazeoloji birləşmələrdə maraqlı cəhət budur ki, məzmun hər iki dildə oxşardır. Hər bir dilin özünəməxsus frazeologiyası vardır. Müxtəlif dillərin frazeoloji vahidləri praktik yolla daha asan mənimsədilir. Dildə iki cür söz birləşməsi mövcuddur: sərbəst söz birləşməsi və sabit söz birləşməsi. Sabit söz birləşmələrinə frazeoloji birləşmələr deyilir. Bütövlükdə bir leksik mənanı bildirən söz birləşmələrinə frazeoloji birləşmələr deyilir.Frazeoloji birləşmələr tərkibcə dəyişməyən və məcazi mənada işlənən sabit söz birləşmələridir.

Frazeoloji birləşmələr nitqə ifadəlilik, obrazlılıq gətirən, fikri ifadəli edən dil vahidlərindəndir. Belə birləşmələrə sabit birləşmələr də deyilir. Bir

qayda olaraq, frazeoloji birləşmələr məcazi mənalı olur. Məsələn: ürəyi düşmək, qəlbinə toxunmaq, özündən çıxmaq, zəhləsi getmək, burnunu sallamaq və s.

Frazeoloji birləşmələr bir sözə bərabər olan biləşmələrdir.

Ümumilikdə frazeoloji birləşmələrin əsas xüsusiyyətləri bunlardır:

1. Frazeoloji birləşmələrin tərkibi dəyişməz olur.
2. Bu ifadələr dildə hazır şəkildə mövcud olur.
3. Frazeoloji birləşmələrin tərkibinə daxil olan sözlər öz ilkin həqiqi mənalarını itirir və ylnız məcazi mənada işlənir.
4. İki və daha artıq sözdən ibarət olurlar.
5. Frazeoloji birləşmələr bütöv leksik vahidlərdir, lüğətlərə düşürlər.
6. Əksəriyyəti bir sözlə ifadə oluna bilirlər.
7. Tərkib hissələrinə ayrılmadan bütöv bir cümlə üzvü olurlar.

Məsələn: qulaq asmaq (dinləmək), başa düşmək (anlamaq), ürəyinə xal düşmək (şübhələnmək), başaçatdırmaq(qurtarmaq), əldən üşmək (yorulmaq) və s. söz birləşmələri frazeoloji söz birləşməlidir. *Belə birləşmələrin tərkib hissələri olan sözlər öz* həqiqi mənasından uzaqlaşır və bütövlükdə cümlənin bir üzvü olur. Məsələn: Şagirdlər diqqətlə müəllimə qulaq asırdılar cümləsindəki frazeoloji birləşmə nə edirlər? sualına cavab verir, deməli, cümlənin xəbəridir. Frazeoloji birləşmələr dildə hazır şəkildə olur. Onların çoxunu bir sözlə əvəz etmək olar. Məsələn: *ürəyinə xal düşmək – şübhələnmək, qulaq asmaq – dinləmək, ağzına su aləb oturmaq – susmaq* və s.

Frazeoloji birləşmələr əsas və asılı tərəf olunur.

Frazeoloji birləşmələr omonimlik, sinonimlik və antonimlik xüsusiyyətlərinə malik olur.

Frazeoloji omonimliyə aid nümunələr: can vermək, üz vermək, ürəyi yanmaq, işə düşmək, başa vurmaq və s. Məsələn: Elə bil yağış susuz torpaqlara can verdi. – Döyüşçü yaralanaraq meydanda can verdi; Susuzluqdan ürəyi yanır. – Ananın qocaya ürəyi yanır; Əvvəllər də bədbəxt hadisələr üz verirmiş. – Üz verirsən, astar istəyir.

Frazeoloji sinonimlik dedikdə eyni və ya yaxın mənaları bildirən frazeoloji birləşmələr nəzərdə tutulur. Məsələn: qulaq asmaq – qulaq vermək, qılığına girmək – qəlbinə yol tapmaq və s.

Frazeolioji birləşmələrdəki fərdi və ümumi cəhətlərin əksliyi dil sisteminin inkişafına təkan verir. Hadisələrin əks cəhətlərini açmaq, birisinin əks keyfiyyətinin digərinə keçməsini göstərmək üçün antonim frazeoloji birləşmələrdən istifadə etmək gərəkdir. Burada insanlar həyatlarında maddi aləmdəki əşya və hadisələrin əlamət və keyfiyyətlərini dərk edir, onları fərqləndirir. Antonimlərin semasioloji bir hadisə kimi müəyyənləşməsi bir sıra hadisələrlə bağlıdır:

- frazeoloji antonimlik hər hansı bir söz və birləşmələrin müxtəlif əks cəhətlərini ifadə edir;

- frazeoloji antonimlər bir kateqoriyaya aid əşya və hadisələrə xas olan əks cəhətlərin qarşılaşdırılması yolu ilə onun keyfiyyət və əlamətlərini bildirir. Məsələn, *to beat around the bush* (qeyri-səmimi danışmaq/yazmaq, nala-mıxa vurmaq) - *to get to the point* (mətləbə keçmək, səmimi danışmaq); *to laugh in smb's face* (üzünə gülmək) - *to laugh on the wrong side of one 's face*(arxasınca gülmək);

- frazeoloji antonimlərdə də təzad, antiteza, oksimoron yarana bilir. Bu kimi bədii ifadə vasitələrində lakoniklik, yığcamlıq, konkretlik və s. xüsusiyyətlər ifadəlilik yaratmaq məqsədilə istifadə olunur. Belə ki, xalq aforizmləri əsasında yaranan belə vasitələrdə antonimlərin işlədilməsinin əksliklərin inikasında böyük rolu vardır.

Frazeoloji antonimlik dedikdə mənaca bir-birinə əks olan frazeoloji birləşmələr nəzərdə tutulur. Məsələn: xoşu gəlmək – zəhləsi getmək, ağzına su alib oturmaq – dilotu yemək və s. Frazeoloji birləşmələr omonimlik, sinonimlik və antonimlik xüsusiyyəti daşıyarkən hər iki tərəf mütləq Frazeoloji birləşmə olmalıdır.

Frazeoloji birləşmələrdə əsas və asılı tərəf olmadığı üçün onlara bir tərəfdən digər tərəfə sual vermək olmur.

Frazeoloji birləşmələr nitqə xüsusi ifadəlilik, canlılıq gətirir. Onlar daha çox bədii üslubda və məişət üslubunda işlənir.

Frazeoloji birləşmələr əsas və asılı tərəf olunur.

Frazeoloji birləşmələr omonimlik, sinonimlik və antonimlik xüsusiyyətlərinə malik olur.

Frazeoloji omonimliyə aid nümunələr: can vermək, üz vermək, ürəyi yanmaq, işə düşmək, başa vurmaq və s. Məsələn: Elə bil yağış susuz torpaqlara can verdi. – Döyüşçü yaralanaraq meydanda can verdi; Susuzluqdan ürəyi yanır. – Ananın qocaya ürəyi yanır; Əvvəllər də bədbəxt hadisələr üz verirmiş. – Üz verirsən, astar istəyir.

Frazeoloji sinonimlik dedikdə eyni və ya yaxın mənaları bildirən frazeoloji birləşmələr nəzərdə tutulur. Məsələn: qulaq asmaq – qulaq vermək, qılığına girmək – qəlbinə yol tapmaq və s.

Frazeoloji antonimlik dedikdə mənaca bir-birinə əks olan frazeoloji birləşmələr nəzərdə tutulur. Məsələn: xoşu gəlmək – zəhləsi getmək, ağzına su alib oturmaq – dilotu yemək və s. Frazeoloji birləşmələr omonimlik, sinonimlik və antonimlik xüsusiyyəti daşıyarkən hər iki tərəf mütləq Frazeoloji birləşmə olmalıdır.

Frazeoloji birləşmələrdə əsas və asılı tərəf olmadığı üçün onlara bir tərəfdən digər tərəfə sual vermək olmur.

Frazeoloji birləşmələr nitqə xüsusi ifadəlilik, canlılıq gətirir. Onlar daha çox bədii üslubda və məişət üslubunda işlənir.

Ana dili ilə müqayisəli tədqiq ediləndə isə tərcümə prosesində xeyli məsələlər aydınlaşır, müxtəlif dillərin quruluşu, daxili məna imkanları, oxşar və fərqli cəhətləri üzə çıxır.

Sabit söz birləşmələri – frazeoloji vahidlər, atalar sözləri, zərbi-məsəllər və s. bədii üslubun mənbəyin də dayanaraq həmişə onu saflaşdıran tükənməzdil sərvətidir. Canlı məişət-ünsiyyət dilinin ilkinliyi, deyim tərzinin təbiiliyi bu kristallaşmış ifadələrdə öz təravətini daim hiss etdirir və olduqca təbii haldir ki, şeir yaradıcılığında milli kolorit vasitəsi kimi xüsusi işləklik dərəcəsinə malikdir. Kolorit etibarilə zəngin olan bu dil xəzinəsindən genbol istifadə nəticəsində söz sənətkarları məişət ünsiyyətinə nüfuz etməyə meyllənir və beləliklə də, mətnin aydın və sadə, mənaca tutumlu əsaslarini yarada bilirlər. Poeziya dilində hazır xalq ifadələrindən, atalar sözlərindən, frazeoloji dil materiallarından müxtəlif səpkilərdə istifadə olunur. Qəlib halina düşmüş tərkiblərdə obrazlılıq xüsusiyyəti hakimdir və buna görə də ona həm olduğu kimi, həm də müəyyən dəyişikliklərə uğradilaraq müraciət olunur. Üzərində aparılan üslubi əməliyyatların nəticəsindən asılı olmayaraq onlar bütün məqamlarda aydin və sadə səslənir..

Müqayisəli tədqiqat göstərir ki, fransız dili analitik dillər qrupuna daxil olduğundan müxtəlif məna çalarları yaratmaq üçün sözönülərindən istifadə olunur. Önlüyün birləşdirici, əlaqə, yaradıcı funksiyası frazeologizmin işləndiyi cümlədə bir daha özünü göstərir.Önlüklər frazeologizmlərin tərkibində müxtəlif pozisiyalarda; əvvəlində və ortasında çıxış edir. Bəziləri isə “être, avoir, aller” məsdərlərinin iştirakı ilə əmələ gəlir. Bu kateqoriyanın ifadəsi kimi isə Azərbaycan dilində qoşmalar, hal şəkilçiləri və köməkçi sözlər işlədilir. Tərcümədə hərəkətin keçdiyi yol, baş verdiyi zaman iki dilin frazeoloji vahidlərinin tərcüməsində müəyyən fərq yaranmasına, fransız dilinə məxsus olan frazeoloji birləşmələrin obrazlı ifadəsinə səbəb olur. Classement des locutions phraséologiques. 1 er groupe 1) avoir une taille de guêpe- une taille très fine - incə(zərif) boyu(görkəmi) olmaq; 2) être fort comme un bœuf- très fort - öküz kimi güclü olmaq; 3) être sale comme un cochon - très sale - çox kirli, donuz kimi kirli olmaq; 4) avoir une faim de loup - grand-faim - çox, qurd kimi acmaq; 5) avoir un appétit d’oiseau - manger très peu, avoir un petit appétit - iştahası pis olmaq, quş qədər yeməyi olmaq;

Ədəbiyyat

1. Лопатникова Н.Н., Мовшович Н.А. Лексикология современного французского языка. М.: Высшая школа, 2001. Р. 123–136.

2. Lehmann A., Martin-Berthet F. Introduction à la lexicologie. Sémantique et morphologie. Liège : NATHAN, 2002. P. 36, 175.
3. Müasir Azərbaycan dilinin semasiologiyası, Bakı, 1985
4. Həsənov H. Azərbaycan dilinin semasiologiyası, Bakı, 1978.
5. Богомолова О.И. Современный французский язык. Теоретический курс. Москва 1948.

M.Afandiyeva

Phraseological combinations

Summary

This article is about analysis of phrascological combinations. In this articlebis shown features of phrascological combinations of antonym and synonms on examples of phrascological combinations of the French language.

During the study it was found out that phraseological synonyms are differentiated by their stylistic coloring, level of intensity and shaoles in meanings.

Phraseological synonyms are not usually similar to elements unside a phraseological unit. Phraseological synonyms are not always words different origin, they can be also words of different style.

М.Эфендиева

Анализы фразеологических сочетаний

Резюме

В данной статье были исследованы фразеологические синонимы французского языка.

В результате иследования выяснилось, что фразеологические синонимы отличаются стилической окраской, степенью интенсивности и оттенками в значениях.

В этой статье показоны особенности фразеологических сочитаний антонимов и синонимов.

Фразеологические синонимы не всегда имеют схожие элементы в составе фразеологизма. Фразеологические синонимы это не обязательно ФЕ с различным происхождением, это могут быть и слова из разных стилей.

Rəyci: Yeganə Orucova
filologiya üzrə fəlsəfə doktoru, dosent

JALƏ FƏRHADLI
Azərbaycan Dillər Universiteti
jala@mail.ru

İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİ YOLLARI

Açar sözlər: dil, lüğət, söz, zənginləşmək, leksika, dialekt
Ключевые слова: язык, словарь, слово, обогащение, лексика, диалект
Key words: language, vocabulary, word, enrichment, lexis, dialect

Dil insan cəmiyyətində elə güclü və mühüm informasiya vasitəsidir ki, keçmişimizi bu günə, bu günümüzü isə sabaha çatdırır. Çoxəsrlik təkamül yolu keçmiş ingilis dilinin tarixi xalqımızın tarixi qədər qədimdir. Bu dil hazırki inkişaf mərhələsinə birdən-birə çatmamış, çox ciddi təsir və təzyiqlərə məruz qalmışdır. Zaman-zaman bir sıra işğalçılarla üz-üzə gəlmiş və bunlar da ingilis dilinin söz ehtiyatına önəmli təsirini göstərmişdir.

Milli dilin inkişafında, zənginləşməsində və dolğunlaşmasında əcnəbi dillərin müəyyən rol oynadığı şübhəsizdir, lakin xarici dillərdən hansı sözləri və ifadələri dilə gətirmək problemi var ki, bu məsələ xüsusi diqqət tələb edir. Dilə gətirilən sözləri filterdən keçirməli və bu zaman alınma sözlərin təbii olaraq dilimizdə vətəndaşlıq hüququ qazanması üçün şərait yaradılmalı, hər sözün, ifadənin leksik-semantik və qrammatik məna çalarları, daşıdığı mündəricə yükü nəzərə alınmalıdır. [1]Son zamanlar istər təhsildə, istərsə də mədəniyyət, ədəbiyyat, musiqi və digər sahələrdə xeyli inkişaf getmişdir. Bu irəliləyiş özünü dildə də göstərməkdədir. Bir millətin kimliyini təsdiq edən ən başlıca dəlillərdən biri və bəlkə də, birincisi onun dili və tarixidir.

Demək olar ki, bütün müasir dillər başlıca olaraq öz daxili imkanları və ümumxalq dili əsasında inkişaf edir. Buna görədə həmin imkanlar dilin lüğət tərkibinin zənginləşməsi üçün başlıca mənbədir. Qeyd etmək lazımdır ki, bu hadisə dilin varlığını və onun müstəqilliyini şərtləndirən əsas amillərdən sayılır.Lüğət dilin ən sürətlə inkişaf edən hissəsidir. Hər bir dilin lüğət tərkibi o dildə danışan xalqın maddi və mənəvi səviyyəsi yüksəldikcə artır, çoxalır, zənginləşir. Müasir dövrdə lüğət tərkibi zəngin olan dillər zəngin və qüdrətli sayılır. Müasir ingilis ədəbi dili də belə dillərdən biridir.

Ədəbi dilin lüğət tərkibi müxtəlif vasitələr hesabına zənginləşir, yəni dilin həm daxili imkanları əsasında, həm başqa dillərdən keçən sözlərin vasitəsilə, həm yeni sözlərin yaranması hesabına və s. Leksik yolla sözlərin əmələ gəlməsi prosesi morfoloji və sintaktik yolla əmələ gəlmə prosesindən əsasən öz sadəliyi etibarilə fərqlənir. Lakin zahirən sadə görünən bu yol, həqiqətdə daha mürəkkəb olub, dərin tədqiqata ehtiyacı olan yollardan

biridir. Çünki, öz tarixi və mənşəyi etibarilə bu yolla əmələ gəlmiş yüzlərcə sözlər müasir ədəbi dilin lüğət tərkibində elə dəyişmiş və elə bir formaya düşmüşdür ki, onların nə zaman əmələ gədiyini, həm də məhz bu yolla əmələ gəldiyini müəyyənləşdirmək çox çətin olur. Ədəbi dil üzrə sözlərin leksik yolla əmələ gəlmə prosesində və zənginləşməsində mühüm mənbələrdən biri onun dialektləridir. Doğrudan da dialektlər ədəbi dilin lüğət tərkibini zənginləşdirən tükənməz bir mənbədir. Ümumiyyətlə, məlumdur ki, hər hansı bir ədəbi dil o dilin bu və digər dialekti əsasında formalaşır. [2, s. 20]

Dialekt sözləri ədəbi dilə müntəzəm olaraq söz və ifadələr verir ki, həmin söz və ifadələrdən, frazeoliji birləşmələrdən, ədəbi dildə yazıçı, alim publisist, müəllim, radio və mətbuat işçiləri istifadə etməklə dilalektizmləri bilavasitə ədəbi dil normasına çevirir. Şairlərin, yazıçıların, alimlərin əsərlərində işlənən dialekt sözləri geniş oxucu kütləsi tərəfindən oxunur, qəbul edilir, mənimsənilir və özünə hüquq qazandıqda isə ədəbi dil normasına çevrilərək dilin lüğətinə daxil olur. Hətta onlarca frazeoloji vahidlər də ədəbi dilə dialektizmlərdən keçmişdir. Alimlər öz əsərlərində dialekt sözlərindən, əsasən, termin yaradıcılığında istifadə edirlər.Hər bir ədəbi dilin formalaşmasında onun dialektləri mənbə olmuşdur, həmçinin ədəbi dilin zənginləşməsində dialekt leksikası böyük rol oynamışdır. Əgər inkişafın əvvəlki dövrlərində ədəbi dilə dialektlər təsir edirsə, sonradan ədəbi dilin istifadə dairəsi genişləndikcə, o dialektlərə təsir etməyə başlayır və nəticədə dialektlərlə ədəbi dil arasında fərqlər azalır.İngilis dili mürəkkəb, ali ideyaları, cəmiyyətin inkişaf qanunlarını nəzəri şəkildə ifadə etməyə qadir olan bir dildir. Onun lüğət tərkibi olduqca zəngin və rəngarəngdir. Onun lüğət tərkibinin inkişafı prosesində sabit söz yaradıcılığı sistemi meydana çıxmışdır. Dilin söz yaradıcılığının heç bir ünsürü dilin qrammatik quruluşu xaricində deyil, onun qrammatik strukturları daxilində yaranaraq inkişaf etmişdir. [2, s. 5]Dilin daxili imkanlarından əlavə olaraq alınma sözlər də dilin lüğət tərkibinin zənginləşməsində və formalaşmasında əhəmiyyətli rol oynayır. Yeni sözlərin yaranması qeyd olunan üsullar arasında aparıcı yer tutur. Yeni söz və ifadə yaratmaq ingilis dilində müntəzəm davam edən zəruri bir prosesdir. Bu proses daha çox məhsuldar olub, elm, texnika, sənaye, ədəbiyyat, mədəniyyət və s. sahələrin sürətlə inkişafı fonunda yüzlərcə söz və ifadələrin yaradılması mənbəyinə çevrilir.

Ədəbi dildə yeni söz və ifadələr müxtəlif üsullarla yaradılır. Onlar arasında xüsusilə seçilənlər aşağıdakılardır:

1. Sözlərin leksik yolla əmələ gəlməsi;
2. Sözlərin morfoloji yolla əmələ gəlməsi;
3. Sözlərin semantik yolla əmələ gəlməsi;
4. Sözlərin sintaktik yolla əmələ gəlməsi [2, s.7].

Dilin söz yaradıcılığı prosesində bu üsullardan hər biri tarixən bir-biri ilə bağlı olub, qarşılıqlı əlaqədə olmuşlar.

Müasir ingilis dilində söz yaradıcılığının məhsuldar və qeyri-məhsuldar üsulları vardır. Məhsuldar üsullar: affiksasiya, konversiya, mürəkkəbləşmə, felə sözdüzəldici elementlərin əlavə edilməsi ilə yeni fellərin yaranması, ixtisar; qeyri-məhsuldar üsullara isə aşağıdakılar aiddir: kök saitinin əvəzlənməsi, vurğunun dəyişməsi.

telephone – to telephone (zəng etmək)

fork (çəngəl) – to fork (şaxələnmək)

word (söz) – to word something (nəyisə ifadə etmək, demək)

Mürəkkəbləşmə:

blackcock (tetra quşu), handicraft (əl işi) [3, s.46]

Feldən sonra işlənən sözdüzəldici elementlər vasitəsilə fellərin yaranması:

to eat (yemək) – to eat up (yeyib qurtarmaq)

to cry (ağlamaq) – to cry out (ucadan ağlamaq)

to fall (yıxılmaq) – to fall out (dalaşmaq)

to bring (gətirmək) – to bring about (həyata keçirmək) [3, s.79]

İxtisarlarla:

flu – influenza, tec – detective, frig – refrigerator

phone – telephone, plane – aeroplane

Son vaxtlar, dilə gənclər tərəfindən xeyli miqdarda slenqlər gətirilmişdir. Məsələn, “hot” sözü hazırda slenq mənasında da işlənir. Caz musiqisində “hot” sözü “əla”, “diqqətəlayiq” manasında səslənir.

“Groovy” slenqi caz musiqisində “əla” mənasına çevrilmişdir = “hot” Beləliklə, caz musiqisi ilə əlaqədar “əla” “yaxşı” mənasında belə səslənir: “hot jazz”, “cool jazz”, “far out”. Felnksner bu növ slenqlərin dilə daxil olmasını tam qanunauyğun hesab edir. [4, s. 670]

Bəzi misalları göstərək: hit man – killer, adam öldürən, songbird – xəbərçi, blot out – öldürmək

Qeyd etdiyimiz kimi, ingilis dilinin leksik laylarının zənginləşməsində onun variantlarının çox böyük rolu olmuşdur. Amerika Birləşmiş Ştatları, Kanada, Avstraliya və Yeni Zerlandiyanın ingilisdilli əhalisinin özünəməxsus tarixi və sosial gerçəklikləri, adət və ənənələri, təbii həyat şəraiti və digər amillər bu ölkələrdə danışılan ingilis dilinin variantlarında öz əksini tapmış və spesifik dil realilərinin formalaşmasını şərtləndirmişdir.

İngilis dilinin lüğət tərkibinin alınma sözlər hesabına zənginləşməsi geniş əhatəyə malikdir. Bu xüsusiyyət özünü ən çox ingilis dilinin Kanada variantında göstərir. Buna görə də, Kanadalıların keçmişdə olduğu kimi, gələcəkdə də həm Amerika, həm də Britaniya variantlarından mənbə kimi faydalanacaqları şübhə doğurmur. Lakin təbiidir ki, yeni bir dil vahidi alnma

söz kimi digər dilə keçdikdə, fonetik və semantik dəyişməyə məruz qalır. Başqa sözlə desək, kanadalılar bu sözləri öz ehtiyaclarına uyğun olaraq yeni mənada işlədirlər və izahı geniş müzakirələrə yol açır. Məsələn, *chesterfield* sözü buna nümunədir. Belə ki, Robert Hendrinson özünün "sözlərin və birləşmələrin mənbəyi ensiklopediyası"nda bu termini graf Filip Stanho Chesterfield-in (1694-1773) şərəfinə istifadə etdiyi taxt kimi şərh edir. Buna baxmayaraq, Hendrinson qeyd edir ki, bu söz sonuncu qraf tərəfindən kəşf olunmuşdur, lakin bu qraf haqqında onun heç bir məlumatı yoxdur. Hər halda qədim ingilis lüğətinə görə bu söz 1900-cu ildən bəri taxt, divan mənasında istifadə olunur [5, s.31].

Ədəbi dilə daxil olmuş fransız mənşəli sözlərin çoxu *e (ee)* şəkilçiləri ilə bitir: brule (yanmış meşə), samagite (ət və ya balıqlı bulyon və ya sup), Fransız mənşəli alınma leksikaya*"euse"* şəkilçisi ilə bitən sözlər də daxildir: fameuse (payızın sonunda yetişən alma növü) 2 cür tələffüz olunur. [fəmu:z] [fəmə:z]Çoxmənalı sözlərin adətən bir və ya iki mənası qeydə alınmışdır. Məsələn, fransız dilindəki galette sözünün həmin dildə aşağıdakı mənaları vardır: "pul", "plastinka", "hərbi geyim"(furajka). Həmin sözün Kanada ingiliscəsində yalnız bir mənası "pul" işlənir.

Kanada variantına keçmiş sözlərin bir qrupu birbaşa hindu və eskimos dillərindən alınmışdır. Məsələn, hindu mənşəli tamarak sözü – küknar ağacını bildirir.Biz məqalədə ingilis dilinin lüğət tərkibinin zənginləşməsi yollarını araşdırdıq. Onu da qeyd etmək lazımdır ki, ingilis dilin özünəməxsus leksikasının formalaşmasında başqa bir mühüm amilin – ekstralinqvistik amilin xüsusi rolu olmuşdur. Ekstralinqvistik amilin təsiri altında yaranan leksik təbəqə dilçilikdə həm də milli-mədəni leksik təbəqə hesab olunur. Milli-mədəni leksik təbəqənin mənbəyini spesifik həyat tərzi, adət-ənənələr, din və mifologiya və s. təşkil edir.

Ədəbiyyat siyahısı

1. http://mental.az/users/1/upload/files/%C4%B0ngilis_dilinin_oyrenilmesinin_zeruriliyi_haqqinda.pdf
2. Cəfərov S. "Azərbaycan dilində söz yaradıcılığı, Bakı 1960, ADU nəşriyyatı, səh.203
3. Baily B.L. Toward a new Perspective in Negro English Dialectology – American Speech, 1965, vol.40. seh.172
4. Flexner S.B. I hear American Talking. New York, Van Nostrand, 1976, p.670
5. Миролюбов А.А. Культуроведение в системе современного языкового образования // ИЯЩ, 2001, №3, стр.14

6. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin inkişafı yolları, Bakı, Qızıl Şərq, 1958, 44 s.
7. Wolfram W. Fasold R.W. The Study of Social Dialects in American Eng. Englewood cliffs, Prentice Hall, 1974, səh.28

Дж.Э.Фархадлы

Способы обогащения английской лексики

Резюме

В статье рассматриваются методы и средства обогащения словаря и лексики английского языка. Показано, что словарь английского языка в основном обогащен двумя способами. Первый способ - обогатить язык с помощью собственных внутренних ресурсов. Здесь мы в основном говорим о формировании слов. Второе - обогащение языка за счет заимствований. Заимствования играют основную роль в словах английского языка. Исследования показывают, что заимствования чаще встречаются в канадском варианте английского языка. Следует отметить, что еще одним важным фактором в формировании английского языка является особая роль экстралингвистического фактора. Лексический слой, сформированный под влиянием экстралингвистического фактора, также известен как национально-культурный лексический слой в лингвистике.

J.E.Farhadli

The ways of enrichment of the English vocabulary

Summary

The article deals with the methods and means of enriching the vocabulary and lexicon of the English language. It is shown that the vocabulary of the English language is mainly enriched in two ways. The first way is - to enrich the language by means of its own internal resources. Here we mainly speak of word formation. The second is the enrichment of the language due to borrowings. The borrowings play main role in the word stock of the English language. Research shows that the borrowings are more likely to be found in the Canadian variant of the English language. It should be noted that another important factor in the formation of the English language is the special role of the extralinguistic factor. The lexical layer formed under the influence of the extralinguistic factor is also known as a national-cultural lexical layer in linguistics.

Rəyçi: Vüsalə Ağabəyli
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SARELLA QAİBOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
sarella@mail.ru

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQ MƏSƏLƏSİ

Açar sözlər: şifahi nitq, ingilis dilinin tədrisi, dioloq, dialoji nitq, dil materialı
Key words: oral speech, teaching the English language, diologue, dialogic speech, linguistic material
Ключевые слова: устная речь, преподавание английского языка, диолог, диалогическая речь, лингвистический материал

Şifahi nitq məsələsi ingilis dilinin tədrisində ən çətin və metodikada ən mübahisəli məsələlərdən biridir.

Ölkəmizin xarici ölkələrlə sülh əlaqələrini möhkəmlətmək məqsədilə xarici dil tədrisinin, xüsusilə şifahi nitqin inkişafının xüsusi əhəmiyyəti vardır.

Bu sahədə çalışan metodist alimlər də yaxşı nəticələr əldə etmişlər. Bunlardan A.A.Aryaşova, A.D.Klimentenko, C.B.Ablam, V.L.Skalkin, İ.L.Bim, B.A.Sapidus, N.İ.Qez və b. göstərmək olar.

Metodistlərin şifahi nitq inkişafına dair mühazirələri bir-birilə düz gəlmir. Bəziləri tədrisi şifahi giriş kursu ilə başlamağı, digər bir qrup isə paralel olaraq yazı-oxu və şifahi nitqi aparmağı məsləhət görürlər.

Şifahi nitqin inkişafı məsələsi çətin bir psixi-fizioloji prosesdir. Onlara söz və yaxud qrammatik qaydanı öyrətmək hələ onların şifahi nitqini inkişaf etdirmək demək deyildir. Şifahi nitq zamanı müəyyən ekstralinq-vistik şərait yaranmalıdır. Buraya yaranmış vəziyyət, situasiya, danışanın yaş və bilik səviyyəsini daxil etmək olar.

Şifahi nitqin inkişafına hansı mərhələdə daha çox fikir vermək lazım olduğunu bilməlidir.

Son zamanlar linqvistik mülahizələr və laboratoriya işləri vasitəsilə alınan nəticələr sübut etmişdir ki, kompleks şəkildə tədris edilməsi şəraitində də şifahi nitqi inkişaf etdirmək olar. Məlumdur ki, şifahi nitq materialları leksik qrammatik və fonetik materiallardan ibarətdir. Şifahi nitq üçün materiallar kompleks şəkildə müəyyən nitq çalışmaları vasitəsilə verilə bilər.

A.D.Klimentenko nitqə hazırlıq çalışmalarının əhəmiyyətindən danışaraq yazır: "Şagirdlər şifahi nitqə birdən-birə yiyələnmirlər. Onları bu işə hazırlamaq lazımdır".

Xarici dillərin tədrisində nitqin monoloq və dialoq növlərindən istifadə edilir. Hər iki nitq növü xarici dilin tədrisində özünə məxsus yer tutmuşdur.

Şifahi nitqi inkişaf etdirmək üçün istifadə olunan müxtəlif növlü işlərdən biri də dialoqlardır. Dialoq özünün forması etibarı ilə sual-cavaba bənzəsə də onları bir-birindən ayıran cəhət vardır. Əgər sual-cavabda bir tərəf sual, o biri tərəf cavab verirsə, dialoqda hər iki tərəf həm sual, həm də cavab verirlər. Dialoqlar sual-cavab xarakteri daşımayıb, sadəcə iki və daha çox şəxsin danışığından ibarət ola bilir.

İki şəxs arasında gedən dialoqa dialoji nitq deyilir. Həmin nitq forması ünsiyyət üçün ən əlverişli forma sayılır. Bu növ sual-cavabla gedən ünsiyyət anlaşıqlı olur. Tələbə zəngin lüğət ehtiyatına, qrammatik materiala, yaxşı tələffüz vərdişlərinə malik olur. Ancaq o, öz fikrini ingilis dilində deyə bilmirsə, verilən sualları başa düşmürsə, onların heç biri ona lazım deyildir. Tələbə sadəcə olaraq "Sənin adın nədir?" "What is your name?", "Bu qələm kimindir?" "Whose pen is it?" cümlələrini özü dedikdə, onun sevincinin həddi-hüdudu olmur. Bu hal psixiloji cəhətdən də şagirdə ingilis dilini öyrənməyə müsbət təsir göstərir. Verilən suallara tələbələr cavab verdikdə, onlar dialoqda iştirak edərkən, eşitmə yolu ilə fəallaşırlar.

Dialoq vasitəsilə tələbələrin şifahi nitqinin inkişafının sərhədi olmur. İstənilən qədər sual-cavab aparmaq və nitqi inkişaf etdirmək olar. Bunun üçün dil materiallarını sistemə salmaq tələb olunur. Məşhir metodist M.Palmer uzun müddət şifahi nitqin bu növündən istifadə etmişdir. Palmer sual-cavabı ən yaxşı üsul seçərək nitqi avtomatlaşdırmaq üçün ondan geniş istifadə etmişdir. Nitqi avtomatlaşdırmaq üçün dil materialları düzgün seçilməlidir. Həmin materiallar aydın olmalıdır. Palmer pedaqoji prosesi intesivləşdirmək üçün sualı elə qururdu ki, cümlədə sözlərin sırası öz yerində olsun. Palmerin sual-cavab üsuluna nəzər salaq:

1. Yeni materialın verilməsi;
2. Materialın möhkəmləndirilməsi və fəallaşdırılması;
3. Öyrənilməyə nəzarət.

O, bütün tədris müddətini 4 əsas "dərketmə termini" ilə bölürdü.

1. Presentation-Perciption; - dil materiallarının verilməsi və onun tələbələr tərəfindən passiv dərk edilməsi.

2. Recognition – anlama; tələbələr müəllimi başa düşür və ona lakonik cavab (yes, və yaxud no) verirlər;

3. Repetition – təkrar, təqlid yolu ilə.

4. Reproduction – müəllimin suallarına cavab verməklə sərbəst danışmaq.

Palmerin bu bölgüsünə diqqətlə nəzər salmış olsaq, məlum olar ki, tələbələrin dialoji şifahi nitqi bu üsulla çox gec inkişaf edir. Onların fikri fəaliyyəti işləmədən mexaniki olaraq danışmalar tez bir zamanda unudulur.

1. Presentation –yeni materialın verilməsi.

1) Homogeneous groups.

Is this a book? Yes, it is (no, it is not).

General: Is this a pencil? Yes, it is (no, it is not).

Is this a pen? Yes, it is (no, it is not).

Alternative: Is this a pen or a pencil? It is a pen.

Special: What is this? It is a pen.

2. Sequential grasps.

Is this a book?

Is this a pencil?

What is this? It is a book.

I. Recognition –yeni materialın passiv möhkəmləndirilməsi.

Bu zaman müəllim "General" (ümumi) formada sual verir. Şagirdlər lakonik (yes, no) vasitəsilə cavab verirlər.

Is this a book? Yes, (no).

Is this a pen? Yes, (no).

II. Repetition – Təkrar.

Müəllimin danışıqlarını tələbələr təkrar edirlər. Bu zaman sual-cavab aparılmır.

III. Reproduction –yeni materialın möhkəmləndirilməsi. Müəllim sual verir, tələbələr həmin suallara cavab verirlər.

Is this a book? – Tələbələr: Yes, it is (no it is not).

Palmerin bu sistemi sual-cavab adlandırılır.

Dialoq bir neçə variantda ola bilər. Dialoq replikalar və onların fikir dolğunluğu deməkdir. Onlar informasiya düzəltmək üçün imkanlar yaradır.

Replikalar dialoqda cüt məna daşıyır. Metodik ədəbiyyatda dialoqu oyatma replikası və reaksiya replikası adlandırırlar. Oyatma replikası insan həyatında müəyyən situasiyalar vasitəsilə yaranır və həmin oyanma hər iki danışanda olur. Məsələn, situasiya təbii olaraq yaranır. Hər iki tərəf imtahan vermək və yaxud bir hadisəni qarşılamaq ərəfəsindədir. Bunlarda təbii olaraq eyni reaksiya yaranır. Bu reaksiyalar aşağıdakı suallar əsasında olur: "Bayramı necə qarşıladın?", "Qapını döyən kimdir?", "Telefonla danışan kimdir?". Verilən hər bir sualda ayrıca oyanma replikası yaranır ki, bu da dialoji nitqin inkişafına səbəb olur. Tələbə danışır və danışana replikalar ilə cavab verir.

Oyatma replikası tələbə üçün bir tərəfdən asandırsa, digər tərəfdən onun çətinlikləri də vardır. O müəyyən situasiya əsasında danışanın sözlərinə

cavab verir və öz yaddaşında keçilən bütün söz və qaydaları ani vaxt içərisində fikirləşməlidir.

Verilən replikalardan birini tələbə özü müstəqil olaraq seçməlidir. Tələbənin reaksiyası o qədər iti olmalıdır ki, qarşıda dayanıb danışana cavab versin.

Replikaya replika ilə cavab vermək üçün tələbə ani vaxt içərisində fikirləşməlidir, bunun üçün onun zəngin lüğət ehtiyatı olmalıdır. Tələbə dialoji nitqə hazır olmaq lüğət ehtiyatından əlavə çoxlu frazeoloji ifadələr də bilməlidir. Eşitdiyinə tez cavab vermək üçün tələbəninn yaddaşı iti olmalıdır. Yaddaşın iti olması üçün tələbənin keçilən dil materialını möhkəm bilməsindən asılıdır.

Müəllimlərin dərslərinin müşahidəsi göstərir ki, dialoji nitq hələ də suallar əsasında aparılır.

Dialoji nitqin inkişafı üçün materialları seçərkən onun tələbələr tərəfindən mənimsənilməsini yoxlamaq lazımdır. Çünki, dialoji nitq üçün verilən materialın özünün spesifik xüsusiyyəti vardır. Bu material nitq fəaliyyətinin bilavasitə inkişafına yönəldilir.

ƏDƏBİYYAT

1. F.Seyidov. “Xarici dil dərslərində maqnitofon”, “Maarif”, 1968.
2. A.Tahirov. “Şifahi nitqin inkişafında əyani vəsaitin və texniki vasitələrin rolu”. Bakı. 1975.
3. A.Tahirov, Ə.Salayeva. “Orta məktəbdə ingilis dilinin tədrisi metodikası”. Bakı, 1978.
4. Barsuk R.Y., Əhmədova T.R. “Səkkisillik məktəbdə xarici dillərin tədrisi”. Bakı, 1967.

S.Gaibova

Oral speech in teaching english

Summary

The problem of oral speech is one of the most controversial issues in teaching English and methodology.

The problem of oral speech development is a difficult psycho-physiological process. Teaching students words or grammar does not mean that they can improve their oral speech yet. Certain extrovertinguistic conditions should be created during the oral speech. Any situation, the age and knowledge level of the speaker can be included here.

You should know at what stage you need to give more insight into the development of oral speech.

Recently, linguistic considerations and the results obtained through laboratory work have shown that oral learning can be developed in a complex learning environment. It is known that verbal material consists of lexical, grammatical and phonetic materials. Materials for oral speech can be provided in complex, specific speech exercises.

С.Гаибова

Устная речь в обучении английского языка

Резюме

Проблема устной речи - одна из самых противоречивых проблем в преподавании английского языка и методологии.

Проблема развития устной речи - сложный психофизиологический процесс. Преподавание слов студентов или грамматики не означает, что они могут улучшить свою устную речь. Во время устной речи должны создаваться определенные экстравертингистические условия. Здесь можно включить любую ситуацию, возраст и уровень знаний говорящего.

Вы должны знать, на какой стадии вам нужно дать больше информации о развитии устной речи.

В последнее время лингвистические соображения и результаты, полученные в результате лабораторных работ, показали, что устное обучение может быть разработано в сложной учебной среде. Известно, что вербальный материал состоит из лексических, грамматических и фонетических материалов. Материалы для устной речи могут быть представлены в сложных, специальных речевых упражнениях.

Rəyçi: **Sevil Əliyeva**
filologiya elmləri namizədi

GÜLCAN MÜSEYİBOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
gulcan_museyibova@gmail.com

УПРАВЛЕНИЕ ГЛАГОЛОВ В РУССКОМ И ФРАНЦУЗСКОМ ЯЗЫКАХ (I ЭТАП)

Açar sözlər: fellərin idarə edilməsi, struktur-funksional, xüsusiyyətlər, sintaksis, material
Ключевые слово: управление глаголов, структурно-функциональные, особенности, синтаксис, материал
Key words: control of verbs, structural-functional, features, syntax, material

При практическом изучения французского языка, так же, как и других иностранных языков, значительное трудности вызывает управление глаголов. Однако по данному вопросу явно недостаточно как учебных, так и справочных пособий, что, несомненно, отрицательно сказывается на изучении французского языка и, в частности, на практике перевода с русского языка на французский.

Основу пособия составляют наиболее употребительные глаголы общелитературного русского языка, стилистически нейтральные, при отборе которых учитывались: их употребительность (частотность), функциональная значимость, семантика, управление, сочетаемость с именами.

В результате исследования управления выделенных глаголов в русском языке и поиска его эквивалентов во французском были определены основные типы как называемого сильного и наиболее часто употребляемого слабого управления глаголов в русском языке и их эквиваленты во французском. При этом билингвистическому анализу подвергались не только разнообразные структурно-функциональные особенности управления глаголов, но и возможности их лексической сочетаемости в пределах выделенного структурно-функционального типа глагольного управления. Проблема взаимодействия лексики и синтаксиса в сфере самого управления глаголов в русском и французском языках, роль семантики, обусловливающей конструктивные возможности как русских, так и французских глаголов, постоянно были в центре внимания.

При подготовке материала я стремилась более подробно и тщательно дифференцировать управление глаголов в русском языке,

дать достаточное иллюстративных примеров на каждый структурно-функциональный тип управления и возможно более точные его эквиваленты во французском языке, руководствуясь при этом принципом употребительности глагольного управления и глагольно-именных сочетаний.

Словарная статья состоит в основном из свободных и устойчивых нефразеологических словосочетаний. В отдельных случаях в качестве иллюстративных примеров приводятся фразеологические словосочетания, но лишь такие, которые имеют дословные параллели во французском языке, что позволяет сопоставить глагольное управление в обоих языках так же эффективно, как и свободных словосочетаниях.

Русские словосочетания и их французские эквиваленты даются, как правило, с глаголом в инфинитивной форме. Но некоторые словосочетания приводятся в предикативной форме, что связано с лексико-грамматическими особенностями их употребления в речи.

Принципы подачи материала пособия

Глаголы русского языка располагаются в алфавитном порядке и даются в неопределенной форме, после которой указывается их управление. Все случаи управления глагола иллюстрируются примерами.

С целью сокращения объема и, вместе с тем, сохранения возможности отразить однотипность выделенного структурно-функционального типа глагольного управления, парные виды глагола (а также однокоренные и многократные глаголы) при отсутствии основных смысловых различий между ними помещаются следующим образом:

1. В скобках, если видовая пара начинается на одну букву и образована при помощи суффиксов И-ТЬ, А-ТЬ.

Например, ПОЛУЧИТЬ (ПОЛУЧАТЬ)

2. Путем ссылок на соответствующий глагол:

а) если видовая пара глагола отличается от заглавного слова начальной буквой.

Например, СДЕЛАТЬ см. ДЕЛАТЬ.

б) если видовая пара глаголов, начинающаяся на одну букву, имеет звуковое чередование в приставках и корнях слов в пределах первых четырех начальных букв.

Например, ВХОДИТЬ см. ВОЙТИ

ВСКАКИВАТЬ см. ВСКОЧИТЬ

КОСНУТЬСЯ см. КАСАТЬСЯ.

в) если видовая пара глаголов образована супплетивном. Например, ВЗЯТЬ см. БРАТЬ.

Видовые пары глаголов типа:

ДОБЕЖАТЬ –ДОБЕГАТЬ;

ПЕРЕСМОТРЕТЬ –ПЕРЕСМАТРИВАТЬ;

ВНЕСТИ- ВНОСИТЬ, в силу близкого их расположения ссылок не имеют, так как нахождение их трудностей не представляет. Такая видовая пара дается в скобках.

Например, ДОБЕЖАТЬ –ДОБЕГАТЬ;

ПЕРЕСМОТРЕТЬ –ПЕРЕСМАТРИВАТЬ.

Управление глагола, то есть какого падежа он требует, обозначается падежными вопросами: кого-чего (род. п.), кому-чему (дат. п.) и т.д. Управление с предлогами обозначается соответственно – от кого, от чего (род. п.), к кому, к чему (дат. п.) и т.д.

Также дается так называемое сильное управление глагола, но в ряде случаев проводится и так называемое слабое управление, если оно часто употребляется и практически помогает овладеть глагольной сочетаемостью. Случаи такого управления глаголов обозначаются наречными вопросами – где, куда, откуда, как, стоящими перед падежными вопросами. Например, работать где, в чем (предл. п.). Наречные и падежные вопросы, обозначающие управление, имеют все глаголы движения, бесприставочные и приставочные. Например:

идти **куда, во то** (вин. п.)

войти **куда, в что** (вин. п.)

Если глагол управляет падежами (кроме винительного) только одушевленного имени существительного, падежное управление обозначается соответственно только одним падежным вопросом (кому, кем), а при управлении винительном падежом одушевленного имени существительного после падежного вопроса **кого** в скобках стоит помета (вин. п.). Например: беспокоить **кого** (вин. п.).

Если глагол имеет двойное или тройное управление, каждое управление указывается дифференцированно. Например:

ВЫЗВАТЬ (ВЫЗЫВАТЬ)

1. **кого-что** (вин. п.).

Вызвать врача

Вызвать скорую помощь.

2. **откуда, из чего** (род. п.)

Вызвать товарища из дома

3. **откуда, из чего** (род. п.)

Вызвать ученика с урока

4. **куда, во что** (вин. п.)

Вызвать студента в деканат

5. **куда, на что** (вин. п.). Вызвать кого на совещание

6. **куда, к кому, к чему** (дат. п.). Вызвать ученика к доске
Вызвать студента к декану
7. **по чему** (дат. п.). Вызвать кого по телефону
8. **чем (твор. п.).** Вызвать артиста аплодисментами

Для предупреждения возможных ошибок при построении предложения и переводе в наиболее трудных случаях после глагольно-именного словосочетания в скобках указывается дополнительное управление словосочетания или имени. Например: класть начало (чему), класть что-н в основу (чего).

Литература

1. А.К.Демидова. Управление глаголов в русском и французском языках. Учебные пособие. 1977.
2. Громова О.А., Алексеева Г.К., Покровская Н.М. Практический курс французского языка. – М.: 2002.
3. 3. Шарикова Г.В. Секреты французской грамматики: Учеб. Пособие. – М.: Иностранный язык, 2004.
4. Попова И.Н., Казакова Ж.А., Ковальчук Г.М. Французский язык. Учебник.

G.Müseyibova

Rus və fransiz dillərində fellərin idarə olunmasi
(I MƏRHƏLƏ)

Xülasə

Qrammatikada fellərin idarə olunması kimi bir anlayış var. Bu, fellərin özünə məxsus bir xüsusiyyətdir. Bu xüsusiyyət hər bir dildə özünü tamamilə fərqli şəkildə ifadə edir. Bir çox dildə hər bir feldən sonra müəyyən bir vəziyyətdən istifadə etmək tələb olunur.

Rus dilində "soruşmaq" feli, qarşısında sözönü tələb etmir. Ancaq "düşünmək" sözündən sonra sözönü tələb olunur və istifadə olunur. Məlum olduğu kimi, Fransız dilində hal kateqoriyası yoxdur. Cümlədə onlar sözönləri ilə əvəz edildi. Fransız dilində fellərin idarə olunması müəyyən bir ön sözdən istifadə etməyi tələb edən fel xüsusiyyətidir. Yəni bilmək lazımdır ki, fransız dilində fellərin idarə olunması dedikdə, bəzi fellərin heç bir söz önü tələb etməməsini, yəni tamamilə sözönlərsiz istifadə edildiyi halda, digərləri isə yalnız sözönləri ilə istifadə olunması nəzərdə tutulur.

G.Museyibova

Control of verbs in russian and french languages
(I STAGE)

Summary

In grammar there is such a thing as control of verbs. This is the property of the verbs themselves. In every language, it manifests itself in completely different ways. In many languages it is a requirement to use after each specific verb a certain case.

The control of the verb “ask” does not require writing a pair of prepositions (accusative case) with it, if we mean the subject of conversation. But after the word “think”, a preposition is required, or it is used at all without any pretext. As it is known, there are no cases in French. In the sentence, their place was replaced by prepositions. The control of verbs in French is a property of verbs to require the use of a certain preposition or a lack thereof. That is, it is necessary to know that the control of verbs in the French language assumes that some verbs do not require any prepositions, that is, they are used entirely without prepositions, while others are used only with prepositions, and it is necessary to remember with what specific pretexts exactly these specific verbs are used.

Rəyçi: Sevil Əliyeva
filologiya elmləri namizədi

QUMRU ƏLƏKBƏROVA
ADU
zelekberova2011@mail.ru

FRANSIZ DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ VƏ ÖYRƏNİLMƏSİNDƏ QRAMMATİKANIN İNKİŞAF DİNAMOKASI

Açar sözlər: qrammatika, ənənəvi, birbaşa, audiolinqual, audiovizual, çalışma
Ключевые слова: грамматика, традиционный, прямой, аудиоязычный, аудиовизуалный, упражнение
Keys words: grammar, traditional, direct, audiolinqual, audiovisual, exercises

Fransız dilinin xarici dil kimi tədrisində və öyrədilməsində qrammatika anlayışı istər tədris materiallarının, istərsə də, öyrənmə prosesinin bütün mövzularının mənimsənilməsi, öyrədilməsi ilə sıx bağlıdır. Qrammatika anlayışı kifayət qədər qədim anlayışdır. Jermen və Söqən yunan yazısının kəşfini bu anlayışla əlaqələndirirlər və qrammatikanın tədqiqini yunan yazısına bağlayırlar. Bütün dövrlər ərzində, müxtəlif metodların meydana gəlməsi, formalaşması və bu metodların təkmilləşməsi, həmçinin, müxtəlif metodlara marağın artması (orta əsr qrammatik- tərcümə dövründən aktual kommunikativ metoda qədər) daha yaxşı metodların müxtəlif dövrlərdə yaranmasına, inkişaf etməsinə, qrammatikanın daha mükəmməl əhatə edilməsinə gətirib çıxarıb. Fransız dilinin xarici dil kimi tədrisində diaxroniya didaktika ilə birgə, bütöv bir sistem kimi inkişaf etsə də, qrammatika ilə əlaqəli tərzdə bizə təqdim edilir. Burada biz qrammatikanın xarici dilin tədrisindəki və öyrənilməsindəki vacibliyini və yerini iki nöqtəyi-nəzərdən şərh edə bilərik. Bir tərəfdən, müxtəlif metodoloji cərəyanlar vasitəsilə, digər tərəfdən isə öyrənmə prosesinin birbaşa iştirakçıları, xüsusilə, müəllimlər və öyrənənlər tərəfindən qrammatikanın tamamilə qavranılmasının təhlilini əks etdiririk. Bundan başqa, qrammatikanı təkcə linqvistika ilə birgə, onun komponenti kimi deyil, həm də didaktikanın məzmunu, obyekti olaraq da təhlil etmək mümkündür.

Fransız dilinin xarici dil kimi müxtəlif metodlarla tədrisində, qrammatikaya baxış.

Ənənəvi metod

Xarici dilin öyrədilməsi ilə bağlı illər ərzində çoxlu fikirlər irəli sürülmüşdür. Bununla bağlı alimlərin fikirləri müxtəlifdir və bu da bu sahədə qərarsızlığa səbəb olmuşdur. XX əsrin əvvələrinə kimi xarici dilin öyrənməni metodologiyası ilə bağlı iki yanaşma mövcud olmuşdur. Brinci

yanaşmaya əsasən, xarici dili yalnız dildən istifadə etmək (danışmaq və anlamaqla) yolu ilə öyrənmək olar. İkinci yanaşmaya əsasən isə, xarici dili öyrənmək onu təhlil etməklə, yəni qrammatik qaydalarını, daxili strukturunu öyrənməklə əlaqəli idi.Ənənəvi nöqtəyi- nəzərdən, xarici dilin sinif mühitində tədrisində qrammatika, təlim fəaliyyətlərinin və təlim prosesinin mərkəzində dayanır. Qeyd etmək lazımdır ki, düzgün yazı qaydalarının öyrədilməsində, yazı normalarının mənimsənilməsində qrammatika mühüm əhəmiyyət daşıyır. Qədim yunan və orta əsr latın dövrləri üçün dildən istifadə edərək dili öyrənmək xarakterik idi. Yunan, daha sonralar isə latın dili qədim dövr üçün ticarət dili hesab edilirdi. Onlardan daha çox din, siyasət, iqtisadiyyat dili kimi istifadə olunurdu. Bu dövrdə müəllimlər tədris üçün qeyri- rəsmi şifahi nitqdən istifadə edir, məna və formanı öyrədir, daha çox dərs kitablarından deyil, əlyazmalarla yazılmış əl kitabçalarından, bəzən xarici dildə olan mətnlərdən istifadə edirdilər.İntibah dövründən isə artıq latın və yunan qrammatikasının rəsmi tədrisi vüsət aldı. İntibah dövründə istifadə olunan latın dili gündəlik istifadə olunan və məktəblərdə işlədilən latın dilindən çox fərqlənirdi. Bu dövrün məşhur metodisti, çex müəllimi Johann Amos Comenius xarici dilin öyrədilməsi üsulları haqqında kitablar yazmışdır. Onun dilin öyrədilməsi ilə bağlı bəzi üsullarını təqdim edirik:

Dili qaydalarla öyrətmək əvəzinə təqliddən istifadə etməklə öyrətmək

Müəllimdən sonra tələbələrə təkrarlatmaq

Azhəcmli lüğətlərdən istifadə etmək

Tələbələrə oxumaq və anlamaq bacarığı aşılamaq

Dili daha çox əyani vəsaitlərlə öyrətmək

İlk dəfə olmasına baxmayaraq, bu üsullar xarici dilin öyrənilməsində böyük rol oynamışdır. 19-cu əsrin əvvələrinə kimi ənənəvi latın qrammatikasının tədrisi Avropada qəbul olunmuşdur. Analitik-Qrammatik tərcümə metodu yalnız latın dilini deyil, eyni zamanda müasir dilləri öyrənmək üçün bir metod olaraq seçilmişdir. Qrammatik –tərcümə metodunun xarakterik xüsusiyyətləri bunlar idi:

Təlimdə hər şeyin öyrənənlərin ana dilində verilməsi

Ünsiyyət üçün xarici dildən çox az istifadə olunması

Tərcümə ilə bağlı çalışmalardan istifadə olunması

Bu metoddan istifadənin nəticəsində tələbələr adətən xarici dildən ünsiyyət dili kimi istifadə edə bilmir. Qədim dillər olan latın və yunan dilləri üzərində aydınca deduktiv qaydalar tədris edilir. Morfologiya (sözlər və onların hallanması) və sintaksis öyrənənlərin yiyələndikləri, əldə etdikləri, mənimsədikləri biliklərin əsasını təşkil edir və dilin tədrisi prosesini formalaşdırır. Öyrənmə prosesində qrammatik qaydaların, məna və formaların kəşf edilməsi və mənimsənilməsi öyrənənlər tərəfindən öyrədilən

mövzuya, konteksə əsaslanan tapşırıq və çalışmaların yerinə yetirilməsi ilə mənimsədilir və əlaqələndirilir. Qrammatika düzgün, dəqiq yazı qaydalarının formalaşmasında mühüm rol oynayır. Bədii mətnlərin məzmununun xülasəsində, mövzu haqqında qısa məlumat hazırlayanda və tərcümədə, nəticə etibarilə xarici dillərin tədrisində qrammatika mərkəzi mövqe tutur. Qrammatik təhlildən danışarkən, qeyd olunmalıdır ki, biz yalnız cümlələrin təhlili ilə kifayətlənməməliyik, eyni zamanda, asan hesab edilməyən, təbii dildən istifadə xüsusiyyətləri də, metalinqvistikada nəzərə alınmalıdır. Ənənəvi metoddan istifadə edərkən, tədris prosesində inkişaf əsasən nitq hissələrinin, o cümlədən, isim, sifət, feil, artikl kimi anlayışların mənimsənilməsinə və öyrədilməsinə əsaslanır. Tədris prosesi fransız dilinin ana dili kimi tədrisindəki xüsusiyyətləri, prinsipləri izləyir.

Birbaşa metod

XIX əsrin əvvələrinə kimi Birbaşa metod (la méthode directe) meydana gəldi ki, onun da əsas məqsədi xarici dili ondan istifadə edərək öyrənmək yolu idi. Fransua Quən, fransız alimi, 1880-ci ildə birbaşa metod haqqında öz əsərini nəşr etdirmişdir. Birbaşa metod Fransa və Almaniyada geniş vüsət almağa başladı və hətta bügun də onun davamçıları var. XIX əsrin 80-ci illərində bu metod Avropada yayılmağa başladı və bu zaman H. Svit, W. Vietor, və P. Passi tərəfindən Beynəlxalq Fonetika Assosiyasiyası yaradıldı. Bu fonetistlər xarici dilin öyrənilməsi ilə bağlı bəzi prinsiplər irəli sürülmüşdür:

Şifahi nitq əsasdır və ilkin öyrədilməlidir

Dil müəllimləri mükəmməl fonetik biliyə malik olmalıdır

Öyrənənlərdə nitq vərdişi yaratmaq üçün onlara fonetik məşğələlər keçilməlidir

Bu fonetistlərin şifahi nitq, sərbəst danışıq haqqında irəli sürdükləri mülahizələr Qrammatik-tərcümə metodu tərəfindən qəbul olunmurdu. Birbaşa netodun xarakterik xüsusiyyətləri:

Ana dilindən istifadə olunmaması

Dərslər dialoqlarla başlayır və müasir söhbətlər əsasında davam etdirilirdi

Mənanı daha yaxşı dərk etmək üçün əyanilikdən istifadə edilirdi

Qrammatikanın induktiv öyrədilməsi

Bədii mətnlərin qrammatik təhlil olunmadan oxunması

Xarici dil mədəniyyətinin həmçinin induktiv olaraq öyrədilməsi

Müəllimlərin dil daşıyıcısı olması

Qrammatika bu metoddan istifadə prosesi zamanı induktiv olaraq tədris edilirdi. Birbaşa metod zamanı öyrənən kifayət qədər aktiv olmalıdır, çünki o, dərs zamanı sinifdə dərsin gedişində yeni qrammatik qaydaların kəşf edilməsində, aşkarlanmasında həmin qaydalara yiyələnmədə və çoxsaylı

dəyişmələrdə iştirak etməlidir. XX əsrin əvvəllərində sənaye və ticarət sahəsində meydana gələn vacib yeniliklərin təsiri altında istər şifahi dil qaydalarında, istərsə də yazı qaydalarının formalaşmasında artıq istifadə edilməyən "ölü dillər" deyil, "canlı dillər" öyrənilirdi. Yeni ehtiyacların meydana gəlməsi ilə bərabər şifahi nitqə ehtiyac yaranırdı, bu səbəbdən canlı dillər əsasında şifahi nitq formalaşırdı. Yuxarı da qeyd etdiyimiz kimi, artıq ana dilindən istifadə məhdudlaşdırılır, əşyaları adlandırmaq birbaşa olaraq, obyektlərə toxunularaq fransız dilindən adlandırmada istifadə edilirdi. Digər metodlarda olduğu kimi, tədris prosesində qrammatika öz xüsusiyyətlərini qoruyub saxlayırdı. Belə ki, cümlələr çərçivəsində qrammatikanın təhlili və ədəbi mətnlər qrammatik qaydalara yiyələnmədə öz vacibliyini, öyrənənin tədris prosesindəki rolunu, əhəmiyyətini itirməmişdi. Qrammatik nöqtəyi-nəzərdən qaydaların öyrədilməsi və tədrisi ardıcıllığı tapşırıq və çalışmalarda olduğu kimi, sadədən mürəkkəbə, konkret üsuldan mücərrəd üsula doğru sual - cavab əsasında formalaşır və inkişaf etdirilir. Bütün bunlar təbii dil öyrənmə prinsiplərinin birbaşa metod kimi tanınan təbii metodların əsasını təşkil edir. Bu metodda konkret olaraq, gündəlik istifadə olunan sözlər və cümlələr öyrədilir, şifahi ünsiyyət bacarıqları və vərdişləri müəllimlər və şagirdlər arasında sual-cavab əsasında diqqətli şəkildə qurulurdu, qrammatika induktik öyrədilirdi, konkret sözlər obyektlər və şəkillər vasitəsilə təqdim edilir, mücərrəd sözlər isə ideyaların assosiyasiyası vasitəsilə öyrədilir, düzgün tələffüz və qrammatika xüsusilə vurğulanırdı, nitq və eşidib- anlama tədris edilirdi. Lakin onun bir sıra çatışmazlığı hiss edilirdi. Baxmayaraqki, birbaşa metod Avropada böyük şöhrət qazanmışdı, lakin hər kəs onu həvəslə qəbul etmədi. Metodoloji sahədə yeni tələbatların və prinsiplərin meydana gəlməsi bu sahədə daha təkmilləşmiş, sistemləşdirilmiş, yeni öyrənmə texnikasının yaranmasına gətirib çıxardı.

Audio-linqual metod

1940- cı illərdə Birləşmiş Ştatlarda əsas metod olmuşdur. Xarici dillərin öyrədilməsinə marağın artması Audiolinqual metodun yaranması ilə nəticələndi. Müasir dillərin öyrədilməsi və təhlili, tədris materiallarının inkişafı və müəllimlərin təlimi üçün sərmayə təmin edildi. Müəllimlər xarici dil biliklərini inkişaf etdirmək, dilçiliyin prinsiplərini və yeni öyrətmə metodlarını üçün müxtəlif, elmi əsaslı təlimlərə cəlb olundular. Dilçilər tərəfindən yeni linqvistik strukturlar və quruluşlar üçün fonetika, morfologiya və sintaksisə yeni maraq oyandı. Bu metod üçün bir çox xüsusiyyətlər irəli sürülmüşdür.

Dərslər dialoqlarla başlayır

Bənzətmə və əzbərləmələrdən istifadə olunurdu

Qrammatik strukturlar göstərilir və qaydalar induktiv öyrədilir

Bacarıqlar sıralanır: dinləmə, danışma –oxu və yazı bacarıqları isə daha sonra öyrədilir

Yalnız tələffüz mütləqdir

Dil məna və məzmununa əhəmiyyət verilmədən öyrədilir

Dialoqlar və çalışmalar audiolinqual sinif təcrübələrinin əsasını təşkil edir. Düzgün tələffüz, intonasiya, vurğu və ritm vurğulanır. Müxtəlif növ çalışma və tapşırıqlardan istifadə olunurdu. Audiolinqual metod Amerika Birləşmiş Ştatlar ordusunun ikinci dünya müharibəsində (1941-1945-ci illərdə) iştirak etməsindən sonra əsas rol oynamağa başladı. Qrammatika dialoqları dinləyib, daha sonra qeyd etməyin yolu ilə tədris edilirdi. Müxtəlif dialoqlar modellərinin struktur və quruluşu seçilir, həmin dialoqlar qrammatika ilə bərabər öyrənənlərə təqdim edilir. Tapşırıq və çalışmalarda dialoqlar vasitəsilə onların strukturları qeyd olunmaqla inkişafa və öyrənənlər tərəfindən dil bacarıqlarının mənimsədilməsinə xidmət edir. Tapşırıq və fəaliyyətlər intensiv surətdə təkrarlanır və yaddaşda strukturların mənimsənilib,möhkəmləndirilməsində müsbət rol oynayır. Müxtəlif struktura malik çalışma və tapşırıq tipləri idi. Bunlar aşağıdakılardır.

1) Təkrarlama: tələbə ifadəni eşidən kimi onu ucadan təkrarlayır. O, bunu çap olunmuş mətnə baxmadan edir. İfadə onu yadda saxlamaq üçün kifayət qədər qısa olmalıdır. Məsələn: Bu yeddinci aydır- bu yeddinci aydır
2) Fleksiya: bir söz təkrar olunduqda tələffüzdə başqa formada təzahür edir. Mən bilet aldım- Mən biletləri aldım.
3) Əvəzetmə: bir söz tələffüzdə başqa sözlə əvəz olunur. Məsələn: O bu evi ucuz alıb- O, bunu ucuz alıb
4) Məsələni başqa cür qoyma:Tələbə ifadəni başqa sözlərlə ifadə edir və başqasına ünvanlayır. Məsələn: onlara de ki, səni gözləsinlər- məni gözləyin
5) Genişləmə: Söz əlavə olunduqda onun ardıcıllıqda (söz sırasında) müəyyən bir yeri olur. məsələn: Mən onu tanıyırdım- Mən onu yaxşı tanıyırdım.
6) Qısalma : bir söz bir cümlə və ya ifadəni əvəz edir. Məsələn: əlini stolun üstünə qoy- Əlini bura qoy.
7) Transformasiya : bir cümlə eyni zamanda, felin şəklində və növündə dəyişikliklər edərək inkar və ya sual cümləsinə çevrilir. Məsələn: O, mənim ünvanımı bilir. O, mənim ünvanımı bilmir. O. mənim ünvanımı bilirdi.
8) Birləşmə: iki ayrı ifadəni bir ifadədə birləşdirir. Məsələn: onlar vicdanlı olmalıdırlar. Bu vacibdir- onların vicdanlı olmağı vacibdir.

Struktur və audiovizual qlobal metod

İkinci dünya müharibəsindən sonrakı dövrlərdə, Fransa öz koloniyalarında öz gücünü möhkəmləndirmək, artırmaq məqsədilə siyasi səbəblərə görə bu metodun inkişafına imkan yaratdı. O, ingilislərlə nisbətdə özünü istila etmə simasını möhkəmlətməyə can atırdı. Fransız dilinin xarici dil kimi tədrisində onun öyrədilməsində stimul verən, inkişafa imkan verən " elementar (ibtidai) fransız dili" və ya " fundamental (əsaslı) fransız dili" birbirilə əlaqəli anlayışlar meydana gəldi. Əvvəlki, adını sadaladığımız metodlarda olduğu kimi, struktur-qlobal metodda da qrammatik qaydaları sadədən mürəkkəbə doğru inkişaf etdirirdi. Öyrənənin ana dili ilə fransız dili arasındakı müqayisəli təhlil mühüm rol oynayır. Qrammatika həm induktiv, həm də implisit formadan uzaqlaşır, yeni formada özünü əks etdirirdi. Struktur çalışma və tapşırıqlar bünövrə strukturlarının möhkəmləndirmə üsullarına xidmət edirdi.

Kommunikativ yanaşma

Kommunikativ yanaşmada əsasən, dilin tədrisində və öyrədilməsində kommunikasiya (ünsiyyət) bacarıqları əsas mövqe tuturdu. 1960- cı illərin sonundan məşhur amerikalı dilçi Noam Xomski " sintaktik strukturlar" kitabında struktur dilçiliyin nəzəriyyəsini göstərmişdir. Dilin kommunikativ yanaşma ilə tədris olunması dilin ünsiyyyət nəzəriyyəsi ilə başlayır. Bu yanaşmanın əsas məqsədi ünsiyyət səriştəliyinin inkişaf etdirilməsidir. Amma ona zidd olaraq, Xomski bildirmişdir ki, linqvistik nəzəriyyənin mərkəzi danışanın abstrakt qabiliyyətini xarakterizə edir və bu proses dildəki cümlələrin qrammatik cəhətdən düzgün qurulması ilə əlaqədardır. Pedaqoji cəhətdən ünsiyyət səriştəliyinin təsirli analizi Kanal və Sveyn tərəfindən irəli sürülmüşdür. Dilçilik və dilin sosiolinqvistik ölçülərini birləşdirmək lazımdır. Dildən istifadə zamanı qrammatik qaydaları işlənmə, istifadə etmə strukturlarına, forma və mənaları uyğunlaşdırmaq lazımdır. Qrammatika kommunikativ yanaşma meydana gəldikdən sonra, nitq fəaliyyətinə və nitqin fəallığına əsaslanmağa başladı. Qrammatika yalnız cümlənin təhlili ilə kifayətlənmirdi, kommunikativ yanaşma zamanı əsas məqsəd öyrənənin ehtiyaclarına uyğun müəyyənləşdirilmiş funksiyaları tədris etməkdir. Öyrənmə məqsədləri və ehtiyacları məktəb, ictimai, yaxud professional səviyyədə olmaqla fərqləndirilir. Əvvəlki metodlar kimi dilin öyrədilməsində inkişaf müəyyənləşdirilmiş xətt üzrə getmir, bununla belə, öyrətmə prinsipləri ardıcıllığını qoruyub saxlayır. Qrammatik bilik, bacarıq və səriştələr anlama, ifadə etmə bacarıqlarının mənimsənilməsinə imkan verir. Və bu bilik və bacarıqlar qarşılıqlı fəaliyyət və ünsiyyət zamanı qrammatikanın öyrədilməsinə xidmət edir. Çoxsaylı fəaliyyət növlərindən istifadə edilir. Kommunikativ yanaşmada fəaliyyət növləri limitsizdir. Bu tip fəaliyyətlər öyrənənləri ünsiyyət məqsədlərinə istiqamətləndirir,

kommunikasiya proseslərini, qarşılıqlı əlaqəni müəyyənləşdirir. Tapşırıqlar daha çox informasiya bölüşdürülməsi və müzakirəsi üzərində cəmləşmişdir. Funksional fəaliyyət növlərinə şəkillərin müqayisəsi, onlar arasındakı oxşar və fərqli xüsusiyyətləri tapmaq, şəkillərdəki hadisələri uyğunlaşdırmaq, itmiş hissələri müəyyənləşdirmək və s. Sosial fəaliyyət növlərinə isə, söhbətlər və müzakirələr, dialoq və səhnəciklərin hazırlanması, debatlar nəzərdə tutulur. Kommunikativ yanaşma inqilabı deyil, təkamül xarakteri daşıyır.

Ənənəvi prosedurdan imtina edilmir, lakin onlar yenidən izah edilir və genişləndirilir. Öyrəniləcək yeni quruluşlar dialoqlar vasitəsilə təqdim edilir, sonra həmin dialoqlardan götürülmüş qrammatik quruluşlar məşq etdirilir, daha sonra isə onlar kontektsdə işlədilir. Qrammatika mütləq kommunikativ tapşırıqlara tətbiq edilməlidir.

Öyrənənlər qrammatikadan necə istifadə edirlər?

Müəlliflərin çoxları və müxtəıif anket sorğularının nəticələri onu deməyə imkan verir ki, öyrənənlərin çoxları özləri qrammatikanı tələb edirlər. Tədris nəzəriyyəsi ilə tanışlıqdan biz öyrənirik ki, insanlar xarici dili öyrənmək və mənimsəmək üçün müxtəlif öyrənmə strategiyalarına müraciət edirlər. “Qlobalistlər” dili ümumi üsulda, tərzdə öyrənirlər, “analitiklər” isə bütün təfsilatı ilə, ətraflı şəkildə dilə yiyələnirlər. Sadədən mürəkkəbə doğru qaydaları tədqiq edirlər. Onuda biz bilirik ki, öyrənənlər hamısı eyni öyrənmə, mənimsəmə bacarığına malik deyillər. “yaxşı öyrənənlər” kifayət qədər müstəqil olurlar, “zəif öyrənənlər” isə müəllimdən dayaq rolu oynamasını tələb edirlər. Hədəf dilin incəliklərini öyrənmək istəyən hər bir öyrənən üçün ana dilindəki qrammatik biliklər kömək olur, bununla belə, mədəni müxtəlifliklərində təsiri qaçılmazdır. Eyni sinif daxilində ilk növbədə hədəf dil və ana dili arasındakı oxşarlıqlar və fərqliliklər öyrənilir və mənimsənilir. Öyrənənin ana dilindəki dilçilik və tədris qaydaları bərabrəlik və uyğunluq təşkil edir. Biz dilin öyrənilməsi zamanı onun yaxşı və düzgün istifadə olunması qaydaları ilə onun normalarının dildə tənzimlənməsi xüsusiyyətlərini qarışdırırıq. Xarici dilin tədrisində məktəbin ənənəsinə, əsasən, dilin qrammatik formaları eyni mədəniyyətlər daxilində üstünlük təşkil. Belə ki, bəzi mədəniyyətlər üçün dilin qrammatikası onun normasına,düzgün istifadə üsuluna bağlıdır. Aşağıda göstərdiyimiz alimlər (Jermən və Söqən, Küq,Vayner) öz əsərlərində mütəmadi olaraq bu aspekti irəli çəkərək fransız, yapon, rus və çin dillərini istinad mənbələri kimi göstərirlər. Məqalədə qeyd edildiyi kimi, bu günümüz üçün xarici dilin tədrisində bir neçə metodlardan istifadə edilir. əlbəttə ki, hər bir metod həm mənfi, həm də müsbət metod cəhətlərə malik olduğundan, xarici dili öyrənmək üçün daha əlverişli metod haqqında hər hansı bir rəy vermək, fikir söyləmək çətindir. Buna görə də, bu metodların üstünlükləri yalnız bir

münasibətdə qeyd olunur və müasir dövrdə xarici dilin tədrisində kommunikativ münasibət daha çox üstünlük təşkil edir.

Fransız dilinin xarici dil kimi tədrisində qrammatik qaydaların öyrədilməsi mühüm əhəmiyyət kəsb edir. Məqalədə müxtəlif metodlar vasitəsilə qrammatikanın tədrisi haqqında fikirlər qeyd edilsə də,biz bu problemin həlli yollarını bugündə müzakirə obyekti kimi tədqiq edirik.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Beacco J.- C., La didactique de la grammaire dans l'enseignement du français et des langues, Paris, Didier, 2010
2. Besse. H., Pourquier, R., Grammaire et didactique des langues, Paris, Didier, 1991
3. Cuq J.- R, Une traduction à la didactique de la grammaire en français langue étrangère, Paris, Didier/ Hatier, 1996
4. Germain, C., Seguin, H., Le point sur la grammaire, Paris, CLE, 1998
5. Riegel M., Pellat J- C., Rioul R., Grammaire méthodique du français, Paris, PUF, 2004

Г.Елекберова

Динамика развитья грамматики при преподавании французкого языка как иностранного

Резюме

Как упомянуто в статъе на сегодняшний денъ исполтъзуется несколъко методов обучения иностранных языков. Так как у каждого метода естъ свои плюсы и минусы, поэтому трудно сказатъ какой из этих методов более эффэктивный. Вот почему достатки одного метода отмечаются толъко при одном подходе и в эти дни в обучении иностранных языков болъше всего предпочитается коммуникативный подход.

Коммуникативный метод или коммуникативный подход это метод который упрощает обучение иностранного языка как для учителям, так же и для ученикам. Целъ коммуникативного метода построит реалъные и оригиналъные ситуации и отношения. Как говорится в статъе коммуникативный метод создает возможностъ учит язык в совершенстве. После изучения истории, плюсов и минусов всех методов приходим к такому выводу: коммуникативный метод отвечающий всем требованиям современности более удовлетворителъный. Этот метод дает шанс испольъзоват целевой язык в реалъных жизненных ситуациах, в

практике, а также создаватъ свободное общение с носителями этого языка.

В обучении французкого как иностранного языка важное значение имеет обучение грамматических структур. В статъе отмечены идеи об обучении грамматики разными методами, но мы и на сей денъ не можем найти обсолютное решение этой проблемы.

G. Elekberova

The dynamics of development of grammar in teaching French as a foreing language

Summary

As mentioned in the article, several methods have been used in teaching foreing language for the present day. Of course, because of having both positive and negative points of each methods, it is difficult to serve any opinion about the more suitable method of learning foreing language. Therefore, the advantages of these methods are mentioned only in one attitude and communicative attitude is preferred more in teaching foreing language in modern times.

Communicative method or communicative attitude is one of the methods which facilitates the activity of teachers and students in learning foreing language. The aim of communicative method is to set up the real and original relations. As it is mentioned in the article, different types of exercises which are expressed in communicative attitude gives opportunities to the teacher and student to learn the foreinf language perfectly in class. To sum up, after investigating the history, positive and negative points of all methods it can be definitely said that communicative attitude is the excellent method which serves the demands of modern times. This method gives chance to learner to use own experiences of real life situations in target language and to have a comfortable communication with the speakers of that language.

İt is important to teach grammar in teaching French as a foreing language. We research the solutions of this problem as a discussion object although it is noted the thoughts of teaching grammar with different methods in this article.

Rəyçi: Çəmən Babaxanova
filologiya üzrə elmlər doktoru, professor

MEHRIBAN BALAKIŞIYEVA
Sumqayıt Dövlət Universitetinin nəzdində
Sumqayıt Dövlət Texniki Kolleci
E-mail:mehriban131286@gmail.com

KINDS OF SYNONYMS AND THEIR SPECIFIC FEATURES

Açar sözlər: İngilis dili, sinonimlər, spesifik xüsusiyyətlər, semantik quruluş, sinonimlərin tədqiqində yanaşma müxtəlifliyi
Key words: English language, synonyms, specific features, semantic structure, different approaches to the study of synonyms
Ключевые слова: Английский язык, синонимы, специфические особенности, семантическая структура, разные методы в изучении синонимов

Synonyms are words different in their outer aspects, but identical or similar in their inner aspects. In English there are a lot of synonyms, because there are many borrowings, e.g. hearty (native) - cordial (borrowing). After a word is borrowed it undergoes desynonymization, because absolute synonyms are unnecessary for a language. However, there are some absolute synonyms in the language, which have exactly the same meaning and belong to the same style, e.g. *to moan*, *to groan*\ *homeland*, *motherland* etc. (1.səh.545, 711\ 586, 720) In cases of desynonymization one of the absolute synonyms can specialize in its meaning and we get semantic synonyms, e.g. «*city*» (borrowed), «*town*» (native). The French borrowing «*city*» is specialized. In other cases native words can be specialized in their meanings, e.g. «*stool*» (native), «*chair*» (French).(2.səh. 57-59)

Stylistic synonyms can also appear by means of abbreviation. In most cases the abbreviated form belongs to the colloquial style, and the full form to the neutral style, e.g. «*examination* \ *exam*».

Among stylistic synonyms we can point out a special group of words which are called euphemisms. These are words used to substitute some unpleasant or offensive words, e.g. «*the late*» instead of «*dead*», «*to perspire*» instead of «*to sweat*» etc.

There are also phraseological synonyms, these words are identical in their meanings and styles but different in their combining with other words in the sentence, e.g. «*to be late for a lecture*» but «*to miss the train*», «*to visit museums*» but «*to attend lectures*» etc.(3.səh. 23)

In each group of synonyms there is a word with the most general meaning, which can substitute any word in the group, e.g. «*piece*» is the

synonymic dominant in the group «*slice*», «*lump*», «*morsel*». The verb « *to look at*» is the synonymic dominant in the group «*to stare*», «*to glance*», «*to peep*». The adjective «*red*» is the synonymic dominant in the group «*purple*», «*scarlet*», «*crimson*».

When speaking about the sources of synonyms, besides desynonymization and abbreviation, we can also mention the formation of phrasal verbs, e.g. «*to give up*» - «*to abandon*», «*to cut down*» - «*to diminish*». Grouping of words is based upon similarities and contrasts and is usually called as synonymic row. Taking up similarity of meaning and contrasts of phonetic shape we observe that every language has in its vocabulary a variety of words, kindred in meaning but distinct in morphemic composition, phonemic shape and usage, ensuring the expression of the most delicate shades of thought, feeling and imagination. (2.səh. 89) The more developed the language, the richer the diversity and therefore the greater the possibilities of lexical choice enhancing the effectiveness and precision of speech.

The way synonyms function may be seen from the following example: *Already in this half-hour of bombardment hundreds upon hundreds of men would have been violently slain, smashed, torn, gouged, crusted, and mutilated.*

The synonymous words "*smash"* and "*crush*" are semantically very close; they combine to give a forceful representation of the atrocities of war. Richness and clearness of language are of paramount importance in so far as they promote precision of thought. Even this preliminary example makes it obvious that the still very common definitions of synonyms as words of the same language having the same meaning or as different words that stand for the same notion are by no means accurate and even in a way misleading. By the very nature of language every word has its own history, its own peculiar motivation, and its own typical contexts. And besides there is always some hidden possibility of different connotation arid which is feeling in each of them. Moreover, words of the same meaning would be useless for communication: they would encumber the language, not enrich it.

If two words exactly coincide in meaning and use, the natural tendency is for one of them to change its meaning or drop out of the language. Thus, synonyms are words only similar but not identical in meaning. This definition is correct but vague. A more precise linguistic definition should be based on a workable notion of tie semantic structure of the word and of the complex nature of every separate meaning in a polysemantic word.

The definition of necessity is very bulky and needs some commenting upon. By pointing out the fact that synonyms belong to the same part of

speech the definition makes it clear that synonymic grouping is really a special case of lexico-grammatical grouping based on semantic proximity of words. (3.səh. 57)

To have something tangible to work upon it is convenient to compare some synonyms within their group, so as to make obvious the reasons of the definition. The verbs "*to experience*, *to undergo*, *to sustain* and *to suffer"*, for example, come together because all four render the notion of experiencing something. The verb and the noun *experience* indicate actual living through something and coming to know it firsthand rather than from hearsay. *Undergo* applies chiefly to what someone or something bears or is subjected to, as in *to undergo an operation*, *to undergo changes*. Compare also the following example from L.P.Smith: *The French language has undergone considerable and more recent changes since the date when the Normans brought it into England.* In the above example the verb *undergo* can be replaced by its synonyms without any change of the sentence meaning. This may be easily proved if a similar context is found for some other synonym in the same group. For instance: *These Latin words suffered many transformations in becoming French.*

And yet *suffer* in this meaning (to undergo), but not in the example above, is characterized by connotations implying wrong or injury. No semantic neutralization occurs in phrases like *to suffer atrocities*, *to suffer heavy losses*. The implication is of course caused by the existence of the main intransitive meaning of the same word, not synonymous with the group, "*feel pain*". *Sustain* as an element of this group differs from both in shade of meaning and style. It is an official word and it suggests *undergoing affliction without giving way*.

A further illustration will be supplied by a group of synonymous nouns: *hope*, *expectation*, and *anticipation*. They are considered to be synonymous because they all three mean *"having something in mind which is likely to happen"*. They are, however, much less interchangeable than the previous group because of more strongly pronounced difference in shades of meaning. *Expectation* may be either of good or of evil. *Anticipation*, as a rule, is a pleasurable expectation of something good. *Hope* is not only a belief but a desire that some event would happen. The stylistic difference is also quite marked. The Romance words *anticipation* and *expectation* are formal literary words used only by educated speakers, whereas the native monosyllabic *hope* is stylistically neutral. Moreover, they differ in idiomatic usage. Only *hope* is possible in such set expressions as: *to hope against*, *to lose hope*, *to pin one's hopes on smth*. Neither *expectation* nor *anticipation* could be substituted into the following quotation from T. S. Eliot: *You do not know what hope is until you have lost it.*

Taking into consideration the corresponding series of synonymous verbs and verbal set expressions: *to hope*, *for anticipate*, *to expect*, *to look forward to*, we shall see that separate words may be compared to whole set expressions.(1) *To look forward* also worthy of note because it forms a definitely colloquial counterpart to the rest. It can easily be shown, on the evidence of examples, that each synonymic group comprises a dominant element. This synonymic dominant is the most general term of its kind potentially containing the specific features rendered by all the other members' of the group, as, *for instance*, *undergo* and *hope* in the above.

The semantic structures of two polysemantic words sometimes coincide in more than one meaning, but never completely. They may also differ in emotional coloring which may be present in one element of the group and absent in all or some of the others. *Lonely* as compared with *alone* is emotional as is easily seen from the following examples: "*...a very lonely boy lost between them and aware at ten that his mother had no interest in him, and that his father was a stranger"*. (ALDRIDGE) "*I shall be alone as my secretary doesn't come today*" (M. DICKENS). Both words denote *being apart from others*, but *lonely* besides the general meaning implies longing for company, feeling sad because of the lack of sympathy and companionship. *Alone* does not necessarily suggest any sadness at being by oneself.

All above mentioned facts show how colorful the world of synonyms is.

Ədəbiyyat

1. İngiliscə-Azərbaycanca lüğət. Bakı-2004 "Şərq-Qərb" 1320 səh.
2. Smirnitsky A.I. Synonyms in English M.1977 pp.57-59,89-90
3. Арнольд И.В. Семантическая структура слова в современном английском языке и методика ее исследования. 2-е издание. - Л. 2002.

M.Balakişiyeva

Sinonimlərin novləri və onların spesifik xüsusiyyətləri

Xülasə

Məqalənin əsas ideyası müasir İngilis dilində sinonimlərin leksik-semantik xüsusiyyətlərini təhlil etməkdir. Sinonimlər İngilis dilinin ayrılmaz hissəsini təşkil edirlər. İşin yeniliyi sinonimlərin dərin elmi tədqiqatı zərurətindən yaranır.

Məqalənin əsas məqsədi sinonimlərin öyrənilməsində mövcud olan müxtəlif yanaşmaları təhlil edib ümumiləşdirməkdir.

Müasir sinonimlərin xarakterik xüsusiyyətlərinin morfoloji və semantik təsnifatlardan asıllığı, absolyut və törəmə sinonimlər arasında fərq tərəfimizdən analiz edilir. Beləliklədə, yuxarıda sadalanan faktlar tədqiqat işinin əhəmiyyətini artırır.

M. Балакишиева

Типы синонимов и их особенности
Резюме

Основной идеей статьи является исследование лексико-семантических особенностей синонимов в современном Английском языке. Синонимы составляют неотъемлемую часть Английского языка. Новизна работы возникает из необходимости глубокого научного исследования синонимов. Основная цель статьи это обобщить и проанализировать различные подходы

к изучению синонимов. В статье мы анализируем характерные черты современных синонимов в зависимости от их морфологической и семантической классификации, различия между абсолютными и деривационными синонимами.

Таким образом, все выше перечисленные факты увеличивают важность исследования.

Rəyçi: Dəyanət Cümənov
filologiya üzrə fəlsəfə doktoru, dosent

SƏBUHİ İBRAHİMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: s.ibrahimov71 @mail.ru

XIX ƏSRİN AXIRI – XX ƏSRİN ƏVVƏLLƏRİ NAXÇIVANA DAİR BƏZİ HƏRBİ-SİYASİ VƏ MƏDƏNİ ƏLYAZMA SALNAMƏLƏRİ

Açar sözlər: Azərbaycan, Naxçıvan, əlyazma, mətn, Kəngərli
Key words: Азербайджан, Нахчыван, рукописей, текстов, Кенгерли.
Key words: Azerbaijan, Nakhchivan, manuscript, text, Kengerlis.

Məqalədə XIX əsrin axırı – XX əsrin əvvəllərində Naxçıvanın düşdüyü keşməkeşli siyasi həyatdan şərəflə çıxmasında qəhrəman oğullarının xidmətləri haqqında araşdırmalar aparılmışdır. Belə qəhrəmanlar sırasına "Kəngərlilər" soy adı ilə məşhur olanlar da daxildir. Əlyazma mətnlərdən məlum olur ki, 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Naxçıvanda əhali ayağa qalxıb onun tərəfdarlarını hakimiyyətdən devirib, xanlıq yaradırlar və Kəngərliləri hakimiyyətə gətirirlər. İlk əvvəl Heydərqulu xan Naxçıvan xanı olur. Sonra Həsən xan, Rəhim xan hakimlik edir. Ən nəhayət, 1783-cü ildə (bəzi mənbələrə görə 1787-ci ildə) Kalbalı xan Kəngərli Naxçıvanın xanı olur. Həmin ildən başlayaraq 1920-ci ilədək Kalbalı xanın nəsli Naxçıvanda hakimlik edir.

Azərbaycan mətnşünaslığının müstəqil elm sahəsi kimi tarixi azdır. Olsun ki, bu baxımdan, Naxçıvana dair əlyazma mətnlərinin filoloji və tekstoloji təhlili indiyədək aparılmamışdır. Bu sahədə tədqiqatımız ilk addımdır. Belə ki, Naxçıvanın hərbi-siyasi həyatına dair əlyazmalar, 500 illik tarixi olan Kəngərli nəslinin nümayəndələrinin bu torpaqda yaşaması və xanlıqlara sahib olmaları haqqında geniş məlumatları qarşıya qoyur. E.Seyidbəylinin "Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri" (4) adlı qiymətli kitabı da bu həqiqətləri bir daha ortaya qoyur.

"XIX əsrin axırı – XX əsrin əvvəllərində Naxçıvanın düşdüyü keşməkeşli siyasi həyatdan şərəflə çıxmasında qəhrəman oğullarının xidməti də az olmamışdır"(2, s. 265). Belə oğullar sırasına "Kəngərlilər" soy adı ilə məşhur olanlar da daxildir. Naxçıvanda və Azərbaycanın başqa bölgələrində məskunlaşan bu tayfa haqqında rus tarixçisi Viktir Qriqoryev özünün "Naxçıvan əyalətinin statistik təsviri" (Sankt-Peterburq, 1833-cü il) əlyazmasında qeyd edir ki, "Kəngərlilərin Naxçıvana Türkiyənin Diyarbəkr vilayətindən V-VI əsrlərdə gəlmişlər" (1, s. 6). Sonra Kəngərlilərin xasiy-

yətindən bəhs edən V. Qriqoryev yazır: “Onlar möhkəm, dözümlü, işgüzar, uzun vaxt aclığa dözən adamlardır. Hərbiçilərdir. Qonaqpərvər, dostluğa möhkəm, lakin heç vaxt təhqir və inciməyə dözmürlər və yaddan çıxarmırlar” (1, s. 7).

1913-cü ildə Tiflis muzeyinin buraxdığı kitabçada da Kəngərlilər barəsində məlumat verilir: “Kəngərli atlıları igidlikdə bütün Şərqdə şöhrət qazanmışlar... Kəngərli süvari dəstələrinin bayrağı yaşıl rəngdədir... Bayrağın üstündə “Kəngərli süvariləri” sözləri yazılmışdır” (1, s. 7). XVII əsr səyyahı olan Övliya Çələbinin “Səyahətnamə”sində, eləcə də həmin əsrdə yaşamış fransız səyyahı Şardenin qeydlərində, XIX əsrdə yaşamış rus və avropalı müəlliflərindən olan A.S. Qriboyedovun, N. Xanıkovun, V. Pottonun, N. Nefedovun, İ. Şopenin qeydlərində Kəngərli tayfası barədə məlumat verilir (1, s. 7).

Akademik N. Y. Marrın oğlu Y. N. Marrın redaktəsi ilə 1936-cı ildə Tiflisdə nəşr edilmiş “Ön Asiya sənədlərdə” kitabından məlum olur ki, “1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Naxçıvanda əhali ayağa qalxıb onun tərəfdarlarını hakimiyyətdən devirib, xanlıq yaradırlar və Kəngərliləri hakimiyyətə gətirirlər. İlk əvvəl Heydərqulu xan Naxçıvan xanı olur. Sonra Həsən xan, Rəhim xan hakimlik edir. Ən nəhayət, 1783-cü ildə (bəzi mənbələrə görə 1787-ci ildə) Kalbalı xan Kəngərli Naxçıvanın xanı olur. Həmin ildən başlayaraq 1920-ci ilədək Kalbalı xanın nəsli Naxçıvanda hakimlik edir” (1, s. 7). Kalbalı xanın özü 40 il Naxçıvanda xan olur. 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra Naxçıvan Rusiya ərazisinə daxil olur. Həmin ildən sonra da çar Rusiyası Kəngərlilərlə hesablaşır və onların xanlıqlarını əllərindən almır.

Kalbalı xanın ruspərəst siyasətinə qiymət verən İbrahim Bağırov yazır: “Müstəqilliyimizin əlimizdən aldıqları baxımından, bəlkə də, bir çoxları Kalbalı xanın bu siyasətini bəyənmirlər, hətta pisləyənlər də vardır. Lakin tarixə tarix kimi baxmaq lazımdır. O dövrlərdə Azərbaycan müstəqil xanlıqlara parçalansa da, yüz illər davam edən İranın zülmündən cana gəlmişdi. İranın o dövrdəki hakimiyyət orqanları naxçıvanlıları tez-tez çapıb-talayır, müxtəlif adda ağır vergilər alır, müstəqilliyə, sərbəst yaşamağa həmişə can atan yerli əhaliyə azad yaşamaq hüququ vermirdilər. Azərbaycanın başqa xanlıqlarına nisbətən naxçıvanlılar İran zülmünü daha çox və tez-tez dadırdılar. Bütün bunlara görə Kalbalı xan İran zülmündən qurtarmağın yeganə yolunu Rusiya ilə birləşməkdə görürdü” (1, s. 8).

Kalbalı xanın oğlanları da dövrün şücaətli sərkərdələri idi. Atasından sonra hakimiyyətə gələn Ehsan xan da Naxçıvanı layiqincə idarə edirdi. Onun qızı Qönçəbəyim incə ruhlu şairə idi, yazdığı şeirlər bütün Şərqdə məşhur idi. Kalbalı xanın böyük oğlu Şeyx Əli bəy uzun illər Ordubad bölgəsinin hakimi olmuş və 1809-cu ildə I Aleksandırın fərmanı ilə ona

polkovnik rütbəsi verilmişdir. Ümumiyyətlə, Kəngərli tayfasından XIX-XX əsrdə altı general olmuşdur. Onlardan dörd nəfəri rus ordusunda, biri İran ordusunda və biri isə sovet ordusunda xidmət etmişdir. "Qriqori Akselrod "Nedelya" qəzetinin 1988-ci il 17-ci nömrəsində "Xan nəsilli briqada komandiri" adlı məqaləsində Baba Kalbalı xanı da "Rus xidməti generalı" adlandırmış və beləliklə, səhvə yol vermişdir. Çünki "Baba Kalbalı xan general olmamış və heç bir mənbədə də bu təsdiq edilməmişdir " (1, s. 9).

Bu hadisələrdən sonra baxmayaraq ki, Naxçıvan xanılığı yenicə yaradılmış İrəvan qubernatorluğuna tabe etdirilir, bununla belə Ehsan xan Naxçıvan bölgəsinin hakimi kimi qalmaqda davam edir. O, 1837-ci ildə öz vəsaiti hesabına 200 şagirdin təhsil alması üçün rus-müsəlman məktəbi açdırır. Bu məktəbdə ilk dəfə dünyəvi elmlər olan, riyaziyyat, həndəsə, coğrafiya, astronomiya elmləri tədris edilir. Xanın gələcəkdə general olacaq İsmayıl xan və II Kalbalı xan da bu məktəbdə təhsil almışdır. Ehsan xan Naxçıvan şəhərinin iqtisadi inkişafında da bir çox işlər görüb, şəhərin abadlaşdırılmasına xüsusi əhəmiyyət verib. O, təqribən 1844-cü ildə vəfat etmişdir.

Ehsan xanın oğlu İsmayıl xan Naxçıvanski (1819-1909) da atası kimi mərd, cəsur bir hərbiçi olmuşdur. Naxçıvanda anadan olub, burada tərbiyə alan İsmayıl xan rus dilini yaxşı bilirdi. Sonra Rusiyada hərbi məktəblərdə təhsil alan və rus ordusunda xidmət edib çarın fərmanı ilə "Georgi" və "Stanislav" ordeni ilə təltif olunmuşdur. Qəribə burasındadır ki, İsmayıl xan həm də İranın "Şiri-Xurşid" ordeni ilə də təltif edilmişdir. İsmayıl xan general-leytenant rütbəsinədək yüksəlmişdir. Ordudan tərxis ediləndən sonra ömrünün son illərini Naxçıvanda yaşayan xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmuş və Naxçıvan şəhərinin su təminatı işlərinə köməklik göstərmişdir.

II Kalbalı xanın oğlu Hüseyn xan Naxçıvanski (1863-1919) də general-leytenant rütbəsinə qədər yüksəlmiş süvari komandirlərindən olmuşdur. O, 1881-ci ildə Peterburqda imperatorun Pajevski hərbi məktəbini bitirmişdir. 1898-ci ildə posmistr rütbəsində eskadron komandiri kimi hərbi xidmətini davam etdirən Hüseyn xan 1911-ci ildə hərbi xidmətlərinə görə "Şiri-Xurşid" (İran) və çarizmin "Stanislav" ordeni ilə təltif edilmişdir. Hüseyn xan artıq 1903-cü ildə polkovnik rütbəsini almış və Dağıstanda süvari hissəsinin komandiri olmuşdur.

1918-ci ildə baş verən hadisələrdə Azərbaycan Demokratik Respublikasının Naxçıvan və İrəvan bölgəsində əmin-amanlıq yaratmağa qüdrəti çatmırdı. Bölgədə olan ingilis, fransız və rus hərbi qüvvələrinin yardımından bəhrələnən ermənilər günü-gündən azğınlaşaraq qanlı faciələr törədirdilər. Qeyd etdiyimiz kimi, belə vaxtda qəhrəman irəvanlı və naxçıvanlılar bu ədalətsizliyə qarşı özlərinin siyasi iradəsini qoyaraq, indiki Naxçıvan, Ermənistan və Türkiyə ərazisində Araz-Türk Respublikası

yaratdılar. Respublikanın paytaxtı Kars şəhəri oldu və onun ərazilərinə İrəvan xanlığı, Naxçıvan bölgəsi və Kars ətrafı daxil idi.

Bu Respublikaya Türkiyənin də münasibəti pis olmamışdır. Bu barədə tarixi sənədlər var. Onlardan biri "Osmanlı arşiv belgelerinde Nahçıvan" adlı tarixi əsərdir. Əsərin seçilə bilən bir mətnində deyilir: "Nahçıvanda kurulan Araz geçici hükumeti nezdine özel görüvle memur gönderilmesi... 25 aralık 1918... Nahçıvanda Araz Hükumeti-Muvakkastesi namıyla teşekkül eden heyet azasında buraya gelen İbrahim Beyin melumat ve meşhudatına nazaran Ermenilerden Pano nam şahis komandasında sevk eyledikleri bin iki yüz mevcudlu kuvvetle Nahçıvan taraflarında 5 Kanuni-evvel (1)334 tarihinden itibaren İslamlara karşı icrayi-mezalimle Ağu nam mahalde ve Recebilyasdörtköy sancağının mühacirlerinden beş yüz on altı ve Elmalh nam mahalde altı yüz seksen sekkiz ve Yedibasadda Milli Eşiretinden genc kadınları ayırdıkdan sonra ellerine geçirdikleri iki bin kişiyi harman yerine toplayaraq katl ve ayrıca kırk kadın ve çoçukdan mürekkebcemiyyeti odada habs ile ihrak eşrafından Seyid Hasanın ailesinin Köysancaq camiinde namusunu hetk etmişlerdi. Ol havakide bulunan bütün İslamlar korkularından mesken ve mevalarını terk ederek soğuğa aclığa məhkum olmuşlardı. Mumaileyh bu feciayi makamati-ulyayi-Amerikaya, İngiltereye ba teleqraf bildirerek Karsamüteveccihen bugün buradan hareket etmişdir. Bu gibi ahvalin mevsukiyetini temin için ara-sıra memurini-hususiye gönderilmek üzürü ihtiyaten icab eden tahsisatın itasi menuti-iradelerdir" (3, s. 296).

Belə qənaətə gəlmək olar ki, XIX əsrin axırı – XX əsrin əvvəlləri Naxçıvanın hərbi-siyasi həyatına dair əlyazma mətnlərdə 500 illik tarixi olan Kəngərli nəslinin nümayəndələrinin bu torpaqda yaşaması və xanlıqlara sahib olmaları haqqında geniş məlumatlar əldə edilmişdir. Bu dövrdə Naxçıvanın düşdüyü keşməkeşli siyasi vəziyyətdən şərəflə çıxmasında qəhrəman oğullarının xidmətləri böyük olmuşdur.

Ədəbiyyat

1. Bağırov İ. Kəngərli yurdunun generalları. Bakı: Yazıçı, 1994, 56 s.
2. İbrahimov S.M. Naxçıvanın mənəvi-mədəni irsinə dair əlyazma mətnləri. Bakı: Elm və təhsil, 2017, 336 s.
3. Osmanlı arşiv belgelerinde Nahçıvan. T.C. Başbakanlık devlet arşivleri genel müdürlüğü. İstanbul: 2011, 568 s.
4. Seyidbəyli E. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri, Bakı: Elm, 2000. 280 s.

С.Ибрагимов

Некоторые военно-политические и культурные рукописные летописи о Нахчыване конца xıx-начала xx веков

Резюме

В статье проведено исследование заслуг героических сыновей, которые помогли Нахчывану с честью выйти из трудных политических событий, происходивших в конце XIX-начале XX веков. В ряду этих героев были и носившие известную фамилию Кенгерли. Из текстов рукописей становится ясно, что в 1747 году, после смерти Надир шаха Эфшара, население Нахчывана восстало и отстранило от власти его сторонников, затем было создано ханство, и к власти пришли Кенгерли. Первым ханом Нахчыванским стал Гейдаргулу хан. После него правили Гасан хан и Рагим хан. Наконец, в 1783 (согласно некоторым источникам - в 1787) году ханом стал Калбалы хан Кенгерли. Начиная с этого года и до 1920-го, род Калбалы хана управляет Нахчываном.

S.İbrahimov

Some military-political and cultural manuscript chronicles about Nakhchivan of late xıx-early xx centuries

Summary

The paper studies the merits of those heroic Nakhchivan’s sons who helped the city to get with honor out of the difficult political events that took place in the late XIX-early XX centuries. Among these heroes there were those who wore the famous Kengerli name. From the texts of manuscripts it becomes clear that in 1747, after the death of Nadir shah Efshar, the population of Nakhchivan rebelled and removed his supporters from power, then the khanate was created, and Kengerlis came to power. The first khan of Nakhchivan became Heidargulu khan. After him ruled Hasan khan and Rahim Khan. Finally, in 1783 (according to some sources – in 1787) Kalbaly khan Kangarli became the ruler. From this year and until 1920, the family of Kalbaly khan ruled Nakhchivan.

Rəyçi: Əbülfəz Quliyev
AMEA-nın müxbir üzvü, professor

AYNUR MAMMADOVA
Azerbaijan Siate Oil And Industry University
aynur252@mail.ru

TEACHING WRITING

Açar sözlər: yazı vərdişləri, ünsiyyət, tədris, təkmilləşdirmək, tələbə, müəllim, inkişaf etdirmək, məna.
Key words: writing skills, communication, teaching, improve, student, teacher, develop, meaning.
Ключевые слова: умение писать, коммуникация, обучение, улучшать, студент, учитель, развивать, значение.

Writing is one of the four language skills: reading, writing, listening and speaking. Writing is a productive skill. That means it involves producing language rather than receiving it. We can say that writing involves communicating a message by making signs on a page. To write we need to have something to communicate, and usually someone to communicate it to. We also need to be able to form letters and words, to join these together to make sentences or a series of sentences that link together and to communicate our message in such a way as to get our message across.The phrase *good communication skill* amounts to little more than "writing well and speaking well", a fairly modest-sounding acquirement. The skills themselves, however, are anything but modest in their practical effects- without them, you cannot function efficiently, whether as housewife or businessman, office secretary or club secretary, employee or employer, information hunter or bargain hunter, colleague or student or friend. Writing is a principal form of communication, necessary in everyday life, in business, in creativity, in scholarly pursuits; in short, it is not a just tool of living, it is a tool of survival. The more clearly one can write, the more easily one can survive, thrive, and navigate the world.The greater your skills in speaking and writing, the greater your chances of success in many aspects of life, from friendships to business dealings. To build up a successful relationship with someone- a new acquaintance, a son or daughter, a boss, a client, a salesman- you must maintain the skills that help you to say what you mean and to understand what others are saying to you. *Writing* is thinking on paper. The teaching of writing, is the enabling of thought. By expressing thoughts on paper, we are ordering and analyzing our own ideas. The effects of writing on thinking suggest that students learn better when assigned work conducive to critical thinking. *What is process writing?* Process writing does represent a teaching approach, not a teaching method. It

is a set of ideas (for some people, principles) about writing and how it should and should not be taught. The process approach does not consist of any particular sequence of teaching activities, as a teaching method might do. Some teaching activities fit in well with a process approach, others do not.Process writing originated in the L1 classroom, where it was developed in reaction to "traditional" types of writing teaching. These, according to process proponents, tended to be formulaic and model-based. Students were presented with rules about what constituted good writing, and were expected to produce texts that observed those rules. They were given little indication of precisely how to set about producing such texts, except perhaps to be told to make a plan, then write an essay based on the plan, and then edit that essay for linguistic accuracy. The focus of the class was on the model and on the students' finished text, or product; this product would be assessed by the teacher, often simply in terms of how accurate it was linguistically, and how well it paralleled the model being employed. But there would be little indication given as to how the students were supposed to write more successful essays than the ones they had produced; there was no teaching on how the content of an essay was to be created and developed. Writing often contains social markers which might identify the age of the author, the gender or social class, and especially the educational background. Whenever we teach writing, we almost always have to assess it. This might be to award a certificate to an individual, to evaluate a writing programme, or merely to create a healthy respect for the writing class among teachers and students alike. *Different types of writing:* In some ways we can see all writing as being the same. Writing consists of words and these words are put together in particular formations to make sentences. Sentences are then grouped together into paragraphs. Even at this point things begin to get tricky if we think of all writing as being the same. It is quite possible to communicate what we need to say in writing, with an incomplete sentence. A good example of this would be a note left for maybe a partner or a work colleague:

Dinner in the oven

Three copies please, asap

As long as they were in the know, and the context was familiar, people would easily understand these simple messages, but they don't consist of complete sentences. Neither phrase contains a main verb. If we wanted to turn these into formal standard English we would have to say something like:

Your dinner is in the oven

Please would you make three photocopies of this article as soon as you can.

In these examples "is'" and "make" are the main verbs of the sentences. Of course when we are writing a quick note to somebody we can

still express ourselves clearly despite the fact that words are omitted. One of the reasons for this is that as writers we can reasonably assume that the reader will understand what we are trying to communicate by leaving the note. When we write letters or e-mails to friends we often use a rather informal chatty style and leave out words because the meaning is still communicated clearly. In fact if we wrote to our friends in formal standard English it could sound quite cold and unfriendly. However, in other circumstances we use language in more formal ways, resulting in different in different types of writing.At university there is more than one way of writing. Your writing will have different purposes and functions, although university assignments are mainly produced to inform your tutors and lecturers about your knowledge and understanding of the subject area. You will find that you can communicate with your reader, the tutor, through various types of written assignment depending on the discipline and subject areas that you are studying.*Talking for writing:* Working with others can help you to develop and enjoy your writing. There is another reason for working with others, whether as part of your course contact time or in a self-help group, or just informally with a friend talking about ideas and material from the subjects you are studying is always a good way of learning the subject. It allows you to state something boldly, even if you are unsure about whether it is "right" or indeed really what you think, and then you can expand and modify it as you get other people's reactions. In talking around a subject you can also raise and explore your own questions, clarify your understanding and discover a variety of other ways of seeing a topic. Talking can help you to develop your writing. For example, tutors sometimes report that when they are giving verbal feedback to a student the student will say "What I really meant was this….." and the tutor says "Well, that's not what you put in your essay ". The advantage of a tutorial, or any face-to-face contact with your lecturers is that, it gives you the opportunity to ask questions and clear up misunderstandings. If the tutor does not understand you in a seminar then you can always say the same thing in a different way, but when you are writing an assignment you have to let the reader know exactly what you mean through your writing. This is often extremely difficult, particularly as many people find that speaking an idea is generally much easier than writing it.*Students learn to write by writing:* experiment; discovery; trial and error; regular opportunity to write in all the subjects; good writing models; consistent approach to the writing process (all subject areas); constructive and formative feedback.

Now let's focus on *10 tips to help you improve your English writing skills:*

1. Write in English every day: This is the most important tip to improve your writing skills in English. Start by thinking of a theme, for example, you could start writing a diary of something that happens to you every day, you can write a few lines of a story each day or you could write e-mails to your friends in English. This might be difficult at first but the more you continue, the easier it will become and you might even end up enjoying it!

2. Ask someone to check your writing: If you're studying at an English language school, you could ask your teacher to check your writing for you. Otherwise, why not ask a friend or relative who speaks English? I'm sure they'd be happy to help! You might even be able to do a writing language exchange- find an English person who is learning your language and write letters or emails to each other (you can write in English and they can write in your language). When you send a reply, you can also send their letter back to them with corrections and they can do the same for you!

3. Improve your vocabulary: Having a wide range of vocabulary is very important when you're writing in English. An excellent way to improve your vocabulary is to read as much as possible. If you read books, newspapers or magazines in English you will learn many new words and common English idioms. Remember to write down the new words and expressions you read and their meanings so you can learn them.

4. Use a dictionary: You might feel that using a dictionary when you write is "cheating" but think again it is actually a great way to improve your vocabulary and practice using words and phrases that you've heard but haven't used before. Remember to ask someone to check your writing to make sure you have used the vocabulary correctly.

5. Check your writing carefully: After you have written something in English, you should always read it again, either straight away or the next day. When you do this, you will probably see a few mistakes that you didn't notice when you were writing it. Remember to check the spelling, grammar and vocabulary - have you used a particular word many times? Can you think of another way to say it?

6. Write about different topics: If you write about the same thing every day, you could become very bored and you might end up using the same words and phrases over and over again! It is a good idea to find different topics to write about as this will help to widen your vocabulary and will be much more interesting for you. Writing about something you read in a newspaper or watched on TV is a good starting point.

7. Do your homework: If you have classes at an English language school, your teacher probably gives you writing homework to do. It is really important that you do all your homework as your teacher knows your level of English and will be able to give you good advice on which parts of

writing you need to improve most . This is extremely important if you are planning to take an English language exam.

8. Write to your friends: Do you have friends who speak English. If so, you should practice your writing with them! There are many ways to do this- using social media, sending e-mails, writing text messages, chatting on Skype, etc). The best thing about writing to people who are also learning English is that you can correct each other's mistakes.

9. Write a blog: It doesn't even matter if no one reads it, but writing a blog is a great way to practice writing in English. The great thing about a blog is you can write about absolutely anything and there's a chance that you might even help or entertain someone who reads it!

10. Don't be afraid to make mistakes: It's easy to decide not to do any English writing as you are worried that you will make lots of mistakes. However, the more you write and get your writing corrected, the fewer mistakes you will make.

References:

1. How to write and speak better. The Complete Guide to Effective Communication. New updated edition. Published by the Reader's Digest Association Limited. Copyright 1991.
2. Phyllis Crème, Mary R. Lea. Writing at University. A guide for students. Second edition.
3. Writing in the English Language Classroom. Edited by Glenn Fulcher. Prentice Hall Europe ELT in association with The British Council.
4. Improving English Writing Skills. Bloomsbury International.
5. Effective Strategies for Teaching Writing by Connie Monaghan.
6. The Student's Guide to Writing (Spelling, Punctuation and Grammar). John Peck&Martin Coyle. Third Edition.

A.Məmmədova

Yazinin öyrədilməsi

Xülasə

İngilis dilini öyrənmək hər bir kəsin əsas məqsədlərindən biridir. Yazının isə dilin öyrədilməsində xüsusi

rolu vardır. Yazı 4 dil vərdişlərindən (bacarıqlarından) biridir. Hər bir kəs yazılı nitq vərdişlərinə yiyələnməlidir. Peşəsindən asılı olmayaraq hər bir insan öz fikirlərini yazılı ifadə etmək tələbatı ilə üzləşir. Yazı insan fikirlərinin vərəq üzərində ifadəsidir. Savadlı yazmaq isə hər bir kəs üçün vacibdir. Yazı sərbəst düşüncə tərzi formalaşdırır, ünsiyyət bacarığını,

düşündüklərini yazıya çevirə bilmək qabiliyyətini zənginləşdirir. Yazı insan xarakterinin açılmasında da mühüm rol oynayır. Eyni mövzuda yazılan yazı tələbələrin müxtəlif baxışlarını ortaya qoya bilər. Bütün bunları nəzərə alaraq, dili tədris edən müəllim tələbələrdə digər dil vərdişləri ilə yanaşı yazının inkişaf etdirilməsinə də çalışmalıdır.

Yazı bacarıqlarının inkişaf etdirilməsi üçün müəyyən qaydalara əməl etmək lazımdır. Bu məqalədə yazının mənşəyi, növləri ilə bərabər, yazı vərdişlərinin necə inkişaf etdirilməsi haqqında da məlumat verilmişdir.

A.Мамедова

Обучение письма

Резюме

Изучение английского языка является одной из главных целей каждого. Писание играет определенную роль в преподавании языка. Письмо является одним из четырех языковых навыков. Каждый человек должен иметь письменные привычки речи. Независимо от их профессии, каждый человек сталкивается с необходимостью выразить свои идеи в письменной форме. Письмо - это выражение человеческих идей на листе. Письменная грамотность важна для всех.

Написание создает свободное мышление, обогащает навыки общения и способность переводить идеи в письменной форме. Писание также играет важную роль в открытии человеческой натуры. Статья, написанная по тому же вопросу, может показать разные взгляды студентов. Следовательно, учитель, который обучает язык, должен работать со студентами над развитием письменности вместе с другими языковыми навыками. Нужно следовать некоторым правилам для разработки навыков письма. В этой статье представлена информация о происхождении, типах написания, а также о некоторых способах разработки навыков написания.

Rəyçi: Sevil Əliyeva
filologiya elmləri namizədi

KÖNÜL BABAYEVA
"Naxçıvan" Universiteti
k.babayeva@nu.edu.az

AZƏRBAYCAN VƏ İNGİLİS DİLİNDƏ FEİLİ SIİƏT İLƏ DÜZƏLƏN FEİLİ BİRLƏŞMƏLƏR

Açar sözlər: feili sifət, sadə cümlə, məsdər, tərkiblər, budaq cümlə.
Ключевые слова: причастие, прчастный оборот, неопределенная форма глагола, составы, подчиненное предложение.
Key words: participal, simple sentence, infinitive, constructions, subordinate clause.

Tərkiblər söz birləşmələrinin bir növü olmaqla yanaşı həmçinin onun özünə məxsus xüsusiyyətləri də var.Tərkiblərin forma və məna xüsusiyyətləri var.

Feili birləşmələrə cümlə daxilində tərkib deyilir. Bu halda onlar əsas tərəfin adları ilə adlanır: məsdər tərkibləri, feili sifət tərkibləri, feili bağlama tərkibləri**.** Feili birləşmələr dedikdə əsas tərəfin feilin təsriflənməyən formalarından hər hansı biri ilə ifadə olunmasının fərqi yoxdur**.** Yəni, *vətəni sevmək, vetəni sevən, vətəni sevəndə* birləşmələrinin üçü də feili birləşmədir. Lakin cümlədə tərkib kimi onlar bir-birindən fərqlənir: birincisi məsdər tərkibi, ikincisi feili sifət tərkibi, üçüncüsü isə feili bağlama tərkibi adlanır.

Feili sifət ətrafına söz toplayır və özünə tabe etdiyi sözlərlə birlikdə tərkib əmələ gətirir. Feili sifət tərkibi adlanan belə sözlər bütövlükdə cümlədə bir sintaktik suala cavab verir və cümlənin bir üzvü olur.

Məsələn: Dərslərini yaxşı oxuyan şagirdlər imtahanda çətinlik çəkmirlər. Onlar taybatay açılmış qapıya tərəf baxırdılar (İ.Şıxlı)

Hər iki cümlədəki feili sifət tərkibi cümlənin mürəkkəb təyinidir.

Hər bir dildə olduğu kimi, Azərbaycan dilində də sözlərin əlaqələnmə qaydaları, düzülüşü, sırası dilin qrammatik quruluşuna əsaslanırsa, budaq cümlələr də eyni qaydalara əsaslanır. Tərkiblərdəki sözlərin də əlaqəsi və sırasında eyni xüsusiyyətlərə rastlaşırıq. [8-Səh 234]

İngilis dilində feili sifət tərkiblərini bir çox alimlər- S.Venqerova, V.Qavrilov, N.Şanayeva və başqaları araşdırmışlar. İngilis dilində feili sifət tərkiblərin bəzi dilçi alimlər E.Dobronetskaya iki qrupa bəziləri – O.Yaqodnikova, L.Driqa, N.Şanayeva üç qrupa bir çoxları isə - N.Kobrina, B.İlyiş, T.Novitskaya- dörd qrupa bölürlər.Müasir ingilis dilində feili sifət tərkibləri 4 qrupa bölünür.

1. Tamamlıq feili sifət tərkibləri – (the objective participial construction)

2. Mübtəda feili sifət tərkibləri – (the subjective participial construction)

3. Müstəqil nominativ feili sifət tərkibləri (the nominative absolute participial construction)

4. Müstəqil sözönülü feili sifət tərkibləri (the prepositional absolute participial construction)

Tamamlıq feili sifət tərkibləri – (the objective participial construction) ümumi halda olan isim və ya obyekt halda olan sifət və feili sifətdən ibarət olur.

Məsələn: Did you see any of the lawyers moving up or down the corridor.

Sən vəkillərdən kiminsə dəhlizə çıxıb-düşdüyünü gördün? (feili sifət tərkibi – tamamlıq)

Tamamlıq feili sifət tərkibləri aşağıdakı hallarda işlənir:

a) Hiss-qavrayış bildirən feillərdən sonra; to see, to hear, to feel, to find və s.

She felt herself arrested by police.

O özünü polis tərəfindən həbs edilmiş hiss etdi.

Her father found his daughter grown.

Onun atası qızını böyümüş gördü.

I heard my child crying….

Mən uşağımın ağlamasını eşidirəm.

b) Arzu bildirən feillərdən sonra; to want, to wish, to desire. Bu feillərdən sonra yalnız Past Participle (keçmiş zaman feili sifət) işlənir.

The president wants it done quick.

Prezident tez bir zamanda bu işin görülməsini istəyir.

c) **To have** və **to get** feillərindən sonra, bu feillərlə də yalnız Past Participle (keçmiş zaman feili sifət) işlənir. Bu zaman feil sifəti ilə ifadə olunmuş hərəkət cümlənin mübtədası tərəfindən icra olunmur, mətndə olan digər şəxslər tərəfindən yerinə yetirilir. Deməli feili sifət ilə ifadə olunmuş hərəkət cümlənin mübtədası vəzifəsində işlənən şəxsin təklifi ilə icra olunmuşdur.

*Məsələn: I had the house cleaned. (I made someone clean the house***)**

Mən evi təmizlətdim.

"To have" və "to get" feilləri işlədilən tamamlıq feili sifət tərkibləri Azərbaycan dilinə feilin icbar növünə müvafiq olaraq tərcümə edilir.

Mübtəda feili sifət tərkibləri – (the subjective participial construction) ümumi halda olan isim və ya adlıq halda olan əvəzlik və feili sifətdən ibarət olur.

Mübtəda feili sifət tərkibi cümlədə mürəkkəb mübtəda funksiyası daşıyır. Məsələn:

-They were seen swimming in the Caspian sea.

-Onları Xəzər dənizində üzən görüblər.

-Görüblər ki, onlar Xəzər dənizində üzürlər.

-Onların Xəzər dənizində üzdüklərini görüblər.

Bu cümlədə "they.....swimming" mübtəda feili sifət tərkibi Azərbayca dilinə aşağıdakı şəkillərdə tərcümə oluna bilər.

1) Onları üzən
2) Onların üzdüklərini
3) Onlar üzürlər.

Birinci halda Azərbaycan dilinə feili sifət tərkibi (onları üzən), ikinci halda üçüncü növ təyini söz birləşməsi (onların üzdüklərini), üçüncü halda isə tamamlıq budaq cümləsi (onlar üzürlər) kimi tərcümə olunmuşdur.

"to seem, to appear, to chance, to prove, to happen, to turn out" kimi feillərlə mübtəda feili sifət tərkibi işlənir.Müasir ingilis dilində işlənən mübtəda-feili sifət tərkibi Azərbaycan dilinə (1) ya təsirlik halda isim və feili sifət, yaxud da (2) budaq cümlə vasitəsilə tərcümə edilir. Bu halda cümlənin mübtədası qeyri-müəyyən şəxsli olur, məsələn:

The boys were seen **going** to the village- **Oğlanları** kəndə **gedən** görüblər. (2) Görüblər ki, **oğlanlar** kəndə **gedirlər**. [6- Səh174]

Bəzən feili sifət tərkibləri və budaq cümlələr qarışdırılır. Budaq cümlələrin tərkibdən fərqli olmasını nümunələrlə izah etmək olar, həmçinin budaq cümlədə predikativlik öz əksini xəbərlə mübtəda arasında tapır. Məsələn:

1) When the meeting was over, they went hotel.
2) The meeting being over, they went hotel.

Bu cümlədə "when the meeting was over" budaq cümləsi, ikinci cümlədə "the meeting being over" müstəqil nominativ feili sifət tərkibidir.

Müstəqil nominativ feili sifətlərin tədqiqi və Azərbaycan dilinə tərcüməsi daha çox əhəmiyyət kəsb edir.

Müstəqil nominativ feili sifət tərkibləri – (the nominative absolute participial construction) ümumi halda olan isim və ya adlıq halda olan əvəzlik və feili sifətdən ibarət olurki burada isim və əvəzlik cümlənin mübtədası olmur. Digərlərindən fərqli olaraq onun müstəqil mübtədası olur, bu xüsusiyyət ona müstəqillik verir və həmçinin onu budaq cümləylə yaxınlaşdırır. Onu da qeyd etmək lazımdır ki, Müstəqil nominativ feili sifət tərkibindən sonra vergül qoyulur.

Məsələn:**Mother permitting,** the children will go to the forest.

Ana icazə versə uşaqlar meşəyə gedəcəklər.

Müstəqil sözönülü feili sifət tərkibləri (the prepositional absolute participial construction) isə müstəqil feili sifət tərkiblərinin qarşısına with sözönü əlavə etməklə düzəlir.

Məsələn:

The daughter sat quite silent and still, with her eyes fixed on the ground. *(Dickens)*

Qız gözləri yerə dikilmiş halda sakit oturmuşdu.

Dilçi alim Oruc Musayev müstəqil feili sifət tərkibindən ayrılıqda bəhs edir və göstərir ki, müasir ingilis dilində elə feili sifət birləşməsi var ki, o cümlənin heç bir konkret üzvü ilə qrammatik əlaqəyə girmədən müstəqil işlənir və bütünlükdə cümləyə aid olur, cümlənin əsas hissəsindən vergül ilə ayrılır.Müstəqil feili sifət tərkibi cümlədə qrammatik baxımdan müstəqilliyə malik olsa da, yenə tərkibində işləndiyi cümlə ilə sıx məntiqi əlaqədə olur və cümlədə müxtəlif zərflik funksiyasında çıxış edir.

a) Zaman zərfliyi,

Məsələn: The train having stopped, the thieves jumped out into the grass.

- Qatar dayanan kimi oğrular otun içinə tullandılar.

b) Səbəb zərfliyi,

Məsələn: I had to walk by myself for an hour, my husband having remained at home to

sleep.

- Mənim yoldaşım yatmaq üçün evdə qaldığından mən bir saat ərzində özüm gəzməli oldum.

c) Tərzi hərəkət zərfliyi,

Məsələn: She was smoking, her eyes narrowed thoughtfully.

- O, gözləri fikirli-fikirli yığılmış tərzdə siqaret çəkirdi.

d) Şərt zərfliyi,

Məsələn: Circumstances permitting, I shall prove you everything,

- Şərait imkan versə, mən sənə hər şeyi sübut edəcəyəm.

Müasir ingilis dilində işlənən müstəqil feili sifət tərkibi Azərbaycan dilinə budaq cümlə vasitəsi ilə tərcümə edilir.

Müstəqil nominativ feili sifət tərkibi, adətən, elmi, bədii ədəbiyyatda daha çox işlənir, danışıq dilində isə nisbətən az hallarda rast gəlinir.

Müasir ingilis dilində feili sifət komponentli sintaktik vahidlərin təhlilini aparan zaman belə nəticəyə gəldik ki, bu vahidləri üç qrupa bölmək olar:-feili sifət komponentli söz birləşmələri

- feili sifət tərkibləri
- feili sifət cümlələri.

Feili sifət komponentli söz birləşmələrində feili sifət bir və ya bir neçə sözlə birlikdə bir cümlə üzvü olur.Feili sifət tərkiblərini feili sifət komponentli söz birləşmələrindən fərqləndirmək lazımdır. Söz birləşmələrini tərkiblərlə qarışdırmaq olmaz. Söz birləşmələrinin komponentləri arasında xəbər əlaqəsi yoxdur. Söz birləşməsində feilin şəxsiz forması ilə ifadə

olunmuş hərəkətin isim, yaxud əvəzliklə ifadə olunmuş icraçısı iştirak etmir. Feili sifət tərkibləri ilə bağlı aparılan araşdırmalardan aydın olur ki, ingilis dilində feili sifət Azərbaycan dilinə ara söz, feili bağlama, sifət, sadə cümlənin bir hissəsi, təyini söz birləşməsi, budaq cümlənin bir hissəsi və feili sifət tərkibi kimi tərcümə olunur. Və məqalədə həmçinin feili sifət tərkibləri və budaq cümlə arasındakı fərqlərdə qeyd olunmuşdur. Belə ki, tərkiblər özlüyündə cümləyə eləcə də budaq cümləyə məxsus olan əsas əlamətlərdən məhrumdur. Onlarda predikativlik və cümləyə məxsus olan intonasiya yoxdur. Nə məna, nə sintaktik rol, nə sintaktik əlaqə, nə də morfoloji formalaşma nöqteyi-nəzərindən tərkiblər budaq cümlə ilə eyniləşmir, onlar sadə cümlənin müəyyən bir hissələri, elementləri olur, cümlə üzvləri kimi çıxış edir. Əlbətdəki feili sifət tərkibləri ilə ifadə olunmuş cümlə üzvlərinin başqa cümlə üzvlərinə nisbətən fərqli cəhətləri özünə məxsus cəhətləri vardır. Bunlar da vacibdir, əgər belə olmasaydı feili tərkiblər ayrıca qrammatik kateqoriya kimi qeyd edilməzdi.

Ədəbiyyat

1. B.A.Ilyısh. The structure of modern English. Moscow-Lenigrad 1971 365p.
2. Günay Rəfibəyli İngilis və Azərbaycan dillərində feili tərkiblər Bakı. 2008
3. Həsən Mirzəyev Azərbaycan dilində feli sifət və təsirli-təsirsiz fellər Bakı. 2006 560s.
4. Kaushanskaya V.L, Kovner R,L, Kozhevnikova O.N. A grammar of the English language. 1967 324p.
5. Oruc Musayev İngilis dilinin qrammatikası Bakı-Qismət 2007 608s.
6. Oruc Musayev İngilis dilinin qrammatikası Maarif nəşr. Bakı 1986. S-368.
7. Q.Ş.Kazımov Müasir Azərbaycan dili, Morfologiya, Bakı-2010 339s
8. Yusif Seyidov Azərbaycan dilində söz birləşmələri Bakı 1992.

Konul Babayeva

The participial construction made with participle in Azerbaijani and the English language

Sammary

According to the research of the participial construction, participle in the English language is translated into Azerbaijani as an adlink, an adjective, a part of simple sentence, a part of subordinate clause, an attributive word combination and a participial construction. And in the article the difference

between participial construction and subordinate clause has been noted. Thus the constructions itself is deprived of the main characteristics of the subordinate clause. They do not have predictavity or intonation that is related to the sentence. From the point of view of meaning, syntactic role, syntactic relationship, or morphological formation, the constructions are not identical to the subordinate clauses, they are parts of the simple sentence, they act as sentence members. The sentence expressed participial constructions of has its own distinctive features compared to other members of the sentence. It is also important that if it were not, the constructions would not be marked separately as a grammatical category

Кенуль Бабаева

Глагольные сочетания формирующиеся с помощью причастия в азербайджанском и английском языках

Резюме

Исследованийя проведенные среди причастных оборотов показали, что в английском языке причастие может быть переведено, как промежуточное слово, прилагательное, часть простого предложения, определительное словосочетание, часть подчиненного предложения и причастный оборот. В статье также упоминается различие между причастным оборотом и подчиненным предложением. Так как причастные обороты лишены основных признаков присущих предложению, а следовательно и подчиненному предложению. Они не имеют предикативностиь и интонацию, которые характерны для предложения. Обороты не становятся идентичными с подчиненным предложением ни с точки зрения их значения, ни по синтактической роли, ни по синтактической связи или своему морфологическому формированию, они являются частями простого предложения и выступают как члены предложения. Безусловно, члены предложения выраженные причастным оборотом имеют некоторые особые качества по сравнению с другими членами предложения. Это также очень важно, потому что в противном случае причастный оборот не был бы отмечен как отдельная грамматическая категория.

Rəyçi: Əbülfəz Quliyev
AMEA-nın müxbir üzvü

ANARA NƏSİRLİ
"Naxçıvan" Universiteti
anaracan@mail.ru

İNGİLİS DİLİNDƏ KOMPARATİV FRAZEOLOJI BIRLƏŞMƏLƏRİNİN BƏZİ STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ (AZƏRBAYCAN DİLİ İLƏ MÜQAYİSƏLİ)

Açar sözləri: Komparativ Frazeoloji vahidlər, intnetsifikasiya, tematik qrup, semantik təhlil, müqayisə, milli leksika, frazeologiya
Ключевые слова: сравнительные фразеологические единицы, интенсификация, тематическая группа, семантический анализ, сравнение, национальная лексикология, фразеология
Key words: comparative phraseological units, intensification, thematic group, semantic analysis, comparison, national lexicology, phraseology

Bir çox dilçi frazeoloji vahid dedikdə mənasını tamamilə və ya qismən dəyişmiş sabit söz birləşməsini nəzərdə tutur [3,s.210]. Dilin sabitliyi, semantik bütövlüyü və ayrı-ayrı formalaşması frazeoloji vahidlərin ən ümumi əlaməti hesab olunur.

Müasir dilçilik paradiqmaları sırasında müxtəlif dillərin frazeoloji sistemlərinin müqaisəli şəkildə öyrənilməsinə böyük yer ayrılır [22,s.125; 23,s.51]. Frazeologiyanın sistemli öyrənilməsi aspekti həm frazeologiyanın ümumi nəzəriyyəsinin işlənməsi, həm də tadqiq olunan dillərin bənzər və fərqli əlamətlərinin öyrənilməsin zamanı böyük marağa səbəbə olur.

Həm qohum olan, həm də qohum olmayan müqaisəli- tipoloji tədqiqi bir tərəfdən dilin varlığını müəyyən bir hadisə kimi əks etdirən universal qanuna uyğunluqların, digər tərəfdən isə, ayrı-ayrı dillərin müəyyən özünə məxsusluğunun milli xüsusiyyətlərinin üzə çıxarılmasına xidmət edir və hal-hazırda bu tədqiqat üsulu xüsusi ilə intensiv şəkildə inkişaf edir [22,s. 3].

Həm nəzəri (dilin özünün və onun strukturunun öyrənilməsi), həm də praktik baxımdan (iki dilli lüğətlərin, müqayisəli qrammatikalarınn və s. hazırlanması) aparılan tədqiqatların əhəmiyyətini nəzərə alsaq, bu qanunauyğun görünür [3]. Dillər arasında frazeoloji vahirlərlə əməliyyat aparmaq nəzəri ümumiləşdirmələrin daha yüksək səviyyədə aparılmasına imkan verir. Digər tərəfdən isə konkret praqmatik məsələlərin həllinə kömək edir. Frazeologiyanın təsviri və tədqiqatı sahələrində müxtəlif modellər istifadə oluna bilər: qrammatik, semantik, struktur-semantik, ifadə əmələ gətirən və üslubi[12, s.417; 14, s.146]. Qrammatik modellər hərtərəfli hesab olunur, çünki frazeoloji vahidlərin əksəriyyəti qrammatik model birləş-

mələrindən, cümlələrdən və A.İ.Smirnitskinin terminologiyasına əsasən tək-tərəfli, yəni tərkibində sadəcə bir əhəmiyyətli sözü olan birləşmələrdən əmələ gəlir. Frazeoloji birləşmələrin semantik modellərini ayırdıqda görürük ki, müxtəlif strukturların tərkibində istifadə olunan semantik təkrarlanma nəzərdə tutulur. Bununla yanaşı, daşıdığı semantik informasiya və qramatik struktur arasında daimi uyğunluq müşahidə olunmur.

Struktur-semantik modelləşdirmə müasir ingilis dilində əsasən sabit müqayisələrdə (similes) nəzərə çarpır və onlar adətən komparative birləşmə adlandırılır. Komparative vahidlərin frazeologiya sahəsinə aid olması dilçilər tərəfindən hələ XX əsrin 70-ci illərində sübut edilmişdir [7 ; 9].

Komparativ frazeoloji vahidlərini 3 parametr üzrə - sabitliyi, mənanın yeni məna qazanması və ayrı-ayrılıqda formalaşması üzrə tedqiq edərkən alimlər əsaslı olaraq iddia edirlər ki, komparativ birləşmələr yuxarıda sadalana parametrlərə tam uyğun gəlir və buna görə də frazeoloji vahid olaraq qəbul edilə bilər. Sifəti müqayisələr dildə ona görə əmələ gəlirlər ki, ayrı-ayrılıqda götürülən əsas müqayisə komponetləri vasitəsi ilə ötürülən məlumat kifayət etmir və əlavə informasiyanın ötürülməsinə ehtiyac duyulur.

Müqayisə olunan komparativ frazeoloji vahidlər həm müsbət, həm də mənfi çalarlar ifadə edə bilər. Komaparativlik, əlamət bildirən sözlərin morfoloji forması olaraq hər şeydən öncə sözün mənasının dərk edilməsi və dərəcə kateqoriyasının ümumilikdə ifadə olunma vasitələri ilə bağlıdır.

Sabit komparativ birləşmələri frazeoloji vahidlərin xüsusi tipi kimi dəyərləndirmək olar. Onlar dərəcə və müqayisəni ifadə etmə vasitələri ilə zəngindir. Bu da onların diskurs sistemi daxilində effektli təsir vasitəsi kimi çıxış etməsinə imkan verir. Komparativ frazeoloji birləşmələr müxtəlif idiomatiklik dərəcəsinə maklikdir. Bu isə müqayisənin hissələrindən birində və ya hər ikisində sözlərin semantikasının təsadüfi və ya ardıcıl olmasından asılıdır.

Sabit müqaisələr sadəcə dilçilərin deyil, həm də ədəbiyyatşünasların tədqiqat obyektinə çevrilib, çünki müqayisə metaforqa, metonimiya, sinerdox və s. ilə yanaşı tropların növlərindən biridir (İ.P.Qalperin, B.V.Tomaşevski, Y.A.Nekrasova, D. Faulseit, G. Kühn). Qrammatik xüsusiyyətlərin müqayisəsi zamanı aparılan tədqiqatlar nəticəsində müəyyən olundu ki, komparativ frazeoloji vahidlər mövcud olan sintaktik modellərin əsasında yaranır (M.İ.Çeremisina, V.M.Oqoltseva, W. Fleischer), yəni quruluşuna görə dəyişkən müqayisə konstruksiyalardan fərqlənmirlər.

Komparativ birləşmələr frazeoloji vahidlərə xas olan sabitlik, məhsuldarlıq, obrazlı motivasiya, ekspressivlik kimi xüsusiyyətlərə malikdir. Sabit müqayisələrin əksəriyyəti tərkibinə daxil olan sözlərin mənasından motivasiya olunan obrazlı birləşmələrdir. Motivasiya olunan komparativ

frazeoloji vahidlər üçün fərdi-müəllif müqayisənin qeyri-təsadüfi obrazlılığından fərqli olaraq təsadüfi obrazlılıq xasdır. Motivasiya olunmayan komparativ vahidlərdə real motivasiya və obrazlılıq olmur, məsələn, müqaisə-intensifikatorlarda (müqayisə gücləndiricilərdə) bunu müşahidə edə bilərik.

İntensifikasiya funksiyasını yerinə yetirən komparativ frazeoloji vahidlərin təsnifatını İ.İ.Turanski 3 amil üzrə bölüb. Semantik tərkibinə görə isə müəllif onları 4 qrupa ayırır.

1. Müqayisə üçün cansız əşyaların füziki xüsusiyyətlərini əsas götürülən komparativ strukturlar: as light as gossamer – hörümçək toru kimi yüngül;

2. Müqayisə üçün təbii hdisələri əsas götürən komparativ strukturlar: as free as the bird (wind) – guş kimi (külək kimi) azad, azad adam [2, s.183]

3. Müqaisə üçün fauna nümayəndələrinin adlarını, yəni heyvanların ən tipik xüsusiyyətlərini, onların həyat tərzini, üstünlük təşkil edən fiziki keyfiyyətlərini əsas götürən komparativ strukturlar: as slow as a tortoise – tısbağa kimi yavaş, as obstinate/ stubborn as a mule – qatır kimi inadkar[1, s.58];

4. Mifoloji süjetlər, tarixi şəxsiyyətlər və bibliya ilə bağlı olan kompatariv alluziyalar: as rich as Croesus – Krez kimi zəngin.

Alliterativliyin istifadə olunması və ya olunmamasından asılı olaraq komparativ frazeoloji vahidlər sinfi aşağıdakı qruplara bölünür:

1. Strukturunda alliterasiya fəndi istifadə olunan komparativ frazeoloji vahidlər: as blind as a bat, as pleased as Punch, as thick as thieves;

2. Alliterasiysı olmayan komparativ frazeoloji vahidlər: as happy as a lark, as black as sin, as like as two peas.

İngilis və Azərbaycan dillərində mövcud olan komparativ frazeoloji vahidlərin bir biri ilə uyğunluğunu və ya uyğunsuzluğunu əsas götürərək onları 3 qrupa bölmək olar:

1. Tam uyğunluq müşahidə olunan KFVlər: (dəli kimi işləmək - to work like crazy)

2. Qismən uyğun olan KFVlər: (pambıq kimi yumşaq - as soft as butter; müq.: mum kimi - as yielding as wax);

3. Tamamilə uyğun gəlməyən KFV: (cansıxıcı – as dull as ditch-water) [8; s. 93].

Son zamanlar koqnitiv dilçilik aspektləri çərçivəsində frazeoloji müqayisələrin öyrənilməsinə olan maraq daha da artıb. Əsasən, müqaisə konsrtuksiyalarının yaranma mexanizmi və qavranılması (T.S.Zevaxina, N.V.Yarovaya), dildə sabit obrazlı şəkildə assosiasiya edən əlaqələrin özünə yer tutmasının üsulları və səbəbləri (V.N.Teliya, O.İ.Qlazunova), etalon-

nümunələr və birləşmələrin milli xüsusiyyətləri (T.V.Şmelyova, V.N.Teliya, V.A.Maslova) araşdırılır.

Komparativ frazeologiyanın milli xüsusiyyətlərini üç qrup amilə görə fərqləndirmək olar:

1. Etalonların leksik – tematik tərkibi ilə;

2. Hər bir dildə mövcud olan çoxlu sayda sabit müqayisələrin tematik strukturu ilə;

3. Milli leksikanın mövcudluğu ilə.

İngilis və Azərbaycan dillərində komparativ frazeoloji vahidlərin arasında artefakt adlana etalonlar üstünlük təşkil edir. Frazeoloji vahidlər əsasən insanı xarakterizə etmək üçün istifadə olunur. Bu zaman iki dilin komparativ frazeologiyasında müqayisə üstünlük təşkil edir. Həmin müqayisələr insanın zahiri görünüşünü, onun fizioloji və fiziki vəziyyətini və hərəkətlərini ifadə edir. İngilis və Azərbaican dillərində sabit müqayisələrdə milli səciyyə daşıyan frazeololojo leksika azlıq təşkil edir. Hər iki dilinn komprativ frazeologiyasənda insanın xarakteristikası üçün həm heyvan obrazları, həm də artefaktların adları istifadə olunur. Halbu ki, cansız əşyaların, situasiyaların, hadisələrin, təbiətdə baş verən hadisələrin xarakteristikası zamanı artefaktlarala bağlı obrazlara üstünlük verilir [7. s. 50].

İnsasnı keyfiyyətləri simvolizə edən heyvan və personajların (əsasən, mifik personajların) adlarının Azərbaycan və İngilis dillərrində bir çox ortaq cəhətləri var. Bunu hər iki dildə də müqəddəs kitaba müraciətlə izah etmək olar: məsələn, as old as Adam – dünya qədər qədimdir, (as) deaf as adder - kötük kimi kardır, (as) patient as Job – Yaqub qədər səbirli, (as) old as hills – dağlar qədər goca və s.

Həm İngilis, həm də Azərbaycan dillində məsələn, şir – cəsurluq, tülkü – çoxbilmişlik, pələng – vəhşilik, arı – işgüzarlıq, öküz isə güc, qüvvə rəmzi kimi göstərilir. Məsələn, as cunning as a fox – tülkü kimi hiyləgər, as fierce as a tiger – pələng kimi yırtıcı, as bold as a lion – aslan kimi qorxubilməz, as busy as a bee – arı kimi işgüzar, as strong as an ox – öküz kimi güclü.

Digər tərəfdən isə iki dilin simvolikasında fərqlər də mövcuddur. Məsələn, Azərbaycan dilində əqli məhdudiyyət və keylik “qoyun” və ya “toyuq” sözləri ilə ifadə edilir. İngilis dilində isə bu anlayış “qaz”(goose) və ya “qatır”(mule) sözləri ilə təcəssüm edilir. Azərbaycan dilində çox işləyən insanları ifadə etmək üçün arı ilə və ya at kimi dözümlü və işgüzar heyvanlar ilə müqayisə edirlər. İngilislər isə belə vəziyytədə quşlarla müqayisədən istifadə edirlər. Azərbaycan dilində yiyləgərlik və çoxbilmişlik “tülkü” və ya “ilan” ilə təcəssüm edilirsə, İngilislərdə bu anlayış Zağca quşu ilə həmahənglik təşkil edir. Azərbaycan dilində “quzu” sözünün insana aid

olaraq işlənməsi onun itaətkarlığını, sakitliyini bildirisə, İngilis dilində bu mənanı ifadə etmək üçün "it, pişik" anlayışı istifadə edilir.

Frazeoloji müqaisələr 6 tematik qrupa ayrılır:

1.İnsanın xarici görünüüşünü, onun fiziki vəziyyətini və hərəkətlərini ifadə edənlər: Məs., (as) black as coal – kömür kimi qara (adətən gözlər haqqında);

2.İnsanın xasiyyətini, şəxsiyyətlərarası münasibətləri ifadə edənlər: Məs., (as) steady as rock – qaya kimi sərt (hisslərə yenilməyən, xahiş dinləməyən insan haqqında);

3. İnsanın düşüncəsini və danışıq qabiliyyətini ifadə edənlər: two heads are better than one – ağıl ağıldan üstündür; four eyes see more than two [2, s.43]

4. İnsanın maddi vəziyyətini ifadə edənlər: half loaf is better than no bread – soğan olsun, nağd olsun;

5. İnsanın emosional vəziyyətini ifadə edənlər: as happy as a lark – uşaq kimi xoşbəxt (etdiyi işdən və ya vəziyyətdən razı olan);

6. Cansız əşyaların, vəziyyətlərin, təbii hadisələrin insana xas edilməsi: məs., (as) good as headache – baş ağrısı kimi (faydasız insan haqqında) [7, s. 50];

Diqqət yetirsək görərik ki, hər iki dildə də insanın xarici görünüşünə, fiziki vəziyyətinə və hərəkətlərinə aid olan frazeoloji vahidlərə daha çox yer ayrılıb. İkinci yerdə isə cansız əşyaları, vəziyyətləri və təbii hadisələri xarakterizə edən komparativ frazeoloji vahidlər gəlir. Daha sonra insanın düşüncəsini və danışıq qabiliyyətini ifadə edən frazeoloji vahidlər müəyyən əhəmiyyət daşıyır. Azərbaycan dilində hiss və emosionallıq bildirən frazeoloji vahidlər azlıq təşkil edir. İngilis dilində isə bu zəiflik insanın maddi vəziyyətini və fiziki fəaliyyətini bildirən frazeoloji vahidlərdə müşahidə olunur. Beləliklə, müəyyən bir dildə insanı təsvir edən komparativ frazeologiyanın üstünlüyə malik olması bilavasitə həmin dilin antroposentrik olmasından asılıdır.

Söz birləşməsi strukturuna malik olan komparativ birləşmələrinə əsasən sifəti və feli frazeoloji vahidləri aid etmək olar. Zərfi komparativ frazeoloji vahidlərin sayi dildə o qədər də çox deyil.

Sifəti komparativ frazeoloji vahidlər ənənvi olaraq frazeologizimlər sinfinin ayrıca yarımsinfinə daxil edilir. Komparativ farazeoloji vahidlərin tərkibi strukturunun və onların semantikasının təsviri, onların cümlədə sintaktik rolu haqqında A.V.Kuninin, N.N.Amosovanın, T.V.Şmelyovanın, A.V.Terentyevanın və digər alimlərin dessertasiya tədqiqatlarında ətraflı təqdim olunur. Sifəti müqaisələr üçün mənanın ikiplanlılığı xarakterikdir, yəni ki, bir anlayış digəri ilə müqayisə edilir. Sifəti müqayisələr məhz elə ona görə yaranır ki, dildə əlavə məlumatı çatdırmağa ehtiyac duyulur.

İstər ingilis, istərsə də Azərbaycan dillərində tərkibində sifət olan, insanı təsvir edən frazeoloji vahidləri çoxsaylı tematik qrupa ayırmaq olar. Lakin önları ümumiləşdirsək, 3 əsas yarımqrup meydana çıxacaq – 1) müsbət məna ifadə edən frazeoloji vahidlər; 2) mənfi məna ifadə edən frazeoloji vahidlər; 3) neytral məna efədə edən frazeoloji vahidlər. [11, s.119]

Frazeoloji sistemin ümumi semantik asimmetriyasını, yəni frazeoloji vahidlərin mənasının mənfi mənaya meyillənməsini, dilçilər insanların daha kəskin emosiyalı və nitq zamanı düşünmə reaksiyası ilə, əlaxüsus da mənfi hadisələrə, stresslərə reaksiyası ilə izah edirlər. Məs.: as deaf as a post – daşdivar kimi duyarsız, as ugly as a post – günah kimi qorxulu və s.

Sifəti müqayisə elə bir struktura malikdir ki, burada birinci hissə müqayisə dərəcəsində olan sifətlə ifadə olunub və adətən hərfi mənasını qoruyub saxlayır, yəni ki, frazeoloji vahidin təkibində olan leksemlərin mənası qismən dəyişib. Lakin komparativ frazeoloji vahidlər arasında elələri də var ki, onların mənası tamamilə dəyişmiş ola bilər. Onlar həm əşyanın əlamətlərini, həm də insanın xarakterik xüsusiyyətlərini ifadə edə bilər. Məsələn: as deep as well – bu frazeoloji vahidin hərfi mənası "quyu kimi dərin" deməkdir, lakin frazeoloji vahidin tərkibində leksemlər "gizli insan" kimi məna qazanır. Və ya as slippery as an eel- hərfi mənası "ilan balığı kimi sürüşkən", yəni ki, "etibarsız, xasiyyətsiz insan" mənasında istifadə olunur.

Sifəti komparativlərin ən çox " as + sifət + as + qeyri-müəyyən (müəyyən) artiklı + isim (və ya söz birləşməsi)" modeli istifadə olunur. Bu konstruksiya müəyyən münasibətləri, onların dərəcəsini və əlamətini göstərərək ifadə edir. Bu cür birləşmələrdə birinci "as" adətən buraxılır, bəzi sifəti komparativlərdə isə artikl düşür, məsələn, xüsusi adların və mücərrəd isimlərin qarşısında. Bir neçə misala nəzər salaq: (as) firm (steady) as a rock – qaya kimi sərt (adətən razılığa gəlməyən, güzəştə getməyən insan haqqında), (as) tired as a dog – it kimi yorğun, (as) mute as a fish – balıq kimi lal, səssiz (gizli, ünsiyyətə açıq olmayan insan haqqında).

İngilis dilində birinci komponent adətən öz hərfi mənasında istifadə edilir, lakin ikinci komponent qüvvətləndirici funksiya daşıyır və birinci komponentin ifadə etdiyi əlamətin dərəcəsini ifadə edir. Birci hissə müqayisənin əsası, ikinci hissə isə müqayisə obyekti adlanır. Subyekt isəmətin tərkibində nəzərdə tutulan element adlandırıla bilər. Məsələn: as fat as a pig – donuz kimi kök, (as) bald as a billiard ball – bilyard topu kimi keçəl, (as) good as gold - qızıl kimi (xeyirxaq, mehriban insan haqqında), as cool as an ice – buz kimi soyuq (hisslərini üzə verməyən insan haqqında) və s.

Feli frazeoloji vahidlər komparativ birləşmələrin başqa bir növüdür. Burada əsas komponent fellə ifadə olunur. Feli komparativ frazeoloji vahidlərin strukturu isə bu formada olur: Fel + müqayisə komponenti + Sifət

+ İsim. Müqayisə komponenti kimi adətən “like” və ya “as” sözü istifadə olunur: to sleep like a little baby – körpə kimi yatmaq.

“Fel + komparativ + sifət + isim” srtukturlu feli frazeoloji vahidlər qrupunda müqayisə edən komponent kimi “like, as” sözləri istifadə edilir. Məs.: bluch like a black (blue) dog – köpək kimi yapışmaq (zəli kimi yapışmaq).

Bu model hərəkəti, onun keyfiyyət xarakteristikasını göstərir və vəziyyəti təyyin edərək ona münasibət ifadə edir. Məs: bleed like a pig - qanamaq, qanlar içində qalmaq, swim like a stone – daş kimi üzmək (üzməyi bacarmamaq), fit like a glove - əyninə görə biçilmək, qutu kimi oturmaq (paltar haqqında), run like a hare – dovşan kimi qaçmaq, quyruğun tutub qaçmaq, agree like cats and dogs – it-pişik kimi yola getmək, süear like a trooper – ağzın açıb gözün yummaq (söyüb biyabır etmək), drop smb.(smth) like a hot potato – kimdənsə(nədənsə) tez bir zamanda can qurtarmaq.

Feli müqayisələr üçün də sifəti müqayisələrdə olduğu kimi əlamətin ifadəsi xarakterik bir xüsusiyyətdir.

Feli komparativ frazeoloji vahidlərdə birinci komponent hərfi mənasını saxlayır, digərləri isə yeni məna qazanaraq istifadə olunur və birincinin qüvvətləndirici və ya semantik fərqliliyinin göstəricisi olur [9, s. 319].

Məlumdur ki, mənanın metaforik dəyişməsinin əsasında hər zaman müəyyən növ müqayisə durur. İngilis dilində komparativ frazeoloji vahidlərin semantik təhlili müqayisə olunan subyektlə obyekt arasında müəyyən bənzərliyin mövcudluğunu göstərir. Bu əlamət zərfi komparativ frazeoloji vahidlərə də aiddir:

1.Əşyalarla, maddələrələ bənzərlik: as safe as a church – dağa söykənmək (kilsədəki kimi əmin-amanlığın olması), as still as the grave – susqun, səssiz olmaq (qəbiristanlıqdaki kimi səssizliyin olması)

2. Heyvan və ya həşaratlarla bənzərlik – as fit as a flea – sağ-salamat olmaq(dik-dik dingildəmək), (do) like a bird – quş kimi eləmək (bir işi həvəslə görmək).

3. Digər insanlarla, bədii və ya mifoloji subyektlərlə (personajlarla) bənzərlik: lika a father – ata kimi, sərt, lakin xoşniyyətli; like a Trojan – kişi kimi, cəsarəli, qəhrəmancasına.

4. Təbii obyektlərlə və təbii hadisələrlə bənzərlik: as firm as rock – qaya kimi sərt, as night follows day – qaçınılmaz.

5. Abstrakt anlayışlarla bənzərlik, like the wrath of God – dəhşətli (Allahın qəzəbi kimi), like a charm – möcüzəvi, inanılmaz.

6. Hərəkətin bənzərliyi : as easy as kiss your hand - çox sadə, asan; as easy/simple as falling of a log – asan, sadə.

Semantik xüsusiyyətlərinə görə zərfi frazeoloji vahidlər iki sinfə bölünür: keyfiyyət bildirənlər və vəziyyət bildirənlər. Keyfiyyət bildirənləri isə öz növbəsində tərzi –hərəkət və ölçü, dərəcə bildirməklə 2 qrupa ayrılır:

1) tərzi-hərəkət bildirən zərfi komparativlər: as quick as a flash – ildırım kimi, dərhal, gözü yumub açınca; lika a log – şüursuzca, hərəkətsiz, kötük kimi; as neat as a bandbox (as a pin) – təmiz, səliqəli, iynədən çıxmış kimi.

2. Ölçü, dərəcə bildirən zərfi komparativlər : as clear as daylight – gün kimi aydın, as certain as the rising sun – çox güman ki, böyük ehtimal ki; as black as hell (as a print) – qap-qaranlıq(cəhənnəm kimi qaranlıq; mürəkkəb kimi qara); as slick as wristle – tər-təmiz.

Beləliklə, İngilis və Azərbaycan dillərində mövcud olan komparativ frazeoloji vahidlərin müqayisəli təhlili göstərir ki, onların ortaq və ya izomorfik xüsusiyyətləri sifəti, feli və zərfi frazeoloji vahidlərin semantikasında özünü göstərir. Spesifik və ya allomorfik xüsusiyyətlər isə, əsasən komparativizmlərin strukturuna məxsus olur. Bu spesifiklik əsasən 3 qrupa bölünən faktorlar əsasında yaranır:

1.Frazeoloji vahidlərin ilkin formalarının leksik- tematik tərkibi;

2.Hər bir dildə mövcud olan çoxlu sayda sabit müqayisələrin tematik strukturu;

3. Dildə milli leksikanın mövcudluğu.

Ədəbiyyat:

1. Qulu Məhərrəmli, Rafiq İsmayılov: Azərbaycan dilinin frazeologiya lüğəti – Altun kitab -2015
2. Nugar Vəliyeva: Azərbaycanca –İngilscə – Rusca frazeoloji lügət. Bakı - 2006
3. Arakin V.D.: Типология германских литературных языков. M., 1976. s. 156-172.
4. Dolqova A.O.: Какие образы-эталоны представлены во фразеологических сравнениях? - Рус. яз. и литература. 2006. № 7. s. 50-55.
5. Kunin A.V.: English phraseology: Theoretical course. Moscow - 1970.
6. Kunin A.V.: Курс фразеологии современного английского языка: М.: Высш. шк., Дубна: Изд. Центр «Феникс», 1996.
7. Kunin A.B. Основные понятия английской фразеологии как лингвистической дисциплины и создание англо-русского фразеологического словаря: Дис.д-ра филол. наук. М., 1964.

8. Любова А.Н. Адъективные компаративные фразеологизмы в английском, немецком и норвежском языках: общее и специфическое. Северодвинск, 2009.
9. Сидякова Н.М. Компаративные фразеологические единицы типа «(as) + прилагательное + as + существительное» в современном английском языке: М., 1967.
10. Туранский И.И. Семантическая категория интенсивности в английском языке: Монография. М.: Высш. шк., 1990.
11. Федуленкова Т.Н. Вертикальный контекст как форма существования социокультурной информации // Культурно-языковые контакты: Материалы зон. межвуз. конф. Владивосток: Дальневосточ. гос. ун-т, 1999. С. 134-145.
12. Федуленкова Т.Н. Грамматическое структурирование английской глагольной фразеологии библейской этимологии // Концепт и культура: сб. статей V международ. науч. конф., Кемерово, 8-10 октября 2010 г.). Кемерово, 2012a. С. 417-422
13. Fedulenkova T. Is Phraselogy Typologically Relevant? // Collocations and Idioms 1: The 1st Nordic Conference on Syntactic Freezes / Ed. Marja Nenonen / University of Joensuu, 2006. P. 51-52.
14. Fedulenkova T. Isomorphism and Allomorphism of English, German and Swedish Phraseological Units Based on Metaphor // Phraseology 2005: The many faces of Phraseology: Proceedings of an interdisciplinary conference. Louvain-la-Neuve, 2005. P. 125-128.

A. Nasirli

Analysis of some structural-semantic features of comparative phraseological units in english (comparable with azerbaijan language)

Summary

In the article features of comparative phraseological compounds in English are analyzed and their equivalents in the Azerbaijani language were presented. An analysis was made of the Comparative phraseological units in both languages, both from a grammatical and syntactic point of view, as well as the quarrels and differences between them. This topic does not lose its relevance, since phraseological units are always in the center of attention of researchers.

As a linguistic element, the phraseological unit is the best source of basic knowledge about the way of life of the speakers of the Tongues, their history and geography. Idioms and phraseological units are directly

connected with the outlook of a definite people, which certainly reflects the national character of the national culture of the people. It is for this reason that the national lexicon of comparative phraseological units is widely studied in this article.

А.Насирли

Анализ некоторых структурно-семантических особенностей компаративных фразеологических единиц в английском языке (сопоставительно с азербайджанким языком)

Резюме

В статье анализируются особенности сравнительных фразеологических соединений в английском языке и были предствлены их еквиваленты на азербайджанском языке. Был проведен анализ Компаративные фразеологические единицы в обоих языках как с грамматической, так и с синтаксической точки зрения, а так же были исследованы счодства и разлмчия между ними. Эта тема не утрачивает своей актуальности, поскольку фразалогические единицы всегда находятся в центре внимания исследователей.

Будучи языковым элементом фразеологическая единица является наилучшим источником базовых знаний об образе жизни насителей языкай, их истории и географии. Идиомы и фразеологические единицы не посредственно связаны с мировоззрением определлонного народа, что безусловно отражает в себе национальный характер национальной культуры народа. Именно по этой причине в этой статье широко изучается национальный лексикон сравнительных фразеологических единиц.

Rəyçi: **Əbülfəz Quliyev**
AMEA-nın müxbir üzvü

ELMİRA HÜSEYNOVA
Naxçıvan Universiteti
elmira.hva@nu.edu.az

GERMAN DİLLƏRİNDƏ KONTEKST, KONTEKST FORMALAŞDIRMA, KONTEKSTDƏN ASILILIQ MƏSƏLƏLƏRİ VƏ ONLARIN PRAQMATIKADA ROLU

Açar sözlər: praqmatika, kontekst, ingilis dili, alman, dili
Ключевые слова: прагматика, контекст, английский, немецкий, язык
Key words: pragmatics, context, English, German, language

İnsanlar demək olar ki, bütün sosial davranışları dil ilə şifahi və ya yazılı şəkildə həyata keçirirlər. İstifadə edilən dil qaydalara və prinsiplərə ehtiyac duyur, dilə sosial-mədəni perspektivdən baxıldıqda isə kontekstdən istifadə edən çoxlu istifadəçiləri nəzərə almaq lazımdır.İnsanlar dildən praqmatik şəkildə istifadə edirlər ki, bu da Praqmatikanın kontekstdən asılı dilin öyrənilməsi haqqında bir elm kimi formalaşmasına gətirib çıxarır.İnsanlar "dilin kontekstdə nəzərdə tutulmuş şəraitdə necə fəaliyyət göstərdiyini" izah etdikləri üçün Praqmatika sahəsində çalışan dilçilərə və mütəxəssislərə çox şey borcludular.Bu nöqteyi-nəzərdən yanaşılaraq məqalədəPraqmatika iləkontekst arasındakı əhəmiyyətli əlaqədən bəhs olunur.

Danışanların fikirlərində istifadə etdikləri linqvstik vasitələr həmin fikirlərin diskurs yaratmaq qabiliyyətini aşağı salır. Levinsonun fikirlərinə istinad etsək, orda deyilir ki, "Fikir onun təsvir etdiyi səhnənin həqiqətəuyğun modeli və ya şəkli deyildir". Əksinə, şifrəli məzmun sadəcə natiqlərin nəyi nəzərdə tutub və dinləyicilərin nəyi qəbul etdiyini göstərir. Praqmatika semantik məzmunun, kontekstual məlumatların və ümumi kommunikativ problemlərin diskurs iştirakçılarına boşluqları doldurmağa kömək etmək üçün bir birləri ilə necə əlaqəyə girdiklərinіöyrənir. Bu zaman aşağıdakı suallar meydana çıxır

a) dil istifadəçiləri fikrin kontekstini necə təmsil edir və kontekstin hansı aspektləri ünsiyyət üçün vacibdir?

b) biz həmişə dediklərimizdən çoxunu nəzərdə tuturuq. Hansı prinsiplər bu praqmatik zənginləşmə üçün şərait yaradır və semantik qaydalarbu prosesə necə imkan verir vəşəraityaradır? (7, səh 100)

Biz hər bir sualın cavabını nəzərdən keçirəcəyik. Eyni zamanda kontekst formalaşdırma metodlarını və kontekstdən asılı hadisələri izah edəcəyik.

İkinci sualla başlamaq üçün Qraysın praqmatika üçün yaratdığı quruluşu təhlil etməliyik. O, söhbət eyhamlarını praqmatik zənginləşmə üçün əsas hesab etmişdir. Sonrakı bölümlərdə kontekstdə çoxçalarlı mənaları çatdıran semantik və praqmatik əlaqələrdən, söz-çıxış qüvvəsini təyin etməyin çətininliklərindən bəhs olunur.

Linqvstik hadisələrin hər biri, o cümlədən intonasiya, fiziki jestlər və sosial oxşarlıqlar mənanı çatdıra bilər və bir çox sahələr yuxarıda qeyd olunmuş suallara fərqli yönlərdən yanaşaraq cavab tapmağa cəhd edir: fəlsəfə, sosio-linqvstika, diskurs təhlili, koqnitiv psixologiya, süni intellekt, dialoqun idarəolunması və məlumatların çıxarılması. Bizim məqsədimiz problemin nə olduğunu, dilçilərin onu necə həll etməyə çalışdıqlarını və niyə nəticələrin riyazi tədqiqatlar üçün vacib olduğunu sadə və izahlı yolla çatdırmaqdır.

Kontekstləri formalaşdırmaq. Robert Stalnaker kontekst modelləşdirmə məsələsində ümumi zəmin anlayışını ortaya ataraqbir yenilik yaratmışdır. C konteksti üçün ümumi zəmin bütün mühakimələr yığımıdır ki, C –nin diskurs iştirakçıları qarşılıqlı və ictimai olaraq söhbət mübadiləsi məqsədi ilə bir biri ilə əlaqəyə girməyə razılıq verirlər. Bu izahda fikir deyəndə bütün məlumatlarnəzərdə tutulur. Ümumi zəmin dünyəvi bilikləri, harada olduğumuzu və hansı məqsədlərimizin olduğunu, bir birimiz haqqındakı fikirlərimizi və daha başqa amilləri səciyyələndirən birbaşa məlumatları əhatə edir. Bura həmçinin dilin xüsusiyyətləri haqqında olan məlumatlar da daxil edilir. Burada fikirlərin linqvistik vahidlər olmadığı vurğulanır. Dilimizdəki cümlələri fikirləri kodlaşdıra bilər. Bu kodlaşdırma semantik nəzəriyyənin diqqət mərkəzindədir. Cümlələr öz növbəsində fikirlərdəki məzmunu çatdırmaq üçün istifadə olunurlar. Praqmatika əsasən dilə əsaslanan kommunikativ aktların öyrənilməsi ilə məşğul olur.Burada ortaq zəmin paylaşılan ictimai məlumat strukturudur.

Tomson tərəflərortaq bir işdə əməkdaşlıq edən insanlar nöqteyi-nəzərindən düşünməyi təklif edir. O, deyir ki, “Fikrimizdə olan şeylər eyni layihə üzərində işləyən bir qrup insan kimidir. Məsələ, qrup mətbəxdə salat hazırlamaq üçün bir araya gəlir. Zaman zaman qrupun üzvləri salata nəsə əlavə edirlər. Amma hər zaman hər kəs salatın vəziyyətindən xəbərdardır. Çünki o ora qoyulub ki, hamı görsün”.

Əlbəttə paylaşılan verilənlər bazası metaforu bir bənzətmədir. Adətən paylaşılan dəqiq bir fikir yoxdur, amma həmin fikrin bir sıra fərdi konsepsiyaları vardır. Diskurs iştirakçıları elə davranır ki, sanki ümumi zəmində sadəcə özlərinin fikirləri daha əsasdır, amma onlar başqaları ilə təzad yaşayanda, cavab olaraq qarşıdakıların fikirlərini özlərininkinə uyğunlaşdırırlar. Sözlərimizin ortaq zəminə uyğun olaraq şərh edilməsi üçün burada qaydalara əsasən onları əsaslandırmağa çalışırıq. Ümumi zəmin də

baş verən yeni hadisələrə, o cümlədən linqvstik hadisələrə cavab verir. Beləliklə ümumi zəmin öz dilimizlə formalaşır və formalaşdırılır. Bu həm nitq aktında hərəkət edən bir obyektdir, həm də danışma aktlarının şərhinə nisbətən informasiya qaynağıdır. Ortaq zəmin ictimai xarakterinə uyğun olaraq onu yeniləmək məcburiyyəti yaradır, dinləyicilər və danışanlar yeniləmə xüsusiyyətinibirgə əməkdaşlıq edərək həyata keçirirlər.

Daha dəqiq desək, Stalnakerin kontekst modeli təriflə kifayətlənməlidir, çünki o bütün məlumatları kodlaşdırır. Stalnaker konteksti ümumi zəminlə izah edir. Halbuki bunun düzgün olub olmamasının bir əhəmiyyəti yoxdur, əsasən konteksti komponent hissələrə bölmək daha faydalıdır. Bu bizə dil üçün xüsusi aktuallığı olan müxtəlif məlumatları müəyyən etməyə kömək edir. Bu bərabər hesablama modelləri qurmaq üçün də vacib ola bilər.

Montaq və Kaplan kontekstin hissələrini indeks göstəricilərini şərh etmək məqsədi ilə, natiq, xitab, zaman və yerdən ibarət olan bir set baxımından modelləşdirirlər.

Kartunen diskurs anaforalarını necə modelləşdirməli mövzusunda bir sıra nəzəri hadisələr və empirik nəticələr stimullaşdırıb. Bunun üçün hansı mahiyyətin təqdim olunduğunu və onların hansı xüsusiyyətlərə malik olduğunu göstərən bir sıra strukturlardan istifadə edib. Əlaqədar yanaşmalar məlumatın diskurs vəziyyətini proqnozlaşdırmaq üçün köhnə və ya yeni, mövzu və ya diqqət kimi amillərdən istifadə edirlər.

Roberts və Qinzburq iddia edirlər ki, məlumat mübadiləsi söhbətdəki mücərrəd qaydalar ilə idarə olunur. Həmin qaydalar sorğu xətlərini müəyyənləşdirib müvafiq olanı təyin etməyə kömək edir. Diskurs üzrə iştirakçıların planlarını, üstünlüklərini, öhdəliklərini və niyyətlərini xarakterizə etmək və modelləşdirməklə bağlı çoxlu fərqli yanaşmalar da vardır. (8, səh 122)

Kontekstdən asılılıq. Dilin mənaları əsasən kontekstdən asılıdır. Bir sintaktik vahid (morfem, söz, fraza, cümlə) istifadə edildiyi kontekstdən asılı olaraq çox vaxt müxtəlif məna çalarlarınamalikolur. Uzun müddətdir ki, bu dəyişkənlik geniş yayılmışdır.

Parteehtimal edir ki, "Ümumi leksik məna daxili məna və məzmundan asılılığın bir birləşməsidir". (5, səh 230) Bu bölmədə kontekst asılılığı olan ifadələri nəzərdən keçirəcəyik. Bu hadisələri izah etmək üçün bəzi nəzəri yanaşmaları sadalayacağıq. Kontekst asılılığının ən izahlı nümunələri əvəzliklərdir. Əvəzliklər birbaşa mənasını tələfüzlə bildirən ifadələrdir. İngilis dilində buna xas nümunələrə birinci və ikinci şəxs əvəzliklərini, həmçinin *here*, *now*, *today*, *two days ago*, və*actually* zərflərini, alman dilində birinci və üçüncü şəxs əvəliklərini, eyni ilə də *hier, jetzt, heute, vor zwei tagen* və*tatsächlich*zərfliklərimisal göstərmək olar. "I am typing here

now" və "Ich tippe hier jetzt" cümlələrində hansı fikrin ifadə edildiyi başa düşmək üçün biz zamanı, məkanı və iştirakçını bilməliyik.

Kaplana görə birbaşa istinad kimi belə ifadələr seminal xarakterlidir. Kaplan iddia edir ki, təkrarlanan şərh prosesi hər ikisi üçün nisbidir.M modeli sabit ənənəvi mənaları ifadə edir və C konteksti fikrin ifadə olunma vəziyyəti haqqında bir sıra məlumatlar verir.Əvəzlik işlənəndə onun mənası birbaşa C-dən alınır.Kontekstlərdə qeyri-sabit funksiyanı bildirən hər hansı bir sintaktik vahid kontekstdən asılı olur.Kaplanın fikirlərinin diqqət çəkən xüsusiyyətlərindən biri də odur ki, o iddia edir ki, bir başa sitatdan kənar morfo sintaktik vahidlər əvəzliklərin mənalarını dəyişə bilmirlər.Bu həm ingilis, həm də alman dillərində müşahidə edilir.Məsələ, I(mən) əvəzliyi danışana aiddir.Hətta bu əvəzlik başqa birinə aid cümlə daxilində yerləşdirildikdə belə mənası dəyişmir. Fikrimizi bu cümlələrləasanlıqla izah edə bilərik: "Sevda says that I am happy" və "Sevda says that Sevda is happy", "Sevda sagt, dass ich glücklich bin" və "Sevda sagt, dass Sevda glücklich ist" cümlələri bir birlərinin ekvivalentləri deyildirlər. Bu nöqteyi-nəzərdən Kaplanlarazılaşmaq olar.Amma dilçilər mübahisə edirdilər ki, əvəzliklər müəyyən şəraitdə dəyişə bilirlər, əsasən də başqa dillərdə bu hal baş verir.(6, səh 109)

Əvəzliklərin şərhi tez-tez qeyri-müəyyənliklə dolu olur.Birinci şəxsin təkinin xüsusiyyətlərinə görə referent adətən qeyri-müəyyəndir, amma müəyyənləşdirmək asandır.Ingilis və alman dillərində birinci şəxsin cəminin xüsusiyyətləri danışanı daxil etmək üçün referentləri məhdudlaşdırır.Lakin iştirakçıların geri qalan hissəsi əsasən qeyri-müəyyəndir.İngilis dilində *Here* və*Now*, alman dilində isə *Hier*və *Jetzt* kimi göstəricilər daha çox müəyyənləşmiş olur. Onlar çox ümumi və ya xüsusi ola bilirlər. Həmçinin onların genişləndirilmiş mənaları vardır.Məsələn*Here* və *Hier*, yəni telefonda və ya şüuru özündə mənalarını verə bilərlər.Bütün bu xüsusiyyətlərin semantik mənaları imkanları məhdudlaşdırır, amma onların referentlərini müəyyən etmək əsasən praqmatikanın vəzifəsidir. Çoxlu ifadələrin həm indeksli, həm də qeyri-indeksli istifadə yerləri vardır. Üçüncü şəxsləri bildirən əvəzliklər açıqca ehtimalları bildirir.Çünki ikili istifadələr kontekstə görə dəyişir. Məsələ, əgər mən otaqda dayanan qadını nəzərdə tutubdeyirəmsə *She is famous* və ya *Sie ist berühmt,* jestlə onu işarə edərək bunu göstərə bilərəm və ya bunun əvəzinə, sadəcə olaraq, bu cümlədə referent kimi onun özünün diqqətçəkməsinə etibar edə bilərəm.

Belə istifadəyerləriəvəzliklərə məna ifadə etmək baxımından çox faydalı olurlar, baxmayaraq ki, əvəzliklər ümumiyyətlə lazımsız bir şeyə işarə etmək üçün də kifayət qədər leksik məzmuna sahibdirlər.(1, səh 320) Amma üçüncü şəxsin təkini bildirən əvəzliklər digərlərindən fərqli olaraq daha çox referent qəbul edə bilir. Onlar aşağıda verildiyi kimi diskurs

anaforik ola bilirlər: İngilis dilində *A woman entered. She looked tired* cümləsinə baxaq. Burada she əvəzliyi miqdarın təyin olunmasına və cinsiyyətin müəyyənləşdirilməsinə də kömək edə bilir, amma alman dilində *Eine Frau trat ein. Sie sah müde aus* cümləsində eyni hal baş verə bilmir, çünki burada *sie* əvəzliyi üçüncu şəxsin təki və cəmini də ifadə edir.Eyni hal ingilis dilində *you* əvəzliyində müşahidə olunur.(2, səh 106)

Parte əvəzliklərlə zaman elementlərinin əlaqəsini də göstərir. Misal olaraq, sadə cümlədə keçmiş qeyri-müəyyən zamanda tələfüzün zamanı nisbi olaraq müəyyən edilir. Əgər kimsə deyirsə "*I didn't turn off the light"*, onda o, işığı söndürmüş olduğu bir keçmiş zamanın olmadığını nəzərdə tutmur. Əslində o, işığı söndürmədiyini bildirdiyi vaxtdan əvvəl bir müddət var. Həmçinin burada diskurs əlaqələndirmə də mümkündür. "*Maryam woke up sometime in the night. She turned on the light", "Maryam wachte irgendwann in der Nacht auf. Sie machte das Licht an"*cümlələrində ikinci cümlənin ifadə etdiyi təyin edilir və bu *sometime in the night kimi* qeyri-müəyyən ifadə ilə edilir. Həmçinin əvəzliklərlə zamanın əlaqələndirilməsi də geniş yayılıb: *Whenever Maryam awoke from a nightmare as a child, she turned on the light*.

Parteingilis dilində bu mümkün ehtimalların əksəriyyətini əks etdirən ifadələrin, o cümlədən də yerli (*a local bar*), təsirsiz, tamamlayıcı anafora (*The baby started crying. Everyone noticed)* və geniş perspektivli elementlər (*two feet away*, *near*)də daxil olmaqla onların ümumi izahını vermişdir. (5, səh 99)

Hər kontekstdən asılılıq vahid səviyyəli ifadələri əhatə etmir. Məsələn, miqdar bildirən ifadələrin işlənmə yerləri çox dəyişkəndir və kontekstdən asılıdır. Əgər biz sinifdə deyiriksə, "Every student did the homework","Jeder Schüler hat die hausaufgaben gemacht",biz səhv deyirik, çünki bu zaman dünyadakı bütün tələbələr nəzərdə tutulur. Burada ehtimal ki, biz miqdar olaraq sinifdəki bütün tələbələri nəzərdə tuturuq. Bu daxili işlənmə yerləri üzrə məhdudiyyətləri dildə nizamlama şərtləri üçün bir normadır. İngilis dilində bu sadəcə isimlər üçün deyil, zərflər(məsələ *usually və necessarily*), modal fellər(məsələ *may və should*) və çoxlu başqa fellər üçün də eyni qaydadadır. Bu da kontekstdən aşkar olmayan mənaları üzə çıxarmaq *tall(hoch)*, *expensive(teuer)*, və *soft(weich)*kimi dərəcə bildirən sifətləri şərh etmək üçün vacibdir. Misal üçün cümlələr: *That computer is expensive* or *Gregory is tall, Dieser computer ist teuer oder Gregory ist groß*.Bu ehtimallar müqayisəli sinif adlanan kontekstdə bir qrup anlayışa nisbətən edilir. Məsələn, *The watch is expensive* və *The watch is affordable* cümlələri eyni müqayisə sinfinə nisbətdə şərh edilə bilərlər. Amma onlar müxtəlif standartlar tələb edirlər.Müqayisə sinifi əsasən linqvistik kontekstdən (məsələ *large mouse*) üzə çıxır və o, *large for a mouse* kimi ifadələrlə açıq

şəkildə ifadə edilir. Amma bu vəziyyətdə kontekstdən asılılıq həmişə yoxa çıxmır. Məsələn Kenedi *Ali has an expensive Mercedes*cümləsini düzgün qəbul edir, hətta o bildirir ki, Əlinin maşını ən ucuz mersedesolsa belə, bu cümlə düzgündür, çünki bir biri ilə nisbətdə götürülür. Bəlkə müqayisə burada bütün maşınlara aiddir, təkcə mersedes modelinə deyil.Müəyyən standart normalar bəzi miqdarbildirən elementləri şərh etmək üçün tələb olunur. Bir siyasətçinin *"Many people support me", "Viele Leute unterstützen mich"* kimi bir iddiasını dəyərləndirmək üçün biz əlavə işlənmə məhdudiyyətlərinin (məsələ, people in the city, people who own cats) olub olmadığını da bilməliyik. Həmçinin bizim *many(viele)*sözünün ifadə etdiyisay standartına dair bir məlumatımız da olmalıdır ki, burada təxmini bir miqdar müəyyənləşdirə bilək. (3, səh 45)

Nəzəri linqvstikaya əsasən kontekstdən asılılıq yuxarıda göstərilən kiçik nümunədən kənara çıxan kontekstdən asılılıq növlərinin xarakterizə edilməsi və kataloqlaşdırılması ilə əlaqədardır.

Çoxlu suallar meydana çıxır. Məsələ, diskurs anaforasının həll edilməsi, kontekst standartlarının müəyyənləşdirilməsi və qeyri-müəyyənliyə nəzarət etmək üçün hansı üstünlüklər vardır?Yuxarıda nəzərdən keçirilmiş faktlara xüsusi əhəmiyyət verməklə yanaşı, gizli nəticə çıxarma, mərkəzləşdirmə və s. üzrə çoxlu nəzəriyyələri vardır və bunlar ortaya çıxan sualların cavablarının tapılmasına kömək edirlər.

Ədəbiyyat siyahısı

1. Firth, J.R. "Papers in Linguistics" Oxford University Press. 1957
2. Mey, J. L. "Pragmatics: an Introduction". Massachussetts, Blackwell Publishers Limited. 2001.
3. Richard, J.C., R. Schmidt. Longman Dictionary of Language Teaching and Applied Linguistics, (3rd edition). London: Pearson Education Limited. 2002.
4. Widdowson, H.G. "Discourse Analysis". Oxford, Oxford University Press. 2007.
5. Barbara H. Partee, "Discourse and Meaning: Papers in Honor of Eva Hajičova"
6. David Benjamin Kaplan, " Syntax and Semantics", New York: Academic Press, 1978
7. Gazdar, Gerald. "Pragmatics". New York, Academic Press. 1979.
8. Stalnaker, Robert. 'Pragmatic presuppositions."New York, New York University Press. 1974.

E. Huseynova

Context, context formation, contextual dependency in english and german and their role in pragmatics

People carry out almost all social behaviors through language, either spoken or written. The language to be used needs rules and principles, and when it comes to see language from a socio-cultural perspective, and consider the "worlds of users" incorporating the context or "human condition", people refer to the pragmatic use of it, which means that Pragmatics is the study of a context-dependent language.

People owe their respects to great many linguists and experts in Pragmatics for their various expertises in this field to explain "how the language operates in force of contextually implied conditions". With this view, the writer of this paper attempts to learn the important relationship between context and Pragmatics.

Э.Гусейнова

Контекст, контекстное формирование, контекстовая зависимость на английском и немецкой и их роль впрагматике

Резюме

Люди выполняют почти все социальные действия через язык, либо на котором говорят, либо написаны. Используемый язык требует правил и принципов; и когда дело доходит до языка с социокультурной точки зрения и рассматривают "миры пользователей", включающие контекст или "состояние человека", люди ссылаются на его прагматическое использование, а это означает, что прагматика - это изучение контекста -зависимый язык.

Люди обязаны своим уважением многим лингвистам и экспертам в прагматике за их различные экспертизы в этой области, чтобы объяснить "как язык действует в силу контекстно-зависимых условий".С этой точки зрения автор этой статьи пытается узнать важные отношения между контекстом и прагматикой.

Rəyçi: Əbülfəz Quliyev
AMEA-nın müxbir üzvü

RANA BABAYEVA
ASOIU
babayeva.rena.a@gmail.com

INFORMATIVE SPEECH AND ITS TYPES

Key words: objective, informative, speech, provide, comparison, clear, explain.
Açar sözləri: məqsəd, məlumatlandırıcı, nitq, təmin etmək, müqayisə, aydın, izah etmək.
Ключевые слова: цель, информативный, речь, обеспечить, сравнивать, ясный, объяснить.

The main purpose of informative speech is communicating something new to an audience and moving them to greater understanding.

An informative speech is classified according to its objectives. Three general objectives for it are speaking to describe, explain and instruct.

Speaking to describe is used when the topic for listeners is novel and they need information to understand it. Here your objective is to describe a verbal picture of it.

For instance, if your speech is about a vacation to an unfamiliar place, you will need to describe what it is like there, contrasting this place to more familiar places.

Speaking to explain is used to clarify something that is already known but not well understood, or to explain how something works.

For instance, if your speech is about an increase in violent crime, you could explain why the problem exists and what measures must be taken to correct the situation.

Speaking to instruct is used when the objective is to teach the audience something or tell them how to use it.

If you want the listeners to be able to apply what is presented, you provide instructions. For instance, if a new product is available through your company, instructions in its use should be provided in an instructional speech.

Informative speeches are often about complex topics that can be hard to understand. There are five possible ways of organizing an informative speech. They are: topic, chronology, space, comparison and cause and contrast, and effect. Besides these five organizational patterns the outline of an informative speech has three basic parts- an introduction body and conclusion.

Topical organization is arranging material according to the specific topics, that allows to structure the speech on importance. The importance covers the most important points first and the least important last. Chronological organization covers points as a chain of events occurring in time.

Spatial organization explains how a physical object is located, describing it left to right, top to bottom, outside to inside. This structure works well when the arrangement of objects, locations, or distances are visualized by the audience.

Comparison and contrast organization is applied to spell out how a subject is similar to, or different from other things. This structure works well if the topic of informative speech is known to the listeners and the speaker can compare and contrast it with something else.

Cause and effect organization investigates the causes (why something happens) and the effects (the results that happen afterwards). This structure can be used to discuss the occurrence of different social problems such as violence in families, teenage problems. No matter which organizational pattern you choose, the information must be presented in a clear way that is easily understood.

Besides simplicity the information must be presented logically. As an informative speech contains a lot of new information, use distinct transitions, words and phrases such as: therefore, because, in addition, in contrast, moreover, for example, consequently, nevertheless, or finally to aid the audience to follow you. Your audience needs clear transitions to guide them to the most important points. The introduction sets the tone for the speech and creates your trustworthiness. The key role of introduction is to grab your audience's attention. It is possible to achieve it by asking a simple question on the topic, using a personal experience. All these can be considered an attention getting device. After the listeners' attention has been captured, your credibility has been established in the introductory part, the transition is made to the body of the speech.

The body of the speech consists of a series of main points. It is important to identify them and decide on the best way to organize them to achieve the aim of the speech. An effective body of speech has at least two main points but no more than five as listeners are not able to remember a large amount of information simultaneously.

The conclusion lets the listeners know that the speech is completing and reminds them of the central idea. An effective conclusion gives a sense of completion to the speech and underlines the importance of the speech. Its main role is to review the content of the speech and summarize its meaning and purpose. Just as in introduction, the closing device can be a question, a

quotation, a short story. In the conclusion don't present new information because the conclusion should end the speech and not expand it.

Four methods of delivery are used to present informative speech. They are: impromptu, extemporaneous, manuscript memorized. Each type of delivery involves a different amount of preparation and can be applied in different speaking situations. The impromptu speech is delivered with the least amount of preparation.

A self-introduction speech, speeches at social events or surprise parties job interviews are an impromptu speech. Unlike the impromptu, an extemporaneous speech is carefully planned and prepared ahead of time. It is delivered in a conversational tone of voice using note cards or a presentational outline to remember key ideas and information. Although you may have spent a great deal of time researching, organizing and rehearsing, your delivery of the speech is relaxed and unaffected. Because your note cards or outline contain only key words to remind you of what to say, the wording of the speech varies each time it is presented, creating an illusion of spontaneity. This type of delivery is popular in classrooms, business environment and organizations.

A manuscript speech is written out ahead of time and read word for word to the audience. Accuracy and formality are characteristic to this type of delivery. It is applied when complete accuracy is necessary, like a speech in a courtroom or a keynote address at an important conference or event.

A memorized speech requires the most preparation because it is fully written out and memorized in advance, then spoken to the audience word for word . Like a manuscript speech, this type of delivery is used when accuracy is decisive. This type of delivery is the most time - consuming method. Another disadvantage is that it can appear rehearsed and insincere. Besides, if the speech interrupted for some reason, you may lose your face in the memorized text. These problems can be avoided by practicing the speech so much that you can convey spontaneity and sincerity to the audience when you deliver it.

It is advisable to mention the two inviolate laws of speaking: the law of character and the law of content.

Actions speak louder than words. How we live speaks louder than what we say. Character lends strength to the message before the first word is spoken, before the first note is taken. But even more critical than ability the listener wants to know if the speaker credible. If a coworker steps on the tribune to present a talk on ethics and the listener knows she is slipping supplies in her purse for personal use how will he/she respond? W. Somerset Maugham says: "Don't be short –changed by choosing personality over character". How listeners feel after they discover that the speaker is not all

he claimed. They feel short-changed. On the other hand, when a person of character speaks listeners feel rich and pleased.

Content is another dimension of speaking. A bad day on the tribune with poor content will leave an unrecoverable bad impression. But a bad day on the tribune with strong content can still leave a favorable impression.

Each informative speech should contain a walk- away value. What will the listeners remember when they get home?

To ensure that your main points are remembered, have your content securely tied to your theme. Every point should re-emphasize the premise of your information. Each should support the premise to the point of being inseparable.

When listeners take notes, the speaker realizes there is strong content- because it is impossible to take notes on nothing. Character and content are what really counts in speaking.

Reference

1. Krashen S. The Power of writing, Ports mouth WH. Heinemann and Santa Barbara Libraries Unlimited (second rdition), 2008
2. Rajab H. Developing Speaking and Writing Skills of L1 Arabic EFL Learners, 2013
3. Lee S. Teaching EFL, writing Journal of National Taipei Teaching College, 2003
4. Write English Right, 2007
5. Storch N. Collaborating writing. Product, process, and students reflections, 2005
6. Levelt, Willem I.M (1999) “Models of word production trends in Cognitive Se-S
7. Chandler, Daniel (1993) “ Writing strategies and writers tools” English today : The International Review of the English Language

R.Babayeva

Məlumatlandırıcı nitq və onun növləri

Xülasə

Məlumatlandırıcı nitq öz məqsədinə görə təsnif olunur. O üç əsas məqsədə xidmət edir: təsvir etmək, izah etmək, öyrətmək. Məlumatlandırıcı nitq adətən mürəkkəb, çətin anlanılan mövzuları əhatə edir. Məlumatlandırıcı nitqin təşkilində beş üsul mövcuddur. Onlar- mövzu, xronologiya, məkan,

müqayisə və tutuşdurma və həmçinin səbəb və nəticədir. Bu beş təşkilat növlərindən əlavə məlumatlandırıcı nitqin planı üç əsas hissədən ibarətdir. Giriş, əsas hissə və nəticə. Mövzunun təşkilatında faktlar öz əhəmiyyətinə görə qurulurlar. Xronoloji təşkilat faktları zamanda hadisələr silsiləsi kimi göstərir. Məkan təşkilatı fiziki əşyaların yerləşməsini təsvir edir. Müqayisə və tutuşdurma əşyaları müqayisə və tutuşdurmaq üçün tətbiq olunur. Səbəb və nəticə səbəbləri (nə üçün bu baş verdi?) və nəticəni (sonradan baş verən nəticələri) araşdırır. Hansı təşkilati modeldən istifadə etmənizdən asılı olmadan məlumat aydın və başa düşülən şəkildə təqdim olunmalıdır.

Р.Бабаева

Информативная речь и её виды

Резюме

Информативная речь классифицируется согласно ее целям. Основными тремя целями являются: описать, объяснить, обучить. Информативная речь обычно охватывает сложные темы, которые трудно понять.

Существуют пять путей организации информативной речи. Это – тема, хронология, пространство, сравнение и противопоставление, а также причина и следствие. Кроме этих пяти организационных моделей, план информативной речи состоит из трех основных частей: введения, основной части и заключения. В тематической организации факты выстраиваются по важности. Хронологическая организация охватывает факты как цепь событий по важности. Пространственная организация описывает расположение физических предметов. Сравнение и противопоставление применяется, чтобы сравнить и сопоставить предметы. Причина и следствие исследуют причины (почему что-то случилось?) и следствие (результаты, которые имели место впоследствии). Не имеет значения, какую организационную модель вы выбираете, информация должна быть представлена ясно и в доступной форме.

Rəyçi: Rəhimə Məmmədova
Filologiya elmləri namizədi

ELNARƏ ƏHMƏDOVA
Sumqayıt Dövlət Universiteti
Bakı Dövlət Universiteti, dissertant
ahmedovaelnara03@gmail.com

ULAŞLI VƏ HAT ETNONİMLƏRİ QUBADLI TOPONİMİKASINDA

Açar sözlər: etnonim, Ulaşlı Xan, məqalə
Ключевые слова: этноним, ойконим, топоним *Улашлы*, Хат
Key words: ethnonym, oikonym, toponym, Ulashli, Hat

Ulaşlı Qubadlıda qədim türk etnoslarından birinin adını daşıyan kəndlərdəndir. Kavdadıq ərazi vahidliyində Bərgüşad dağ silsiləsinin ətəklərində, Bərgüşad şayının sol sahilində, dəniz səviyyəsindən 730 metr hündürlükdə, rayon mərkəzindən 16 km uzaqlıqda yerləşir. Çərəli Xocahan kəndləri ilə qonşudur. XIX əsrə aid tarixi sənədlərdə kəndin adı Hulaşlı şəklində qeydə alınıb. Ulaş adı ilk dəfə olaraq "Kitabi-Dədə Qorqud" dastanında çəkilir. Dastançı "Salur Qazanın evinin yağmalanması" boyunda oğuz ərənlərinin başçısı Qazan xanı belə tərif edir: *"Bir gün Ulaş oğlı, Tulu quşun yavrısı, bizə miskin umudı, Amit soyunun aslanı, Qaracuğın qaplanı, qonur atın iyəsi, xan Uruzun ağası, Baymdır xanın güyəgisi, Qalın Oğuzun dövləti,qalmış yigit arxası Salur Qazan yerindən durmışdı"* [1, s. 37]. Göründüyü kimi, burada Ulaş Qazan xanın künyəsi (atasının adı) kimi qeyd edilir və Ulaşın salur boyundan olduğu göstərilir.

"Şəcəreyi-tərakimə"də də salur boyundan olan Ulaş adlı bir kişidən bəhs edilir: *"Günlərin bir günü Dib Bakuy xan xalqdan soruşdu ki, bu zamanda Oğuz xanı görən insanlardan kimsə varmı? Dedilər: "Bir kişi qalmışdır, salur elindən Ulaş adlı". Xan adam göndərdi. Ulaşı gətirdib Oğuz xanın yurdda qaldığı müddətdə nə iş gördüyünü, dostlara nə yaxşılıq edib, düşmənlərlə necə rəftar etdiyini bir-bir soruşdu. Ulaş da bildiklərini söylədi. Ondan sonra Ulaşa çoxlu nemətlər verib evinə göndərdi"* (2, s.5).

XIII əsr ərəb tarixçisi Rəşidəddin yazır ki, Ulaş ve oğlu Ulat, İnal xanın (Oğuz sülaləsinin doqquzuncu hökmdarı İnal Sir Yabğu, onuncu hökmdarı İnal xan olmuşdur – Ə.E.) vəziri ve naibi salur boyundan idilər (3, s.61).

Ulaş etnonimi ərəb mənbələrində (İstəxri, İbn Havqəl) həmçinin xəzərlərə mənsub bir tayfa olaraq kulas kimi xatırlanır.

"Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"ndə qeyd olunur ki, XII əsrədək Volqa boyunda bulqarlara məxsus Hulaş şəhəri olmuşdur və bu şəhərin adı hulaş adlı tayfa ilə bağlıdır (4, s.254). Hulaşlılar ayrı-ayrı tarixi dövrlərdə xəzər, bulqar və suvar tayfalarının tərkibində görünmüş və

Azərbaycanın müxtəlif ərazilərinin sakini olmuşlar. Borçalı mahalında Borçalı çayının (sonradan Tona, Debed, yaxud Debada – Ə.E.) sahilində Hulaş, Ermənistanda və Qazaxıstanda Kulaş, Dağıstanda Ulaşlı kəndləri də hulaşlılarla əlaqələndirilir. Tarixi mənbələrdə qıpçaqların arpalı tayfasının tərkibində də ulaşların olduğu qeyd edilir.

S.Köprülüyə görə, ulaşlı//ulaşlar adlı tayfa oğuzların bəydili boyundandır. Türkiyənin Çuxurova bölgəsində bu tayfanın üzvləri çoxluq təşkil edir. Müəllif qeyd edir ki, ulaş etnonimi şəxs adı əsasında yaranmış, boyu idarə edən şəxsin adından götürülmüşdür. Hələb türkmənlərinin bəydili boyu 40 obadan ibarətdir ki, onlar arasında 22-ci yeri ulaşlılar tutur [5, s. 14]. F.Sümər ulaşlıların varsak boyundan olduğunu, boyu idarə edən şəxsin – Ulaşın adı ilə ulaşlı adlandırıldıqlarını yazır. Müəllif varsakların ən böyük obasının bayındırlı olduğunu göstərərək Ulaşın salurlara mənsub olduğunu qeyd edir (6, s.327).

1071-ci ildə Malazgit ovalığında Səlcuq hökmdarı Alparslanla Roma İmparatoru Romen Diyojen arasında baş vermiş savaşda oğuzların salur qolundan olan ulaşlılar da rol almışlar. Anadolu fatehi Qutalmışoğlu Süleyman bəyə tabe olan ulaşlılar Anadolunun bir çox yerlərində çıxan savaşların əsas iştirakşılarından olmuşlar. XVI əsrdə bir sıra türkmən boyları ilə birlikdə Suriyanın sərhədində, Fərat çayı sahilində yerləşən Cullap adlanan yerə sürgün edilmiş, sonrakı dövrlərdə yenidən şimala doğru yol almış, Türkiyənin Antakya, Kilis, Gaziantep, Kahramanmaraş, Malatya, Tunceli, Elazığ, Erzurum, Sivas, Erzincan bölgələri, Osmaniyə vilayəti (Haraz) və Tarsusdan Bulqar dağlarınadək olan ərazilərdə məskunlaşmışlar.

Osmanlının 10-cu sultanı, tarixdə Qanuni ləqəbi ilə tanınan Sultan Süleymanın hakimiyyəti dövründə Hələb türkmənlərinin bəydili boyunun tərkibindəki 40 obadan biri ulaşlı olmuşdur. XVIII yüzillikdə isə dülqədirlilərin tərkibində yer alaraq Ceyhanın Qurdqulağı kəndində və Adananın Gavur dağı ətrafındakı ərazidə, XIX yüzillikdə isə Toros dağ silsiləsinin cənubundakı Nur və ya Amannos dağının ətəklərində yaşamışlar.

Qaynaqlara görə, XIX əsrin əvvəllərində Urmu gölü sahilinə köç edən qarapapaqların tərkibində də ulaşlılar olmuşdur. Ş.Quzuçular uçoxların bayındır və salur tayfaları ilə bağlı olan ulaşlıların varsaqın bir qolu, varsaqın isə müxtəlif oğuz-türkmən aşirətlərindən ibarət tayfa birliyi olduğununu göstərir. Ulaşlar uçoxların bayındır və salur tayfaları ilə bağlı olmuşlar.

Beləliklə, deyilənlərdən belə qənaətə gəlmək olar ki, hulaş/kulaş/ulaş adları ilə tanınan bu tayfa türkkökənli olmaqla, tarixin ayrı-ayrı mərhələlərində bir sıra tayfaların tərkibində görünmüş, zaman-zaman müxtəlif ictimai-siyasi səbəblərdən bir yerdən digərinə köç etmiş (yaxud sürgün edilmiş), sakini olduqları yerlərdə izlərini buraxmışlar. Azərbaycanın Qubadlı rayonunda Ulaşlı, Göyçay rayonunda Ulaşlı Şıxlı kəndlərin

mövcudluğu bu tayfanın ölkəmizin qədim sakinlərindən olduğu fikrini təsdiq edir.Ulaşlı oykonimi ulaş sözü ilə -lı mənsubluq bildirən şəkilçinin birləşməsindən yaranmışdır. "Azərbaycan dilinin izahlı lüğəti"ndən oxuyuruq:

"ULAŞMAQ[1] – qarş. Ağız-ağıza verib ulamaq, hamı birdən ulamaq;

ULAŞMAQ[1] – *f.* yetişmək, görüşmək, qovuşmaq. *Vəfa qıl bir vəfadarə, Ulaşma hər biiqrarə, Mətain atma bazarə, Xəridar olmayan yerdə.* M.V.Vidadi" (7, s.401).

Ulaş sözü "Kitabi-Dədə Qorqud"da "çatmaq, qovuşmaq" mənasında izah edilir. Eyni zamanda, daha öncə də qeyd etdiyimiz kimi, antroponim − Qazan xanın atasının adı kimi də göstərilir. Bildiyimiz kimi, qədim türklərdə bir sıra adlar, əsasən, feillərdən təcrid olunmuşdur ki, bunun izlərinə dastanda da rast gəlmək olur. Məsələn: Tokdamış, Qutalmış, Dondar, Qazan və s. Bu baxımdan ulaş lekseminin də "bağlanmaq, əlaqələnmək, qovuşmaq" kimi anlamlar ifadə edən ula/ulaş (güman etmək olar ki, -ş burda tarixən də dilimizdə işlək olan, -laş (-la+ş) şəkilçisinin yaranmasında iştirak edən qayıdış növ məzmunlu sonluqdur) feili əsasında yarandığını və "bağlı, sədaqətli, vəfalı" kimi mənalar kəsb etdiyini ehtimal etmək olar ki, görünür, bu da onların xarakterindən, kökə və torpağa bağlılıqlarından irəli gəlmişdir.

Qədim türk yazılı abidələrində də ula sözü həmin mənada işlənmişdir. *Kara yol tenqri men, sınukının sepermen, üzükinin* ***ulayur*** *men, ilig itmiş men edgüñsi bolzun – tir. (Mən böyük yol (tale, qismət – Ə.E.) tanrısıyam, sənin sınıqlarını düzəldirəm,üzülmüşlərini birləşdirərəm, el (dövlət – Ə.E.) quranam, hər şeyi yaxşı olsun – deyir)*("Irk Bitik").

HAT. Hat kəndi Rayon mərkəzindən 37 km uzaqlıqda Qarabağ dağ silsiləsinin ətəyində, Başarat inzibati ərazi vahidliyində Milanlı, Deşdahat kəndləri ilə sərhəddə yerləşir. Deyilənə görə, əliyanlar tərəfindən salınmış bu kənd əvvəllər Böyük Hat və Kiçik Hat olmaqla, iki hissədən ibarət olmuş, sonradan birləşdirilərək Hat adlandırılmışdır. "Alban tarixi"ndə b.e V əsrində Sünikdə cərəyan edən hadisələrdən bəhs edilərkən deyilir ki, Yezdəgirdin hakimiyyətə gəlməsindən 20 il öncə, yəni təxminən 418-ci ildə hunlar ölkəsindən gələn Hunoquru məğlub edib əvəzində şahdan öz torpağını geri qaytarmasını xahiş edən Babik arzusuna çatır və Araz çayını keçərək burda özünə yurd salır. Onu müşayiət edən iki iranlı qardaş: Qor və Qazan da püşk atır və onlardan Qorun payına Hot, Qazanın payına isə Şalat kəndi düşür (8, s.33-34). Həmin kəndlərin dəqiq koordinatları verilməsə də, Zəngəzur mahalının da daxil olduğu Sünik ərazisində yerləşdiyi məlum olur. İrəvan quberniyasının icmal dəftərində adı Şələt şəklində verilən Şalat kəndi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasına (indiki Sisyan rayonu) daxil idi. Hot kəndinə gəldikdə isə, bu kəndin Qubadlı rayonundakı Hat kəndi olduğunu dəqiq deyə bilməsək də, göstərilən arealda bu adı daşıyan kəndin mövcud olduğu şübhəsizdir.

Türk dillərində özünü göstərən a/o sait əvəzlənməsinə (məsələn, özbək dilində *bala* əvəzinə *bolə,* eləcə də Bakı dilalektinin Maştağa, Nardaran kimi şivələrində *boba, bormaq deyilişinə rast gəlirik)* əsaslanaraq deyə bilərik ki, Hot oykonimi Hatın fonetik variantıdır.

F.Cəlilovun qədim etnoslardan olan hat haqqında fikirləri maraq doğurur. Müəllif hatların türkmənşəli olması ehtimalını əsas tutub yazır ki, "yazılı qaynaqlar Atayurd hüdudlarından batıda qalan bölgələrdə türk izlərini versə də, İç Anadoluda arxeoloji bəlgələrin bir neçə etnosa aid olması göstərir ki, bunlardan yalnız biri türklərə aid ola bilər və bu da daha çox ***hatlara*** uyğun gəlir. Alacahöyük basırıqları hatlara aid edilir. Bu baxımdan, hat dilində xeyli türk sözünün işlənməsi və Alacahöyük basırıqlarında görünən nəsnələrin sonrakı türk basırıqlarındakı tipoloji yaxınlığı bu ehtimalı gücləndirir" (9, s.218). Hatlar Qut eli çağında Orta Anadoluda yaşamışlar Anadoluda yerli hatlar öz ölkələrini və mədəniyyətlərini qurmuş, paytaxtları isə Hattusas şəhəri olmuşdur. Bir çox tədqiqatçılar bu xalqı hindavropadilli hetlərlə qarışıq salsa da, onlar bir-birindən tamamilə fərqli etnoslar olmuşdur Dyakonov hatları Anadoluda yerli, hetləri isə gəlmə adlandırmışdır. Hətta hetdilli mətnlərə nəzər saldıqda orda əks olnunan hat sözlərinin əksəriyyətinin türkkökənli olduğu aşkara çıxır (10, s. 36-37). Güman etmək olar ki, sonrakı dövrlərdə müxtəlif tarixi, ictimai-siyasi faktorların təsiri ilə hatlar Azərbaycana, əsasən, Qubadlı ərazisinə köç etmiş, burda da məskunlaşaraq iz salmışlar. Qubadlının Deştahat oykoniminin tərkibində də hat leksemi özünü göstərir. Deştahat kəndində Hatın düzü (hata məxsus düz) adlı oronim də mövcuddur. Hat oykonimini tədqiqatçılar ərəbmənşəli həd (kənar, qıraq) sözü ilə əlaqələndirsələr də, etnonimin bizə məlum olan ilkin mövcudolma tarixi ilə müqasiyələr apardıqda bu fikir özünü doğrultmur. Bildiyimiz kimi, prototürk dövründə h fonemi mövcud olmamış, sonrakı dövrlərdə meydana çıxmış və əsasən, oğuz qrupuna mənsub olan dillər üçün xüsusilə söz əvvəlində səciyyəvi olmuşdur. Hazırda h ilə işlənən bir çox sözlər var ki, həmin sözlər tarixən k/q samitləri ilə yazılmış və deyilmiş, bu xüsusiyyət qədim türk yazılı abidələrində də öz əksini tapmışdır. Məsələn: harda – kanta – qanda, hamı – kamu – qamu, haçan – kaçan – qaçan və s. Abidələrimizdə "böyük, güclü, qüvvətli, möhkəm, sərt" mənalarında katığ//katı//qatı sifəti işlənmişdir: *...Üç Birküde tatar brle* ***katı*** *tokıdım* (Üç Birküdə tatarlarla möhkəm toqquşdum. – Moyun çor, 18). *Səmiz at ağzı* ***katığ*** *boltı...(*Kök atın ağzı sərt oldu – "Irk bitik", 100*). Bir ağ tozlu* ***qatı*** *yay aldılar, bir dəxi altı pərli gürz aldılar* ("Kitabi-Dədə Qorqud"). Hər üç nümunədə işlənmiş katı//katığ//qatı sözləri eyni mənanı bildirir və -ı, -ığ şəkilçisinin artırılması ilə kat (güc, qüvvət) kökündən yarandığı açıq-aşkar görünməkdədir. Bütün bu deyilənlər hat etnonimin də "güclü, qüvvətli, sərt, möhkəm" kimi mənalar ifadə etdiyini söyləməyə əsas verir.

Elmi yeniliyi. İlk dəfə olaraq türkkökənli ulaşlı və hat etnonimlərinin Qubadlı arealında görünməsi, köçlərinin səbəbləri və və bu ərazidə yer-yurd adlarında mühafizə olunması elmi cəhətdən tədqiqata cəlb edilmişdir.

Tətbiqi əhəmiyyəti: Məqalə toponimlərin tədrisi prosesində ali məktəb müəllimlərinin əlavə elmi material kimi istifadəsi üçün yararlıdır. Tələbələr də kurs işlərinin, sərbəst işlərin yerinə yetirilməsində faydalana bilərlər. Eyni zamanda toponimlərlə bağlı elmi tədqiqat işlərində mənbə kimi məqaləyə istinad edilə bilər.

Ədəbiyyat

1. Kitabi-Dədə Qorqud. Bakı: Öndər, 2004, 375 s.
2. Bahadur han E. Türklerin soy kütüğü (Şecere-i terakime). Ankara: Kervan kitapçılık, 1974, 203 s.
3. Sümer F. Oğuzlar (Türkmenler)Ankara: Ankara Üniversitesi basın evi, 1974, 574s.
4. Azərbaycan toponimlərinin ensiklopediklüğəti. AMEA-nın nəşri, 2 cilddə: II cild. Bakı:Şərq-Qərb, 2007, 302 s.
5. Azərbaycan dilinin izahlı lüğəti. AMEA-nın nəşri, 4 cilddə: IVcild. Bakı:Şərq-Qərb, 2006, 709 s.
6. Şükürlü Ə. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 390 s.
7. Kalankatuklu M. Albaniya tarixi, Qoş M. Alban salnaməsi. Bakı: Avrasiya Press, 2006, 293s.
8. Cəlilov F. 9Bitik– II bitik.Tarixi coğrafiya. Bakı: Ağrıdağ, 2014, 275 s.
9. Cəlilov F. 9Bitik– I bitik.Tarixi qaynaqlar. Bakı: Ağrıdağ, 2000, 337 s.

Elektron mənbələr:

http://www.turkmensani.net/tr-tr/index.php?option=com_content&view=article&id=377:tuerkmen-aile-airet-oymaklar-boylar-kollar-2-&catid=53:arastirmalar&Itemid=162

http://www.edebiyatvesanatakademisi.com/makale/cukurova-ve-gavurdaglarinda-ulas-oymagi-4249.aspx

Э.Ахмедова

Этнонимы улашлы и хат в топонимике губадлы

Резюме

Uşaqların yaş səviyyəsini nəzərə alaraq diqqətlərinin tez-tez yayınması halları qaçılmazdır. Materialın müəyyən hissəsinin oxunulub müzakirə

olunması şagirdlər arasında yaşanan diqqət yayınıqlığının üzə çıxmasına səbəb olacaq. Belə hallarda materialın yenidən oxunulması məqsədə-uyğundur.

Bəzi siniflərədə elə şagirdlər olur ki, fərdi xüsusiyyətlərindən irəli gələrək dinləyib anlama vərdişinin səviyyəsi ümumilikdə aşağı olur. "Passiv oxu" zamanı belə uşaqları diqqət mərkəzində saxlamaq lazımdır, onların müzakirələrə qoşulmasına xüsusi səy göstərilməlidir.

Eşidib anlama vərdişi çox vacib ünsiyyət vasitəsidir. Bu vərdişin təməlinin düzgün qoyulması şagirdin gələcək həyatında da dinləyib düzgün anlamasına, doğru nəticələr aparmasına səbəb olacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev A. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 1979.
2. Balayev H. Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 1996.
3. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, 1960.
4. Əliyeva A. Azərbaycan dili dərslərində interaktiv metodlardan istifadənin xüsusiyyətləri. Bakı, 2005.
5. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 2004. 16. Müasir Azərbaycan dili. I, II, III cildlər. Bakı, 1978-1981.
6. Paşayev A, Cəfərova Esmira. İnteraktiv təlim Azərbaycan dili və ədəbiyyat dərslərində. Bakı, 2008.
7.Жинкин Н.И. Речь как проводник информации. М.: Наука, 1982, 238 с.
8. Бовтенко М.А. Компьютерная лингводидактика. Учебное пособие. М.: Флинта, 2005, 215 с.

С.Насибова

Формирование и развитие навыков аудирования
у учеников средней школы
Резюме

В статье описывается формирование и развитие навыков аудирования в начальных классах средней школы, объясняется исключительной роль классного руководителя при обучении аудирования, перечисляются навыки, приобретённые учеником через умения «пассивного чтения».

Аудирование считается видом деятельности, которой используют ученики в начальных классах до формирования у них навыков чтения. Оно используется фактически во всех этапах средней школы, но играет особа важную роль в начальных классах. Навыки аудирования принимается как фундамент обучения иностранных языков. Очень малый объем знаний в начальных этапах школы наполняются благодаря использования аудирования.

В конце статьи делается вывод, что слух и понимание - очень важный инструмент коммуникации. Правильное обучение этим навыкам приводит к тому, что ученик будет правильно слушать и понимать в будущей жизни и делать правильные результаты.

S.Nasibova

Forming and developing listening skills
for high school students
Summary

The article describes the formation and development of listening skills in primary school, explains the exceptional role of the class teacher in teaching listening, lists the skills acquired by the student through the skills of "passive reading."

Auditing is considered a kind of activity, which students use in primary classes before forming their reading skills. It is used practically in all stages of the secondary school, but plays a particularly important role in the primary classes. The skills of listening are accepted as the foundation for teaching foreign languages. A very small amount of knowledge in the early stages of the school is filled with the use of listening.

At the end of the article, it is concluded that hearing and understanding are very important tools for communication. Proper teaching of these skills leads to the fact that the student will correctly listen and understand in the future life and make the right results.

Rəyçi: **Gülər Həsənova**
filologiya üzrə fəlsəfə doktoru, dosent

ƏSMƏR KƏRİMOVA
214 saylı tam orta məktəb
asmer@mail.ru

İNGİLİS DİLİ FƏNNİNİN TƏDRİSİNDƏ MÜASİR TƏLİM TEXNOLOGİYALARININ TƏTBİQİ

Açar sözlər:interaktiv, şifahi nitq, İKT.
Key words:interactive, oral speech, İCT.
Ключевые слова: интерактив, устная речь, ИКТ.

Müasir təlim konsepsiyası və prinsipləri təhsilalanlardan fəallıq, məntiqi düşüncə, müstəqil tədqiqatlar apara bilmə, konkret biliklərə yiyələnmə və fərdi inkişaf etmə bacarıqlarının formalaşdırılmasını tələb edir. Hazırda elmi-texniki tərəqqinin inkişafı təbii olaraq, təlimdə texniki vasitələrin tətbiqinə ciddi zərurət və geniş imkan yaratmışdır. Təhsilin informatlaşması-təhsilin keyfiyyətini yüksəltmək məqsədilə İKT-nin intensiv tətbiqinə əsaslanır, təhsildə mövcud vəziyyətin dəyişməsinə, onun yeniləşməsinə, bütövlükdə təhsilin məzmun və forma etibarilə texnoloji baxımdan innovativ xarakter almasına xidmət edir.Pedaqoji texnologiya təlim prosesinə yeni baxışdır və məhz müasir texnologiya əsasında təlim prosesi ənənəvi təlimdən fərqli olaraq, maksimum idarə olunan proses hesab olunur. İKT-nin tətbiqi hesabına təhsil kütləviləşir, fərdiləşir, fasiləsiz xarakter daşıyır . Müasir informasiya cəmiyyətində şagird lazımi məlumatı axtarmaq, seçmək, təhlil etmək, yeni informasiya yaratmaq, bu əsasda mövqe formalaşdırmaq, qərar qəbul etmək və qərarı həyata keçirmək kimi səriştələrə yiyələnə bilir. İndi hər bir müəllimin vəzifəsi təhsilalanlara öyrənməyi öyrətmək, onlara yardımçı olmaq, bələdçi (fasilitator) rolunda çıxış etmək, informasiya mənbələri ilə şagird arasında vasitəçi funksiyasını yerinə yetirməkdir. Unutmaq olmaz ki, təlimin yeni texnoloji proseslə aparılmasında müəllim təşəbbüskarlığı və fərdi nümunəviliyi, problemə yaradıcı yanaşması ən vacib şərtlərdəndir. Müəllim öz təşəbbüs və qənaətlərini aktiv tərəfin-təhsilalanların fikir və fəaliyyətləri ilə birləşdirdikdə, başqa sözlə, düzgün ümumiləşdirilmə apardıqda, tədrisi interaktiv (birgəfəaliyyət, əməkdaşlıq, qarşılıqlı kollektiv iş) səmtə istiqamətləndirdikdə təlimin texnoloji səmərəsi daha üstün olur. Yəni texnoloji prosesə sistem halında yanaşmaqla həm təhsilalanların idrakının formalaşmasına, fəaliyyət çevrəsinin genişlənməsinə, həm də müəllim novatorluğunun məkan və zaman daxilində yeni keyfiyyətlərlə görünməsinə əlverişli şərait yaradılmış olur. Müxtəlif kompüter proqramlarından istifadə fəal təlim üsulunu zənginləşdirən elementlərdən biridir. İnnovasiya sistemindən istifadə müasir təhsildə beynəlxalq standartlar deməkdir. Elektron vasitələrdən istifadə etmək üçün ilk növbədə müəllimin

kompüter bilikləri olmalı və o, onlardan istifadəni bacarmalıdır. Proqramlar içərisində Power Pointə üstünlük verilir. Məhz bu proqram vasitəsi ilə müəllim mövzuya uyğun müəyyən slaydlar hazırlayaraq, vizual görüntü yarada və əyani vəsait kimi ondan istifadə edə bilər. Şagirdlər eşitdiklərini vizual gördükləri zaman mövzu daha aydın və maraqlı olur. Power Point proqramı interaktiv üsulla keçirilən məşğələlərdə şagird mövzuya tənqidi yanaşmanı və beyin hücumunu həyata keçirir . İngilis dili dərslərində müasir təlim texnologiyalarının tətbiqində aşağıdakı yanaşmalar olmalıdır:

1. Kompyuter vasitəsilə sinxron və qeyri-sinxron ünsiyyət qurmaq.

2. Hipermətn (audio və video materiallar), tətbiqi proqramlar: elektron poçt, e-poçt ünvanları, qlobal şəbəkə ilə tanış olmaq.

3. Şəbəkə etiketi bilmək.

4.Peşəkar inkişafı təmin edən resuslardan: peşəkar jurnallardan, nəşrlərdən və virtual kitabxanalardan istifadə etmək. Peşəkar birlik və assosiasiyalar(EBSCO, J-stor, İRK-nin rəqəmsal vasitələri) ilə tanış olmaq və onlardan faydalanmaq.

5. İnteraktiv (şəbəkədaxili) seminarlar və konfranslarda iştirak etmək. İngilis dilinin tədrisinə dair internet səhifələri (saytları) ilə tanış olmaq.

6. Kooperativ və əməkdaşlıq şəraitində işləmək.

Qeyd etməliyik ki, bu proqramlar ingilis dilində sinifdən kənarda şagird biliklərinin əhəmiyyətli dərəcədə möhkəmləndirilməsini nəzərdə tutur. Burada qeyd etmək lazımdır ki, "fasilitator" vəzifəsini yerinə yetirən müəllim hər bir şagirdə şəxsiyyət kimi yanaşmalı, onlarla səmimi münasibət yaratmalıdır. Müasir təlimin müəllimdən tələbi odur ki, onun təqdim etdiyi təlim metodları və vasitələri dövrün tələblərilə uyğunlaşsın, daha doğrusu, demokratik olsun. Demokratik yanaşma zamanı şagirdlər öz fikirlərini sərbəst bildirir, oxuduqlarını və eşitdiklərini danışmağa (bölüşməyə) həvəsli olurlar, söhbətlərə tez qoşulurlar, qrup dairəsində aparılan müzakirələrdə daha fəal olmağa çalışırlar. Araşdırmalar göstərir ki, İKT bütövlükdə təlim prosesinin, dərsdənkənar vaxtlarda müstəqil işlərin təşkili, bilik və bacarıqların yoxlanılması vasitəsi, daha doğrusu tədrisdə köməkçi vasitə kimi qiymətləndirilmişdir.Tədqiqat göstərir ki, yeni pedaqoji texnologiya və təlim metodlarından səmərəli istifadə etməklə tədris prosesini daha maraqlı təşkil etmək, təhsil sistemini isə daha da optimallaşdırmaq olar. Bu iki amil nəzərə alınmaqla, aşağıdakı istiqamətlərdə inkişaf gedir:1.Şəxsilikdən ictimailiyə doğru 2.Asılılıqdan müstəqilliliyə doğru 3.İKT-dən istifadə vərdişlərinə doğru 4.İntuisiyadan məntiqə doğru 5.Tək fikirlilikdən alternativliyə doğru 6. Yaradıcılığa və vizual effektlərə doğru 7. Müstəqil tədqiqat işlərinin aparılması vərdişlərinin təkmilləşdirilməsinə doğru 8. Analiz etmək, araşdırmaq, dərk etmək və ümumiləşdirmək qabiliyyəti artır. 9.Ətrafda mövcud olan hər hansı bir obyektin əlamətlərini xarakterizə etmək bacarığı formalaşır. 10. Təbiətə sevgi və onun

qorunması istəyi dərinləşir. 11. Kompüterin digər yeni proqramları ilə tanış olurlar.12.İnternetdən sərbəst və təhlükəsiz istifadə etmə bacarığı formalaşır. 13. Şəxsi araşdırmalarını təqdimat şəklində hazırlamaq bacarığı formalaşır. 14. Sərbəst fikir söyləmə qabiliyyəti yaranır. Bu tələbləri nəzərə alaraq, elə təlim metodlarından istifadə olunmalıdır ki, şagirdlər özlərində fəal, yaradıcı dilöyrənmə və ünsiyyət qabiliyyətlərini formalaşdıra bilsinlər. İnteraktiv təlim bu deyilənləri əhatə etmək imkanına malikdir. "İnteraktivlik" termini dialoqu, ünsiyyət prosesində qarşılıqlı təsiri bildirir. Bu təlim metodunu ifadə etmək üçün həmçinin "problem-dialoji, evristik, fəal təlim" anlayışlarından da istifadə olunur. Xarici dillərin tədrisində "interaktiv metod" Avropada 1990-cı illərdən bəri bir metodiki iş üsulu kimi tətbiq edilməyə başlamışdır. Təsadüfi deyildir ki, tədrisin keyfiyyətini yüksəltmək məqsədilə 2000-2004-cü illər ərzində Azərbaycan hökuməti ilə UNİCEF arasında əməkdaşlıq proqramının bir hissəsi kimi fəal və interaktiv təlim metodlarının genişləndirilməsi nəzərdə tutulmuşdur. "Fəal təlim və məktəb birliyi" adlı proqramda göstərilir ki, fəal təlimin məqsədi təhsil sahəsində tətbiq edilən yeniliklərlə bağlı bütün səviyyələrdə çalışan təhsil işçilərinin bilik, bacarıq və vərdişlərinin təkmilləşdirilməsindən, fəal və səmərəli fəaliyyət göstərən təhsil müəssisələrinin yaradılmasından ibarətdir . Pedaqoji üsul kimi isə interakivlik-müəllimin iştirakı ilə şagirdlərin müxtəlif informasiya mənbələri və ya bir-biri ilə ünsiyyət prosesində yeni biliklər əldə etməsinə imkan verən bütün təlim üsullarının məcmusundan ibarətdir. İnteraktiv təlim metodlarının əsas xüsusiyyətləri şagirdlərdə öyrədici, məlumatlandırıcı, yaradıcı olaraq problemlərin həlli, düşünməyə yönəltmə, dərketmə, təhlil etmə qabiliyyətlərini formalaşdırmaq və inkişaf etdirməkdir. Belə təlim canlı ünsiyyət prosesində interaktivliyi təmin edə bilir.Təcrübə təsdiq edir ki, az vaxt və enerji sərf etməklə xarici dilə yiyələnmək üçün şagirdə dili öyrənməyə maraq, müstəqil işləməyə həvəs və düzgün təhlil apara bilmək vərdişləri aşılanmalıdır. Şagird xarici dili müasir təlim texnologiyalarının vasitəsilə öyrənməli, sərbəst öyrənməli, sərbəst ünsiyyətin modellərini düzgün mənimsəməli, autentik materialların üzərində məqsədyönlü iş aparmalı, biliklərin müstəqil əldə edilməsinə və özünün şəxsi kommunikativ bacarıqlarının inkişaf etdirilməsinə səy göstərməlidir. Düşünürük ki, buraya yalnız şagirdlərin məşğələdə bir-biri ilə qarşılıqlı nitq fəaliyyətinin şifahi danışıqla təşkili deyil, həm də bacarıq və vərdişlərin inkişafına hərtərəfli yanaşma prosesi daxildir. Təcrübə göstərir ki, şagirdlərin ünsiyyət prosesinə artan ehtiyaclarının ödənilməsi məqsədilə dil və nitq matreiallarının məqsədyönlü şəkildə birləşdirilərək əlaqələndirilməsi interaktiv fəaliyyətin əsasını təşkil edir. Dərslər biliklərə yiyələnməyə, həmçinin demokratik cəmiyyətin vətəndaşları üçün zəruri sosial və intellektual vərdiş və bacarıqların inkişafına kömək edən yeni demokratik üsullara istiqamətlənir. Fəal dərslərdə

şifahi nitq üzrə motivasiyanın yaradılmasının mümkün üsullarını şərti olaraq bir neçə qrupa bölmək olar:

1) Verilmiş materiallara şərh. Müəllim şagirdlərə müəyyən şəkil, foto-şəkil, əşya, sxem, bədii əsərdən parça, qrammatik struktur, müxtəlif söz birləşmələri və s. təqdim edə bilər. Bu zaman təqdim olunan sualların xarakteri təxminən belədir:

- Bu nəyi bildirir?
- Bunun bizim fənnə, öyrəndiyimiz mövzuya nə kimi aidiyyatı var?
- Bu məsələ barədə nə deyə bilərsiniz?
- Bu şəkildə gördüklərimizə münasibətinizi bildirin və s.

2) Sual verməyə həvəsləndirmə. Təfəkkür prosesini aktuallaşdıran sualların da xarakteri müxtəlifdir:

- ...haqqında biz nəyi bilirik və nələri bilmirik?
- ...haqqında daha nələri bilmək istərdik?
- ...haqqında deyilənlər doğru, yoxsa yanlışdır?
- ...haqqında bildiyimiz məlumatlar doğrudurmu? və s.

3) Verilmiş qrammatik modelin (strukturun) və ya cümlənin nitqdə işlədilməsi.

- Tək cümlə ilə fikrin ifadəsi
- Bir neçə cümlə ilə fikrin ifadəsi
- Müəyyən situasiyada müəyyən fikrin ifadəsi
- Müəyyən mətn daxilində fikrin ifadəsi və s.

Ümumiyyətlə, müxtəlif metodistlərin və müəllimlərin fikirləri bir məsələdə eynilik təşkil edir ki, hər bir dərs (tədris prosesi) kommunikativ xarakter daşımalıdır. Yeni təlim texnologiyalarının imkanlarından maksimum istifadə olunmalıdır.

Ədəbiyyat

1. Kumaravadivelu B. Understanding Language Teaching. From Method to Postmethod. London. Tylor&Francis e-Library, 2008, 276 p.
2. Lightbown P. M. and Spada N. How languages are learned. Oxford: Oxford University Press, 1993. 135 p.
3. Long M. H. Native speaker / non-native speaker conversation and the negotiation of comprehensible input. Applied Linguistics, Vol. 4, 1983, pp.126-141.
4. Lozanov G. Suggestology and Outlines of Suggestopedy. New York. Gordon and Breach. 1978, 392 p.
5. Lozanov G. “Suggestology and Suggestopedia” in Innovative Approaches to Language Teaching, ed. Robert W. Blair, Rowley, MA: Newbury House, 1982, 171 p.

6. Morris M. An Introduction to the Philosophy of Language. Cambridge University Press, 2006, 334 p.

A.Karimova

On using modern teaching technologies in ELT

Summary

The article deals with the problem of working out,effective ways of using innovative methods in FLT. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching speech should be goal-oriented systematic. One of the main goals of language learning is to acquire the ability to communicate effectively.

А.Каримова

К вопросу об использование современных технологии на преподавании английского языка

Резюме

В данной статье рассматриваются пути использование инновативные методы на преподавании иностранного языка. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Основной целью Государственной программы является формирование единой общенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Процесс английскому языку в целом и процесс обучения речи должен базироваться на коммуникативно – функциональном принципе. Обучением устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению ефективности данного процесса. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Rəyçi: Nuriyyə Əliyeva
filologiya üzrə fəlsəfə doktoru

ÜLKƏR İMANOVA
214 saylı tam orta məktəb
ulker@mail.ru

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ İNNOVATİV METODLARIN İSTİFADƏSİNƏ DAİR

Açar sözlər:innovasiya, şifahi nitq,kontekst
Key words:innovation, oral speech,context.
Ключевые слова: инновация, устная речь,контекст.

Qloballaşma prosesi bir çox sahələrdə olduğu kimi təhsil, elm, elmi-tədqiqat sahəsində də özünü büruzə verir. Bu da qeyd olunan sahələr qarşısında müəyyən vəzifələr və tələblər qoyur. Məhz bu baxımdan ölkəmizdə təhsilə, tədrisə və mütəxəssis hazırlığına münasibətlər də dəyişir. Xüsusilə son illərdə Azərbaycanda milli təhsil sisteminin inkişafı, təkmilləşdirilməsi, humanistləşdirilməsi və müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Təhsil sahəsində həyata keçirilən islahatların məqsədi təlim-tərbiyə prosesinin yüksək səmərəliliyini təmin etməkdir. Bunun üçün ilk növbədə təlimin strukturunun, məzmununun, formalarının, metodlarının dəyişdirilməsi, təlimin yeni modellərinin hazırlanması tələb olunur.

İnnovasiya sadə şəkildə yeni ideya, metod və yaxud vasitənin təqdim olunmasıdır. İnnovasiya inkişafın real təcəssümüdür. Zaman keçdikcə, bütün elm sahələrində yeni fikirlərə rast gəlinir. Cəmiyyətin inkişafı və dövrümüzün reallığı olan qloballaşma xarici dillərin tədrisinin metodikası və metodologiyasında da yeniliklərin meydana gəlməsinə birbaşa təsir göstərməkdədir. *"Texnologiyalar əsri"* adlandırılan XXI ərsdə İnformasiya Kommunikasiya Texnologiyalarının sürətli inkişafı və təhsil sistemində nüfuzu xarici dillərin tədrisində xüsusi əhəmiyyətə malikdir. İstənilən təhsil verən özünün istifadə etdiyi metodları, istinad etdiyi yanaşmaları və üsulları özü üçün aydınlaşdırmalı, onların əsasında duran nəzəriyyələrdən xəbərdar olmalıdır. Metod sözü Oxford Advanced Learner's Dictionary VII nəşrində belə izah edilir: "nəyisə etməyin (həyata keçirməyin) xüsusi yolu" . Həqiqətən də metodlar tədris prosesində bizə istədiyimiz işləri həyata keçirməyə imkan verən vasitələrdir. Təlim metodları təlimin səmərəliliyinə, şəxsiyyətyönümlülüyünə və nəticəyönümlülüyünə xidmət etməlidir. Metodlar didaktik sistemin inkişaf surətinə təkan verir. Təlimdə tətbiq edilən metodlar irəli getməyə nə qədər imkan verərsə təlimin səmərəsi bir o qədər yüksək olar." Təlim metodlarından düzgün istifadə olunduqda şagirdlər idrak metoduna yiyələnirlər, biliklər əldə edir və onların təcrübədə tətbiqini

öyrənirlər. Təlim metodu tədris prosesinin komponenti olduğundan digər komponentlər arasında onun yerini, qarşılıqlı əlaqələrini bilmək lazımdır. Xarici dillərin tədrisində istifadə olunan metodlar müxtəlifdir və bu metodlar dil tədrisinin son məqsədinə nail olmağa özlüyündə müəyyən qədər imkan verirlər. Lakin, xarici dillərin tədrisində metodlarla yanaşı yanaşmalar və üsullar da mövcuddur. Bu anlayışları bir birinə bağlayan tərəflər çox olsa da onları bir-birindən fərqləndirməyi bacarmaq lazımdır. Hər bir xarici dili tədris edən mütəxəssis bu anlayışları, onların bütün oxşar və fərqli cəhətlərini aydınlaşdırmalı və bunlardan xəbərdar olmalıdır.

Metodlardan bəhs edərkən dil tədrisinin nəzəriyyə və prinsiplərinin əsası və dili öyrətmək üçün sonradan əmələ gələn bir sıra üsullar arasındakı fərqi bilmək vacibdir. Bu fərqi aydınlaşdırmaq üçün Amerika tətbiqi dilçisi Edvard Antoni 1963-cü ildə öz planını təklif etdi. O anlayışın və təşkilatın üç səviyyəsini müəyyənləşdirdi və bunları *"yanaşma", "metod"* və *"üsullar"* kimi terminlərlə ifadə etdi. O yazırdı: "Təşkilat ierarxikdir.Təşkilatın əsasını üsulların hər hansı bir yanaşmaya uyğun olan metodun icra olunması təşkil edir.Yanaşma dil tədrisinin və dilin təbiəti ilə bağlı olan bir qrup müvafiq fərziyyələrdən ibarətdir. Yanaşma aksiomatikdir, tədris olunacaq mövzunun xarakterini təsvir edir.Metod seçilmiş yanaşmaya heç bir ziddiyyəti olmayan və həmin yanaşmaya əsaslanan dil materiallarının dəqiq şəkildə təqdim olunmasının ümumi planıdır. Yanaşma aksiomatikdir, metod proseduraldır. Bir yanaşmaya çoxlu metodlar aid ola bilər. Üsul tətbiqidir – adətən sinifdə baş verir. Bu, qarşıdakı məqsədə nail olmaq üçün xüsusi fənd, plan və yaxud icaddır. Üsullar metoda uyğun olmalıdır və beləliklə yanaşma ilə də harmoniya təşkil etməlidir."[6, s.19] P.Ur yanaşma və metodologiya anlayışlarını belə izah edir: "Yanaşma dil öyrətməyin/öyrənməyin prinsipial modeli kimi xarakterizə edilə bilər. Metodologiya xüsusi bir yanaşmaya uyğun gələn və onun əsasında tətbiq olunan tədris üsullarının məcmusudur."[6, s.7] C. Harmer isə yanaşma, metod, prosedur və üsulları haqqında qeyd edir ki, insanlar *yanaşma* terminini dilin və dil öyrənmənin təbiətinə aid olan nəzəriyyələrə aid edirlər və bu nəzəriyyələr sinifdə görülən işlərin həm mənbələridir, həm də bu işlərin həyata keçirilməsinin səbəbləridir. Yanaşma dilin necə istifadə olunmasını və dilin tərkib hissələrinin bir-birinə necə bağlandığını təsvir edir – o, dil səriştəsi modelini təklif edir. Yanaşma insanların dil biliklərini necə mənimsədiklərini təsvir edir və dili uğurla öyrənməyə imkan verən vəziyyətlər haqqında məlumat verir.Metod yanaşmanın praktik olaraq reallaşdırılmasıdır. Metodu yaradanlar fəaliyyət növləri, müəllim və dilöyrənənlərin rolları, köməkçi materialların müxtəlif çeşidləri və s. haqqında qərara gəlirlər. Metodlara onların standart gedişinin bir hissəsi kimi müxtəlif prosedurlar və üsullar daxildir. Prosedur üsulların göstərilən ardıcıllığıdır. Prosedur ardıcıllıqdır və

onu *Birinci bunu edirsiniz, sonra onu edirsiniz* kimi təsvir etmək olar. Bu üsuldan böyük, metoddan isə kiçikdir. Video və yaxud film materialından istifadə edərkən işlədilən ümumi üsul *səssiz baxışdır.* Burada müəllim videonu səssiz şəkildə göstərir. Səssiz baxış ardıcıllıq deyil, sadəcə bir fəaliyyətdir.Beləliklə, o bütün prosedir demək deyil, bir üsuldur. Oxşar şəkildə *barmaq üsulları* bəzi müəllimlər tərəfindən istifadə olunur; onlar əllərini qaldırırlar və hər barmaqlarına bir söz ayırırlar. Məsələn, *He is not playing tennis,* onlar *is* və *not* sözlərini göstərən barmaqlarını birləşdirərək, onların birgə qısa şəkildə, *isn't* kimi işlənə bildiyini göstərirlər. [6, s.62-63]

Q.V.Roqova "Methods of Teaching English" kitabında xarici dilin tədrisi metodlarının məktəblərdə və digər tədris müəssisələrində xarici dilin tədrisi ilə bağlı olan elmi cəhətdən yoxlanılmış nəzəriyyənin əsası kimi başa düşüldüyünü qeyd edir. O göstərirdi ki, metodlar əsas üç problemi əhatə edir:"1) xarici dilin tədrisinin məqsədləri 2) tədrisin məzmunu, məsələn; məqsədlərə nail olmaq üçün nəyi öyrətmək lazımdır 3) tədris metodları və üsulları, məsələn; məqsədlərə ən effektiv şəkildə nail olmaq üçün xarici dili hansı yolla öyrətmək lazımdır." Q.V.Roqova yuxarıda qeyd etdiyimiz kitabında, həmçinin, metodların pedaqogika, psixologiya, fiziologiya, dilçilik və digər elm sahələri ilə sıx bağlılığından bəhs etmişdir. Həqiqətən də, xarici dillərin tədrisi metodikası və metodologiyasının bir elm sahəsi kimi inkişafında yuxarıda adı çəkilən elmlərin böyük töhfəsi vardır. . Bundan əlavə, məhşur psixoloqlar Jan Piaje və Lev Vqotski öz yaradıcılıqlarında dilin mənimsənilməsi və öyrənilməsinə dair dəyərli fikirlər səsləndirmişlər. Demək olar ki, bütün həyatını uşaq psixologiyasının öyrənilməsinə həsr etmiş və bu sahədə bir çox kitabların və dəyərli fikirlərin sahibi olan görkəmli psixoloq J.Piaje idraki inkişafın dil öyrənmə qabiliyyətləri də daxil olmaqla dörd mərhələsini qeyd edirdi: 1.*Sensorimotor mərhələ (0-2 yaş).*Bilik və yaxud zəka dil də daxil olmaqla məhdud sayda simvolların istifadə olunduğu fiziki qarşılıqlı əlaqələrə və təcrübəyə əsaslanır. *2.İlkin əməliyyatlar mərhələsi (2-7 yaş).* Zəka getdikcə simvollardan istifadə və dilin inkişafı ilə nümayiş olunur. Bu mərhələdə yaddaşın və təxəyyülün inkişafı qeyd olunur.Bu mərhələdə uşaqlar psixoloji mənada çox eqosentrik olurlar və heç bir şeyə başqa perspektivdən baxa bilmirlər. Həmçinin,onların düşüncəsi məntiqi deyil və onlarda əsaslandırmaq qabiliyyəti olmur.*3.Dəqiq əməliyyatlar mərhələsi (7-11 yaş).*Zəka getdikcə konkret əşyaların məntiqi və mütəşəkkil yollarla əlaqələndirilməsi ilə nümayiş olunur. Uşaqlar induktiv əsaslandırmanı və müəyyən bir təcrübəni götürüb ümumi prinsipə tətbiq etməyi bacarırlar. Bu mərhələdə uşaqlar nisbətən az eqosentrikdirlər və başqasının perspektivini müəyyən edə bilirlər. 4.*Rəsmi əməliyyatlar mərhələsi (11 yaş və üzəri).* Zəka mücərrəd anlayışlara aid olan simvolların məntiqi istifadəsi ilə nümayiş olunur.Yeniyetmələr fərziyyə irəli sürməyə və

həm induktik, həm də deduktiv əsaslandırmadan istifadə etməyə qadirdirlər. Ümumiyyətlə, hər iki görkəmli psixoloqun yaratdığı nəzəriyyələr dil tədrisinin inkişafına dəyərli töhfələr vermişdir. Onların hər ikisinin əsərlərində qarşılıqlı əlaqə (interaksiya) dilin inkişafının əsasında duran vasitələrdən biri kimi qeyd olunur. Xarici dilin tədrisinin ilkin və əsas məqsədi şagirdlərdə eşitmə, nitq, oxu və yazı bacarıqlarının və vərdişlərinin formalaşdırılmasıdır.Biz vərdişlərin və bacarıqların insanlarda necə effektiv şəkildə inkişaf etdirilməsini onun psixologiyasını bilmədən müəyyənləşdirə bilmərik. Psixologiya bizə bu bacarıqların və vərdişlərin necə formalaşdırılması yolları, əvvəldən qazanılmış vərdişin yenisini əldə etməyə necə təsir etdiyi haqda biliklərlə təmin edir.Məsələn, tanınmış Sovet psixoloqu Z.İ.Zinkin nitqin mexanizmləri haqqında araşdırmalarında bu nəticəyə gəlmişdir ki, sözlər və onların birləşdirilməsi qaydaları demək olar ki, əsasən beynin kinetik mərkəzində sönmüş haldadır. Qulaq siqnalı qəbul etdikdə o, beyinə və onun eşitmə mərkəzinə çatır və sonra kinetik mərkəzə keçir. Xarici dilin səmərəli şəkildə öyrənilməsi həm də şagirdlərin yaddaşından asılıdır. Buna görə də müəllim öyrənilən materialı necə müvəffəqiyyətlə əzbərləməyə və yadda saxlamağa kömək etməyi bacarmalıdır. Burada yenə də psixoloji araşdırmalara nəzər salmaq lazımdır. Psixoloji araşdırmalara əsasən insan yaddaşını iki yerə bölmək olar: 1)qisamüddətli yaddaş, 2)uzunmüddətli yaddaş. Ətraf mühitdən daxil olan informasiya duyğu orqanları vasitəsilə qəbul olunur və qısamüddətli yaddaşa keçir. İnformasiya müvəqqəti olaraq, qısamüddətli yaddaşda saxlanılır, informasiyanın saxlanma müddətinin uzunluğu nəzarət prosesindən asılıdır. Nəzarət prosesləri dedikdə informasiyanın məşq, kodlaşdırma, obrazlaşdırma və s. yollarla yaddaşda saxlanılması nəzərdə tutulur.

Ədəbiyyat

1. Schmidt, R. W. 1990. :The role of Consciousness in Second Language Learning", Applied Liguistics, 11, 2, 129-58.
2.Scovel, Thomas 1982. Questions Concerning the Application of Neurolinguistic Research to Second Language Learning/ Teaching TESOL quarterly 16: 323-331.
3. Selinker, L. 1972. "Interlanguage", IRAZ, 10, 219-31.
4. Tannen, D. 1982. "Oral and Literate Strategies in Spoken and Written Narrative", Language, 58, 1,1-21.
5. Taylor, Barry P. 1983. Teaching ESL Incorporating a Communicative Student- Centred Component. TESOL quarterly. 17: 69-88.
6. Ur. P. 1996. A course in Language Teaching Cambridge: Cambridge University: Cambridge University Press.

Ulkar Imanova

On the use of innovative methods in FLT

Summary

The article deals with the **theoretical investigation of** the innovative methods in FLT. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication.

The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system.

The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching speech should be goal-oriented systematic. One of the main goals of language learning is to acquire the ability to communicate effectively.

Улкар Иманова

К вопросу об исползовании инновативные методы на преподавании иностранного языка

Резюме

В данной статье рассматриваются **к вопросу о теоретических исследованиях инновативные методы** на преподавании иностранного языка. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Процесс английскому языку в целом и процесс обучения речи должен базироваться на коммуникативно – функциональном принципе. Обучением устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению еффективности данного процесса. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Rəyçi: **Nuriyyə Əliyeva**
filologiya üzrə fəlsəfə doktoru

NURANƏ ALLAHVERDİYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
nurane.ava93@gmail.com

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ PROSESİNDƏ BACARIQ VƏ VƏRDIŞLƏRİN FORMALAŞDIRILMASININ VƏZİFƏLƏRİ VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər: bilik, bacarıq, vərdiş, metodika, təfəkkür
Ключевые слова: знания, умения, привычку, методика, мышление
Key words: knowledge, abilities, habits, method, thinking

Təhsilin dünya standartları səviyyəsində qurulmasına, dünya təhsil sisteminə inteqrasiya edilməsinə zəmin yaradan tədbirlər kompleksi həyata keçirilmişdir. Buna uyğun olaraq son illər təhsilin məzmununda da ciddi dəyişikliklər baş vermişdir. Belə ki, şagirdləri bilik, bacarıq və vərdişlərlə silahlandırmaqdan, onları həyati baaacarıqlar əldə etməyə- bir sözlə fəal və məhsuldar əməyə hazırlamaq ön plana çəkilmişdir. Hər bir şəxsə davamlı təhsil vermək nəzərdə tutulmuşdur.

Davamlı təhsil odur ki, ilkin mərhələdə qazandığı biliklər ömür boyu davam etsin. Şəxsiyyətyönümlü təhsil isə insana çoxlu biliklər deyil, ən zəruri biliklər və onların əsasında həyati bacarıqlar verməkdən ibarətdir. Bu bacarıqlar elə xarakterdə olmalıdır ki, onlar daim şəxsiyyəti müşayiət etsin, həmişə ona lazım olsun, onun inkişafına təkan versin. (1, s. 5)

"Vərdişlər - praktik bacarıqlardır ki, insan fəaliyyət prosesində onlan qismən avtomatlaşan hərəkətləri ilə iş üsullarını çətinlik çəkmədən, xüsusi iradə səyi və şüurun xüsusi nəzarəti olmadan və tərəddüdsüz yerinə yetirir ".

Bacarıq və vərdişlərin formalaşdırılması üzrə işə başalayarkən onların məzmunun nədən ibarət olduğunu müəyyənləşdirmək lazımdır. Bununla, ilk növbədə, didakt və psixoloqlar məşğul olurlar.

Bacarıq və vərdişlərin formalaşdırılmasına, habelə onların nisbətinə dair iki nöqteyi-nəzər mövcuddur edir. Birinci nöqteyi - nəzər vərdiş - avtomatlaşma dərəcəsinə çatmış bacarıqdır. Bacarıq tədricən vərdişə keçir. Deməli, tədris prosesində eyni zamanda bacarıq və müvafiq vərdiş spesifik növü olan dərsliklə işin təşkili (əsas fikri tutmaq, anlayışların mahiyyətini izah etmək, materialı təhlil etmək və sistemləşdirmək, plan tərtib etmək, sxemləri, diaqramları və digər sxematik materialları oxumaq və s.).

İkinci nöqteyi - nəzər qulaq asmaq yolu ilə mənimsənilən mətnlərlə və audivizual mənbələrlə iş (müəllimin mühazirəsini, şagirdin məruzəsini dinləmək, radio və televiziya vasitəsilə ötürülən informasiyanı mənimsəmək və s.).

Digər nöqteyi - nəzər (Y.N.Kabanova - Mellerə məxsusudur), bacarığı fəaliyyət üsulu haqqında biliklərə sahib olmaq, vərdişin ilkin formalaşma mərhələsi kimi müəyyənləşdirir. Hər iki fikir nöqtəsi bacarıq və vərdişlər arasında nisbət məsələsində və onların şagirdlərin inkişafında rolunun qiymətləndirilməsində fərqlənirlər.

Didaktika və psixologiya elmində şagirdlərin əsas bacarıq və vərdişlərinin bir neçə təsnifatı vardır.

Şagirdlərin ümumi tədris bacarıq və vərdişlərinin inkişafına dair tövsiyələr də hazırlanmışdır. Burada bacarıq və vərdişlərin seçim meyarı kimi şagirdlərin müstəqil tədris, əmək və ictimai fəaliyyətə hazırlığında həmin vərdiş və bacarıqların əhəmiyyəti qəbul edilmişdir. Bütün tədris bacarıq və vərdişləri üç qrupda ümumiləşdirilib. (3, s. 89)

1. Tədris əməyinin təşkili (iş yerinin hazırlanması, əqli əmək gigiyenasına əməl olunması) və tədris fəaliyyətinin strukturuna sahib olma. Dərs tapşırıqlarının dərk edilməsi, müstəqil işlərin qoyuluşu kimi şagirdlərdə bacarıqların formalaşdırılmasına, habelə tapşırığın yerinə yetirilməsinin planlaşdırılması.

2. Kitabla və tədris xarakterli informasiyanın digər mənbələri ilə iş (oxuma prosesinə, yəni məzmununa görə müxtəlif olan mətnlərin oxunulması.

3. Şagirdlərin şifahi və yazılı nitq mədəniyyətinin xarakteristikası (müxtəlif xarakterli suallara cavab vermək, mətni yenidən danışmaq, materialı əlaqəli şəkildə şərh etmək, məlumata rəy bildirmək və s.)

Beləliklə, şagirdlər təlim prosesində sadəcə öyrənmir, öyrənə-öyrənə inkişaf edirlər. Həmin prosesin son nəticəsində mədəniyyətə (hissi, ünsiyyət, kommunikativ, əxlaqi, iradi, milli-mənəvi, dünyəvi), dəyərlərə malik şəxsiyyət kimi formalaşır.

Hisslər mədəniyyəti, ünsiyyət mədəniyyəti, kommunikativ mədəniyyət, əxlaqi mədəniyyət, iradi mədəniyyət, milli-mənəvi mədəniyyət, dünyəvi mədəniyyət- "Üç tərkibli" taksonomiyanın "Mədəniyyət" səviyyəsini təşkil edir.

Təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi olan şagird nailiyyətlərinin qiymətləndirilməsi məhz "Mədəniyyət" səviyyəsini təşkil edən dəyərlərə istinad edir. Qiymətləndirmə Milli Kurrikulumun tərkib hissəsidir. Bu o deməkdir ki, "Üç tərkibli taksonomiya" Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyasının da elmi-psxoloji əsasını təşkil edir.

Şagirdlərin təlim boyu düşünmə bacarıqlarının inkişaf etdirilməsi müəllimin qarşısında duran ən mühüm məsələlərdən biri, bəlkə də birincisidir. Artıq insanın yalnız yadda saxlamaq funksiyası tələblərə cavab

vermir, müasir cəmiyyət əldə edilmiş informasiyanı istehsal və istifadə edən insan tələb edir.

Biliklər və bacarıqlar arasında qarşılıqlı rabitə və asılılıq mövcuddur. İnsanm əqli fəaliyyətinin şüurlu xarakteri onda təşəkkül tapan biliklərin sistemi ilə müəyyən edilir. Bilik həmişə bacarıq və vərdişlərin müəyyən sisteminə, istinad edir və öz növbəsində yeni bacarıq və vərdişlərin yaranması üçün baza olur. Təlimin hər bir rabitəliliyi şagirdlərin əqli kamilliyinin dərəcəsini müəyyən edir. (4, s. 353-354)

Şagirdlərin bacarıq və vərdişlərini təşəkkül etdirmək işinin müvəffəqiyyəti bir çox şərtlərdən asılıdır. Ana dili müəllimi birinci növbədə aşkar etməlidir ki, o, bu və ya digər sinifdə əvvəllər təşəkkül tapmış bilik və bacarıqların hansı dairəsinə istinad edə bilər, ayrı-ayrı şagirdlərdə hansı bacarıqlar zəif - inkişaf etmişdir və yaxud heç yoxdur. Sonralar bunun əsasında müxtəlif şagirdlər qrupuna ayrı-ayrı məktəblilərə diferensial yanaşma üsulu qurulur.

Müəllim iş prosesində şagirdlər, tərəfindən əldə edilmiş bilik və bacarıqların səviyyəsini daim yoxlayır və nəzərə alır. O, şagirdlərə məlumat verir ki, onlar bu istiqamətdə nəyə nail olublar, bundan sonra nə üzərində iş aparmalıdırlar və işin hər bir mərhələsində onların qarşısında konkret vəzifələr qoyur.

Yadda saxlamaq lazımdır ki, eyni yaşdan və sinifdən olan şagirdlər üçün bacarıqların inkişaf səviyyəsi müxtəlifdir. Bu səviyyə həm şagirdlərin ümumi əqli inkişafından, həm də onların müəyyən istiqamətdəki təxmini hazırlığından və məşqindən asılıdır.

Ədəbiyyat

1. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı. “Maarif” 1989, 623 s.
2. Veysova Z. Fəal (interaktiv) təlim. müəllimlər üçün vəsait. Bakı, “UNICEF”, 2007, 149 s.
3. Xəlilov S.S. Orta təhsilin məqsədi və məzmunu haqqında. Bakı, “Azərbaycan Universiteti”, 2004, 650 s.
4. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. “Pedaqogika”. Bakı, “Nurlan”, 2004,432 s.
5. Xəlilov S. Təhsil sistemi: nəzəriyyə və praktika. Azərbaycan universiteti nəşriyyatı, 1999, 170 s əh.

N.Allahverdiyeva

Teaching language skills and habits in the process of formation of the objectives and importance

Summary

Students success depends on many conditions of work for the development of skills and habits.

Language teacher in the first place, he should discover this and other classes in the generated knowledge and skills in students the skills they developed or not, referring to what the county could be some weak - what previously would.

Later on this basis differential approach of some students of different students group is based. Taxonomy is a Greek word (taxus - placement with rule + romos - law) .

The taxonomy of educational objectives allows to plan the learning process at the scientific - methodological level and measure its outcome.

The contents of the new subject curriculum for history subjects prepared for secondary schools are summarized as standards.

Each standard consists of knowledge and action in exchange for itself: the student knows what he is and shows how he knows.

The knowledge and activities of the standards themselves are also grouped into groups..

Н.Алланвердиева

В учебном процессе формирования задачи значение и умений и навыков родного языка

Резюме

Успех зависит от условий для становления школьников навыки работы много.

Учитель язык, в первую очередь, должен выявить, какие ссылки на отдельные у школьников навыки слабо развиты или нет ни каких - может, установившиеся знаний и навыков в той или иной если бы он раньше в классе.

Впоследствии его ученики в отдельных строится на основе различных дифференциальных подход к школьникам.

Таксономия - это греческое слово (taxus - placement with rule + romos - law).

Таксономия образовательных целей позволяет планировать процесс обучения на научно-методологическом уровне и измерять его результат.

Содержание новой предметной учебной программы для предметов истории, подготовленных для средних школ, обобщается как стандарты. Каждый стандарт состоит из знаний и действий в обмен на себя: студент знает, что он собой представляет и показывает, как он знает.

Знания и действия самих стандартов также группируются в группы.

Rəyçi: Məhərrəm Hüseynov
filologiya üzrə fəlsəfə doktoru, dosent

RƏHİLƏ MƏMMƏDOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
rehilememmedova53@gmail.com

FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN ANA DİLİNƏ TƏRCÜMƏSİNDƏ SPESEFİK HALLAR

Keywords: language system, grammar, semantic, connection, transform,
Açarsözlər: frazeologiya, dil sistemi, semantik, dil strukturu, əlagə, yarımsistem
Ключевые слова: фразеология, языки, переводы, синонимы, фразеологические единицы.

Dil sistemində frazeoloji transformasiyalarınç vahidlərin rolu hər bir dilin frazeologiyası, bu dilə məxsus grammatik və semantik cəhətlərə malik olmagla bütövlükdə dil sistemindən kənarda mövcud ola bilmir.Frazeloji vahidlərlə dilin sistemi arasında əlagə mütləgdir, cünki bu vahidlər dilin leksik sisteminin bir hissəsidir, onun yarımsistemlərindən birini təşkil edir.Tərcümə zamanı dilin sistemi dedikdə, ilk növbədə dilin guruluşu yada düşür, çünki“sistem(sistema)yaxın mənalı sinonim sözlərdir və bu terminlər bütün məgamlarda uygun gəlməsədə, çox vaxt bir-birini əvəz edir.Diln sistemi, strukturu dedikdə geyd etmək lazımdır ki dil öz hissələri ilə vahid bir bütöv tam təşkil edən daxili səligə --- səhmana malikdir. Dilin frazeoloji sistemi kategoriya və yarusları birləşdirən vahidlərdən ibarətdir;dilin guruluşunu isə yaruslar və dil vahidləri arasında münasibətlər yaradır..Buradan belə nəticə çıxarmag olar ki “dil sistemi “ termini daha geniş mənaya malikdir.Dilin guruluşu isə dil sisteminin əlamətlərindən biridir.Təxminən eyni gənaətə A. A. Axundovun “Ümumi dilçilik”kitabında da rast gəlirik. ”Dil sisteminin frazeoloji transformasiyası” deyərkən bu dil vahidlərinin bir - biri ilə gırılmaz əlagədə yaratdıgları mütəşəkkil vahid bir bütöv dil guruluşu adı altında isə həmin vahidlərin garşılıglı əlagələrinin toplusunu başa düşürük. Dil sistemində frazeoloji transformasiyanın sisteminin təşkili fikrini hələ Fe. de Sösssür irəli sürmüş, sonralar bu postulatı bir sıra görkəmli dilçi alimlər V. A. Tsveginsev. G. R. Melnikov, V. M. Solutsev, L. N. Sumarokova və başgaları sübut etməyə nail olmuşlar. Bir halda ki dil sistemdir, başga sözlə desək, dil sisteminin müxtəlif cinsli dil vahidlərinin (elementlərinin) möhkəmlənməsinin məcmusudur deməli, dil sisteminin özü də yarımsistemlərə(elementlərə) bölünür və bu yarımsistemlərin hər biri iyerarxiya prinsipinə görə müstəgil sistem kimi də gəbul edilə bilər. Dilçilikdə belə yarımsistemlərə “dil səviyyələri”yaxud “dil yarusları” deyilir. Elmi ədəbiyyatda dilin fonetik-fonoloji, sintaktik və leksik –grammatik bölmələri kimi götürülür. Şübhəsiz ki dil sistemində hər bir yarusun

və bu yarusa mənsub “dil yarusları” deyilir. Elmi ədəbiyyatda dilin fonetik- fonoloji, morfem-morfoloji, sintaktik və leksik, leksik-grammatik bölmələri kimi götürülür. Şübhəsiz ki dil sistemində hər bir yarusun və bu yarusa mənsub dil vahidlərinin özünəməxsus cəhətləri –yeri vardır. Frazeoloji transformasiya dil sistemnin həm grammatik modellərin strukturu, həm də leksik material baxımından müəyyən ganunauygunluglar üzərində gurulmuşdur. Ganunauygunlugların frazeoloji vahidlərə necə təsir etdiyi və bu vahidlərin həmən sistemə necə uygynlaşması məsələsi meydana çıxır. Frazeoloji vahidlərin dilin sistemi ilə əlagələndirilməsi üçün bu kategoriyaların garşılıglı aspektlərini dəgigləşdirmək zərurəti yaranır. Hahidlərіər bir sabit söz birləşməsi dil sistemində öz paradigmatik cəhətlərindən kənarda, yəni, frazeoloji korpusun nominativ vahidləri kimi giymətləndirilir . Hər bir frazeoloji vahid fərdi yaranir və bu şəkildə dilin frazeoloji tərkibinə daxil olur. Fərdi vahidlərdən yaranan frazeoloji tərkiblər müəyyən ümumi cəhətlər gazanır və bu cəhətlər də həmin dilin sistemində onların yarımsistem kimi gəbul olunmasını şərtləndirir.

Dilin transformasiyasında frazeoloji vahidlər onun əsas cəhətlərini və xüsusiyyətlərini özündə ehtiva edir. Əgər dildə isimlərin hallanması varsa, frazeoloji tərkibdə də müxtəlif hallarda işlənmiş isimlər iştirak edir.

Hər hansı bir dildə artikl mövcuddursa bu element frazeoloji birləşmələrin formalaşdırılmasında iştirak edir. Hər bir dilin frazeoloji vahidi bu dilin sistemindən asılı olmayarag digər dillərə məxsus ümumi cəhətlərə malik ola bilərmi?

Belə xüsusiyyətlər istənilən gədərdir və bu birləşmələrin tərkibindəki sözlərin

Geyri-müstəgil xarakterdə olması onlarda daxili dəyişmə imklarını məhdudlaşdırır. Bütün dillərdə geyri-müstəgil vahidlər dilin leksik və grammatik guruluşunda müəyyən seçim gabiliyyəti üçün şərait yaradır ki, bu da kəmiyyət səciyyəsini müəyyənləşdirir. Bu isə frazeoloji transformasiya zamanı frazeoloji terminlərin, vahidlərin formalaşmasında az əhəmiyyətli deyildirşƏgər dilin bütünlükdə lügət tərkibi ilə frazeoloji vahidlərdə iştirak edən sözlərinin kəmiyyətini mügayisə etsək, aydın olur ki frazeoloji transformasiyalar, ana dilinə tərcümədə hər bir istənilən söz frazeoloji birləşmədə iştirak edə bilmir. Başga bir cəhət də diggəti cəlb edir ki, frazeoloji tərkib, xüsusi “inventarına”, yəni ona daxil olan sözlərə hec də həməşə eyni münasibətdə olmur. Bəzi sözlər bir sıra sabit birləşmələrintərkibindəiştirakedir (məsələn, somatizmlər, zoometoforizmlər, botasemizmlər, müəyyən grup fellər və. s.). digərləri isə bir və yaxud iki birləşmədə çıxış edə bilir. Bir çox frazeoloji vahidlər az saylı sözlər vasitəsi ilə formalaşır.

Dil sisteminin kəmiyyət səciyyəsi özünü daha çox frazeoloji vahidlərdəəks etdirir. Əlavə edək ki bir çox hallarda, sözlərin işləkliyi müxtəlif dillər

üçün eyni deyil. Bu isə həmən dil sistemlərinin özünəməxsuslugu ilə əlagədardır. Analitik dillərdə belə fellərin iştirakı azalır, onların işlənmə tezliyi isə çoxalır. Frazeoloji transformasiya zamanı frazeoloji vahidlərin formalaşdırılmasında iki-üç fel iştirak edir. Bu xüsusiyyətlər ondan irəli gəlir ki, frazeoloji yarımsistem dilin özünə məxsuslugunu göstərən sahələrdəndir. Istənilən dilin frazeoloji vahidlərinə nəzər salsag, aydın olur ki, frazeologizmlərin əksəryyəti sərbəst söz olur ki, strukturuna görə eyni olan frazeoloji vahidlər on, yüz, hətta min vahidlərdən ibarət sıra (fel+isim +fel+sözönü+isim v. s.) yaradır. Bu seriyaların mövcudlugu təsadüfi fakt deyildir və dilin strukturundan asılıdır. Dilin grammatik sistemi nə gədər mürəkkəbdirsə onda o gədər sərbəst və həmdə sabit sözbirləşmələri sistemi mövcuddur. Məsələn Azərbaycan və rus dillərində məhz ismin halının mövcudlugu hal kategoriyası olmayan dillərdən altı dəfə çox birləşmə formalaşmasına şərait yarada bilir. Dilin transformasiyasında ana dilindən fərgli olarag dilin frazeoloji tərkibi dil sisteminin xüsusiyyətlərinə uygun olmagla, eyni zamanda müxtəlif dillərdə və müxtəlif aspektlərdən bu xüsusiyyətləri geyri-adekvat əks etdirir.

Dünya dillərinin bir çoxu frazeologiyada sözdüzəlmə tiplərindən istifadədə yüksək dərəcədə seçim imkanlarına malikdir. Sərbəst sözbirləşməsində geniş yayılmış sözdüzəldici elementlər iştirak edir və onlar sabit birləşmələrin yaranmasında eyni dərəcədə iştirak etmir. Digər tərəfdən bir sıra dillərdə yalnız frazeoloji vahidlərdə istifadə olunan müəyyən morfoloji strukturlar mövcuddur.

Bir cox şəkilçilər özlərinin ekspressivliyi, yaxud başga səbəbdən yalnız frazeloji vahidlərin yaranmasında iştirak edir və onlara sərbəst söz birləşmələrində rast gəlmirik. Bu birləşmələrin ana dilinə tərcüməsində, frazeoloji yarımsistemlərdən, dilin sisteminin xüsusiyyətlərinin reallaşmasının özünəməxsuslugu başga bir cəhətlə də meydana çıxır. Sabit söz birləşmələrinin grammatik strukturu dil sistemindən müxtəlif şəkildə yayınmalar və arxaizmlərlə səciyyələnir. Lakin bu zaman ayrı-ayrı, tək-tək frazeologizmlərə aid olsa da bu dil hadisəsi bir sıra hallarda müəyyən frazeologizmlər grupunda da müşahidə olunur. Transformasiyanın mahiyyətini başa düşmək üçün F. Palmerə müraciət edək:Biz cümlədəki münasibətlər hsggında ümymi fikir irli sürə bilərik. Fəal cümlənin passiv cümləyə cevrilməsinə dair fikir söyləyə bilərik və isimlərin

Eyni zamanda ismi söyləmin yerini dəyişib “by” sözü əlavə etməklə ony ikinci cümləyə --- passivə çevirə bilərik və eyni zamanda feli aktivdən passivə çevirə bilərik. N. Xomski bunu “transformasiya “adlandırır. ”syntaktic, structure “-s-də o aktiv –passive münasibətlərini belə şərh edir.

Sintaksisin əsas vəzifəsini leksemlərin ilkin sintaktik səviyyədə işlənməsinin Aşkar olunmasını və ilkin işlənmənin ikinciyə uygunlugunu müəyyənləşdirməkdə Frazeoloji birləşmələrin transformasional grammatikası çox önəmlidir. Bu kimi uygunlugların müəyyənləşməsi ümymi sintaksisin əsası hesab edilir.

Ədəbiyyat:

1. Rayxşteyn A. D. Alman və Azərbaycan frazeologiyasının müqayisəli analizi.
M, . B. Ş. 1980.
2. Alexina . A. İ. Frazeoloji sistemlərin təhlili, Frazeoloji vahidlər. çMinsk, 1979, 30
3. Apnold İ. V. İngilis dilinin leksikologiyası, Mockva 1986
4. Gurbanov A. M. Müasir Azərbaycan ədəbi dili. 1şs2003.
5. Dolgopolov Y. A. Frazeologiyanın müqayisəli təhlili. AKD, Kazan 2011.
6. Ojegova S. İ. Frazeologiyanın guruluşu haggında. M. 1974.

R.Memmedova

Specific ways of trnslation phraseological combinations into Azerbaijani

Summary

Containing word combinations from one of the important types of phraseological units in the Modern Azerbaijan language is very interesting and skilfull very responsible thing. Azerbaijan language in this case, with these word combinations and phraseological words keeps their various ancient meanings. In such kind of word combinations ancient word combinations and phraseological units play an active role and in most cases they impact on the content of the phraseological composition seriously. These units are continuously used in the structure of forming new word combinations with their new meanings. The next following units are observed from the ancient form of word combinations and they are known as phraseological combinations. We can classify their form containing phraseological units.

1. To loose one"s head, nine days wonder. . . one over the eight. . . .
2. Two or more words containing phrseological units;one over the eight. . . 3. Phraseological units formed by the repetition of the numerals.

Р.Мамедова

Особые пути перевода фразеологических единиц на радной язык

Резюме

Основной вид фразеологических единиц, использующиеся в современном Азербайджанском языке составляют словосочетания имеющие в своем составе различные корни и значение . Это и имена числительные. Они играют активную роль в таких словосочетаниях и во многих случаях оказывают серьезные влияние на содержание фразеологического состава. Большинство этих словосочетаний используются в составе фразеологических единиц. Эти слова большинство показывают себя в составе устойчивых словосочетаний.

В Азербайджанском языке они выступают в составе фразеологических единиц, выступают в разных положениях и различной производительностью. Есть такие фразеологические словосочетании повторяется и имеет разные значения.

Rəyçi: Sevil Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ЛАЛА МАМЕДОВА
Азербайджанский Государственный
Экономический Университет(UNEC)
lalamamedova15@mail.ru

ИЗУЧЕНИЕ ТЕРМИНОЛОГИЧЕСКОЙ ЛЕКСИКИ НА МАТЕРИАЛЕ ТЕКСТОВ ПО СПЕЦИАЛЬНОСТИ

Milli kurikulumla bağlı təlim prosesində dinləyib-anlama və danışma bacarıqlarının inkişafı ana dili təliminin qarşısında duran əsas amildir. Belə ki, anlama söylənilən nitqdə fakt və hadisələrə diqqətlə yanaşmaq, aydın olmayan fikirləri sualların köməyi ilə bərpa edib yadda saxlamağa və onların mahiyyətini anlayıb yenidən canlandırmağa səbəb olur. Danışma bacarıqları isə nitqin ifadə formasının, lazımi söz və ifadələrin düzgün seçimi, fikrin ardıcıllığı və məntiqiliyi, mimika və jestlərdən məqamında istifadə etməyə, nitq etiketlərinin gözlənilməsi kimi qabiliyyətlərə əsaslanır. Odur ki, təlim prosesində müəllim bu məsələləri şagirdlərə praktik yolla mənimsətməli və onlarda dilmizin gözəlliyi və təravətinə məhəbbət yaratmalıdır. Təlim prosesində müxtəlif mövzularla bağlı tədqiqatların təşkili zamanı qrup liderləri söyləyəcəyi fikri məzmunlu, əhatəli şəkildə yoldaşlarına, eləcə də onu dinləyənlərə çatdırmaq üçün cəlbedici formada əlavə mənbələrdən, kütləvi informasiya vasitələrindən istifadə etməli, müzakirə zamanı qaldırılan məsələlərə fərqli mövqedən yanaşıb danışmalıdır. Bu da ana dili təliminin nəticəyönümlü olmasını göstərən amildir. Dil təliminin əsas məzmun xətlərindən biri oxudur. Onun vasitəsilə şagirdlər sözə həssas münasibət bəsləyir, onun məna çalarlarını duyur, tanış olmayan sözlərin mənasını öyrənir, oxuyub öyrəndiyi mətnin məqsəd və məzmununu, üslubunu, tərkib hissələrini anlayır. Lakin ibtidai siniflərdə bu iş bir qədər zəif olur. Şagirdlərin bir qismi düzgün, sürətli, şüurlu oxuya nail ola bimir. Bu da mənimsəməni zəiflədir, təlimdə ləngiməyə səbəb olur. Yuxarı siniflərdə isə ədəbiyyat dərsləri ilə Azərbaycan dili təliminin inteqrativ əlaqəsi bu geriliyi aradan qaldırır. Eləcə də müxtəlif üsullarda yazılmış rabitəli mətinlər, orada verilmiş çoxmənalı söz və ifadələr, həqiqi və məcazi mənalı sözlər, müxtəlif terminlər, omonim, sinonim, antonimlər, linqvistik məlumatlar, müxtəlif növ təhlillər və onların tətbiqinə yönəlmiş çalışmalar şagirdlərin lüğət ehtiyatının zənginləşməsini təmin edir. Bütün bunlarla yanaşı şagridlərin böyük bir qisminin gördüklərini, eşitdiklərini, müşahidə etdiklərini və düşündüklərini aydın, sadə bir dildə rabitəli mətn formasında yazıya ala bilməmələri bizi ciddi düşündürməli, təlimdə buraxılan mövcud nöqsanları aradan qaldırmağa çalışmalıyıq. Bundan əlavə şagirdlər yuxarı siniflərə qalxdıqca onların yaşlarına və sinfin səviyyəsinə uyğun ərizə, məktub, tərcümeyi-hal, xasiyyətnamə, elan, izahat, arayış, protokol, teleqram, hesabat, akt, rəy, məruzə, referat və digər əməli yazı nümunələri yazmağı öyrətməliyik. Axı bunlar da şagirdlərin mühakimə yürütmək və təfəkkür qabiliyyətini formalaşdırmağa xidmət edir. Bütün bunlarla yanaşı, müasir təlim prosesində dil qaydalarının öyrədilməsi məsələsi də öndə durur. Şagirdlər ən zəruri fonetik, leksik, morfoloji və sintaktik anlayışları fərqləndirib mahiyyətini dərk etməli, sözün məna çalarlarını, yaranma formasını, qrammatik

xüsusiyyətlərini şərh etməli, müxtəlif konstruksiyalı cümlələri tanımağı və onlardan məqsədyönlü istifadə etməyi, yazıda durğu işarələrinə əməl etməyi, nitqin düzgünlüyü və ifadəliliyinə diqqət yetirməlidirlər. Belə olduqda şagirdlərin məntiqi təfəkkürü inkişaf edər və elmi dünyagörüşləri formalaşar. Axı müasir təhsilimiz məntiqi təfəkkürə, şagird və müəllim yaradıcılığına üstün yer verir, təlimdə uğurlu nəticələr əldə etməyə yol açır. Bu işdə əsas aparıcı qüvvə öz üzərində metodik baxımdan hərtərəfli işləyən müəllim və təlimdə uğurlu nəticələr əldə etməyə səy edən şagird və tələbələrdir.

Ədəbiyyat

1. Ağayev Əjdər "Təlim prosesi: ənənə və müasirlik" Bakı-2006.
2. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2003
3. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. Bakı, 2016
4. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı, Adiloğlu, 2000
5. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı, 2008
6. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. II hissə. Bakı, 2013
7. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı, Kövsər nəşriyyatı, 2011
8. Kərimov Y.Ş. Təlim metodları. Bakı, 2009
9. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı-2008.
10. Nəbiyeva Ş. Ana dili tədrisi metodikasının aktual problemləri. Bakı, 2010
11. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı, Elm və təhsil, 2002
12. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları). Təhsil qanunvericiliyinə dair normativ – hüquqi sənədlər toplusu. II cild. Bakı, Şərq-Qərb, 2012
13. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, Təhsil, 2008

М.Гасымов

К Главному Профессиональному Совету

Резюме

В статье рассматриваются научные и политические перспективы сегодняшнего дня и завтра азербайджанского образования и определение стратегии развития общества. Регулярно обсуждается программа

Национальной реформы учебного курса 2008-2009 учебного года. Подчеркивается вопрос о современных педагогических и психологических исследованиях, внедрении новых достижений и методологии преподавания науки. Цели и задачи обучения родному языку и способы использования эффективных технологий обучения. Традиционное программное обеспечение анализирует аналогичные и отличительные особенности нового учебного программного обеспечения и учебников. Принимаются во внимание формирование речевой культуры студентов, умение судить, логическое мышление, критическое мышление и творческое мышление. Современный урок, обучение, реализация, разработка и т. Д. функции описаны. В процессе активного обучения существуют различные типы тестов и считывателей карт, самостоятельная работа, их анализ и оценка. Он также фокусируется на интеграции преподавания языка, ключевых линий содержания, стандартов, связанных с учебными темами, обогащения различных типов словарей и словарного запаса.

M.Gasimov

To the main educational professional council

Summary

The article deals with the scientific and political perspectives on the present day and tomorrow of Azerbaijani education and the definition of the development strategy of the society. The program of the National Curriculum Reform 2008-2009 academic year is being discussed on a regular basis. The issue of modern pedagogical and psychological research, the introduction of new achievements and methodology of teaching science is highlighted. The goals and objectives of the mother tongue teaching, and the ways in which effective learning technologies are used. Traditional software analyzes similar and distinctive features of new training software and textbooks. The formation of students' speech culture, ability to judge, logical thinking, critical thinking, and creative thinking are taken into account. Modern Lesson, Teaching, Implementing, Developing, etc. functions are described. In the active learning process, there are various types of test and card readers, independent work, their analysis and evaluation. It also focuses on the integration of language teaching, key content lines, standards related to teaching topics, enrichment of different types of vocabulary and vocabulary.

Rəyçi: Yadulla Dadaşlı
filologiya üzrə fəlsəfə doktoru

NEMƏT QASIMOV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı
nemet.qasimov.91@mail.ru

MÜASİR TƏHSİLDƏ İNFORMASİYA TEXNOLOGİYALARININ ROLU

Açar sözlər: ənənəvi təhsil, ənənəvi və müasir dərs, görkəmli psixoloq, yeni texnologiya, informatika.
Ключевые слова: традиционное образование, традиционный и современный урок, выдающийся психолог, новые технологии, информатика
Key words: traditional education, traditional and modern lesson, outstanding psychologist, new technology, informatics.

Təhsil dövlətin ən vacib məsələlərindən biridir.Odur ki, bu işdə həmişə diqqət və qayğı göstərilir. Onun inkişafı, qarşısında duran mühüm vəzifələr Azərbaycanın elm, sənət adamlarını daim düşündürmüşdür.Bu barədə görkəmli dövlət xadimləri, yaradıcı ziyalılar,naşirlər əllərindən gələn köməyi əsirgəməmişlər.Xalqın savadlanması üçün məktəblər açmış,dərslik və proqramlar tərtib etmiş,millətin tərəqqisi üçün müxtəlif qəzet və jurnallar nəşr etdirmişlər.Eləcə də pedaqoqlar və psixoloqlar təhsil barədə öz fikir və mülahizələrini bildirmiş,ona aid maraqlı məqalə vəəsərlər yazmışlar.Bu mənada görkəmli pedaqoq və əməkdar elm xadimi, professor Əbdül Əlizadə yazmış olduğu məqalə və dərsliklər təhsilimizin inkişafında önəm daşıyır. Azərbaycan məktəbi və təhsilinin qarşısında duran həlli vacib məsələlərə işıq saçırlır, təlim-tərbiyə, pedaqoji təfəkkür, müasir dərs, pedaqoji-psixoloji keyfiyyət və s. kimi məsələlərin şərhi maraq doğurur və bunlar təhsil işində müəllimə yeni-yeni yaradıcılıq yolları aşılayır.

Bildiyimiz kimi bu gün ənənəvi dərslə müasir dərs qarşı-qarşıya qoyulur.Ənənəvi dərsin uzun bir tarixi yol keçdiyi, eyni metod və üsulla tədris işinin aparıldığı göstərilir. Müasir dərsin üstünlüklərindən söz açılır.-Burada şagird sərbəstliyinə,onun yaradıcılıq qabliyyətinə, mühakiməsinə, səs-küylü keçərək şagirdlərin öz fikirlərini əsaslandıraraq söyləmələrinə şərait yaradır. Buna görədə müasir dərs hazırda insanlarda istedadlılığa, yaradıcılığa daha çox dəyər verən XXI əsrdə təhsil sistemində bu keyfiyyətlərin əsas götürülməsi vacib sayılır.Onda sual oluna bilər ki, bu günkü "**müasir dərs**" anlayışı necə başa düşülməlidir? Onun mahiyyətini necə izah etmək olar?

Azərbaycanın görkəmli psixoloqu Əbdül Əlizadə yeni pedaqoji təfəkkürlə bağlı psixopedaqoji araşdırmalarında bu məsələyə münasibət

bildirmiş və qeyd etmişdir ki, "müasir dərs" pedaqoji (psixoloji) elmlərin ən yeni uğurlarına söykənməlidir" Odur ki, ölkəmizin təhsil siyasətində təfəkkür, düşüncə, intellekt məktəbinin yaradılması prioritet istiqamətlərdən biridir. Bu mənada müəllim, ilk növbədə, tədqiqatçılığa başladığı zaman fəaliyyətini dərsdəki yaradıcı, işgüzar işilə başa vurmalıdır. Müasir dərs fenomeninin yaranmasında müasir müəllim özünün əvəzsiz fəaliyyətini göstərməli olacaq. Müasir dərsin mühüm keyfiyyətlərindən biri onun yeni düşüncə, yeni pedaqoji təfəkkürün məhsulu kimi meydana çıxmasıdır. Bu isə onu deməyə əsas verir ki, dərsə, köhnə ənənəyə sadiq qalaraq şablonçuluqla yanaşmaq təhsilin müasir ölçülərinə ziddir. Axı müasir dərs konkret vaxt çərçivəsini söküb dağıdır. Dərs təşkilat forması olmaqla, bütün zamanlarda özünün aparıcı xüsusiyyət çəkisini saxlayır. Müasir Azərbaycan məktəbində təhsil işi dəyişdikcə öyrənmənin əsas xarakteri də dəyişir. Başqa sözlə desək, dərs demokratik xarakter alır.[1] Bu zaman uşaqlar özlərinin potensial yaradıcı, axtarış qüvvələrindən istifadə imkanları əldə edirlər. Beləliklə, təlim prosesində interaktiv şəraitin yaranması baş verir.

Müasir dövr informasiyalar bolluğu ilə müşayiət olunduğundan belə bir mühitdə dərs özünün öyrədici xarakteri ilə üstün keyfiyyətlər qazanmalı, təlim alanların marağına səbəb olmalıdır. Xüsusən, ümumtəhsil məktəblərində qurulan dərslər istər məzmun, istərsə də texnoloji cəhətdən şagirdlərin diqqətini cəlb etməlidir. Lakin cəmiyyət özünün inkişaf tendensiyalarında yorucu texnoloji standartlaşmalardan qaçmağı tələb edir. Müasir dərsin mühüm xüsusiyyəti onun problem xarakteri daşıması və didaktik vəzifənin həllinə məharətlə yanaşılmasından irəli gəlir. Onu həll etmək üçün müxtəlif növ iş formaları və üsullarından istifadə edilir. Beləliklə, dərsdə problemlərin həll olunması hər hansı didaktik vəzifənin yerinə yetirilməsi kimi başa düşülür. İllər boyu insanların birgə oxuma, öyrənmə missiyası fərdi təhsilin davamı kimi həmişə aktual olub. Belə dərslərdə müəllim və şagirdlərin əməkdaşlığı müasir öyrənmə prosesinin texnologiyasına çevrilir və xarakterini dəyişib inkişafyönümlü bir mexanizmə çevrilir. Dərsin inkişafetdirici prinsip əsasında qurulması diqqət mərkəzində saxlanılmalı və valideynlərin pedaqoji prosesə cəlb olunmalıdır. Bu da özlüyündə müəyyən problemin həlli üçün vahidlik tələb edir.Eləcə də **summativ qiymətləndirmə** dərslərinin olması da yeni dərsin tiplərindən biri kimi dəyərləndirilməlidir. Doğrudur, hazırda fəal-interaktiv dərslərin məzmun və strukturundan danışılır. Onun standart tələblər kimi qəbul olunmasına çalışırlar. Ona görə də problemin həllinə yönəlmiş hər hansı dərs nümunəsində müəllimin yaradıcı fəaliyyət göstərməsi, öz işini planlaşdırması zəruri hesab edilir, tədqiqatçılıq bacarığına malik olması vacib sayılır. Dərs planı mühüm sənədidir. Onu müəllim hazırlayır. Dərsin planının hazırlanması vacib mərhələdir. Onun həm müəllimin inkişaf etməsi, həm də təlim prosesinin

idarə olunması baxımından əhəmiyyəti vardır. Xüsusilə müasir nəticəyönümlü təhsil sisteminin qurulduğu hazırkı şəraitdə dərs planı daha konkret və aydın şəkildə tərtib olunmalıdır. Orada reallaşdırılan standartlar, dərsin məqsədi, vəzifələri, mənbələr, dərs prosesinin mərhələləri müasir zamanın tələbləri baxımından verilməlidir. Bu zaman şagirdlərin həddindən artıq yüklənməsi yol verilməməlidir. Müasir dərsdə konkret vəzifələrin müəyyənləşdirilməsi, qiymətləndirmənin təşkili, müxtəlif dərs tiplərinin planlaşdırılması və s. kimi cəhətlərə, tədqiqatların aparılmasına, əldə olunan nəticələrin obyektiv müzakirəsinə yer verilməlidir. Bunun üçün bizdən yüksək təfəkkür, yaradıcılıq məharəti və elmi mühakimə tələb olunur. Təhsil prosesində beyni həddindən artıq gərəksiz biliklə yükləmək sərbəst düşüncəyə ən böyük zərbədir.[2] Müasir təhsildə düşünmək, mühakimə yürütmək, informasiya mənbələrindən səmərəli istifadə etmək və öz fikirlərini müstəqil surətdə şərh etmək qabiliyyəti formalaşdırılır.Müasir təhsilin məqsədi bilikləri şagirdlərə hazır şəkildə vermək yox, onları şəxsi düşüncələrinin məhsuluna çevirmək və sonrakı müstəqil düşüncələr üçün əsas yaratmaqdır. Bu məqsədlə müəllimin özü yaradıcı təfəkkürə malik olmalıdır. Ancaq sərbəst mühakimə, yaradıcı təfəkkürlə möhkəmləndirilmiş biliklər konkret situasiyaya uyğunlaşmaqla tətbiq oluna bilər. O, siyasi və elmi münasibətlərin fövqündə dayanan reallıq və günün vacib tələbidir. Şəxsiyyətə yanaşmada tarixi-psixoloji yanaşma əsas götürülməlidir.[3] Hazırda ölkəmizdə təhsil islahatı uğurla həyata keçirilir. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması, cəmiyyət üçün inkişaf etmiş, beynəlxalq standartlara cavab verə biləcək şəxsiyyətin formalaşdırılması mədəni inkişafın əsasını təşkil edir. Bu şəxsiyyəti yetişdirmək üçün ailə ilə yanaşı, müəllimlərin də üzərinə böyük məsuliyyət düşür. Bu gün texniki tərəqqi dövründə yeni təhsil islahatından, Milli kurikulum və fəal təlimin üsul və vasitələrindən xəbərdar olan, İKT- dən istifadə etməklə dərslərini yüksək səviyyədə quran müəllimlərə ehtiyac duyulur.Təcrübə göstərir ki, uzun illər ənənəvi yollarla dərs keçən müəllimlər yeniliklərlə işləməyə maraqlı deyillər. Lakin pedaqoji biliyini artırmağa, interaktiv üsullarla fəal dərslərə ustünlük verən müəllimlərimiz çoxdur. Keçirilən tədbirlər, dərslər və müşahidələrdən məlumdur ki, pedaqoji texnologiyaların tətbiqi ilə əlaqədar metodiki vəsaitlərə, dərsliklərə ciddi ehtiyac var. Bu "Müasir təlim texnologiyaları" adlı dərsliyin böyük rolu var. Bu günki müəllimlərimiz müasir dərsin təşkilinə verilən tələbləri, yeni pedaqoji texnologiyaları, fəal təlimin mexanizmini və mərhələlərini, metodlarını, inteqrasiyanı, öyrədici mühiti, fasilitasiya qaydalarını, monitorinq və qiymətləndirmə kimi məsələləri mükəmməl bilməli və ona yaradıcı münasibət bəsləməlidir. Qloballaşan dünyada təhsil prosesinin durmadan inkişafı, müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, yenidən qurulması vacib şərtdir. Odur ki, yeni pedaqoji texnologiyalara, fəal təlim metodlarına

istinad etmək və milli təhsil sistemimizin dünya təhsil sisteminə inteqrasiya olunmasına nail olmalıyıq. Hər hansı yeni bir məsələnin, mahiyyətini doğru-düzgün başa düşmək və müasir mövqedən onu şərh etmək üçün ən əvvəl onun mənşəyinə, lüğəti mənasına diqqət yetirilməlidir. Bildiyimiz kimi pedaqoji texnologiya təlim prosesinə yeni baxışdır. Buna görə təlim prosesi ənənəvi təlimdən fərqli olaraq maksimum idarə olunan proses olmalıdır. Alimlər gələcəkdə müəllim və məktəbin köməyi olmadan öyrədici (təlim edici) sistemlərdən müstəqil istifadə olunacağını proqnozlaşdırırlar. Hazırda tədris prosesinin optimallaşdırılması üçün bir neçə texnologiyanı eyni zamanda tətbiq etmək mümkündür. Pedaqoji prosesin və şəxsiyyətyönümlü inkişafın təmin olunmasında çox böyük əhəmiyyət kəsb edən həmin imkanlar həyatiliyi, müasir mövqeyi ilə diqqəti cəlb edir. Çünki, şəxsiyyətin hərtərəfli, inkişafını təmin edən əlverişli şəraitin yaradılması təlim prosesinin optimallaşmasına, qazanılan biliklərin, anlayışların şüurluluğuna, əhatəliliyinə yeni təlim metodlarının meydana çıxmasına və tətbiqinə səbəb olur. Lakin bunlara uyğun yanaşma tərzlərini, vasitə və yolları müəyyənləşdirmədən yeni təlim texnologiyalarını mükəmməl mənimsəmək, bu istiqamətdə qarşıda duran vəzifələri uğurla həyata keçirmək mümkün deyil. Təhsil prosesində şagirdlərin əldə etdikləri bilik, bacarıq və vərdişlər həm fənlərin, həm də onların əhatə etdikləri mövzuların əlaqəli – inteqrativ şəkildə tədrisini tələb edir. Bu məqsədlə də təlim prosesində motivasiyanın yaradılması, fəallığın artırılması, məzmunun hərtərəfli aşılanması və şagirdlərdə müasir dünyagörüşün formalaşdırılmasında inteqrasiyaediciliyin rolu danılmazdir. Hazırda təhsilin təşkili formaları, məzmunu, təlimin metod və vasitələri, qiymətləndirmə, pedoqoji prosesi idarəetmə və digər məsələlərə elmi və praktik olaraq yenidən baxılır, milli və dünya təcrübəsi dəyərləri nəzərdən keçirilir. Hazırda pedaqogika elmində təlimin fəal metodları, metod və texnologiyalar, keyfiyyətin qiymətləndirilməsi, işgüzar səs-küy, inteqrasiya, mübahisə, tənqidi təfəkkürün inkişaf etdirilməsi və digər anlayışlar işlədilir. Müasir təlim texnologiyası öyrətmə və öyrənmə fəaliyyətinin təşkilində, pedaqoji prosesin gedişində, yeniləşdirmədə, qiymətləndirmədə və s. təlim xarakterli işlərdə nəzərə alınan, istifadə olunan iş, forma, üsul və tərzlərin kompleks və əlaqəli həyata keçirilməsidir. Belə üsullar biliklərin müstəqil mənimsənilməsi və yeniliklərin kəşf edilməsi, qazanılmış biliklərin yaradıcılıqla yenidən işlənməsi, təcrübədə onlardan istifadə edilməsi, problemi həll etmək üçün yoldaşları ilə əməkdaşlıq etməyi bacarmaq və s. kimi keyfiyyətlərin əldə edilməsinə şərait yaradır.Bu işdə daha çox İKT-nin köməyindən istifadə edilir. Təlimin texniki vasitələri şagirdlərə informasiyaları çatdırmaqda, bilikləri dərk etməkdə, yadda saxlamaqda, tətbiq edilməsində və təlimin nəticələrinin dəqiqləşdirilməsində istifadə olunan qurğulardır. İKT şagirdlərin istifadə etdiyi resursların çeşidini

zənginləşdirməklə yanaşı onlara yaşadıqları dünyanı dərk etməkdə köməklik edir. Müəllimlər məqsəd və şəraitə, fənnə, mövzuya, şagirdlərin təcrübə və bilik səviyyəsinə görə bütün təlim modellərindən, müxtəlif metod və texnologiyalarından istifadə etməlidirlər. Əsas məsələ odur ki, təlim uşaqları inkişaf etdirsin, onların düşünmək, müstəqil fikir söyləmək, biliklərini tətbiq edə bilmək bacarıqlarını yaxşılaşdırsın. Onlarda ünsiyyət, anlaşma mədəniyyəti, öz problemlərini həll etmək qabiliyyəti formalaşdırsın. Təlim prosesində şagirdin mövqeyi kəşf edən, müəllimin mövqeyi isə bələdçi, aparıcı olmaqdır. O, sistemli, ardıcıl və məqsədyönlü şəkildə şagirdlərlə əməkdaşlıq edir, problemli vəziyyəti təşkil edir, tədqiqat məsələlərinin qoyuluşunda və həlli prosesində şagirdlərə istiqamət verir. Müasir müəllim öz ixtisasının müxtəlif sahələrini və tədris etdiyi fənnə aid bütün yenilikləri, onun perspektiv imkanlarını mükəmməl bilməlidir. Çünki o, dərs prosesində hər bir uşağı görür, onun potensial imkanlarından səmərəli istifadə edir.Qarşılıqlı inam və etibar əsasında canlı ünsiyyəti yaradır. Bu gün yaxşı fənn müəllimi olmaq üçün yeni informasiya texnologiyalarını bilmək; şagirdləri müstəqil yaradıcılıq bacarıqlarına, öz fikirlərini elmi və informasiya baxımından inamla söyləmələrinə nail olmaq lazımdır.[4] Son illərdə respublikamızda çox müəllim fəal təlim üsulu ilə tanış olmuş, müxtəlif treninqlərdə iştirak etmiş, fəal dərslərin hazırlanması, planlaşdırılması və həyata keçirilməsi üçün vacib olan təcrübə toplamış, lazımi bilik, bacarıq və vərdişlər qazanmışdır. Fəal (interaktiv) dərs müəllimin çəkdiyi zəhmətin, yaradıcı axtarışın nəticəsini müəyyən edir. Bu gün təhsil müəssisələrində müasir təlim metodları və yeni pedaqoji texnologiyaların tətbiqi müəllim tərəfindən təlim prosesində uğurla həyata keçirilir. Şagird və tələbələrin çalışqanlığını artırır, tədqiqat apararaq elmlərin əsaslarına sərbəst yiyələnirlər. səbəb olur. Fəal təlim metodlarının əsas məqsədi şagird və tələbələri müasir həyata hazırlamaq, müstəqil düşunmək, sərbəst fikir və rəy söyləmək, qərar qəbul etmək, tənqidi təfəkkürü formalaşdırmaq, onlarda cəmiyyətimizin demokratikləşdirilməsi işində fəal iştirak etməyə lazım olan keyfiyyət və bacarıqları inkişaf etdirir. Təlimlə tərbiyənin vəhdəti də müasir dərsin qarşısında qoyulmuş mühüm tələbdir.[5] Dərs şagirdlərin mənəvi inkişafina, əxlaqca təkmilləşməsinə xidmət göstərməlidir. Təlimin şagirdyönümlü olması müəllimi dərsə daha ciddi, yaradıcı hazırlaşmağa və planlaşdırma aparmasına sövq edir.Bu zaman motivasiya və tədqiqat sualını hazırlayır. Bunun nəticəsində şagird və tələbəyə həm mövzu, həm də tədqiq edəcəyi sual aydın olur. Bu sual dərsin digər mərhələləri üçün sütun olmalı, mövzunun bünövrəsi olmalıdır. Tədqiqat zamanı paylanan materialın dolğunluğu, düzgünlüyü və yığcamlığı şagird və tələbələrin vaxtında nəticə çıxarmasına səbəb olur. İşçi vərəqlərində verilmiş suallar tətbiqetmə zamanı onların yaradıcılığını üzə

çıxarmağa şərait yaradır. Müəllim şagirdə şəxsiyyət kimi yanaşmalıdır.Təlim zamanı uşağın özünün müstəqil fəaliyyəti və ya böyüklərin köməyi sayəsində bilik və bacarıqları əldə etməlidir.İnkişafedici təlim, ilk növbədə, təfəkkürü və yaradıcılığı formalaşdırır. Əgər şagird təlim prosesində müəllimlə bərabərhüqüqlu şəxs kimi çıxış edərsə, bu onun fəaliyyətində yeni bir keyfiyyət yaradır: şagirdin özünə inamı artır, o, öz fikrini çatdırmağa qorxmur. Bildiyimiz kimi müasir təhsil islahatinin əsas prinsipləri demokratikləşdirmə, humanistləşdirmə, differensiallaşdirma, fərdiləşdirmə, inteqrasiya, humanitarlaşdirma, informasiya texnologiyalarının təhsil sahəsində tətbiqi və s.kimi məsələlərə önəm verir.Təhsil sisteminin və mədəniyyətin inkişafında onlar mərkəzi yer tutur. Informasiya texnologiyalarının təhsilə tətbiqi onların düzgün seçilməsini tələb edir. Hal–hazırda cəmiyyət qarşısında bir məsələ durur kompyuterin təhsil sistemində düzgün, optimal və ziyansız istifadəsi. Kompyuter texnologiyalı təlim informatika prinsiplərinə əsaslanan və kompyuterlə reallaşan təlimdir. Hazırda təhsil sistemi bir çox informasiya texnologiyalarını birləşdirir.Bunlara kompyuter şəbəkələri, noutbuklar, interaktiv sinif lövhələri, planşet kompyuterlər, cib cihazları, internet və s. aiddir. Kompyuter-sadəcə olaraq elektron dərslik deyil. Bu, dərs, sorğu, arayış, məlumat, ədəbiyyatların, müxtəlif bilik sahələri üzrə verilənlər bazası, iş dəftərlərini özündə birləşdirən bir çantadır. Kompyuter təhsilin keyfiyyətini yüksəltməyə və materialın mənimsəmə sürətini artırmağa, həmçinin kollektiv iş və münasibət üçün yaxşı mühitdir.[6] Bildiyimiz kimi “2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması” üzrə Dövlət Proqramı çərçivəsində ölkəmizdə təhsil şəbəkəsi yaradılır. Müəllim təlim-tərbiyə prosesində şagirdin mənafeyini, arzu və istəklərini, bacarıq və qabiliyyətlərini nəzərə almalı, ona müasir cəmiyyətdə öz yerini tapmaqda yardımçı olmalı, şagirdlərə hazır resept vermədən bilikləri, həyati bacarıqları sərbəst əldə etməyin yollarını öyrətməlidir. Bildiyimiz kimi,fənn kurikulumları o, nəticəyönümlü xarakterə malikdir, inteqrativ və qabaqlayıcı xarakter daşıyır. Bu xüsusiyyət onu əvvəlki proqramlardan kəskin şəkildə fərqləndirir.Təlim prosesinin humanistləşdirilməsi, fənlərarası və fəndaxili inteqrasiya üstün yer verilir. Fənlərarası əlaqələr müxtəlif dərslərdə təkrara yol vermir və materialın əlavə vaxt itirmədən şagirdlər tərəfindən öyrənilməsinə, sistemləşdirilməsinə və gündəlik həyatda istifadəsinə stimul yaradır.Nəticədə şagirdlər kompyuterlərdən bir resurs vasitəsi kimi, öz anlayışlarını inkişaf etdirir. Bu mənada ümumtəhsil məktəblərində tədris olunan fənlərlə yanaşı **informatika fənnin** qarşısında mühüm vəzifələr durur.Biz çalışmalıyıq ki, şagirdlərin elmi dünyagörüşlərini və təfəkkür qabliyyətlərini inkişaf etdirməklə,onları vətənimiz üçün bir qurucu kimi yetişdirək.Bundan ötrü təlim prosesində qoyulan problemlərin açılmasına, dərsin motivasiya hissəsinin canlı və işgüzar şəraitdə qurulmasına həssas

yanaşmalı, yeni keçiləcək mövzunun adını şagirdlərdən almalı, onların fikir və mülahizələrinə qayğı və diqqətlə yanaşmalıyıq. Axı müasir təhsil şagirdlərin yaradıcılığının, sərbəst mühakimə yürütmələrinə, öz fikirlərini inamla, doğru və dürüst şəkildə söyləmələrinə şərait yaradır. Bəli, XXI əsrin müasir təhsil prosesi biz informatika müəllimlərindən şagird yaradıcılığına və təfəkkürünün inkişafına hərtərəfli qayğı göstərmək, onların bu sahədə yeni-yeni uğurlar əldə etmələrinə şərait yaratmağı tələb edir.

Ədəbiyyat

1. Ə.Ə.Əlizadə "Yeni pedaqoji təfəkkür",Bakı, "Adiloğlu" , 2000.
2.Ə.Ə.Əlizadə "Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş", Bakı,2008.
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə., Psixologiya., "Çinar-Çap", Bakı, 2006.
4. xalqqazeti.com.
5.Ağayev Ə.A. Təlim prosesi: ənənə və müasirlik. "Adiloğlu" Bakı,2006.
6.Kurikulum islahatı: tədqiqatlar,nəticələr. "Mütərcim", Bakı, 2011.

Немат Гасымов

Роль информационных технологий в современном образовании

Резюме

В статье говорится, что образование является одной из важнейших проблем государства, заботы и внимания к этой работе. Его развитие, важные задачи, стоящие перед государством, всегда отражаются в состоянии науки и искусства Азербайджана. Примечательно, что видные государственные деятели, творческие интеллектуалы и издатели не пропустили свою помощь. Им говорят открывать школы для обучения людей, выпускать учебники и программы, публиковать различные газеты и журналы. Важно, чтобы статьи и учебники, написанные видным педагогом и заслуженным ученым, профессором Абдул-Ализаде, фокусировались на развитии нашего образования, проблемах, стоящих перед азербайджанской школой и образованием. Обучение, педагогическое мышление, современный урок, требования к нему, преднамеренная и междисциплинарная интеграция, оценка и т. Д. Представляет интерес интерпретация вопросов. Традиционный урок - это сравнение современных уроков и преимуществ современного урока. Обучение посвящено использованию различных методов, методов и форм, развитию ИКТ, преподавателей, студентов и родителей. Он

фокусируется на информационных технологиях в обучении, стимулировании педагогической деятельности учителя и роли, которую учащиеся играют в развитии своего логического мышления.

Nemat Gasimov

The Role of Information Technology in Modern Education

Summary

The article states that education is one of the most important issues of the state, care and attention to this work. Its development, the important tasks facing the state, are always reflected in the state of science and art of Azerbaijan. It is noteworthy that prominent statesmen, creative intellectuals, and publishers do not miss their help. They are told to open schools for the education of the people, to produce textbooks and programs, to publish various newspapers and magazines. It is important that articles and textbooks written by prominent educator and honored scientist, Professor Abdul-Alizadeh, focus on the development of our education, the issues facing Azerbaijan's school and education. Training, pedagogical thinking, modern lesson, requirements to it, intentional and interdisciplinary integration, assessment and so on. The interpretation of issues is of interest. The traditional lesson is a comparison of contemporary lessons and the advantages of the modern lesson are discussed. The training deals with the use of different methods, methods and forms, ICT, teacher, student and parent collaboration. It focuses on information technology in teaching, stimulating the teacher's pedagogical activity, and the role that students play in developing their logical thinking.

Rəyçi: Yadulla Dadaşlı
filologiya üzrə fəlsəfə doktoru

ƏDƏBİYYATŞÜNASLIQ

TƏRLAN NOVRUZOV
Filologiya üzrə elmlər doktoru, pofessor
ADPU
tarlan@mail.ru

M.F.AXUNDZADƏNİN MAARİFÇİ-DEMOKRATİK ŞEİR SAHƏSİNDƏ FƏALİYYƏTİ

Açar sözlər: M.F.Axundzadə, maarifçi-demokratik şeirlər, ədəbi tənqid, maarifçi-realist, poetik əsərlər, Azərbaycan maarifçilik
Key words: M.F.Axundzade, enlightenment-democratic poems, literary criticism, enlightenment-realist, poetic works, Azerbaijani enlightenment
Ключевые слова: М.Ф.Ахундов, просветительско-демократические стихи, литературная критика, просветитель-реалист, поэтические произведения, азербайджанское просвещение

M.F.Axundzadənin Azərbaycan ədəbi, ictimai-fəlsəfə və siyasi fikrində görkəmli mütəfəkkir, realist nəsrin, ədəbi tənqidin, maarifçi-realist dramaturgiyanın və publisistikanın banisi olması yaxşı məlumdur. Bu sahələrdə geniş tədqiqatlar aparılmış, onun maarifçiliyinin əsas yönləri əhatəli surətdə öyrənilmişdir.

Ədəbi-bədii irsi ilə bağlı görkəmli tədqiqatçıların (F.Köçərli, F.Qasımzadə, M.Rəfili, Ə.Şərif, N.Məmmədov, X.Məmmədov, M.Cəfər, Ə.Mirəhmədov və b.) xidmətləri olsa da, düşünürük ki, bu irsin tədqiqi yetərincə deyil. Fikrimizcə, bu ədəbi irsin həm janr, həm ideya və forma, həm də ümumən maarifçi şeirin ümumi xüsusiyyətləri baxımından izah və şərhinə ehtiyyac vardır.

Məlumdur ki, mənzum hekayələri də nəzərə alsaq, M.F.Axundzadənin poetik əsərlərinin sayı 30-dan artıqdır. Bunlar arasında Azərbaycan və fars dillərində, müxtəlif vəzn və bəhrlərdə əsərlər vardır.

Ədib həm ərəb, fars və türk dillərində yazılmış klassik ədəbiyyata, həm də xalq ədəbiyyatına dərindən bələd idi. Fars və Azərbaycan dillərində yazdığı şeirlər göstərir ki, şair hər iki dildə parlaq qələm sahibi olmuşdur. Əlbəttə, o, istəsəydi ədəbiyyat tarixində bir şair kimi də qala bilərdi. Lakin onun planları o qədər geniş, o qədər əlvan idi ki, o, diqqətini yeni janrlara, yeni ədəbi növlərə yönəltdi.

M.F.Axundzadənin ədəbi-poetik irsi qəsidə və mədhiyələrdən, lirik qoşma və gəraylılardan, satirik və əxlaqi didaktik şeirlərdən, mənzum məktublardan, ithaf xarakterli şeirlərdən ibarətdir.

Görkəmli ədibin üçcildliyinə giriş yazan N.Məmmədovun flkrincə «Mirzə Fətəlinin bir şair kimi təbii istedadı, incə zövqü, həqiqi şeirin mahiyyəti, tələb və vəzifələri, ictimai tərbiyəvi yolu, emosional təsir qüvvəsi barədə düzgün, mükəmməl təsəvvürü vardır» (1, 12).

İlk şeiri sayılan «Zəmanədən şikayət»də M.F.Axundzadə öz şəxsi gənclik duyğu və düşüncələrini əks etdirmişdir. «Şikayətnamə» xarakterli bu əsər şairin öz həyatından, bir maarifçi kimi insanlardan, yəni öz millətindən, baş verən ədalətsizliklərdən, savadsızlıqdan şikayət etsə də, tezliklə onun həyatına görkəmli bir insanın, şair və alimin, yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik bir ziyalının daxil olması onun əxlaqında təbəddülatlar yaradır, bədii yaradıcılığını da bədbinlikdən nikbinliyə tərəf dəyişir.

Sırf avtobioqrafik xarakter daşıyan bu şeirdə müəllif yeni-yeni alışdığı Tiflis mühitini, işsiz olarkən özünü duyğu və düşüncələrini, himayədarı sifətində rastlaşdığı görkəmli alim və şair, Tiflis canişininin dəftərxanasında mühüm vəzifə tutan Abbasqulu ağa Bakıxanovu vəsf etmişdir. Eyni zamanda müəllifin, onu Şərqin görkəmli şairlərindən - Rumidən, Şəms Təbrizidən, İbn Sinadan yüksək qiymətləndirməsi təqdirəlayiqdir.

M.F.Axundzadənin dövrü Azərbaycanda yeni estetik meyillərin meydana çıxması, yeni münasibətlərin yaranması, sözün əsil mənasında maarifçilik dövrüdür. Azərbaycan maarifçiliyinə tədqiqat həsr edən prof. Ənvər Əhmədov öz kitabında ilk Azərbaycan maarifçilərinin görüşlərindən bəhs edərkən yazırdı: «Azərbaycan maarifçiliyi tarixi inkşafın izahına qəzavü-qədər kimi deyil, insanların öz əməllərindən doğan proses kimi, onların öz ehtiyaclarından, ehtiraslarından, maraqlarından doğan hərəkətlər kimi yanaşırdı. Onlar insanın dünyada ictimai və tarixi təyinatını yaxşı başa düşürlər» (2,135).

Məlumdur ki, Avropada maarifçilik dövrü XVIII əsrə, Yaxın və Orta Şərqdə isə XIX əsrə təsadüf etmişdir. Təbii ki, Azərbaycan ədəbiyyatında həmin mərhələ XIX əsrdə keçmişdir. XIX əsr xalqımızm həyatında bir sıra ictimai-siyasi dəyişikliklərlə əlamətdardır. Ən fəlakətlisi o olub ki, Azərbaycan 1828-ci ildən Rusiya ilə İran arasında bölünmüş, xalqın taleyində, iqtisadi və mənəvi həyatında müəyyən geriləmələr, tənəzzül və ətalət müşahidə olunmuşdur. Buna baxmayaraq Şimali Azərbaycanda Rusiya vasitəsilə müəyyən pozitiv dəyişikliklər baş verir, kapitalist münasibətləri inkişaf edir, cənubda isə feodal münasibətləri uzun müddət qalır.

Azərbaycan mədəniyyətində, o cümlədən poeziyasında da maarifçilik meyilləri, realist tendensiyalar özünə yer tutmağa başlayır. Ədəbiyyatda lirika ilə yanaşı satira, yeni ədəbi növlər və janrlar, yeni məzmunlu ədəbi əsərlər (povest, komediya və s.) vətəndaşlıq hüququ qazanır.

Çoxjanrlılıq ümumiyyətlə maarifçi realist ədəbiyyatm bir növ tələbindən irəli gəlirdi. Avropa və rus maarifçiləri də real həyatm təsviri üçün həm nəsrdən, həm şeirdən, həm də dram janrından istifadə edirdilər. Onlar cəhaləti, avamlığı, savadsızlığı, digər mənfi halları ifşa edərkən bir zərurət kimi müxtəlif janrlara müraciət edirdilər.

Prof. Y.Qarayev «Realizm: sənət və həqiqət» kitabında Azərbaycan maarifçi realizminin inkişafı haqqında geniş söz açır, bu xarakter xüsusiyyətlərindən danışarkən yazır: «Realizmin klassik ədəbiyyatımızda keçirdiyi ən böyük dövr - «maarifçi realizm» dövrüdür. Orta əsrlərin romantikasına məxsus gözəllik və qəhrəmanlığın təbliğini burada əqlin və maarifin təbii üsulu əvəz edir. Burada da rasionalizm və didaktika, açıq publisist tendensiya hələ geniş yer tutur» (3, 59).

Bir qayda olaraq tədqiqtçılar Axundzadənin maarifçi realizmini onun poeziyasma deyil, daha çox nəsrinə, tənqidinə, ictimai-fəlsəfi publisistikasına, dramaturgiyasına və əlifba islahatlarına aid edirlər. Lakin etiraf etmək lazımdır ki, onun əksər şeir və poemalarında məhz maarifçi realizmin təzahür və əlamətləri aydın sezilir. Elə yuxarıda nəzərdən keçirdiyimiz «Zəmanədən şikayət» şeiri buna parlaq nümunədir.

Dövrdən, zəmanədən şikayət əslində maarifçi şeirin əsas mövzularından biri idi. Dövrün tənqidi «təkcə bu şeirdə deyil, müəllifin «Şərq poeması»nda, Zakirə və Cəfərqulu xana məktublarında, Əbdürrəsul xana və Molla Əliyə yazılmış həcvlərində və s. şeirlərdə özünü göstərməkdədir.

Birinci şeir kimi fars dilində qələmə alınmış Puşkinin ölümünə «Şərq poeması» 1937-ci ilin əvvəlində, A.S.Puşkinin ölümündən az sonra yazılmışdır. Zəmanədən şikayət motivləri bu şeirdə də davam etdirilir.

Bizim axırımız da bəllidir bu gün
Bu vəfasız dövrana yoxdur etibar
Ağılsız o quş ki, tordan çıxarkən
Danə üçün yenə olur tora giriflar.

Bir maarifçi kimi M.F.Axundzadə poemasında ağıla, zəkaya, müasir düşüncə tərzinə yüksək qiymət vermişdir.

Puşkinin ölümü münasibətilə «Şərq poeması» adından göründüyü kimi, görkəmli rus şairi A.S.Puşkinin ölümünə mərsiyə, ağı kimi qələmə alınmışdır. Şeirdə iki ovqatın təzadı yaradılmışdır. Məlumdur ki, Puşkinin ölümü haqqında ölüm xəbəri yazqabağı, fevralın sonu və ya martın əvvəllərində Tiflisə gəlib çatmışdır. Şeir (poema) bir tərəfdən yazın gəlişi ilə əlaqədar təbiətin dirçəliçini, digər tərəfdən A. Puşkinin ölümü ilə bağlı qara xəbəri və bu xəbərin doğurduğu təəssüratı qarşılaşdırır.

Mikayıl Rəfili özünün «Mirzə Fətəli Axundov» monoqrafiyasında yazırdı: «Matəm qəsidəsi»ndə yazın nəşəli motivləri dərin kədərlə əvəz olunur. Həyat şairə ilk gözlənilməz zərbə vurmuşdur; onun sevdiyi adam, dahiyanə poetik misraları Fətəlidə azadlığa, həqiqətə meyl oyadan adam məhv olmuşdur. Axundova görə, Puşkin poeziyasının zirvəsi, dünya şöhrətli sənətkar, işıqlı zəka, çox ağıllı və istedadlı insan idi» (4, 51).

Ola bilsin ki, M.F.Axundzadə A.S.Puşkinə qarşı Peterburqda törədilən sıxma-boğmadan, təzyiqlərdən, Dantesin bu işdə yalnız icraçı olduğundan xəbərdar idi. Puşkinin ölümü tək Rusiyanın paytaxtında deyil, dünyanın bir çox yerlərində etiraz və qəzəb hissi yaratmışdır. M.Y.Lermontov və b. şairlər Puşkinin ölümünə şeirlər həsr etmişdilər. Əlbəttə, belə bir gərgin anda Rusiyanın Qafqaz canişinliyində çalışan gənc bir qeyri-rus ziyalısının Puşkinin ölümünə şeir həsr etməsi üstəlik onun qatillərini lənətləməsi elə də asan məsələ deyildi.

Rusiya dad-fəqan ilə sual etdi yenə
«Nə üçün bu quldur əlindən bu təbiət də sənə
Bir xilaskar ana qəlbilə aman vermədi ah!»
Dostumuz getdi o dünyaya, kömək et Allah!
Get, əziz şairim, ey dərdə salan dünyanı
Sənə gül göndərəcək «Bağçasaray fontanı»

1911-ci ildə M.F.Axundzadənin 100 illik yubileyi Bakıda, Tiflisdə və s. yerlərdə təntənəli surətdə qeyd edildi. Ədib haqqında ilk məqalələr məhz bu vaxt yazılmış, onun Azərbaycan ədəbiyyatı tarixində oynamış olduğu görkəmli rol açıqlanmamışdı. Mirzə Fətəli haqqında məqalə yazanlar arasmda Firudin bəy Köçərli, Ə.Topçubaşov, N.Nərimoanov, C.Məmmədquluzadə və b. Görkəmli müəlliflər də var idi. Onun şeir yaradıcılığına diqqət çəkənlər arasmda Firudin bəy Köçərli öz yazılarında və kitablarında Zakirin M.F.Axundzadəyə mənzum kitablarından söz açdığı kimi M.F.Axundzadənin Zakirə yazdığı şeirlərindən də bəhs etmişdir.

1911-ci ildə F.Köçərlinin Tiflis Mətbəəsində çap etdirdiyi «Mirzə Fətəli Axundov» kitabçası ədib haqqında ilk kitab idi. Kitabda Mirzə Fətəlinin həyatı və yaradıcılığı əhatəli nəzərdən keçirilmiş, yuxarıda qeyd etdiyimiz kimi, Zakirin və Mirzə Fətəlinin poetik mükaliməsindən nümunələr təqdim edilmişdir. «Maraqlı cəhət orasıdır ki, M.F.Axundzadənin şeirləri vəzn, sadəlik, yumor və didaktika baxımmdan Zakirin şeirlərinə bənzəyir. Bu yaxınlığı ilk dəfə diqqətlə müşahidə edən F.Köçərli kitabında yazırdı: «Mirzə Fətəlinin bu şeirləri sadə və rəvanlıqda Zakirin kəlamına bənzəyir. Bu şivədə şeir yazmağı, çox ola bilər ki, Mirzeyi-məhrum Zakirdən əxz etmiş olsun» (5, 273). Qasım bəy Zakirə yazılmış ilk şeirdə («Qasım

bəy, eşitdim yaxm olubsan») Zakirin Xurşudbanu Natəvanla münasibətləri ilə bağlı poetik mülahizələr əksini tapır. Məlum olduğu kimi bu zaman Q.Zakir xan qızma maraq göstərmiş, onu hətta müalicə də etmişdir. M.F.Axundzadənin xalq şeiri üslubunda yazdığı şeir Krım müharibəsi (rus-türk müharibəsi) ilə əlaqadar yazılmışdır. Şeirdən məlum olur ki, rus ordusunun yenilməzliyi haqqında təsəvvür M.F.Axundzadənin şeirinə hopmuşdur. Qəribədir ki, müəllif türk qoşunları üzərində qələbələri iftixar hissi ilə qarşılayır, bu müharibədə Qafqazın, o cümlədən Qarabağın igidlərinin iştirakından fərəh hissi keçirir.

Ədibin Rusiya çarı I Nikolayın oğlu II Aleksandrın Qafqaza gəlişi münasibəti ilə yazılmış mədhiyyəsini, eləcə də, kapitan İqranoviç haqqında ithafını da bu konteksdə qiymətləndirmək lazımdır.

Şübhəsiz, M.F.Axundzadə bu qəbilli mədhiyyələri sifarişlə, müəyyən siyasi səbəblər üzündən yazmışdır ki, Osmanlı baş vəziri yeni əlifba layihəsini müdafiə etsin. «Çeşmə kitabı», «Səidə kitab» kimi ithafları sırf didaktik şeirlər kimi qiymətləndirmək mümkündür.

«Yeni əlifba haqqında mənzum ə» M.F.Axundzadənin Türkiyədən qayıtdıqdan sonra qələmə aldığı bir şeirdir. Maarifçi xarakter daşıyan, ilk şeirləri kimi fars dilində yazılmış bu şeir İran şahı Nəsirəddin şaha ünvanlanmışdır. Şeirdə Mirzə Tağı xan Əmir Nizam, Boris Qodunov, I Vilhelm kimi xadimlərin mərkəzləşdirilmiş dövlət uğrunda mübarizəsi, Henri Palmerston, Cüzeppe Haribaldi, Avraam Linkoln kimi xadimlərin islahatçı fəaliyyəti təqdir olunur. Həmin şeirin ümumi məzmunu «Kəmalüddövlə məktubları»nın və ədibin bəzi məqalələrinin ruhu ilə səsləşir.

Özünün əlifba islahatma M.F.Axundzadə «Cəfərqulu xana» şeirində də haqq qazandırır. Çünki Şuşanın dindar ruhanilərinin bir qrupu Axundzadənin əlifba layihəsinə öz etirazlarını bildirmişdi. S.Mümtazın yazdığına görə, Mirzə Fətəlinin yeni əlifbasını Qarabağda ilk dəfə Mirzə Əli qazı, ondan sonra isə Cəfərqulu xan (Nəva) qəbul etmişdir (6, 216). Ümumən mütərəqqi, cəmiyyət üçün xeyirli və lazımlı əməllərin təbliği bir maarifçi kimi M.F.Axundzadə şeirlərindəki əsas ideyalardan biridir.

Mirzə Fətəli öz şeir yaradıcılığında klassik poeziyaya məxsus həcvlərdən də istifadə etmişdir.

«Həcvi Əbdürrəsul xan» (Əbdürrəsul xana həcv) kiçik bir şeirdir. Şeirdən məlum olur ki, Fransaya diplomatik işə yollanan Əbdürrəsul xan adlı birisi Tiflisə gəlir. Məmur mədəniyyətindən uzaq olan bu adam dərhal əyyaşlığa başlayır, Mehmanxanada rəzalət törədir. Hətta təzə tanış olduğu gözəl gürcü qızı da onu lənətləyir, araq düşkünü ayaq yalın, paltarsız şəhərdən qaçmağa məcbur olur. «Molla Əli» adlı şeir məhərrəmlikdə cahil adamlardan dəstə bağlayıb üz-gözünü əzməyə gedən insanları bu yoldan çəkindirir. M.F.Axundzadənin poeziyası onun ümumi yaradıcılığının qiymətli bir

hissəsidir. Bu şeirlər vəznindən, yazıldığı dildən, ünvanmdan asılı olmayaraq təkcə şikayət və etiraz özünü təcəssüm etdirir, təsdiq və tərbiyə ruhu ilə də diqqəti cəlb edir. M.F.Axundzadənin təkcə şeirində deyil, nəəsrində, dramaturgiyasında və publisistikasında da poetik ifadələrə, fiqurlara, bədii suallara və s. rast gəlinir. Kəmalüddövlənin öz dostu Cəlalüddövləyə «məktub»larında satira və kinayə ilə aşılanmış məqamlar çoxdur. Məsələn, M.F.Axundzadə yazır: «Heyf sənə, ey İran, Hanı bu şövkət, hanı bu səadət... Sənin torpağın xarabdır və əhlin nadandır, sivilizasyoni - cahandan bixəbərdir və azadiyyətdən məhrumdur və padşahm despotdur. Və despot zülmünün təsiri ilə üləma fanatizminin zoru sənin zəif və natəvanlığına səbəb olubdur» (1,44). Emosionallıq, publisistik çılğınlıq, obrazlılıq Fətəlinin nəsrində də var. Mirzə Fətəli haqqında məqälə və kitab yazan Ə.Mirəhmədovun bir fıkrini vuruğulamaq istərdik. O yazır ki, «... bədii yaradıcılığında olduğu kimi, fəlsəfi-sosioloji görüşlərində olduğu kimi Axundzadə öz «bədii yaradıcılığında.ş xüsusən şeirlərində də maarifçi demokratdır». Beləliklə, Mirzə Fətəlinin ideya və obrazlar aləmi zəngin və rəngarəngdir. Onun şeirlərinin əksəriyyətində fars dilində yazılmış qədim və zəngin poeziyamızm, eləcə də Vaqif, Zakir kimi görkəmli şairlərin poetik ənənələri özünü təcəssüm etdirir. Reallıq hissi, məhəbbət və gözələ ünvanlanmış hissi-həyəcanlar digər ədəbi növlərdə qələmə aldığı poetik əsərlərdən şeir yaradıcılığına sirayət etmiş, maarifçilik-demokratik motivləri lirikasına keçərək onun nəzm nümunələrinə xüsusi poetik siqlət, ideya istiqamətinə kəskinlik mübariz əhvali-ruhiyyə bəxş etmişdir. Məhz buna görə də M.F.Axundzadənin maarifçi-demokratik şeirləri onun bütöv yaradıcılığının ümumi ruhuna uyğundur.

İstifadə olunmuş ədəbiyyat:

1. Mirzə Fətəli Axundov. Əsərləri, 3cilddə, c. 1, bədii əsərləri. Bakı, 1987. Nadir Məmmədov. «Axundovun həyatı və bədii yaradıcılığı» adlı ön sözü.
2. Mizə Fətəli Axundov. Əsərləri, c. 2. Bakı, Elm, 1988.
3. Э.М. Ахмедов. Философия азербайджанского проспещения. Баку, Азернешр, 1983.
4. Y.Qarayev. Realizm: sənət və həqiqət. Bakı, Elm, 1980.
5. M.Rəfıli. M.F.Axundov, Bakı, Elm, 1990.
6. F.Köçərli. Seçilmiş əsərləri. Bakı, Azərbaycan E.A. nəşriyyatı, 1963.
7. S.Mümtaz. Azərbaycan ədəbiyyatmın qaynaqları. Yazıçı, Bakı, 1986.
8. Ə.Məhərrəmov. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, «Maarif», 1983.
9. Mirzə Fətəli Axundov. A.S.Puşkinin ölümünə Şərq poeması. Azərbaycan, rus və SSRİ xalqlarınm dillərində (Şıxəli Qurbanovun «müqəddiməsi» ilə), Bakı, Elm, 1988

Т.Новрузов

«Поэтическом творчестве просветителя – демократа М.Ф.Ахундова»

Резюме

Великий мыслитель XIX в. основоположник реалистической прозы, критического реализма, просветительско-релизстической драматургии и публицистики М.Ф.Ахундов известен и как автор просветительско-демократических стихов, которые красивы и легко запоминаются. К сожалению эта область его творчества не исследована. Полтора печатных листа посвящены исследованию лирических и сатирических стихов «Сборник алфавита», сборник писем, в особенности «Восточные поэмы» и др. В данном исследовании автор приходит к выводу, что чувство реальности, любви и адресованные любимой чувства наиболее полно выражены в потической поэзии. Просветительско-демократические мотивы, трансформированные из лирики в прозу придали ее идейному содержанию строгость и воинственность.

T.Novruzov

The creativ activity of M.F.Axundzadeh inlighted democratic poetry

Summary

It is widely known that philosopher, realistic prose writer, critique, realist-inlighter M.F.Axundzadeh is the famous XIX c. Azerbaijani literature representative and the founder of dramaturgy and publisistics.

At the same time he was the creator of nice a interesting inlighted democratic poems.That is a pity that this spheare of his creativity was not investigated.That is for the fırst time lirics and satirical verse «About Alphabeth», letters collection, especially «East poems» are analysed and the conclusion is that the sense of reality, losve and emotions reflected in the poetic werks inlighted-democratic motives penetrated his prose too where he demonstreted sharp and struggling emotions.

The article is ful in content and form and may be published.

Rəyçi: Məhərrəm Hüseynov
Filologiya üzrə elmlər doktoru, professor

SONA VƏLİYEVA
filologiya üzrə fəlsəfə doktoru
sona@mail.ru

HÜSEYN CAVİD ROMANTİZMİNİN SƏRKƏRDƏ QƏHRƏMANI – SƏYAVUŞ

Açar sözlər: Səyavuş, tarix, İran, Turan, Türk səkərdə, romantizim, saray.
Ключевые слова: Саявуш, история, Иран, Туран, турок, полководец, романтизм, дворец, предательство.
Keywords: Sayavush, history, Iran, Turan, turks, commander, romanticism, palace, treachery.

Görkəmli şair-dramaturq H.Cavidin yalnız öz dövrü üçün deyil, bütün dövrlər üçün aktual olan məsələlərdən yazdığı əsərləri göstərir ki, görkəmli sənətkar tarixi mövzulara daha çox müraciət etmişdir. Tarixi həqiqətlərə sadiqliyi H.Cavidin bütün yaradıcılığında həmişə əsas xətt kimi qorunub saxlanaraq onun sənətkar şəxsiyyətinə şərəf və ehtiram gətirmişdir. "Səyavuş" əsəri ilk türk tarixinin təməl dəyərlərinin səlcuq imperatorluğuna qədərki dövrünün hadisələrini əks etdirir. "Səyavuş" pyesi bir daha sübut edir ki, H.Cavid hər bir söz, fikir üzərində, hər bir personajın formalaşdırılmasında elə ustalıqla çalışıb, elə ideyaları hədəf götürüb ki, təsadüflər üçün zərrə qədər yer qalmayıb.

Əsərin başlanğıcında "Şarkın böyük dahilərindən Firdevsinin bin yıllığına ithaf" sözləri yazılmış bu pyes Firdovsinin anadan olmasının 1000 illiyi ilə əlaqədar elan olunmuş müsabiqə üçün nəzərdə tutulmuş və H.Cavid həmin müsabiqədə qalib gəlmişdir. Pyesin əvvəlində verilmiş epiqraf da səciyyəvidir: "Başda hekim Firdovsi olaraq şu vakayı tasvir edenler az deyil. Müəllif də yorğun duyğularını dinlətmək üzərə şu mevzuya dokundu və "Şahname"ye yaklaşmak isterken uzaqlaşmış bulundu" (2, s.420). Bu epiqrafın mahiyyəti ondan ibarətdir ki, H.Cavid "Səyavuş" əsərində "Şahnamə"də olduğu kimi xalqların və ölkələrin qarşı-qarşıya qoyulması ideyasının tərəfdarı olmamışdır. Bununla yanaşı mənsub olduğu xalqın tarixinə sədaqət göstərərək türkçülük məfkurəsinə xidməti əsas ideya kimi irəli sürmüşdür. Firdovsinin min illiyinə həsr olunmuş müsabiqənin münsifləri H.Cavid sənətinin möcüzəsinin sehrinə elə uyumuşlar ki, Firdovsidən uzaqlaşaraq tarixi türkçülük məfkurəsini ön plana çəkən sənətkarın başlıca ideya xəttini ya təhlil edib qənaətə gələ bilməmişlər, ya da bunu dillərinə almağa, qələmləri ilə çatdırmağa gücləri, qüdrətləri çatmamışdır.

Tarixi İran-Turan hadisələri inkişafında qarşıdurma yaradan Firdovsi xəttindən yan keçərək H.Cavid türk inkişaf erasının ən parlaq, ən ədalətli, ən

adil hökmdarı Əfrasiyab – Alp Ər Tonqa hakimiyyətini daha qabarıq göstərir. İran hökmdarı Keykavus, cəngavər Zal oğlu Rüstəm, saray ziddiyyətlərinin ehtiraslı kin-ədavət mələkəsi Südabə, azadlıq, qəhrəmanlıq simvolu Səyavuş, vəzir Piran, üsyançı Altay obrazları vasitəsilə H.Cavid öz romantik düşüncəsindən süzülüb gələn tarixi yeni dəyərlərlə birgə bizə çatdırılır. H.Cavid türk tarixinə, türk mifoloji qaynaqlarına, türk ədəbi inkişaf salnaməsinə elə dərindən bələd idi ki, bu mənəvi zənginlik onun əsərlərinin fəlsəfi, tarixi, məfkurəvi təhlilində müəllifi dünyanın ən böyük sənətkarları ilə müqayisədə daha yüksəklərə ucaldırdı.

H.Cavid 624-cü il tarixində baş vermiş hadisələri Firdovsi "Şahnamə"sinə xitabən seçsə də, öz düşüncəsində və yaradıcılığında türkçülük məfkurəsini 1933-cü ilə qədər bir aparıcı ideya kimi sədaqətlə daşıyaraq dövrünün ən cəsarətli sənətkar addımını atmışdı. 1920-ci ildən 13 il keçir və Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycan yenidən bolşevik Rusiyasının işğalı altındadır. Bu zaman türkçülük ideyası zorən sosializm ideyası ilə əvəz edilirdi. Sənətkarlıqda ideoloji xətt sosializm xətti olsa da, "formaca milli, məzmunca sosialist" ədəbiyyatın yaradılması bir prinsip kimi irəli sürülsə də, H.Cavid bu əsərlə nəinki tək Azərbaycanın, eləcə də Rusiya imperiyası daxilində fəaliyyət göstərən bütün türkdilli respublikaların milli yaddaşını daim oyaq qalmağa sövq etdi. H.Cavid "Topal Teymur"da iki türk fatehini səhnəyə çıxararaq onların milli dəyərini özünə qaytarmaqla, "Səyavuş"da Alp Ər Tonqanı, Səyavuşu ucaltmaqla yeni türk erasına xidmətkarlıqdan aldığı tarixi zövqü "Xəyyam"da davam etdirərək bütün dünyaya türkün tarixi kimliyini tanıtdı. Dövrün ictimai-siyasi hadisələrinə münasibətini tarixi həqiqətlər içində elə ustalıqla əridə bildi ki, dövrün tənqidçiləri belə əsas ideyanı təhlil etmək qüdrətində olmadılar. C.Cəfərov yazırdı: ""Səyavuş" əsəri, məncə, əslində xalq draması deyil, bir növ monodramadır, yəni bir şəxsin taleyini təsvir edən əsərdir" (4, s.219).

H.Cavid Firdovsinin qabartdığı, öydüyü Keykavusu əsas ideya kimi qəbul etsəydi, bu əsəri yalnız müsabiqə üçün yazılmış əsər kimi qəbul etmək olardı. Amma müsabiqədə qalib gələn türkçülük məfkurəsinin tarixi ruhu idi, türk ədaləti idi və H.Cavidin məhəbbət, həqiqət axtarışında əqidə dönməzliyi idi. O, tarixi həqiqətləri həm də Tanrı xatirinə həqiqətə çevirirdi. Günahsız, azad fikirli ədalət carçısı, sevgisi üçün vətən, haqq və könül sevdası uğrunda həlak olan sərkərdə Səyavuş türkçülüyün simvolu kimi əsərin əsas qəhrəmanı oldu. N.Atsız: "Ən əski zamana ait türk destanı -"Alp Ər Tonqa destanı" məqaləsində yazır: "Acem şairi Firdevsi, İranın destanı tarihi olan "Şehname" adlı büyük eserini yazarken Afrasiyabdan çok bahsetmiştir. Afrasiyaba ait parçaları yazarken Firdevsi yalnız İranlılar arasındaki rivayetleri değil, Türkler arasındaki rivayetleri de görmüştür. Çünkü Firdevsi, Türk padişahı olan Gazneli Mahmudun sarayında ve bir Türk

muhitinde bulunuyordu. Şehnamede, Türk kahramanlarından bazılarına ait isimlerin halis Türkçe olması da bunu isbat eder. Bununla beraber Alp Er Tungaya ait rivayetler, Türklerle Acemler arasında, hiç şüphesiz, birbirinden farklı şekilde yaşıyordu. Bilhassa Türklere ait isimlerin çoğu İran rivayetlerinde acemleştirildi. Mesela "Alp Er Tunga", Acem rivayetlerinde "Afrâaiyab" olduğu gibi, Alp Er Tunganın kardeşi "Alp Arız"da "Agrıres" olmuştur. Türk rivayetlerinde Alp Er Tunganın kızının adı "Kaz"dır. Acem rivayetlerindeki iki kızının adı ise "Ferengis" ve "Menije"dir. Buna mukabil İran rivayetlerinde, Alp Er Tunganın oğullarından birinin adı "Kara Han", bir kahramanın adı da "Demür"dür, yani halis Türkçe isimlerdir. Asırlarca birbiriyle çarpışmış iki milletin destanlarının da birbirine tesir etmesi gayet tabiidir" (1, s.268).

Mahmud Kaşqarlı «Divani lüğat-it türk» əsərində yazır ki, həqiqətdə Siyavuşun Qəzvində öldürülməsi hadisəsi tarixdə baş vermişdir: "Atəşə tapınanlar hər il bir gün bura gələr, Səyavuşun öldüyü yerin yörəsində ağlarlar, qurban kəsərlər…

…Bu görüşkü tanığı bütün Mavəra ən Nəhrdən, Yenikənddən Doğuya qədər türk ölkəsidir" (8, s.319).

Səyavuş eyni zamanda azad türkün ruhunun ümumiləşmiş obrazıdır. Taxt-tacdan uzaq duran, içi sadə soydaşlarına mərhəmət və sevgiylə dolu, hərbdən başqa heç nə düşünməyən türkün obrazıdır. Onun köydə böyüməsi – çərçivəsiz, azad həyata işarədir. Saraylara sığmamağı təbiidir, at belində yürüşlərdə, qəhrəmanlıqda özünü təsdiq etmək türkün tarixi missiyasıdır. Süd anası ağsaçlı qadının öyüd-nəsihəti tarixi ana öyüdüdür, türkün qadınının, ana obrazının, türk mənəvi əxlaqının, yurd, vətən istək və arzularının təcəssümü kimi səslənir:

Zalimlə mazlumu sakın bir tutma,
Yediyin əkməyi, duzu unutma!
…Biz seni bəslədik, çalış adil ol,
Haydı yavrum, şanlı yol, uğurlu yol (4, s.143)

Səyavuş yüksək əxalqlı, saf və mənəviyyatlı olduğu üçün heç bir saray və qadın iftiralarının alətinə çevrilmir. Südabənin böhtanı aşkarlananda belə onun ölümünə razı olmur, bağışlanmasını atasından xahiş edir.

Səyavuş iki dəfə xəyanətə uğrayır, hətta sonda yenə dayısı Gərşivəzlə birləşən Südabənin birgə xəyanətinin qurbanı olur.

Əsərdə Əfrasiyab – Keykavus, İran – Turan ziddiyyətləri görünsə belə H.Cavid Firdovsi kimi bu ziddiyyətlərin tərəfdarı kimi çıxış etmir. Sərhəd hüdudlarına göndərilən Səyavuş və Rüstəm Zaloğlu sərhədin keçilmədiyini, əksinə yağmalanmış sadə insanların narazılığını görən qəhrəmanların və ağsaqqal vəzir Piranın müdaxiləsi ilə hər iki tərəf arasında barışın əldə olunması hadisələri inkişaf etdirərək əsas ideyanı ortaya çıxarır.

Səyavuşun atası bu barışığa xəyanət adı verir. Mustafa Haqqı Türkəqul "Azərbaycan türk şairi Hüseyn Cavild" əsərində yazır: «Fəqət, bu barış Keykavusu hiç də memnun burakmaz. Onun maksadı en qorxunc rakibi olan Əfrasiyabı ortadan qaldırmaqdır. Bu iştə Çin Hakanı da boyuma İranı kıskırtmaqdadır. Her ikisinin de niyyetleri müşterek duşmanları olan Əfrasiyabı nə bahasına olursa olsun, harbe sokup, məğlub etməkdir"(9, s.135) .

Alp Ər Tonqa tarixi türk xaqanı olmaqla dünya tarixində ədalətli, adil hökmdar kimi məhşur idi. H.Cavidin böyüklüyü, dahiliyi bundan ibarət idi ki, o, türk-İran ziddiyyətləri və ona qoşulan Çin-türk münasibətlərini 1933-cü ildə Firdovsi yubileyi pərdəsi ilə örtərək türk mənliyini, türk milli məfkurəsini yenilədi, yaddaşları sosializm ideologiyasından az da olsa təmizləyə bildi. Keykavusun öz oğluna itən inamının xəyanətlə əvəz olunmasından sonra məcburiyyət qarşısında qalan Səyavuş öldürülməmək üçün Əfrasiyabın yanına, Turana gəlməyi, ana yurduna pənah gətirməyi qərara alır. Bu sujet ana yurda dönüş, ana südünə dönüş, təməl məfkurəyə, əsil-nəcabətə dönüş kimi ifadə olunurdu.

Çin səddində üsyanın səbəbkarı Valinin özbaşınalığına, namuslara göz dikməsinə qarşı Səyavuşun münasibəti ən ədalətli cəngavər obrazı kimi həm də Alp Ər Tonqa hakimiyyətinə onun mövqeyini ortaya qoyur. Altay və Yalçın obrazları əsərə təsadüfən daxil edilməmişdir, onlar üsyankar, ədalət istəyən türk gənclərinin simvoludurlar. Gücün mənəviyyatla vəhdəti baş tutanda qəhrəmanlar həmişə tarixiləşir. Tarixi Altay nəzəriyyəsinin rəmzi kimi anlaşılan Altay və Altayın üsyanı – Rusiya imperiyasının tərkibindəki türklərin tarixi istəyinin təzahürü kimi H.Cavidin arzuları idi. Bu həmçinin türkçülüyün yeni inkişaf mərhələsinin tələblərinin də fərqli olduğunu bildirir. Cavidşünas K.Əliyev H.Cavidin Əfrasiyab məmləkətində Səyavuşun yeni düşüncəli türk cəngavəri kimi təqdimatını belə izah edir: "Hətta Əfrasiyabın qardaşı Gərşivəz çinliləri yabançı adlandırıb "Hər ağzını türkə bərabər tutma" deyəndə Səyavuş ona qəti cavab verir: "Mən bu düşüncəyə qarşıyam". Beləliklə, yeni təfəkkürə malik olan Səyavuş öz dayılarından – Əfrasiyabdan və Gərgivəzdən surətlə ayrılır"(6, s.151). Bu münasibət yeni dövrdə həm də dünyaya, insanlara H.Cavidin bəşəri münasibətinin Səyavuş dili ilə ifadəsidir.

Səyavuşu Alp Ər Tonqa ilə dayı-bacı oğlu münasibətindən başqa yeni bir münasibət də bağlayır. Türk xaqanı Alp Ər Tonqanın qızı Firəngiz adı ilə əsərdə yer alan cəsur, gözəl bir xanım Səyavuşun əsil-nəcabətini bilmədən sevdiyi, həm də ov zamanı Səyavuşu yaraladığı qızdır. M.Kaşkarlı "Divani lüğəti-it-türk" əsərində Əfrasiyabın qızını Qaz – qədim türk adı ilə təqdim edir. Qəzvin şəhərini onun adıyla bağlayır: "Çünki Əfrasiyabın qızı orada oturar, orda oynarmış. Türklərdən bir qismləri türk ölkəsi sınırlarını

Qəzvindən sayarlar… Qazın atası olan Alp Ər Tonqa elə Əfrasiyab deməkdir”(8, s.319).

Mahmud Kaşkarlı eyni zamanda, Səyavuşun türklərin paytaxtı Qanq şəhərinə gəldiyini və Əfrasiyabın qızı Firəngizlə evləndiyini, hətta əvvəl vəzir Piranın qızı ilə evləndiyini yazır. Firəngizdən dünyaya gələn oğlunun adının Keyxosrov olması da dastanda qeyd olunur.

H.Cavid Firəngiz obrazında gözəlliyi qədər cəsur, mərd, çevik olan, hətta türk bəyləri kimi ova çıxan türk xanımının təkrarsızlığını ifadə etmişdi. Tosu obrazının dilindən deyilən bir söz türk xanımının daxili aləmini açır. Qızların ov etdiyi zaman Səyavuş ceyrana ox atır, özü də bir qız tərəfindən oxlanır. Bu zaman yaranan qəfil eşq Səyavuşun taleyində xüsusi rol oynayır. Firəngiz oxladığı oğlanın kimliyini bilmədiyi halda, mərdliklə ona yardım edib yarasını bağlayır. Yara bağlamağın mənəvi anlamı H.Cavidin türk ənənəsindən gələn qadının mərdliyi yenidən təsdiq edilir. Tosun: “Həm yaralar bizim qızlar, həm sarar” (2, s.222),-söyləyir.

Səyavuşun ana qucağı kimi məhrəm bilib üz tutduğu Turan eli onun mənəvi yaralarına elə Firəngizin eşqi, məhəbbəti ilə məlhəm olur. Əfsus ki, sonda Firəngiz də atasını uydurulmuş xəyanətə inandırıb Səyavuşun günahsızlığını sübut edə bilmir. Türk xaqanları tarixi saray ənənəsində xəyanət eşidəndə səbr, təmkin və doğmalıq məhrəmliyini həmişə unudub, hətta övlada, qardaşa belə qıymaq təcrübəsini yaşayıblar. Əfsus! Səyavuş Südabənin və dayısı Gərşivəzin əlbir xəyanətinə qurban olur. Səyavuşu vaxtilə ov zamanı Keykvusun döyüşçüləri tərəfindən İran sarayına aparılan və Keykavusun baş hərəminə çevrilən Xubcehri dünyaya gətirmişdi. Səyavuş bu gün ana yurdunda anasının qardaşı tərəfindən qətlə yetirilir. Doğmalara doğmalar əl qaldırır. H.Cavidin dahiliyi bu hadisələri 1933-cü ilə gətirməklə yad imperiyada qardaş xalqların yaddaşını oyaq saxlamaq üçün tarixin yaddaşını oyatmaqdadır.

H.Cavidin turan ideyası “Səyavuş” əsərində tamlığı ilə açılıb inkişaf etdirilir. Bütün yaradıcılığı boyu sadiq qaldığı turan fəlsəfəsinin tarixi köklərinə qədər gedərək Alp Ər Tonqaya dayanıb, yeni tarixə üz tutub söz deyə bilmək yazardan H.Cavid cəsarəti tələb edirdi. Alp Ər Tonqaya dönəndə ölümsüzlüyün sirrini H.Cavid daha dərindən dərk etdiyi üçün cəsarətin Səyavuş zirvəsindən hətta gələcəyi belə görürdü. Müəllif Altayın dilindən söylənən aşağıdakı sözlərlə sanki əsl üsyankar kimi Altaya silahdaşlıq edirdi:

Yetər çıldırdınız hökumət! - deyə,
Evləri yıkdınız ədalət!- deyə.
Məzlumlar qanqından badə sondunuz,
Qarğa-quzğun kibi leşə qondunuz,

Qanun deyə doğruluqdan caydınız,
Xalqın namusunu heçə saydınız (2, s.251).

Buna o dövrdə heç bir sənətkarın cəsarəti çatmazdı ki, imperiyanın hər əsərdə sözü çək-çevir edən ideologiyasına qarşı belə fikirlərlə çıxsın.

Əsərin birinci pərdəsində Keykavus Səyavuşa çox böyük inam bəsləyir. Xüsusilə Südabəyə münasibətdə Səyavuşun heç bir xəyanəti olmadığı ortaya çıxandan sonra Keykavus deyir:

Səyavuş! Qalmadı bir şübhəm sana,
Vuruldum səndəki parlaq vicdana.
Bir ləkə var bəlkə ayda, günəşdə,
İncə bir iz belə yoq Səyavuşdə (2, s.174).

Lakin ikinci pərdənin sonunda saray intriqaları Keykavusun Səyavuşa olan fikrini dəyişdirə bilir.Keykavus acı qəhqəhələrlə həm Səyavuşu, həm də Rüstəmi xain adlandırır:

İştə, hər ikiniz qorqaq və miskin!
Səyavuş da xain, Rüstəm də xain!.. (2, s.210)

Beşinci – sonuncu pərdədə isə uydurma məktuba və qardaşı Gərşivəzə inanan Əfrasiyab Səyavuş haqqıda "Xainin cəzası ölümdür ancaq!" (4, s.289)-söyləyir. Beləliklə, Səyavuş ətrafında doğmalar olsa belə istər Keykavusun, istərsə də Əfrasiyabın sarayında təkdir, yalnızdır. Səyavuş həm də təklənən, inanan, aldanan Azərbaycanlıdır! Səyvuş böyük yanğı ilə deyir:

Kimə inanmalı? İştə hər diyar,
Mana qarşı kin və intiqam duyar (2, s.274).

M.Əlioğlu "Səyavuşun faciəsi" məqaləsində yazır: "Bu sözlərlə o, öz faciəsini, səhvlərini, zəifliyini də etiraf edir. Lakin bu etiraf hər nə qədər səmimi, doğru və əsaslı olsa belə artıq hər şey bitmişdir. Bununla da Səyavuşun aldanışlar, iztirablar, həyəcanlı anlar və könül ağrıları içərisində keçən həyat kitabı qapandı" (5,s.227).

H.Cavid "Səyavuş" əsəri ilə inanan, aldanan Azərbaycanın faciəsinə məlhəm olacaq türk məfkurəsinin, tarixi qəhrəmanlığının özünü əbədiləşdirdi.

"Ana"dan, "Maral"dan, "Topal Teymur"dan, "Şeyx Sənan"dan, "İblis"dən keçən türkçülük ideyası, Turan fəlsəfəsi H.Cavidin qələmiylə "Səyavuş"da daha tam tarixilik qazandı, tarixin özü kimi möhkəmləndi. Ədəbiyyatşünas alim Y.Qarayev sovetlər dönəmində yazdığı məqalədə H.Cavidin "Səyavuş"unu belə xarakterizə edir: "Geniş həyat lövhələri kəskin və qabarıq ictimai ideyalar, zəhmət, üsyan və inqilabın tərənnümü "Səyavuş"u qüvvətli sosial məzmunlu faciə kimi qiymətləndirməyə imkan verir. Bu əsərdə Cavid tarixi keçmişə, azadlıq hərəkatına, şəxsiyyət və xalqlar azadlığı məsələsinə artıq dövrün tələbləri, müasir ideya, məfkurəvi görüşlər səviyyəsindən baxmağı bacarır. Ümumitarixi inkişafda, əxlaq və

mənəviyyatda olan fəci ziddiyyətlər üzərində ehtiraslı və narahat düşüncələr, ideya axtarışları Cavidi mütləq bu tematikaya gətirib çıxarmalı idi" (7, s.202)

H.Cavid köy və saray mühitinin – bir-birinin əksi olan saflığın təcəssüm etdiyi köyün və kin-ədavət yuvası olan sarayın müqayisəsini əsərin əvvəlindən axırına qədər – bütün süjet boyu inkişaf etdirir. Köylü-kəndli sədaqətin, inkişafın, yeri gəlsə döyüşdə ölkəsinin qorunmasında can fəda edən cəsarətin simvoludur. Havası, suyu, insanları kimi saf olan köy mühiti və köylü obrazları "Ana" və "Uçurum" əsərlərində müxtəlif personajlarla, "Topal Teymur" əsərində Teymurun köylülərə münasibəti ilə H.Cavid ideyasını ifadə edən qəhrəmanlara çevrilirlər. Səyavuş köyün yetirməsidir, saryların yox! Ona görə də Südabənin ona eşq elan etməsindən hiddətlənərək deyir:

Hiç yalan deyilmiş anamın sözü,
Başqa imiş sarayların iç yüzü.
O da bir çirkablar içində sönmüş,
Gənc yaşında ömrü səraba dönmüş.
Sarmış da hər yanı bayquşlar səsi,
İştə, gülünc faciələr səhnəsi! (2, s.162)

H.Cavid "Səyavuş" faciəsndə böhtan-şər yuvasının sakini Südabənin əli ilə yerinə yetirilən xəyanətin səbəbini açır. H.Cavid "Topal Teymur"da Dilşad xanım, "Ana"da Səlma, "Maral"da Maral, "Uçurum"da Gövərçin, "Səyavuş"da cəsur Firəngizlə yanaşı ehtiraslı ərəb qızı Südabəni əsərə gətirməklə həm də "Peyğəmbər"dəki Şəmsanı xatırlatmağa imkan yaradır. Analıq, qadınlıq, səfqət və mərhəmətdən uzaq olan Südabə H.Cavid yaradıcılığının ən iti dişli iyrənc canavarı təsiri bağışlayır. Amansız, kinli, böhtan, şər ilahəsi kimi yaddaşlara köçür.

H.Cavid XX əsrin 30-cu illərində - repressiyaların bir addımlığında Azərbaycan ədəbiyyatına yeni bir türkçülük dastanı bəxş etdi. Tarixiliklə müasirliyi, keçmişlə indini və gələcəyi, tənəzzillə tərəqqini, adiliklə cahilliyi, əvvəllə sonu qarşılaşdıraraq hər şeyin bəşəri və ilahi dəyərində tarixi, dayanıqlı məfkurənin yaşadılması və qələbəsi naminə yazmağı, yaratmağı, çalışmağı tövsiyə etdi.

Ədəbiyyat

1.Atsız Hüseyn Nihal: "Makaleler", I c..", İstanbul-1992-2015
2.Cavid Hüseyn. Eserleri, İstanbul, 2015
3.Cavid Hüseyn. Əsərləri, beş cilddə, IV c., Bakı, "Elm", 2007
4.Cəfərov C. .....-Cavidşünaslıq, V cild, Bakı, 2012, səh.219)
5.Əlioğlu M. Səyavuşun faciəsi.- Cavidşünaslıq, V cild. Bakı, 2012

6.Əliyev K. H.Cavid: həyatı və yaradıcılığı. Bakı, “Elm”, 2007, səh.151
7.Qarayev Y. Seçilmiş əsərləri, I c.. Bakı, “Elm”, 2015
8.Kaşqarlı M. Divani lüğat-it-türk, dörd cilddə. – III c. Bakı, “Ozan”, 2006
9.Türkəqul Mustafa Haqqı. Azərbaycan türk şairi Hüseyn Cavild. İstanbul, 1963

С.Велиева

Саявуш - герой полководец романтизма гусеин джавида

Резюме

Преданность историческим истинам постоянно сохранилась в течение всего творчества Г. Джавида. Произведение «Саявуш» как образец романтизма отражает основные ценности первоисточника тюркской истории. Г. Джавид в данном произведении выдвинул в качестве основной идеи обязанность служения идее тюркизма. Г.Джавид в отличие от Фирдовси превратил в основную идею не те самые противоречия, что существуют между Ираном и Тураном, а мир и перемирие.

Саявуш не превратился в инструмент женских и дворцовых козней, потому, что он являлся нравственным полководцем с чистой душой и с высокой моралью. Даже в тот момент, когда клевета Судьбы становиться явью, он не соглашается на ее казнь, а просит отца, чтобы тот простил ее и возвышается наподобие мудреца.

Побег Саявуша к Афрасиябу, в Туран с целью минования смерти олицетворяется как его возвращение к родине и к своим родословным корням. Саявуш дважды подвергается предательству, даже в конце произведения его дядя по матери Гяршивез входит в сговор с Судабой и Саявуш становиться жертвой этого сговора.

Произведение Г.Джавида под названием “Саявуш” увековечивала в себе идею тюркизма, героизма тюркской истории, которая стала бальзамом для трагедии Азербайджана.

S.Valiyeva

Sayavush - hero commander of of romanticism of husein javid

Sammary

Devotion to historical truths was constantly preserved throughout the entire creative activity of H. Javid. “Sayavush” as an example of romanticism reflects the basic values of the primary source of Turkic history. H. Javid in this work suggested an idea as the main principle the duty of serving the ideology of Turkism. Unlike Firdovsi, H.Javid turned into the main idea not the very contradictions that exist between Iran and Turan, but peace and truce.

Sayavush did not turn into an instrument of women's and palace intrigues, because he was a moral commander with a pure soul and high morality. Even at the moment when the slander of Sudaba becomes a reality, he does not agree to her execution, but asks the father to forgive her and rise like a sage.

The escape of Sayavush to Afrasiyab, to Turan with the aim of leaving behind the death is personified as his return to his homeland and his genealogical roots. Sayavush is twice exposed to betrayal, even at the end of the work his uncle by his mother Gyarchyves is colluding with Sudaba and Sayavush became a victim of this collusion.

The work of H.Javid entitled “Sayavush” perpetuated the idea of Turkism, the heroism of Turkic history, which became a balm for the tragedy of Azerbaijan.

Rəyçi: Kamran Əbiyev
AMEA-nın müxbir üzvü

NAZİR ƏHMƏDLİ
Atatürk Mərkəzi
k.ü.f.doktoru
nahmed61@mail.ru

.

DƏRƏLƏYƏZLİ AŞIQ CƏLİLİN SOYKÖKÜ

Açar sözlər:Aşıq, Cəlil, Sallı, Dərələyəz, Bəhmən, Dizə, Yeni Yol, Kameral təsvir.
Key words: Ashug Jalil, Sally, Daralayaz, Bahman, Diza, Cameral description.
Ключевые слова: Ашуг, Джалиль, Саллы, Даралаяз, Бахман, Дизе, Ени Йол, Камеральное описание

"Cəlili" aşıq havası ilə öz adını Azərbaycan aşıq sənətinin tarixinə əbədi olaraq yazmış Dərələyəz mahalının Sallı kəndində dünyaya göz açan Aşıq Cəlilin həyatı və yaradıcılığıçox təəssüf ki, uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalmış və yalnız son 30 ildə müəyyən araşdırmalar aparılmışdır. Amma bu yazılarda rəsmi sənədlərə, arxiv materiallarına istinad edilmədiyindən, bəzi məsələlər, xüsusilə onun doğum tarixi və şəcərəsi ilə bağlı problem hələ də öz həllinin tapmamış, bəzi istisnalar xaric, şeirləri toplanmamışdır. Halbuki aşığı tanıyanların, apardığı məclisləri görənlərin yaşadığı ötən əsrin ortalarında daha dürüst məlumatlar toplamaq mümkün idi.

Aşığın ilk ciddi tədqiqatçısı saya biləcəyimiz Əli Şamil 1985-ci ildə həm rus dilində çıxan «Советская Нахичевань», həm də "Sovet Naxçıvanı" qəzetində "El sənətkarlarımız" rubrikasında çap etdirdiyi "Aşıq Cəlil" adlı məqaləsində ilk dəfə onun həyat və yaradıcılığı haqqında ətraflı məlumat vermiş, aşığın nəvəsi Aşıq Mirzalının xatirələrinə əsaslanaraq Aşıq Cəlilin 12 saz havasının müəllifi olduğunu, aşıqlıq sənətini Abbas Dəhridən öyrəndiyini də qeyd etmişdir. Məqalədə müəllifliyi Aşıq Cəlilə aid edilən "Baş Cəlili", "Orta Cəlili", "Ayaq Cəlili", «Qaytarma», "Sallama gəraylı" (çox vaxt ona "Dərələyəz gəralyısı" da deyirlər) 5 saz havasının adı çəkilir. Müəllif həmin məqalədə aşığın doğum tarixinə toxunmasa da, şahidlərin söhbətindən Aşıq Cəlilin 1924-1928-cu illərdə vəfat etdiyini və Dizə kəndinin Qəriblər qəbistanlığında dəfn edildiyini bildirir. Ə.Şamil yazır: "Bu aşıqlar özlərindən əvvəl yaranmış saz havalarını yaşatmaq, təbliğ etməklə yanaşı, onlara yeni xallar, yeni güllər əlavə etmiş, bəzən də yeni saz havaları yaratmışlar. Aşıq Cəlil də belə bəstəkar aşıqlardan olmuşdur. Yaratdığı saz havaları vaxtında nota köçürülmədiyindən, haqqında geniş elmi fikir söyləmək, yaradıcılığının spesifik cəhətlərini təhlil etmək olduqca çətindir" ***[1; 2].***

Azərbaycan Sovet Ensiklopediyasının 1987-ci ildə nəşr edilən 10-cu cildində "Cəlili" adlı aşıq havasının müəllifliyi Aşıq Cəlilə aid edilsə də, səhvən onun 18-ci əsrdə yaşadığı göstərilir ***[3, s.412].***

Qulu Kazımov 1989-cu ildə "Qobustan" jurnalında çap etdirdiyi "Aşıq Cəlilin sorağı ilə" ***[4, səh.21-23]*** adlı geniş və əhatəli məqaləsində Aşıq Cəlilin doğum tarixi haqqında təxmini rəqəm verir: "Aşıq Cəlil təxminən 1850-ci illərdə Sallı kəndində dünyaya gəlib. Hələ uşaq vaxtlarından saza-sözə könül verib. Aşıq Cəlil gözünü açıb Şair Təhməzi, Dəllək Xələfi, Aşıq Əsədi görüb (***Şair Təhməz məsələsinə qayıdacağıq-N.Ə.***). Qocaların dediyinə görə, Dəllək Xələf aparan məclisin həndəvərinə hamilə qadınları buraxmazmışlar... Cəlilin atası Mehralı kişi də saz-söz həvəskarı imiş və o da şeir məclislərinə gedər, balaca Cəlili də özü ilə apararmış".

Müəllif belə məclislərdən birində 16 yaşlı Cəlilin İrandan gəlmiş Aşıq Abbasın diqqətini çəkdiyini və onu özünə şəyird götürdüyünü də qeyd edir. Q.Kazımova görə, gənc Cəlil Aşıq Abbasa 4 il şəyirdlik etmiş və onun sayəsində mükəmməl aşıq kimi yetişmiş, müstəqil aşıqlığa başladıqdan sonra səsi-sorağı ətraf mahallara yayılmış, göyçəli Aşıq Ələsgər onu yanına dəvət edərək çalıb-oxumasına qulaq asmış və sənətinə yüksək qiymət vermiş, onun yaratdığı və Aşıq Ələsgərin çox xoşuna gələn saz havası da Aşıq Ələsgərin tövsiyyəsi ilə "Cəlili" adlandırılmışdır.

Q.Kazımov həmin məqalədə "Qəhrəmanı" və "Badamı" adlı daha iki saz havasının müəllifliyini Aşıq Cəlilə aid edir.

Aşıq Cəlillə bir kənddə doğulmuş Q.Kazımov Qulu Kəngərli imzası ilə "Ozan" qəzetində ***[5]*** çap etdirdiyi və "Erməni lobbisi...Azərbaycan faciəsi" ***[6]*** kitabına daxil etdiyi "Aşıq Cəlil kimdir?" adlı məqaləsində də təxminən həmin fikirləri təkrar edir, erməni qırğınları nəticəsində aşığın doğma yurdundan qaçqın düşərək 1923-cü ildə Naxçıvanın Dizə kəndində təxminən 75 yaşında vəfat etdiyini yazır.

Tədqiqatçı K.Dərələyəzli də Aşıq Cəlil mövzusuna diqqət yetirmiş, Q.Kəngərlinin aşığın 1850-ci ildə doğulması haqqındakı ehtimalını qüvvəsində saxlamış və "Dərələyəz od içində" kitabında ilk dəfə Aşıq Cəlilin şeirlərindən nümunələr vermişdir ***[7, s.236; s.443-451].*** Müəllif Aşıq Cəlilin şeirlərini necə əldə etdiy barədə yazır: "1975-80-ci illərdə bacım Nazpərigilə, Dizə kəndinə gedərdim... Bacımgilin qonşuluğunda yaşayan Nərgiz müəllimənin anası Aşıq Cəlilin şeirlərindən bəzilərini yadında saxlamışdı. Aşıq Cəlil altı ildən çox Miryasin ağanın həyətində qalmışdı. Dizə qocalarının dediyinə görə Şərurda Aşıq Cəlil böyük hörmətə malik olmuş və gözəl şeirləri ilə sayılıb, seçilmişdir" ***[7, s.447].***

Müəllif adı çəkilən kitabına Aşıq Cəlilə aid etdiyi "Peşman olar" gəraylısını, "Hardasan", "Bilmərəm" və "Olar" adlı üç qoşmanı, "Gözə görünməz" divani-təcnisini və "Üz ola" cığalı təcnisini daxil etmişdir.

Tədqiqatçının fikrincə, 1918-ci ilin hadisələrində müsəlman əhalinin başına gətirilən müsibətlərdən mütəəssir olan Aşıq Cəlil "Hardasan" qoşmasını Abbasqulu bəş Şadlinskiyə xitabən demişdir:

Yapon bu yerlərdə meydan sulayır,
Nıjde belimizdə ocaq qalayır.
Yurdumda-yuvamda bayquş ulayır,
Sönür od-ocağım, közüm, hardasan?

Kafir süngüsünə keçir qız-oğlan,
Arpa qayasından qan süzülür, qan!
Qalmadı mahalda ər, sənə qurban,
Şəhid olur oğlum, qızım, hardasan?

Q.Kəngərlidən fərqli olaraq K.Dərələyəzli Aşıq Cəlilin Şərur mahalının Dizə kəndinə pənah gətirdiyini və 1923-cü ildə orada öldüyünü yazır.

K.Dərələyəzli sonradan Aşıq Cəlil mövzusuna yenidən qayıtmış və "Dərələyəz" qəzetində "Aşıq Cəlil yaradıcılığı" adlı məqalə çap etdirmişdir ***[8].*** O, Aşıq Cəlilin şeirlərini Nərgiz müəllimənin anası Tovuz nənədən və onun baldızı Zeynəb nənədən topladığını qeyd etdiyi məqaləsində yazır:

"Atam Aşıq Cəlilin yaradıcılığını gözəl bilirdi. Səkkizinci sinifdə oxuyarkən atamın yaddaşında qalmış Cəlilin şeirlərini dəftərə yazmağa başladım. Yaz və payız ayları Sallılı Aşıq Bəhmənin oğlu Süleymanla bir sinifdə oxuduğum vaxt hər bazar günü Sallı kəndinə gedərdim. Aşıq Bəhməndən və Aşağı Sallı kəndində şair təbiətli İman kişidən təxminən 20-yə qədər Aşıq Cəlilin şeirlərindən toplamışdım. 1964-cü ildə İrəvan Pedaqoji İnstitutuna qəbul olarkən topladığım, Cəlilə məxsus 35 şeiri Əkbər İrəvanlıya təqdim etdim və xahiş etdim ki, "Ədəbi Ermənistan" almanaxında çap etdirsin. Açığını desəm, bir neçə dəfə Əkbər İrəvanlıdan şeirlər barədə soruşdum. "A bala, indi aşıq yaradıcılığına fikir verən yoxdur",-dedi.

Təəssüf ki, K.Dərələyəzlinin topladığı həmin şeirlər səhlənkarlıq nəticəsində itmişdir.

Professor H.Mirzəyev "Qərbi Azərbaycanın Dərələyəz mahalı" kitabında Aşıq Cəlilin 1850-ci ildə doğulduğunu, 1866-1867-ci illərdə İranlı aşıq Abbas Dəhriyə şəyirdlik etdiyini, sonrakı dövrlərdə Aşıq Alının yanına gedib ondan aşıqlıq sənətinə aid çox şey öyrəndiyini, onun ən böyük ustadının və həmfikirinun Aşıq Ələsgər olduğunu yazır, həm də adı çəkilən 7 saz havasından başqa, "Naxçıvanı" havasının müəllifliyini də Aşıq Cəlilə aid edir və bütün bu mülahizələrində Q.Kəngərlinin məlum məqaləsinə istinad edir ***[9, s.513].*** H.Mirzəyev həmin kitaba müəllifliyini Aşıq Cəlilə aid hesab etdiyi 5 şeir də daxil etmişdir, bu şeirlərin 5-i də K.Dərələyəzlinin "Dərələyəz od içində" kitabındakı şeirlərdir, "Peşman olar" gəraylısı isə

yoxdur ***[9, s.514-516].*** Amma H.Mirzəyev K.Dərələyəzlidən fərqli olaraq mənbə göstərməyib.

H.Mirzəyev, H.İsmayılov və Ə.Ələkbərli tərəfindən tərtib edilmiş "Dərələyəz folkloru" antologiyasında da həmin fikirlər yer almaqla yanaşı, müəllifiyini Aıq Cəlilə aid etdikləri həmin şeirlər verilmiş, yenə də onların harada və kimdən toplanması məsələsinə toxunulmamışdır ***[10,s.240-243].*** Kitabda "Yüngül Şərili", "Ağır Şərili" və "Təzə Naxçıvani" saz havalarının müəllifliyi də Aşıq Cəlilə aid edilir.

Ə.Şamil və Q.Kəngərlidən fərqli olaraq H.Mirzəyev də Aşıq Cəlilin Şərur rayonunun Dizə kəndində qaçqınlıq həyatı yaşadığı və orada da öldüyünü yazır. Q.Kəngərli və K.Dərələyəzli Aşıq Cəlilin Vedibasardan olan məşhur el qəhrəmanı Abbasqulu bəy Şadlinski ilə görüşməsindən bəhs edirlər. Ə.Şamilin ehtimalına görə bu müəlliflər Sallılı Aşıq Cəlili Vedibasar mahalının Şahab kəndindən olan və ermənilər tərəfindən 1918-ci ildə faciəli şəkildə qətlə yetirilən Aşıq Cəlillə dəyişik salmışlar. Şahablı Aşıq Cəlilin həyatında baş verən həmin faciəli hadisələr folklorşünas Əziz Ələkbərlinin və Əli Şamilin tədqiqatlarında təsvir edilmişdir ***[11; 12; 13, s.79].***

A.(Səfolu) Alıyevin "Dərələyəz folklorunun regional xüsusiyyətləri" ***[14]*** kitabında Aşıq Cəlilin özü haqqında məlumat verilməsə də, bəzi aşıqlardan bəhs edilərkən, onların ustadının Aşıq Cəlil olduğu qeyd edilir.

Əli Şamil 2007-ci ildə Aşıq Cəlil mövzusuna bir daha qayıtmış, Ankarada nəşr olunan "Folklor-Edəbiyyat (Nahçıvan özel sayısı)" dərgisində "Sallı Aşıq Cəlil" adında məqalə çap etdirmişdir ***[15, s.179-184].*** 2007-ci ildə "Dədə Qorqud" jurnalında çap etdirdiyi və Ankarada nəşr olunan məqaləsindən az fərqlənən "Sallı Aşıq Cəlil" məqaləsini tədqiqatçı Ə.Şamilin Aşıq Cəlilin həyat və yaradıcılığının araşdırılmasına sərf etdiyi 22 illik tədqiqatlarının uğurlu finalı adlandırmaq olar ***[16, s.67-75].*** Tədqiqatçı topladığı məlumatları, qaynaqları təhlil edərək, Aşıq Cəlilin 1850 ildə deyil, 1870-ci ildə doğulduğu ehtimalını irəli sürür. Əldə etdiyimiz arxiv sənədləri Ə.Şamilin həqiqətə olduqca yaxın olduğunu göstərdi.

Əli Şamilin musiqişünas Kamilə Axundova-Dadaşzadənin 25.04.1986-cı il tarixli məktubunun yer aldığı həmin məqaləsi başqa bir cəhətdən də diqqətimizi çəkdi. Musiqişünas orada müəllifliyi Aşıq Cəlilə aid edilən "Baş Cəlili", "Orta Cəlili", "Ayaq Cəlili" və Dərələyəz gəraylısı" saz havalarını musiqi baxımından ətraflı təhlil etmiş, qiymətli fikirlər söyləmişdir. K.Axundova-Dadaşzadə öz məktubunda yazır: "Ümumiyyətlə, aşıq havalarının mənşəyi, onların inkişaf yolunun öyrənilməsi olduqca mürəkkəb bir prosesdir. Onlar həmişə öz əski adlarını mühafizə etmirlər. Təbii ki, müəyyən dəyişikliklərə uğrayırlar. Bir istedadlı aşığın səyi nəticəsində yeni bir dəyişikliyə uğrayır və yeni ad qazanır. Bu xüsusiyyətlər «Cəlili» havaları üçün də çox səciyyəvidir" ***[16, 70].***

Qeyd edək ki, Aşıq Cəlilə aid hesab edilən saz havalarını təhlil etməyi K.Axundovadan Ə.Şamil xahiş etmişdir.

Aşığın sağ qalan yeganə oğlu Aşıq Bəhmən Böyük Vətən müharibəsinə gedib və geri qayıtmayıb. Aşıq Cəlilin Şərur, yoxsa Babək Dizəsinə köçməsi haqqındakı fikir müxtəlifliyinə sön qoymaq üçün Aşıq Bəhmənin hansı rayonun hərbi komissarlığından cəbhəyə göndərilməsini aydınlaşdırmaq qərarına gəldik. Məlum oldu ki, Aşıq Bəhmən 1842-ci ildə Babək rayon hərbi komissarlığından cəbhəyə göndərilib:

"Mehrəliyev Bəhmən Cəlil oğlu

1900-cu ildə Babək rayonunun Gültəpə kəndində doğulub. 1942-ci ildə Azərbaycan Respublikası Babək rayon hərbi komissarlığı tərəfindən orduya çağırılıb.

Sıravi əsgər Mehrəliyev Bəhmən Cəlil oğlu 1944-cü ildə itkin düşüb"*[17, s.188].*

Burada iki qeyri-dəqiqliyə yol verilib. Əslində kəndin adı Gültəpə yox, Kültəpədir, ikincisi isə Bəhmən Kültəpədə yox, Sallı kəndində anadan olub, Kültəpə kəndində qaçqınlıq həyatı yaşayıb və oradan cəbhəyə gedib. Bu sənəddən həm də Aşıq Bəhmənin dəqiq doğum tarixinin 1900-cu il olduğunu aşkar etmiş olduq.

Beləliklə, Aşıq Cəlilin və ailəsinin Məmmədrza Dizəsi, başqa adı ilə Kültəpə kəndində qaçqınlıq həyatı yaşadığı haqqında tədqiqatçı Ə.Şamilin mülahizələri özünü doğrultdu.

Aşıq Cəliln neçə saz havasının müəllifi olmasında fikir müxtəlifliyi olduğu kimi, bunun əksinə olan başqa bir ifratçı mövqe də mövcuddur. Onun müəllifi özünü "aşıq, şair, publisist" adlandıran M.Hüseynlidir. O, yazır: "Gözümü dünyaya açandan, ağlım kəsəndən korifey aşıqları dinləmişəm. Onların əksəriyyəti dünyasını dəyişib. Korifey sənətkarlarımızdan biri də aşıq Əsəd Rzayevin şəyirdi olmuş aşıq Mikayıl Azaflıdır. Aşıq Mikayıl Azaflı da mənim ustadımdır. Həmişə ustadımla aşıq havalarının yaradıcıları haqqında məlumat toplamışam. Hətta onlarla bu barədə etdiyim söhbətləri maqnitofon lentinə yazdırmışam. Onlardan biri yenə də aşıq Əsəd Rzayevin yetirməsi aşıq Məhəmməd Çovdaroğludur. Onunla söhbətimizdə dedi ki, bir çoxları aşıq havalarını bəstələyən aşıqların adıyla yox, onu yüksək səviyyədə ifa edənlərin adyla oxuyurlar. O cümlədən, vaxtilə Kolanlı Bəylər tərəfindən yaradılmış, indi isə "Cəlili" və "Ayaq Cəlili" adlanan aşıq havalarıdır. Aşıq Məhəmməd deyir ki, ustadı aşıq Əsəd Rzayev bu havacatları Ağ Aşıq Allah-verdi, Aşıq Alı, Aşıq Ələsgər gəncliklərində el məclislərində oxuduqlarını söyləyib. Yəni bu hava Aşıq Sallı Cəlildən çox-çox əvvəllər yaranıb. Bu, aşıq Kolanlı Bəylərə və onun müasirlərinə sayğısızlıq kimi sayıla bilər. Onu da deyim ki, yaşı 90-nı ötmüş aşıq Məhəmməd Çovdaroğlu və onun müasirləri bu həqiqəti gizlətməyiblər"***[18].***

Göründüyü kimi, dolaşıq ifadə etdiyi cümlələrdən çətinliklə başa düşmək olur ki, M.Hüseynli nəinki qalan havaları, hətta "Cəlili" havasının da Aşıq Cəlilə aid olduğuna şübhə edərək, onu Kolanı kənd sakini, nə vaxt doğulduğunu və öldüyünü bilmədiyi və yazmadığı Aşıq Bəylərə aid edir. Məqalə müəllifi söhbətin hansı Kolanı kəndindən getdiyini də qeyd etməyib. Məlum olduğu kimi, Şahbuz, Salyan, Ağdam, Tərtər rayonlarında Kolanı adında kəndlər var. Hətta vaxtilə Vedibasarda da Kolanı kəndi olub.

Qeyd etmək lazımdır ki, aşıq M.Hüseynlinin həqiqətdən uzaq "fəlsəfə"sini bir kənara qoyub qeyd etməliyik ki, digər 11 hava bir yana dursun, müəllifliyi heç bir şübhə doğurmayan təkcə "Cəlili" havası bu böyük sənətkarın adını yaşatmağa kifayətdir.

Aşıq Cəlilin haqqında professor M.Qasımlının "Göyçə aşıq mühitində Aşıq Ələsgər hansı haqqa sahibdirsə, Dərələyəz aşıq mühitində Aşıq Cəlil həmin mövqeyin sahibidir. On beşdən yuxarı şagird yetişdirən Aşıq Cəlilin qardaşı və üç oğlu, daha sonra isə iki nəvəsi də aşıq olmuşdur" ***[19, s.191; 20, s.164]*** fikri Aşıq Cəlilin Azərbaycan saz sənətindəki yerini dəqiq ifadə edir.

Haqqında söhbət gedən tədqiqatlarda Aşığın həyatının nə qədər düzgün əks olunduğunu yoxlamaq üçün Dərələyəzin Rusiya imperiyası tərəfindən işğalından sonra rus idarəçilər tərəfindən tərtib edilmiş və vergi toplanması üçün zəruri olan kameral sənədlərə müraciət etdik və axtarışlarımız nəticə verdi. Bunun üçün lazım olan baza məlumatları - Aşıq Cəlilin atasının adının Mehralı, qardaşının adının isə Məhəmməd olması tədqiqatçı-jurnalist Q.Kəngərlinin yazılarında yer almışdır.

Aşıq Cəlilin adının ilk rast gəldiyi 1873-cü ilin Kameral siyahısında onun ailəsi belə qeyd edilmişdir:

"İRƏVAN QUBERNİYASI, NAXÇIVAN QƏZASI
ƏLƏYƏZ kənd icmasına daxil olan
SALLI kəndinin KAMERAL TƏSVİRİ. 1873-cü il.
Xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli kəndlilər.
İslam dininə mənsub olan tatarlar.
Əkinçiliklə məşğul olurlar.
...

11.19.Hacı Qurbanəli Mahmud oğlu 49 yaşında; onun oğlu Mehdi 7 y; qardaşı Mehralı 43 y; oğlanları: Məhəmməd 15 y; Cabbar 7 y; Cəlil 5 y. Ailədə 5 qadın var" [21].

Beləliklə, Aşıq Cəlilin 1868-ci ildə doğulduğunu görürük. İndiyə qədərki təxmini 1850 rəqəmi onun yaşının 18 il böyüdüldüyünü göstərir.

Kameral siyahının tərtib edildiyi 1873-cü ildən bu şəxslərin yaşını çıxdıqda, məlum olur ki, Cəlilin atası Mehralı 1830-cu ildə, qardaşları Məhəmməd 1858-ci, Cabbar isə 1866-cı ildə doğulublar. Göründüyü kimi,

Cəlil ailənin kiçik oğludur. Həm də indiyə qədər adını bilmədiyimiz Cabbar adlı daha bir qardaşı var. Mehralı özündən 6 yaş böyük qardaşı Hacı Qurbanəli ilə bir evdə yaşayır. Onların ayrı evinin olmaması qardaşların kasıb olduğunun göstəricisi sayıla bilərdi, amma Qurbanəlinin həcc ziyarətində olması bu ehtimalı azaldır, çünki kameral siyahıların ilk müəllifi olan İ.Şopen həcc ziyarətinin 600 rubla başa gəldiyini yazır ***[22, s.704].*** Kifayət qədər böyük məbləğ olan bu qədər pulu həcc ziyarətinə xərcləyə bilən ailəni kifayət qədər imkanlı hesab etməliyik. Oxucuda aydın təsəvvür yaratmaq üçün qeyd edək ki, 455 kq-a ekvivalent olan o vaxtın çəki vahidi olan 1 xalvar buğdanın da, 1 sağmal inək kimi qiyməti təxminən 6 rubl idi, başqa sözlə, həcc ziyarətinə sərf olunan pula 45 ton buğda və ya 100 sağmal inək almaq olardı ***[22, s.745; s.795-796].***

Bu sənəddən Cəlilin indiyə qədər haqqında məlumat verilməyən babası Mahmudun, əmisi Qurbanəlinin və onun oğlu Mehdinin də adlarını öyrənirik.

Ailədəki 5 qadından ikisini Qurbanəli ilə Mehralının arvadları hesab etsək, bu qardaşların 3 qızının olması da məlum olur, amma onların neçəsi hansı qardaşın qızıdır, bilmirik.

Göründüyü kimi, kameral siyahı 2 rəqəmlə sıralanıb. Buradakı birinci rəqəm, yəni 11 rəqəmi ailənin hazırkı, 1873-cü ilin kameral siyahısındakı, 19 rəqəmi isə əvvəlki, 1859-cu ildə tərtib edilmiş Kameral siyahıdakı nömrəsini göstərir.

İndi bu ailənin 1859-cu ildəki vəziyyətinə baxaq:

“İrəvan qəzası Dərələyəz nahiyəsi kəndlərinin kameral siyahısı.1859-cu il.
SALLI kəndi.
Xəzinə torpaqlarında yaşayan dövlət kəndliləri.
İslam dininə mənsub olan tatarlar.
19.7.Qurbanəli Kərbəlayı Mahmud oğlu 35 y;
qardaşları: Fərzalı 30 y (onun oğlu Hüseyn 2 y);
Mehralı 29 y (əvvəlki kameral siyahıda yaddan çıxıb); oğlu Məhəmməd 1 y.
Ailədə 5 qadın var” [23].

Siyahıdan məlum olur ki, Kərbəlayı Mahmudun Fərzalı adında daha bir oğlu, Fərzalının isə Hüseyn adında 2 yaşlı oğlu var. Mahmudun Kərbəla, Qurbanəlinin isi Məkkə ziyarətində olması bu ailənin bir tərəfdən dindar, digər tərəfdən isə imkanlı olduğunu göstərir.

1801-ci ildə doğulan Mahmud Alı oğlunun siyahıda olmaması onun vəfat etdiyini göstərir, məlum olur ki, Mahmud 58 yaşına çatmadan ölüb, amma hansı ildə öldüyünü bilmirik.

Mehralının adından sonrakı qeyd onun 1852-ci ilin kameral siyahısında olmadığını göstərir. Amma Mehralı təkcə 1852-ci ilin deyil, 1842-ci ilin kameral siyahısında da unudulub:

“Naxçıvan qəzası Dərələyəz mahalının Kameral təsviri. 1842-ci il. №18 (39). SALLI KƏNDİ.

Bərgüşad tayfası

...

6.Mahmud Alı oğlu 45 y; oğlu Qurbanəli 20 y.

İslam dininin şiə məzhəbinə mənsubdurlar. 14 Naxçıvan xalvarı əkin yeri var, 18 Naxçıvan xalvarı buğda, 23 Naxçıvan xalvarı arpa əkirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 85, nahiyə mərkəzinə 14 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğul olurlar. Dolanışıqları yaxşıdır.

Torpağı daşlı-gillidir. Öz meşəsi olmadığına görə 5 verst məsafədə yerləşən Hors meşəsindən istifadə edirlər.

14 verst torpağı var, onun 20 xalvarı əkinə yararlıdır. Çay və bulaq suyundan istifadə edirlər.

Biçənəkləri az olsa da, ətraf dağlar yaxşı örüş yeridir.

Buğda, arpa və darı əkirlər.

Kənddə 10 at, 120 iribuynuzlu, 257 xırdabuynuzlu heyvan var.

İmzalar: Xanasanlı tayfasının icma başçısı Əlihüseyn Məşədi Alməmməd oğlu (möhür); kəndxuda Nəbi Kərbəlayı Fətəli oğlu; Bayraməli Səfalı oğlu” [24].

Xatırladaq ki, o vaxt Naxçıvan şəhəri qəza mərkəzi, Keşişkənd isə nahiyə mərkəzi idi.

İ.Şopenin rəhbərliyi ilə tərtib edilmiş Dərələyəz mahalının 1831-ci ilə aid Kameral təsvirində ***(qeydiyyatçı katib V.Zolotnitski)*** isə başqa qohumları ilə yanaşı, Aşıq Cəlilin atası Mehralının da adı var:

“Naxçıvan əyaləti Dərələyəz mahalının Kameral təsviri. 1831-ci il. №39.SALLI KƏNDİ.

Bərgüşad tayfası

...

7.Mahmud Alı oğlu 30 y; arvadı Reyhan 30 y; iki oğlu var: Qurbanəli 8 y; Mehralı 1 y; iki qızı var: Mələk 9 y; Hürü 5 y.

Bu kənd Səlimçayın yaxınlığında yerləşir. Ərazisi 14 verstdir, onun 20 xalvarı əkinə yararlı suvarılan torpaqdır. Çay və bulaqların suyundan istifadə edirlər. Az miqdarda ot biçirlər, lakin ətraf dağlar əlverişli otlaqlardır.

Buğda, arpa və darı əkirlər.

Kənddə 75 öküz, 73 inək, 45 buzov, 522 qoyun, 253 keçi, 26 at və 11 ulaq var.

Kənd xəzinəyə məxsusdur”***[25, s.89-91].***

Dərələyəz mahalının 1831-ci ilə aid Kameral təsvirindən Aşıq Cəlilin nəsil şəcərəsi haqqında ətraflı məlumatlar əldə edirik. Əgər Mahmud

doğulan vaxt atası Alının 30 yaşında olduğunu ehtimal etsək, Alı təxminən 1770-ci ildə doğulub. Beləliklə, Aşıq Cəlilin 250 illik şəcərəsini müəyyən etmiş olduq.

Təəssüf ki, kiçik oğlu Aşıq Bəhmənin 1944-cü ildə ikinci dünya müharibəsində itkin düşməsi ilə Aşıq Cəlilin kişi cinsindən olan nəsli gəlib bizə çatmayıb. Başqa bir oğlu Xəlil isə erməni daşnakların 1918-ci ildə Dərələyəzdə törətdiyi qırğınlar zamanı həlak olmuşdur ***[3].***

Aşıq Cəlil haqqında əldə etdiyimiz mühüm məlumatlardan biri də onun etnik mənsubiyyətinin qaraçorluların bərgüşüd tayfasına mənsub olmasıdır.

Qadın adlarının da qeyd edildiyi bu yeganə və qiymətli Kameral təsvirdən Mahmudun atasının, arvadının və qızlarının da adlarını öyrənirik.

Cəlilin nənəsi Reyhan həyat yoldaşı Mahmud kimi 1801-ci ildə, bibiləri Mələk 1822-ci, Hürü isə 1826-cı ildə doğulmuşlar.

1831-ci və 1842-ci illərin kameral siyahılarında Mahmudun yaşında müəyyən fərq də nəzərə çarpır. 1831-ci ildə 30 yaşında göstərilən Mahmudun 1842-ci ildə 41 yaşı olmalı idi, amma 45 yaşında göstərilib. Bunlardan hansına üstünlük verilməsinə gəlincə, bu sənədlərlə olan iş təcrubəmiz göstərir ki, 1831-ci ilin Kameral siyahısı daha mötəbər hesab olunmalıdır.

Mehralının özünə gəlincə, 1831-ci ildə 1, 1859-cu ildə 29, 1873-cü ildə isə 43 yaşında göstərilməsi onun 1830-cu ildə doğulduğunu göstərir.

1831-ci və 1842-ci ilin kameral siyahılarında Mehralının özündən böyük qardaşı Fərzalının da adı qeyd edilməyib.

1873-cü ilin Kameral siyahısında Fərzalı Hacı Qurbanəlinin evində yox, ayrıca qeydə siyahıya alınmışdır:

"40.19.Fərzalı Hacı Mahmud oğlu 40 y.

Ailədə 1 qadın var" [21].

Sənəddə Fərzalının oğlu Hüseynin adı yoxdur, əgər yaşasaydı, 15 yaşında olmalı idi, deməli həmin yaşa çatmadan ölüb. Fərzalının adının üstündən göy karandaşla xətt çəkilib, bu işarə onun da siyahıya almadan sonra vəfat etdiyini göstərir, amma oğlu Hüseyn kimi onun da hansı ildə öldüyü məlum deyil. Tibbin demək olar ki, olmadığı həmin dövrdə insanlar adi xəstəliklərdən, məsələn malyariyadan da ölürdülər.

Müraciət edəcəyimiz sonuncu kameral təsvir 1886-cı ilə aid **"Əyal(ailə) dəftəri"**dir. Orada Cəlilin ailəsi ayrıca göstərilib:

"**ŞƏRUR-DƏRƏLƏYƏZ qəzasının Ələyəz kənd icmasına daxil olan SALLI kənd sakinlərinin Əyal (ailə) dəftəri.1886-cı il.**

Şiə məzhəbinə mənsub olan müsəlman tatarlar.

Əkinçiliklə məşğul olurlar.

11.11.Hacı Qurbanəli Kərbəlayı Mahmud oğlu 62 y; oğlanları: Mehdi 10 y; Abbas 6 y; İmran 2 y (ailədə 3 qadın var).

46.11.Mehralı Kərbəlayı Mahmud oğlu 56 y;
oğlanları: Məhəmməd 28 y; onun oğlu İsgəndər 2 y;
Cabbar 20 y; Cəlil 18 y; Mahmud 8 y (6 qadın var).

Əslini imzaladılar.1.Müvəkkil edilmiş şəxslər: Hüseynalı Qoçəli oğlu; İbrahim Kərbəlayı Mahmud oğlu; Hüseynalı Kazım oğlu. 2.Kəndxudanın müavini Cəfər Hüseynqulu oğlu; 3.Ələyəz kəndinin kəndxudası Allahverən Kərbəlayı Cəfər oğlu. Savadsız olduqlarına görə şəxsi xahişləri ilə onların yerinə Molla Süleyman Kərbəlayı Şükür oğlu və 4.Məhəllə mollası Axund Əli Molla Səfəralı oğlu imza etdilər.

Əslini tərtib etdi və faktiki yoxlamanı həyata keçirdi: Şərur-Dərələyəz qəza rəisinin müavini Nazaryans.

Düzgünlüyünü təsdiq etdi: Şərur-Dərələyəz qəzasının rəisi (imza)"[26].

Göründüyü kimi, Cəlilin atası Mehralı artıq qardaşı Hacı Qurbanəlidən ayrılıb.

Qurbanəlinin 1873-cü ilin siyahısında 7 yaşında Mehdi adında bir oğlu var idi. Görünür, Mehdi ən azı 10 il bundan əvvəl ölüb, əks halda 23 yaşında olmalı idi. Sonradan doğulan uşağına Mehdi adını qoyan Qurbanəlinin Abbas və İmran adında daha 2 oğlu var. Onlar Cəlilin əmisi oğlanlarıdır.

Cəlilin öz ailəsinə gəlincə, burada onun daha bir qardaşını-8 yaşlı Mahmudu və böyük qardaşı Məhəmmədin 2 yaşlı oğlu İsgəndəri də görürük. Mehralı 1878-ci ildə doğulan sonuncu, dördüncü oğluna atası Mahmudun adını qoyub.

Tədqiqatçılar Ə.Şamil, Q.Kəngərli və başqalarının adını çəkdikləri, Aşıq Cəlilin müasiri olan aşıq və şairləri də bu siyahılarda axtarmaq maraqlı nəticələrə gətirə bilərdi. Onlardan birini-şair Təhməzi müəyyənləşdirmək mümkün oldu:

"SALLI kəndi, 1873-cü il.
24.10.Hacı Əlipənah Məhəmməd oğlu 65 y;
oğlanları: **Behbud 34 y; onun oğlanları: Məhəmməd 3 y; Məmmədqulu 2 y;**
İbrahim 28 y; oğlanları: ***Təhməz 5 y;*** **Qulaməli 1 y;**
Gülmalı 24 y (ailədə 6 qadın var)".

Göründüyü kimi Şair Təhməz Aşıq Cəlillə eyni ildə, 1868-ci ildə doğulub.

Kənddə ayrı Təhməz yoxdur və onu kiminləsə səhv salmaq mümkün deyil.

Kəndin siyahısında Təhməzin başqa bir əmisi də var:

"41.10.Dünyamalı Hacı Əlipənah oğlu 45 y; oğlanları: Baxşəli 22 y; Yəqinəli 15 y; Möhbalı 14 y; Namazəli 5 y; Qurbanəli 3 y (ailədə 3 qadın var)" ***[21].***

Təhməzin ailəsi 1859-cu ilin kameral siyahısında və 1886-cı ilin Əyal dəftərində də var. Güman edə bilərik ki, bu məlumatlar Şair Təhməzin irsini araşdıracaq gələcək tədqiqatçılar üçün faydalı olacaqdır.

Nəzərdən keçirdiyimiz sənədlərin heç birində Dəllək Xələfin adına, yəni Xələf adına rast gəlmədik.

Sonda Sallı kəndi və bərgüşad tayfasının da daxil olduğu qaraçorlular haqqında qısa məlumat verməyi lazım bilirik.

Bizə gəlib çatan məlumatlar bu kəndin əhalisinin Səfəvi xanədanına və Səfəvilər dövlətinə olan sədaqətini sübut edir. Osmanlı dövləti 1724-cü ildə Səfəvilərin bir çox əraziləri ilə yanaşı, Sallı kəndinin yerləşdiyi Dərələyəz mahalını da işğal etdikdən sonra, vergi yığmaq üçün 1727-ci ildə Dərələyəz mahalının da daxil olduğu Naxçıvan sancağı üzrə müfəssəl dəftər tərtib etmişdilər. Həmin sənəddə Dərələyəzin başqa kəndləri kimi, Sallının da adı var:

"57.DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN SALLI MƏZRƏSİ

Bu məzrə əvvəllər kənd imiş. Kəndin əhalisi qızılbaş (şiə) olduğuna görə qaçıb getmişdi.

Kənd boş qaldığına görə dəftərə məzrəə olaraq qeydə alındı.

Buğda və vergilərdən əldə edilən gəlir 3.620 ağça"*[27, s.186].*

Qeyd edək ki, həmin vaxt Sallı əhalisindən başqa, əhalisi qızılbaş (şiə) olan və sallılılar kimi qaçıb gedən daha 3 kənd vardı. Bunlar Şahyurdu, Ərdiş və Kərəkölük kəndləri idi ***[27, s.9].***

Şiə təriqətindən olan bu köçkünlər qonşu əyalətlərə köç etməklə həm öz təriqətlərində qalma fürsəti tapır, həm də təriqətini dəyişmədiyinə görə, osmanlı müftilərinin fitvalarının onlara tətbiq edilməsindən xilas olurdular. Osmanlı idarəsində qalan və köçə bilməyən əhali isə üzdə təriqətini dəyişməklə vəziyyətdən çıxa bilirdi. Lakin səfəvilər osmanlıları tutduqları ərazilərdən çıxardıqdan sonra təriqətlərini dəyişmiş insanlar yenidən əvvəlki təriqətlərinə dönürdülərsə də, səfəvilərin də, osmanlıların da sərt münasibəti ilə qarşılaşırdılar. Səfəvilər həmin şəxslərə mənəvi zərbə olan "dönük", yəni təriqətinə və məzhəbinə dönük çıxan damğası vurur, osmanlılar isə cərimə tətbiq edərək qeyri-müsəlmanlardan aldıqları baş vergisi olan "bədəli-cizyə" vergisini ödətdirirdilər ***[28, s.14].***

Nadir xan Əfşar Səfəvilər dövlətinin osmanlılar tərəfindən işğal edilən bütün torpaqları kimi, 1735-ci ildə Dərələyəzi də azad etdi və bu yerlərin gələcək sakinləri olan qaraçorlular da bu işdə ona ciddi kömək etdilər. Qarabağda yaşayan Qaraçorlu eli Nadir şah Əfşarın hakimiyyətinə qədər yarımmüstəqil həyat tərzi sürmüş, Nadir Qarabağı osmanlılardan geri almaq üçün gələndə yerli tayfaları öz qoşununa dəvət edərkən, qaraçorlular həvəslə onun təklifini qəbul etmişlər. Onun qoşununda vəzifə alan Qaraçorlu elinin

başçısı Rüstəm bəy Osmanlı Sədrəzəmi Abdulla paşanı döyüşdə öldürmüşdür. "Qarabağnamə" müəllifi olan Mir Mehdi Xəzani bu barədə yazır:

"Şul vaxtda ki, Nadir şah Gəncə və Tiflis və İrəvan və Naxçıvan və Şirvanat vilayətlərini osmanlı sultanının qoşununun təsəllütlərindən çıxarıb Abdulla paşa Köprülü oğlu vəziri-əzəmi-Rum yüz min qoşun və çox top və tədarük ilə sultani-Rum tərəfindən məmur olub gəlmişdi ki, Nadir şah ilə cəng edə. Nadir şah Gəncə mühasirəsinə məşğul ikən Abdulla paşanın şul əzim əsgərləri ilə İrəvana gəlməyini eşidib Gəncə üstə qoşun qoyub, özü əlli min qoşun ilə Abdulla paşaya müqabil gedib Naxçıvan və İrəvanın Arpa çayında davaları vaqe olub, Rum qoşununu basıb və Abdulla paşa vəziri-əzəmi Rüstəm bəy Qaraçorlu öldürüb başını Nadir şah hüzuruna gətirmişdi" ***[29, s.123-124].***

Tarixçi alim H.Məmmədovun (Qaramanlı) "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (1727)" kitabına yazdığı ön sözdə qaraçorlularla bağlı maraqlı bir fakta da rast gəlinir.Müəllif qeyd edir ki, həmin "müfəssəl dəftər"dən və başqa mənbələrdən məlum olur ki, Qaraçorlu tayfası tez-tez ermənilərə basqın edir və tutub gətirdilkəri ermənіləri öz tarlalarında işlədirdilər ***[28, s.19].***

Dərələyəz 1735-ci ildə azad edilsə də, uzun müddət boş qalmışdı. Rusiya imperiyası 19-cu əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqlarını işğal etmək üçün hərbi əməliyyatlara başlayanda Qarabağ xanlığı müharibənin ən qaynar ərazisi olmuşdu. Qarabağ hakimi İbrahim xan və oğlu Mehdiqulu xandan fərqli olaraq, qaraçorlular öz dövlətinə-təbəəsi olduqları İran Qacarlar dövlətinə sadiq qalmış və Qaraçorlu tayfasının başçısı Nəbi bəylə Mehdiqulu xan arasında nifaq yaranmışdı. Ruslara qarşı döyüşən Qacar qoşunlarının komandanı Abbas Mirzə qaraçorluların sədaqətini görüb, 1811-ci ildə o vaxta qədər boş olan Dərələyəz mahalını Nəbi bəyin başçılığı ilə qaraçorlulara vermiş və onları bütün vergilərdən azad etmişdi. İşğaldan sonra Rusiya dövləti də onların bu imtiyazını saxlamışdı ***[30, s.80].***

Rusiya imperiyası 1827-ci ildə İrəvan xanlığını və Dərələyəz mahalının da daxil olduğu Naxçıvan xanlığını işğal etdi, 1828-ci il fevralın 10-da bağlanmış Türkmənçay müqaviləsinə görə hər iki xanlığın ərazisi Rusiyanın tərkibinə keçdi ***[31, s.581-607].***

Osmanlılar kimi rus idarəçilər də ilk növbədə vergi toplamaq məqsədi ilə "Kameral təsvir" deyilən sənədlər tərtib edib, əhalini siyahıya aldılar. Belə sənədlərin birincisi 1831-ci ildə, digərləri isə 1842-ci, 1852-ci, 1859-cu, 1873-cü və 1886-cı illərdə tərtib edilmişdir. Uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalan bu mühüm dövlət sənədləri görkəmli şəxsiyyətlərin doğum tarixlərini və başqa məlumatları özündə daşımaqla tədqiqatçılar üçün çox qiymətli mənbə rolunu oynayır. Aşıq Cəlilin doğum tarixi və şəcərəsi də həmin sənədlərin əsasında müəyyən edildi.

Mənbə və ədəbiyyat:

1.А.Шамилов. Ашуг Джалил.// газ.”Советская Нахичевань”, 4.12.1985, №297(1144).
2.Ə.Şamilov. El sənətkarları. Aşıq Cəlil // “Sovet Naxçıvanı” qəz,15.12.1985, №291 (14329).
3.Azərbaycan Sovet Ensiklopediyası, C.10, Bakı, 1987.
4.Q.Kazımov.Aşıq Cəlilin sorağı ilə.// “Qobustan” jur., 1989, №3.
5.Q.Kəngərli. Aşıq Cəlil kimdir? //”Ozan” qəz., 29.02.1992, №2(2).
6. Q.Kəngərli.Erməni lobbisi...Azərbaycan faciəsi. Bakı, 1992.
7.K.Dərələyəzli. Dərələyəz od içində. Bakı, 2001.
8.K.Dərələyəzli.Aşıq Cəlil yaradıcılığı.// Dərələyəz qəz., 16.03.2013. №4(24).
9.H.Mirzəyev. Qərbi Azərbaycanın Dərələyəz mahalı. Bakı, 2004.
10.Dərələyəz folkloru (Tərtib edənlər: H.Mirzəyev, H.İsmayılov, Ə.Ələkbərli). Bakı, 2006.
11.Ə.Ələkbərli. Abbasqulu bəy Şadlınski. Bakı, 1996.
12.Ə.Ələkbərli. Qərbi Azərbaycan. Vedibasar mahalı, 1-ci c. Bakı, 2000.
13.Ə.Şamil.Dastanlaşmış ömürlər. Bakı, 2001.
14.A.(Səfolu) Alıyev. Dərələyəz folklorunun regional xüsusiyyətləri. Bakı, 2008.
15.Ali Şamil.Sallı Aşıq Celil.//Folklor-Edebiyyat(Nahçıvan özel sayısı), N3(51).
16. Ə.Şamil. Sallı Aşıq Cəlil.//”Dədə Qorqud” jur., 2007, N3.
17.Azərbayca Respublikası Xatirə kitabı. 9-cu cild. Bakı, 2009.
18. M.Hüseynli.Cəlili havası kimindir?// “Təzadlar” qəz., 17.01.2015.
19. M.Qasımlı. Ozan-aşıq sənəti. Bakı, 2011.
20.M.Qasımlı. Folklor və ədəbiyyat araşdırmaları. Bakı, 2017.
21.Erm.Milli Arxivi, F.93, s.1, s.v.165.
22.И.Шопен.Исторический памятник Армянской области в эпоху ее присоединение к Российской империи. С.Пб, 1852.
23.Erm.Milli Arxivi, F.93. s.1. sax.vah.136.
24.Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi, F.25, s.2, s.v.6.
25.Dərələyəz mahalının Kameral təsviri (Tərcümə edən, çapa hazırlayan və Ön sözün müəllifi Nazir Əhmədli). Bakı, 2017.
26.Şərur-Dərələyəz qəzasınının Əyal (ailə) dəftəri. Erm.Milli Arxivi, F.93, s.1, s.v.221.
27.Naxçıvan sancağının müfəssəl dəftəri (Araşdırma, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı), tərcümə edənlər: Ziya Bünyadov və H.Məmmədov (Qaramanlı)), Bakı, 2001.

28.Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı)). Bakı, 2000.
29.Qarabağnamələr, 2-ci kitab, Bakı, 2006.
30.В.Григорьев. Статистическое описание Нахичеванской провинции. С.Пб, 1833.
31. M.Süleymanov. Türkmənçay müqaviləsi. Bakı, 2015.

Nazir Ahmadli

Ashug jalil's family in daralayaz

Summary

The author of the article had determined a famous Ashug Jalil's and his relatives' dates of birth who were born in Sally village of Daralayaz district on the basis of cameral descriptions compiled by the officials of Tsarist Russia in the 19th century and he revealed his 250-year genealogy. It became apparent that Ashug Jalil was born not in 1850, but in 1868. He is considered to be the author of 12 saz songs.

Though different articles have been written about Ashug Jalil within last 30 years, firstly the author of the article discovers his two brothers', grandfathers', two uncles', cousins', grandmothers' and aunts' names and he introduces them to the scientific community. It had been revealed that Ashug Jalil belonged to the Bargushad tribe of the Garachorlulars.

The author had discovered that Ashug Jalil's son Ashug Bahman was sent to the Great Patriotic War from Babek region in 1942 and was lost in 1944. So, the majority of the family members died as a result of massacres (genocide) which were committed by Armenian dashnaks in Daralayaz and an end had been put to disputes about Ashug Jalil's refugee life.

Назир Ахмедли

Происхождение Ашуга Джалиля из Даралаяза

Резюме

Автор статьи, на основе камеральных описаний, составленных чиновниками царской России в 19 веке, уточнил дату рождения знаменитого Ашуга Джалиля и его близких родственников, родившихся в селе Саллы Даралаязского магала, также выявил его 250-летнюю генеалогию. Автором выявлены, что Ашуг Джалиль родился не в 1850 году, как раньше приблизительно предполагали, а в 1868 году. Он является автором 12 композиций для саза .

В течение последних 30 лет написан ряд работ про Ашуга Джалиля, но имена двух братьев, дедушки, двое дядей и двоюродных братьев, бабушки и тётей Ашуга Джалиля выявлены именно автором статьи и вводится в научный оборот впервые. Было установлено, что Ашуг Джалиль принадлежит к племени Баргушат из рода Карачорлу.

Автор обнаружил, что сын Ашуга Джалиля Ашуг Бахман отправился из Бабекского района в Великую Отечественную войну в 1942 году и пропал без вести в 1944 году. Таким образом, автор поставил точку дискуссиям о его местонахождении, где Ашуг Джалиль, после убийства большинство членов его семьи в результате массовых убийств, совершенных армянскими дашнаками в Даралаязе, провёл переселенческий образ жизни.

Rəyçi: Nizami Cəfərov
Akademik, əməkdar elm xadimi

ŞAHBAZ ŞAMIOĞLU (MUSAYEV)
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutufilologiya üzrə fəlsəfə doktoru, dosent
shindi61@mail.ru

M.F.AXUNDZADƏNİN "ALDANMIŞ KƏVAKİB" POVESTİNDƏ XALQ OBRAZI

Açar sözlər: Axundzadə, despot, ədalətli hökmdar, ideya, xalq hakimiyyəti, məğlubiyyət
Key words: Akhundzadeh, tyrant, fair ruler, idea, people's power, defeat
Ключевые слова: Ахундзаде, тиран, справедливый правитель, идея, народная власть, поражение

M.F.Axundzadənin "Aldanmış kəvakib" povestindən bəhs edən ədəbiyyatşünasların əksəriyyəti müəllifin Şah Abbas obrazı ilə Şərq despotizmini ifşa etdiyini, Yusif Sərracın simasıında ağıllı, ədalətli, demokratik ruhlu hökmdar surəti yaratdığını yazmışlar. Və əsər bu iki şəxsin timsalında istibdad və ədalət qarşıdurması müstəvisində təhlil edilmişdir. Əslində əsərdə daha bir obraz vardır ki, o, M.F.Axundzadənin ideallarını müəyyənəşdirir. Bu, xalq, toplum obrazıdır. M.F.Axundzadəni despotun idarəçilik metodundan, siyasi idarəçiliyə qarşı duran bəlli qüvvələrin (Yusif Sərrac tərəfdarlarının) etirazlarının formasından daha çox hadisələrə xalqın münasibəti maraqlandırırdı. Bu, həm də M.F.Axundzadənin maarifçiliyindən irəli gələn bir məsələ idi.

M.F.Axundzadənin siyasi, elmi-fəlsəfi dünyagörüşünün təhlili göstərir ki, maarifçi filosof despotizmin aradan qaldırılması üçün despotun aradan qaldırılmasının, yaxud dövlət idarəçiliyinə "yaxşı padşah"ın (konkret halda Yusif Sərracın) gətirilməsinin heç nəyi dəyişdirə bilməyəcəyini çox yaxşı anlayırdı. Diqqəti bu məsələyə yönəldən görkəmli tədqiqatçı Y.Qarayev zərgər dəqiqliyi ilə yazırdı: "İdeal şah" mövzusu altmışıncı illərdə Axundzadə üçün ötülmüş mərhələ idi. Onu artıq "yaxşı şah" yox, "yaxşı xalq" mətləbi narahat edirdi..." (1, s. 232). M.F.Axundzadə "Aldanmış kəvakib"lə göstərmək istəyirdi ki, əslində hər şey xalqın mövcud siyasi hakimiyyətlə barışıb-barışmamasından, taleyinin həll olunduğu zaman ortaya qoyacağı mövqedən asılıdır. Akademik İsa Həbibbəyli məhz bu rakursdan çıxış edərək haqlı olaraq M.F.Axundzadənin Azərbaycan ədəbiyyatına ilk dəfə xalq hakimiyyəti ideyasını gətirdiyini yazmışdır (2 , s. 7).

Şah Abbas povestdə yalnız əsərin ekspozisiyasında görünür. Bundan sonra finala qədər baş verən hadisələr bilavasitə onunla bağlı olsa da, müəllif Şah Abbası bilərəkdən ön plana çəkmir. Şah Abbasın siyasi idarəçiliyi,

ölkənin vəziyyəti barədə müəllifin özü danışmır. M.F.Axundzadə "ulduz bəlası"ndan xilas yolunun arandığı məclisdə şahın vəzirlərini danışdırır. Şah onlardan heç birinin sözünü kəsmir, bir çıxış yolu göstərə bilməsələr də, axıra qədər onları dinləyir. Dramatizm yüksək həddə çatır və burada bir anlıq təhkiyə öz yerini drama verir; tiplərin özünüifşası onların təmsil etdiyi düşərgə barədə kifayət qədər müfəssəl təsəvvür yaradır. Vəzirlər bir-birinə etibar etməyib ağız-ağıza dayanan canavarlar kimi, ulduzlardan xəbər gətirən, amma çıxış yolunu göstərə bilməyən münəccimbaşını dərhal qurban verməyə hazır olurlar və burada şahın özünün daha bir keyfiyyəti (əslində keyfiyyətsizliyi) üzə çıxır: dramatik situasiyada son qərarı şah deyil, Mövlana Cəmaləddin verir. Çıxış yolunu da o göstərir: şah novruzdan on beş gün keçənədək səltənətdən uzaqlaşmalı, taxt-tacı bir "mücrim və vacibülqətl kimsənəyə" tapşırmalı, xalqın nəzərindən uzaqlaşmalıdır: "O surətdə kəvakibin təsiri haman mücrimin başında çatlayacaq; çünki o vaxt İran padşahı odur" (3, s. 207). "Mücrim və vacibülqətl kimsənə" isə uzun-uzadı axtarılmır, dərhal tapılır. Bu, Yusif Sərracdır. M.F.Axundzadə bu lətifəvari əhvalatdan çox ciddi bir məsələdə priyom kimi istifadə edir. Başda Mövlana Cəmaləddin olmaqla şahın adamları müxalif düşüncəli Yusif Sərracın mümkün hakimiyyət çevrilişini (üsyanı) önləmək məqsədilə süni hakimiyyət dəyişikliyinə gedirlər. Bu ssenarinin müəllifi Mövlana Cəmaləddindir. Tarixdə Yusif Sərracın qətlini məhz Cəlaləddin Məhəmməd Münəccim Yəzdi (Mövlana Cəmaləddinin prototipi) təşkil etmişdir. O, özünün "Tarixi-Abbasi" əsərində bunu təsdiqləmişdir: "... cümə axşamı zilqədə ayının 7-də Yusifi padşah edib, kəlbi-asitani-Əlini padşahlıqdan çıxartdıq və yekşənbə günü ayın 10-da Yusifi-tərkeşduzu onu gözləyən taleyinə uyğun olaraq öldürdük və şah səltənət təxtində oturdu" (4). Bu, despotizmin mahiyyətidir.

M.F.Axundzadə povestdə despotizmin mahiyyətini bədii dilin qüdrəti ilə çatdırdığı kimi, elmi-fəlsəfi, publisistik yaradıcılında da bu məsələni həmişə diqqətdə saxlamış, üstəlik ondan yaxa qurtarmağın yolunu da göstərmişdir. Ədib "Kəmalüddövlə məktubları"nda yazırdı: "Despot elə bir padşaha deyilir ki, öz işlərində və davranışında heç bir qanuna tabe olmasın, xalqın malına və canına həddi-hüdudu olmayan təsəllütü olsun. Belə padşahların hakimiyyəti altında olan xalq kütlələri alçaq və rəzil qullara çevrilib, hər cür azadlıq və insanlıq hüququndan məhrum olurlar" (5, s. 201). M.F.Axundzadə əsərin başqa bir hissəsində despotizmdən yaxa qurtarmaqda xalq faktorunu önə çəkmişdir və ona görə də xalqa müraciətlə yazırdı: "Sən ədədcə və qüdrətdə despotdan qat-qat artıqsan. Sənə ancaq yekcəhətlik və yekdillik lazımdır ki, revolyusiya edib köləlikdən nicat tapasan" (5, s. 217). Ədib "Kəmalüddövlə məktubları"nı yazmasından on il sonra (1875) dostu Mirzə Yusif xanın "Yek kəlmə" əsərinin tənqidinə həsr etdiyi məqaləsində də bu dünyagörüşünü davam etdirmiş, zülm və sitəm səltənətində xalqın

missiyasını bir daha göstərmişdir: "... millətin özü bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik əsaslarını əldə etməli, sonra zalıma müraciət edərək deməlidir: Səltənət və hökumət büsatından əl çək!.." (5, s. 311). "Aldanmış kəvakib"də də əsas ideya elə xalq faktorudur. Povestdə despotun qarşısına yalnız Yusif Sərrac və onun daxil olduğu cərəyanın nümayəndələri (məzhəbi-tənasüxçülər) çıxırlar və aqibət bəllidir. Müəllifin maarifçilik ideyası ortadadır və o, Yusif Sərracın məğlubiyyətinin qaçılmazlığını bədii yolla ifadə etmişdir.Yusif Sərrac kimdir? Onun tarixi şəxsiyyət olaraq kimliyi və dünyagörüşü ilə povestdəki obrazı arasında oxşar və fərqli cəhətlər vardır. Bunun üzərində qısaca dayanmağı zəruri sayırıq.

"Aldanmış kəvakib" povesti və M.F.Axundzadənin bədii və elmi-fəlsəfi yaradıcılığı ilə bağlı bütün tədqiqatlarda nöqtəvilər təriqəti həmişə ön planda olmuşdur. Tədqiqatlara görə, I Şah Təhmasibin hakimiyyəti dövründə (1524-1576) nöqtəvilərin lideri dərviş Xosrov idi və o, şahın ciddi xəbərdarlığından sonra özünü zahirən əqidəsindən uzaqlaşmış kimi göstərmişdir. Yusif Sərrac (Tərkeşduz) və Kiçik Qələndər dərviş Xosrovu özlərinə mürşid hesab etmişlər. Dərviş Xosrov I Şah Abbasın hakimiyyətinin ilk çağlarında bir qədər fəallaşmış, sonralar situasiyanı qiymətləndirərək ehtiyatlı olmağa üstünlük vermişdir. Onun I Şah Abbasla əlaqələri olmuşdur. Yusif Sərracın isə Şah Abbasa oxqabı tikib bağəşladığına dair məlumatlar vardır. Lakin Şah Abbas nöqtəviləri həmişə diqqəti altında saxlamışdır. Sonralar Şah Abbas Qəzvində qiyam qaldıracaqlarından şübhələnərək Xosrovun öldürülməsinə göstəriş vermişdir. Tutulub saraya gətirilən Kiçik Qələndər yolda intihar etmişdir. Yusif Sərracı isə məcburən "ulduz əhvalatı"nın baş oyunçusu etmişlər. Şah Abbas Yusif Sərraca "Sizin silsilədə səndən başqa, padşahlığa layiq adam yoxdur. Səni padşah edirəm ki, bu ulduzun əsəri sənin hökumətinə müvafiq olsun". Şah Abbas onu taxtda əyləşdirir və özü əlinə qiymətli bir əsa götürərək eşikağasıbaşı kimi onun xidmətində dayanır. Vaxt tamam olandan sonra Yusif Sərrac qətlə yetirilir. Tədqiqatlara görə, Yusif Sərracın öldürülməsindən sonra nöqtəvilərin qətlləri davam etdirilir, bu cərəyanın bir çox nümayəndələri isə mühacirətə getməyə məcbur olurlar (4). Tarixdə Yusif Sərracın əhvalatı bundan ibarətdir. M.F.Axundzadə, özünün yazdığı kimi, həmin tarixi hadisədən bəhrələnmiş, bəzi dəyişikliklər etmişdir. Əsərdə Şah Abbasla Yusif Sərracın şəxsi tanışlığı barədə heç nə deyilmir, üstəlik tarixdəkinin əksinə olaraq povestdə Yusif Sərrac öldürülmür.

Povestdə Yusif Sərracın iki təqdimatı ilə qarşılaşırıq. Birinci təqdimat hakimiyyət nümayəndələrindən gəlir və mollabaşı onu "mücrim və vacibülqətl kimsənə" ("günahkar və qətli vacib olan"), "məzhəbi-tənasüxə qail" şəxs kimi xarakterizə edir. İkincisi müəllif təqdimatıdır ki, burada maraqlı olan cəhət Yusif Sərracın tərcümeyi-halında bəzi detallarla M.F.Axun-

dzadənin həyatının ilk çağları oxşarlıq təşkil edir. Qəzvinli Kərbəlayi Səlim oğlu Yusifin mömin bir şəxs olmasını arzulayır. Yusif İsfahana və Kərbəlaya gedərək, "böyük alimlərin məclisində təkmili-ülumə şüuru" edir, "tamam ülumi-islamiyyəyə vaqif" olur. Lakin o da gənc Fətəli kimi, ruhani olmaq fikrindən imtina edir: "Çünki üləmanın əksəri-ümurda təqəllübünü müşahidə edirdi, ona binaən bu sinfə nifrət bəhəm edib, istəmədi ki, özünü onların zümrəsinə daxil etsin" (3, s. 209). Bundan sonra povestdə Yusif Sərracın müxalifətçi obrazı canlandırır. O, Şah Abbas hakimiyyətinin, onun idarəçilik metodunun qəti əleyhinədir və söhbətləri zamanı narazılıqlarını aşkar bildirməkdən qətiyyən çəkinmir.

Yusif Sərrac cəmi bir neçə gün sürən hakimiyyəti dövründə Şah Abbasın bacarıqsız vəzirlərini işdən uzaqlaşdırır, əksəriyyətini həbs etdirir və həmişə onu düşündürən problemlərin aradan qaldırılmasına başlayır. Yusif Sərrac əhalinin sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı göstərişlər verir, bədən cəzasını qadağan edir, ruhanilərin məhkəmələrdən kənarlaşdırılmaları üçün müvafiq tədbirlər görür, ən nəhayət, onun göstərişi ilə münəccimlik peşəsi ləğv olunur. Maraqlıdır ki, Yusif Sərrac qısa müddət ərzində ölkənin xarici iqtisadi əlaqələri barədə də düşünür. Povestdə qısa şəkildə yeni padşahın Hollandiyadan gəlmiş nümayəndələri qəbul etməsi də təsvir olunur. Yusif Sərracın məqsədyönlü addımları tədqiqatlarda onun islahatları kimi təhlil edilməkdədir. Lakin, məlum olduğu kimi, həmin islahatlar onun hakimiyyətdən kənarlaşdırılması ilə yarımçıq qalır. Tarixdə olduğu kimi, Yusif Sərrac taxtdan endirilir, lakin tarixdəkinin əksinə biz onun qətlə yetirilməsinin şahidi olmuruq. Şübhəsiz ki, tarixi hadisəyə özünün bədii yanaşmasını əlavə edən M.F.Axundzadənin Yusif Sərracı məğlub duruma salmaqda və beləliklə, onun başladığı islahatların yarımçıq qalmasına rəvac verməkdə məqsədi olmuşdur. Biz hesab edirik ki, M.F.Axundzadəni bütövlükdə ideal hökmdar məsələsi düşündürməmişdir. Povestdə xalq içərisindən çıxmış Yusif Sərracı təkbaşına, yəni xalqın iradəsi və iştirakı olmadan hakimiyyət başına gətirməsini onun əsl xalq hakimiyyəti barədə düşüncəsi kimi dəyərləndirmək olmaz. Bu, xalq hakimiyyəti barədə müəllifin bədii həqiqəti də deyildir. M.F.Axundzadənin qənaətinə görə, dövlətin başında olan şəxs "xalqın iştirakilə qanunlar yaratmalı, parlament təsis etməlidir. Hər işi qanun əsasında aparmalı və özbaşına heç bir işə iqdam etməməlidir", "səltənət İngiltərədə olduğu kimi, məşrutiyyət səltənəti" olmalıdır ("Kəmalüddövlə məktubları"). Beləliklə, "Aldanmış kəvakib"də müəllifin əsl ideyasının nədən ibarət olduğunu müəyyənləşdirmədən Yusif Sərracın məğlubiyyətinin səbəblərini də açmaq mümkün deyildir.

Yusif Sərracın məğlubiyyətini tədqiqatçılar müxtəlif səbəblərlə izah etmişlər. Ortada onlarla elmi yanaşma olduğundan biz yalnız daha maraqlı və diqqətçəkən fikirlər üzərində dayanacağıq. Görkəmli axundzadəşünas

F.Qasımzadə Yusif Sərracın "İranın iqtisadiyyatında dəyişiklik olmadan bir təsadüf nəticəsində" hakimiyyət başına gəldiyini, lakin məqsəd və arzularına çatmadan məğlub olduğunu yazmışdır (6, s. 332). Göründüyü kimi, tədqiqatçı məğlubiyyətin səbəblərini izah etməmişdir, halbuki bunsuz povestdə müəllifin əsas ideyasını müəyyənləşdirmək mümkün deyildir. H.Məmmədzadə Yusif Sərracın məğlubiyyətini tarixi həqiqətlə bağlamışdır: "Müəllif Yusif Sərracı yaşatmır. Bizcə, bu yalnız onun üçün deyil ki, Axundzadə artıq ictimai hadisələrə daha dərindən yanaşıb, Yusif Sərracın bu tədbirlərinin uzun müddət davam edə bilməyəcəyini nəzəzrə alır və məhz bu cəhətdən də onu məğlub edir. Bu məğlubiyyətin səbəbi ... hər şeydən əvvəl tarixi həqiqətdən irəli gəlir" (7, s. 165). Tanınmış ədəbiyyatşünas Tahirə Məmmədin "Aldanmış kəvakib"lə bağlı tədqiqatı (8, s. 26-39) son illərin diqqəti çəkən elmi araşdırmalarından biri olması ilə yanaşı, Şah Abbas və Yusif Sərrac obrazlarına tamamilə yeni təfəkkür tərzindən təhlil edilməsi ilə seçilir. T.Məmməd kifayət qədər maraqlı mülahizələr irəli sürərək Yusif Sərracın məğlubiyyətini əsas iki amillə izah etmişdir. Birinci amil Yusif Sərracın şəxsi keyfiyyətləridir, yəni subyektiv mahiyyətlidir. T.Məmməd yazır: "Yusif Sərracın sonunu hazırlayan təkcə xalqın cahilliyi deyil, həm də onun idarə bacarığının olmamasıdır. O, lazım gələndə qəzəblənir, hakimiyyəti saxlamağa çalışır, bu yolda qan tökülməyinə belə razı olur. Lakin bacarmır" (8, s. 29). İkinci amil hakimiyyətə, siyasi idarəçilik məsələsinə sırf M.F.Axundzadənin özünün münasibətidir: "Yusif Sərraca islahatlarına görə rəğbət bəsləsə, bir çox cəhətdən mövqeləri üst-üstə düşsə də, o da müəllifin idealını təmsil etmirdi. Burada M.F.Axundzadə şahın üsul-idarəsindəki ədalətsizlikləri tənqid etsə də, hakimiyyətə münasibətə Aristotel kimi yanaşaraq sıravi vətəndaşın normal dövlət idarə edə biləcəyinə bir o qədər də ümid bəsləmir" (8, s. 30). Şübhəsiz ki, Yusif Sərracın məğlubiyyətini şərtləndirən amillər kifayət qədərdir. Biz T.Məmmədin və başqa tədqiqatçıların bu barədə qənaətlərini yüksək dəyərləndirməklə şəxsi mülahizələrimizi irəli sürməyi vacib sayırıq.Əvvəldə qeyd etdik ki, povestdə, ön planda olmasa da, M.F.Axundzadə xalqın, toplumun da obrazını yaratmışdır. Əsərdə Şah Abbas və onun tərəfdarlarının, eləcə də Yusif Sərracın obrazı bütün parametrləri ilə üzdədir, lakin müəllif xalqdan əsərdə cəmi bir neçə yerdə həm də cəmi bir neçə cümlədə bəhs etmişdir. İş burasındadır ki, böyük söz ustadı həmin bir neçə cümlədə həm özünün ideyasını ortaya qoymağı, həm Yusif Sərracın məğlubiyyətinin, həm də xalqın qanını soranların hakimiyyəti yenidən mənimsəyə bilmələrinin səbəbini göstərməyi bacarmışdır.

Süni hakimiyyət dəyişikliyinin baş memarı Mövlana Cəmaləddin ulduzları məharətlə aldatmağı bacardığı kimi, xalqın da aldadılmasını vacib sayır. O, məkrli plan barədə xalqın heç nə bilməməsini vacib sayır: "Amma gərək xəlqdən bir kimsənə bu tədbiri bilmiyə və zənn etmiyə ki, qibleyi-aləm

ariyətən təxtü tacdan əl çəkir; ta ki, haman mücrimi ki, təxtə çıxacaqdır, müstəqillən padşah bilələr...” (3, s. 207). Bu tədbir heç də saray adamlarının xalqdan çəkinmələrinə dəlalət etmir. Müəllif Şah Abbasın tərəfdarlarının davranışları ilə göstərmək istəyir ki, bu hakimiyyət üçün xalqın iradəsi, ümumiyyətlə, heç nədir. Onlar xalqın xəbəri olmadan onun taleyini istədikləri kimi müəyyənləşdirirlər. M.F.Axundzadə mövcud vəziyyəti yalnız hakimiyyətin hüdudsuz özbaşınalığı ilə deyil, həm də öz taleyinə münasibətdə total biganəlik sərgiləyən kütlənin səviyyəsi ilə bağlayır. M.F.Axundzadənin gerçəkliyə əsaslanan bədii təsvirində adamların qanunsuzluqlara, ədalətsizliklərə artıq alışdıqları, zülm və sitəmin onlarda bir immunitet yaratdığı, dəhşət və vəhşət əlamətləri görmədikdə hətta təəccübləndikləri xeyli inandırıcı görünür. Əsərdə Yusif Sərracın şahlıq taxtında əyləşəndən sonra şəhər əhlinin gördüklərinə münasibəti adamların düşüncə tərzinin klassik bədii ifadəsi baxımından əvəzsizdir: “Əhli-Qəzvin hər gün qələ qapılarından adam şaqqalarını asılmış görmədilər və şah meydanında cəlladların adam şaqqalamaqlarını və dardan asmaqlarını və göz çıxarmaqlarını müşahidə etmədilər. Bu keyfiyyət onlara xeyli qərib göründü” (3, s. 222). M.F.Axundzadə Yusif Sərracı məğlubiyyətə yuvarladan səbəbləri lakonik təsvirlərlə, bir-iki cümlə ilə verir. Xalq onun üçün gün ağlayan, haqqa-ədalətə əsaslanan təzə şahın rəhmdilliyini, nəhayət, “süst-rəylik və zəifülmizaclıq” kimi dəyərləndirir: “Sonra onun rəhminə və helminə bəhslər varid etdilər. Bunu süst-rəyliyə və zəifülmizaclığa həml qıldılar. Bundan əlavə, Yusif şahda hezar gunə özgə eyblər tapdılar. Müxtəsəri-kəlam bir belə ziyadə rəhimli padşahın təhti-əmrində zindəganlıq etmək nəhayət dərəcədə məlal-əfza göründü” (3, s. 222). Xalq artıq Yusif Sərracla bağlı qərarını verir: ona zəif padşah (əslində ədalətli və rəhimli) lazım deyil! Yusif Sərracın siyasi müxalifəti – köhnə hakimiyyətin nümayəndələri dərhal bu faktdan yararlanırlar: “Ümənayi-məzul xalqın bu növ niyyətini istinbat etdilər və onu qənimət bilməyə fürsəti fövt etmədilər” (3, s. 222). Beləliklə, Yusif Sərracın devrilməsi işinə birbaşa xalq cəlb olunur. Qiyam ulduzların vəd etdiyi vaxt başlanır. Həmin gün həm ulduzlar, həm də xalq aldadılır.M.F.Axundzadə “ulduz məsələsi”nə nə qədər əməl etsə də, təsadüf nəticəsində hakimiyyətə gəlmiş Yusif Sərracın məğlubiyyətinin obyektiv səbəblərini də açıb-göstərmişdir. Ona görə də problemi yalnız bu lətifəvari hadisə çərçivəsində təhlil etmək düzgün nəticə çıxarmağa və müəllifin ideyasının düzgün müəyyənləşdirilməsinə mane olardı.

Yusif Sərraca qarşı siyasi müxalifətlə (sabiq miraxur, sabiq xəzinədar, sabiq əmiri-topxanə, sabiq darğa və kəndxudalar) Yusif Sərrac hakimiyyətinin güc strukturları (süvarilərin sərkərdəsi Bağır xan, piyadaların sərkərdəsi Fərəc xan) birləşirlər. Qan töküləcəyini görən Yusif Sərracın tərəfdarları qarşı tərəfi sakitliyə dəvət etsələr də, vuruşmadan qaçmaq olmur, hər iki tərəfdən altı min nəfərədək adam həlak olur. Silahlı qarşıdurmanın

taleyini xalqın mövqeyi həll edir; "həqnaşinas xalq" müfəttinlərin (üsyançıların) tərəfinə keçir, Yusif Sərracın tərəfdarları ağır məğlubiyyətə düçar olurlar: "Aqibət asari-zəf və inkisar Yusif şahın həvaxahları tərəfindən müşahidə olundu; çünki həqnaşinas xalq peydərpey şəhərdən çıxıb, müfəttinlərin dəstəsinə qoşulub kəsrət və qüvvələrinə bais oldular" (3, s. 224). Beləliklə, Yusif Sərracın məğlubiyyətini digər obyektiv və subyektiv amillərlə yanaşı, xalqın birmənalı olaraq despotizmi müdafiə etməsi şərtləndirir. M.F.Axundzadə "Aldanmış kəvakib"də məhz xalqın bədii xarakteristikasını vermişdir. Onu əslində "yaxşı padşah" deyil, "yaxşı xalq" ideyası düşündürürdü. M.F.Axundzadə bu əsəri ilə göstərirdi ki, hakimiyyət başında ən ədalətli bir hökmdarın (konkret halda Yusif Sərracın) olması hələlik xalq hakimiyyətinin bərqərar olması demək deyildir. Əgər xalqı özünün taleyi maraqlandırmırsa, cəmiyyətin azadlığından, ədalətli, demokratik dövlət quruculuğundan bəhs etməyə dəyməz. M.F.Axundzadə bir maarifçi olaraq Qərbi Avropadakı kimi öz hüquq və azadlıqları uğrunda çarpışmağı bacaran siyasi cəhətdən yetişmiş bir xalq arzusunda idi.

Beləliklə, M.F.Axundzadə "Aldanmış kəvakib" povesti ilə əsl xalq hakimiyyətinin mahiyyəti, ona nail olmağın yollarını bədii şəkildə ortaya qoymuşdur.

Ədəbiyyat

1. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı: Elm, 2002, 740 s.
2. Həbibbəyli İ. Mirzə Fətəli Axundzadə dühasının işığı // AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası (xüsusi buraxılış). Bakı: Elm, 2012, s. 3-11.
3. Axundov M.F. Komediyalar, povest, şeirlər. Bakı: Yazıçı, 1982, 271 s.
4. Həsənov A., Onullahi S. Yusif Sərrac kimdir? "Ədəbiyyat və incəsənət" qəz., 1969, 4 yanvar.
5. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı: Yazıçı, 1987, 368 s.
6. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif, 1974, 487 s.
7. Məmmədzadə H. Mirzə Fətəli Axundov və Şərq. Bakı: Elm, 1971, 368 s.
8. Məmməd T. Tendensiyalı yaradıcılıq, müəllif mövqeyi və ədəbi qəhrəman // Poeyika.izm. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri, 2014, №1, s. 26-40.

Shahbaz Shamioglu (Musayev)

The image of the people in the narrative "Deceived stars" by M.F.Akhundzadeh

Summary

In this article it is noted that the majority of literary scholars discussing about M. F. Akhundzadeh's narrative "Deceived Stars" wrote that the author exposed the oriental despotism in the person of Shah Abbas and created a fair ruler in the image of Yusuf Sarraj. And the work has been analyzed in the context of confrontation between the tyranny and justice in the person of these two characters. The article concludes that in fact, the analysis of the work in this context does not allow us to define the author's main idea and to clarify the cause of Yusif Sarraj's defeat. Referring to the idea of enlightenment, the author wanted to show that as long as the people are politically passive and indifferent to their destiny, they will never be free. After coming to power without the will of the people, Yusif Sarraj was forced to suffer a defeat. In the article the thoughts of M.F.Akhundzadeh about the people's power are summarized.

Шахбаз Шамиоглу (Мусаев)

Образ народа в повести «Обманутые звезды» М. Ф. Ахундзаде

Резюме

В этой статье отмечается, что большинство литературоведов, анализирующих рассказ М.Ф. Ахундзаде «Обманутые звезды», писали, что автор разоблачил восточный деспотизм в лице шаха Аббаса и создал справедливого правителя в образе Юсуфа Сарраджа. И эта работа была проанализирована в контексте конфронтации тирании и справедливости в лице этих двух персонажей. В статье делается вывод о том, что на самом деле анализ работы в этом контексте не позволяет нам определить основную идею автора и прояснить причину поражения Юсифа Сарраджа. Обращаясь к идее просвещения, автор хотел показать, что до тех пор, пока люди политически пассивны и безразличны к своей судьбе, они никогда не станут свободными. После прихода к власти без воли народа Юсиф Саррадж, был вынужден потерпеть поражение. В статье обобщены мысли М. Ф. Ахундзаде о народной власти.

Rəyçi: Bədirxan Əhmədov
filologiya üzrə elmlər doktoru, professor

PƏRVANƏ MƏMMƏDLİ
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
mamedlli_ph@yahoo.com

XALQINI HƏM AĞLADAN HƏM DƏ VƏ GÜLDÜRƏN ŞAİR

Açar sözlər: Marağalı Hüseyn Kərimi, növhə, mərsiyə, bayatı,qoşma, -gəraylı, qəzəl, məsnəvi satira
Key words: Huseyn Kerimi from Maragha, a variety of literary activities, satire,novhe, marsiya, bayati, qoshma, gerayli, gazal, masnevi
Ключевые слова: Гусейн Керими Марагаи, разностаронная литературная деятельность, сатира, новхе, марсия, байаты, кошма, герайли, газаль, масневи

Sağlığında şeirləri xalqın dilində əzbər olub sevilən şairlərə zəmanəmizdə çox az rast gəlmək olar. Vətənimizin Güneyində yaşayıb yaradan Marağalı Hüseyn Kərimi belə şairlərdəndir.Onun şeirləri dildən-dilə,eldən-elə dolaşıb,şairə böyük sevgi və şöhrət qazandırıb.

Mirzə Hüseyn Kərimi 1926-cı ildə Marağada dünyaya gəlib.İlk müəllimi atası Məhəmməd Əli Zakir olub. Ailəsinin maliyyə durumu yaxşı olmadığı üçün həm ticarət etmək həm də təhsilini davam etdirmək məcburiyyətində qalıb.

Atası Məhəmməd Əli Zakir Kərimi də böyük satira ustası Mirzə Ələkbər Sabir kimi sabun bişirib açdığı dükanda satır, ailəsini dolandırırdı. Məhəmməd Əli Zakir xalq arasında seçilib sayılan şairlərdən olub. Hətta adı 1945(1324)-ci ildə Təbrizdə Milli Hökümət zamanı çap olunmuş "Ana dili" adlı dərslik kitablarına salınmış,məktəblərdə bir şair kimi onun yaradıcılığından bəhs olunmuşdu.

Hüseyn Kərimi atası vəfat etdikdən sonra onun sabun dükanını kitab dükanı kimi işlətməyə başlayır. Kəriminin kitab mağazası Marağada qədim bazarın içərisində ürək açan bir yerdədir.Bura həm də ədəbiyyat, maarif ocağını xatırladır.Qış aylarında Marağanın söz, şeir əhli ora yığışıb şeirləşir.Gənclər ana dilində yazmağı, şeirin fəzilətini,texnikasını H.Kərimidən öyrənirlər.

Kərimi cəmiyyətdə gedən hadisələrə etinasız qalmayıb,Siyasi durum və ictimai vəziyyət hər zaman onu düşündürüb. İçində yaşadığı elin-obanın gileylərini, dərd –sərlərini qələmə alıb, şah rejiminin yarıtmaz üsul-idarəsini, məmurların sadə xalqa yuxarıdan aşağı baxmasını hədəfə alıb. Elə bu səbəbə görə Kəriminin şeirləri şah dönəmində 12 il,İslam inqilabı dönəmində isə 10 il yasaq olunmuşdu.

Ey Kərimi, sözü rəng ilə boya
Görüsən camiə bazdır boyağa

- yazan şair bir növ el-oba dərdlərinə duzlu deyimlər geydirib, xalqının çəkdiyi əzabların söylər dili olub.

Hüseyn Kəriminin yaradıcılığı çoxsahəlidi.Onun yaradıcılığını şərti olaraq on qismə ayırmaq olar:

1.Satira və həcvlər 2.Növhə və mərsiyələr. 3.Münazirələr-(xalq dilində yazılan məzəli tamaşalar) 4.Lətifələr 5.Mukatibə və məravidələr. 6.Fars dilidə yazdıqları şeirlər7.Nəsihətnamələr 8.Pərakəndə şeirlər. 9.Ənənə və mərasimlər10.Səfərnamələr

Şairin "Rəngarəng " və ya "Külliyyate Ədəbiyyate Kərimi" adlı ilk kitabı 1958-ci ildə Təbrizin "Sədi kitabxanası" tərəfindən nəşr edilib. H.Kərimi şeirlərini 2001-ci ildə altı cilddə "Rəngarəng Kərimi" adı ilə yenidən çap etdirir.Daha sonrakı nəşrlərə isə tək satira və həcvləri deyil, mədhiyyələri, qəsidələri, nəsihət və səfərnamələri də daxil edilir.Artıq “Rəngarəng”in 16 cildi çap olunmuşdur.Dini mövzuda şeirlər yazan şairin növhə və mərsiyələri bir neçə cilddə ayrıca nəşr olunub. Onun indiyədək çap olunan kitablarının sayı 40-ı aşır. H.Kərimi bədii yaradıcılığa artıq İranda ənənə halını alan nəzirə ilə başlamadı. O ilk müəllimi olmuş atasının təsiri və tövsiyəsi ilə növhələrlə ədəbiyyata gəldi.

Hüseyn Kəriminin növhələri,mərsiyələri çoxdur. Sadə dildə yazılan bu növhələr asan əzbərlənib yadda qaldığından xalq tərəfindən çox sevilir. Hüseyn Kərimi sələfi M.Ə.Sabirin

Şairəm, çünki vəzifəm budur, əşar yazım
Düzü düz,əyrini əyri edəm izhar yazım, (6)

şeirinə qarşılıq olaraq –

Şairəm, şamü səhər fikr edərəm, şeir yazaram
Acığın gəlsə də,gəlməsə də düz yazaram.
İstərəm ömrümə asar eyləyim zəhmətimi
Mən öləndən sonra ta anlasınlar qiymətimi
(1, səh.47)

- söyləməsi Hüseyn Kərimiyə əsrimizin gerçək Sabiri deməyə haqq verir.

Şair özəl olaraq tənz-satira və həcv ustası kimi daha çox tanınır. Elinin,ölkəsinin qayğısını çəkən şair ictimai-sosial mövzulara yaradıcılığında geniş yer verir. Şah zamanında Amerikanın təsiri altına düşən və az qala onun müstəmləkəsinə çevrilən ölkəsinin halına acıyır.”Amerika xoruzu”, .”Niyə əl açmısan”, “İran ərə getdi “ və s. şeirlər bu sıradandır.Xalqın

hesabına zəngin olub dəbdəbəli "amerikasayaq" həyat keçirən tacir və məmurlardan fərqli olaraq vətən sevgisini təqdir edir.İstəkli sevgili və ana kimi sevdiyi İranın amerikalara boyun əyməsinə dözə bilmir,cəsarətlə "İran ərə getdi " şeirində etiraz səsini ucaldır:

Tarəklərimizdə həyəcanı qanımız var,
İranı xilas eləməğə imkanımız var
Allah bizimlədir ki, bizim Quranımız var
Sən olma mükəddər ki, bu cahan ərə getdi (1, səh.77)

Dövrün sosial və ictimai ziddiyyətlərinə tənqid atəşinə tutan şair cəmiyyətin həyatında baş verən təzadları tənqid etməkdən çəkinməyib, zəmanəsinin ictimai eyiblərini satira və həcv dili ilə ifşa edir. Kərimini rahatsız edən böyük məsələlərdən biri də, həmvətənlərinin mənəvi qəfləti,bu halın törənmə səbəbi və bu vəziyyətdən çıxmayollarıdır.O şeirlərində dini,xürafatı,fanatizmi,nadanlığı,geriliyi,savadsızlığı məmurların özbaşınalığını kəskin tənqid edir.

Avam xalqın cəhalətdən ayılmağını istəməyənlərin "Qorxan baş salamat olar" deyimini əsas tutaraq xalqa qan udduran

"yönünü hər səmtə salan","millətin qanını zəli kimi soran","aləmi yeyib amma doymayan"ları kəskin satira atəşinə tutur.

Ana-qızlarımızın təhsili,biliyi olmazsa, //Qalar övladımız həsrət mədəniyyət üzünə// söyləyən həməsri M.Ə. Möcüz kimi qadınların təhsilə,-bilgilənməyə,azad düşünüb,nəfəs almağa və s. ehtiyacı olduğunu bildirir. Kərimi qadınları evdə dustaq edən kişiləri qəlbiqara və zalım sayır.O qadınların da kişilər kimi eyni hüquqlu olduğunu,oxumağa,işləməyə,işdən sonra əylənməyə,dincəlməyə haqqı olduğunu yazır (2 səh.51)

Şeirlərinin çoxunu anadilində yazan şair dilinə zəhər qatmaq istəyənlərə bundan şirin-şəkər dilinə hec cür xələl gəlməyəcəyini bildirir. Şair "Ana dilim" şeirində də doğma dilə olan ən səmimi,ülvi hisslərini gətirir:

Nə qədər gizlədirəm dərdi-eşqi sinəmdə
Dilimdə cuşa gəlir,qəm olur rəvan dilimdə…

Ana dilim elə şirindi, candan istəməli
Açanda mən dil,anam çox deyibdi, can dilimə
Dilim şirindi, əsildən odur ki, qəm yemərəm
Əgər vura arılar nişi* hər zaman dilimə (niş-burada, iynə mənasındadır.P.M.)(1, səh.173)

H.Kəriminin çeşidli ədəbi növ və biçimlərdə yazılmış əsərləri arasında həm xalq ədəbiyyatının növhə,mərsiyə,bayatı,qoşma,gəraylı təcnis kimi,həm də klassik ədəbiyyatımızın qəzəl, məsnəvi və s.kimi nümunələrini görmək

olar. Kəriminin qələmində quru nəsihətçilik, moizə və tərbiyə(didaktika) tamamilə yeni məzmun kəsb edir,öz yerini sağlam ağlın mühakiməsinə verir.

Kəriminin yaradıcılığında klassik poeziya ənənələri çox qüvvətlidir. O satirik qəzəllərində və dini ruhlu şeirlərində, klassik poeziya gələnəklərindən Hafiz,Füzuli Saib Təbrizi,Nəbati, Ləli kimi şairlərin irsindən bəhrələnir.

Şair Marağanın,Urmiyanın,Təbrizin və başqa Azərbaycan kənd və şəhərlərinin həyat lövhələrini, müxtəlif tipajlarını duzlu, məzəli boyalarla əsərlərində vəsf edir.

Xalq yaradıcılığı ilə sıx bağlı olub ondan bəhrələnən H. Kərimi özü də orijinal formalar yarada bilir.Xalq ədəbiyyatında,aşıq şeirində cinaslara müraciət edən şairin uğurlu misraları qəlbi oxşayır

Sadə xalq dilində yazan şairin əsərlərində atalar sözləri,atmacalar, qarğışlar, zərb-məsəllərə çox rast gəlmək olar.Şairin xalq yaradıcılığına bağlı olan xüsusiyyətlərindən biri də şairin ifadə tərzidir.Onun elə misraları var ki, xalq dilindən fəqrlənmir.

Gənclik illərində Hüseyn Kərimiyə ən böyük və düzgün qiyməti vaxtilə yaxın təmasda olduğu bu gün artıq ədəbiyyatın önündə gedən Məhəmmədhüseyn Şəhriyar, B.Qaraçorlu Səhəndlə yanaşı Əli Təbrizli, Yəhya Şeyda,Barışmaz və b. verib.

Kəriminin əsərlərinin bir zaman Bakıda da çap üzü görüb oxucuları sevindirəcəyi gün yəqin uzaqda deyil.

Ədəbiyyat:

1. Kərimi Hüseyn Marağayi. "Rəngarəng Kərimi".I,II,III cild.3-cü nəşr.Tehran, İntişarate Piri 1377-1378(1997-98-ci il)
2.Hacı Mirzə Kərimi Hüseyn Marağaiyə ərcnamə.(Hazırlayan Məhəmməd Hüseyn Qabil Nejad Sərdrudi). Tehran, 1395
3. Təbrizli Əli.Dil və ədəbiyyat.Tehran 1386
4.H.Kərimi "Rəngarəng Kərimi" YI cilddə,Marağa,2006
5.Cavad Dərbəndi.Yüzlər yaşa, səni şair Hacı Mirzə Kərimi Hüseyn Marağaiyə ərcnamə.(Hazırlayan 7.Məhəmməd Hüseyn Qabil Nejad Sərdrudi). Tehran, 1395 səh.81-107
6.Sabir,"Hop-hopnamə".Bakı.2014
7.Varlıq .1366, 4 sayı
8.Ali Kafkasyalı. İran türkleri. İstanbul, Bilgeoğuz, 2010
9.Məmmədli Pərvanə."Xoşdur Urmiyanın hər sözü,sazı."Ədəbiyyat qəzeti" 8 oktyabr(37-ci sayı),2016 -cı il

P.Mammadli

The poet who caused to weep and caused to laugh his people

Summary

There are rare poets whose poems were loved, whose poems were recited by the people while he lived. Huseyn Kerimi from Maragha is such a poet. Huseyn Kerimi's literary activity is varied. Alongside with novhe and marsiyas he was famous among the people for his satire poems. The poet who with his novhe and marsiyas caused the people to weep, made them to laugh and to think with his satires.

Huseyn Kerimi's literary activity is multiplied. Among his creative activity we may see the examples of folklore as novhe, marsiya, bayati, qoshma, gerayli, and including the examples from our classic literature, as ghazal, masnevi and etc. In Kerimi's poetry moize and education (didactics) the act of giving admonitions attains new maintenance, and gives its place to the judgment of mind. Huseyn Kerimi isn't inattentive to the events happening in the society. He always thought about political position, social condition.

The target of his satires is the complaints of the people of the settlement he lived, the negligent shah regime, the office-bearer' lowering the ordinary people. Just because of these reasons during the Shah regime his poems were prohibited for 12 years and during Islam revolution for 10 years.

П.Мамедли

Поэт, который мог рассмешить и заставить плакать свой народ

Резюме

В наше время очень редко можно встретить поэтов, чьи стихи глубоко любимы, и еще прижизни выучены наизусть народом. Гусейн Керими Марагаи один из таких поэтов. Литературная деятельность Гусейна Керими разностаронная

Наряду с новхе, марсия еще он известен своими сатирическими стихами . Своими стихами поэт может заставить читателей плакать, а также поразмыслить и поссмеяться.

Литературная деятельность Гусейна Керими разносторонняя, среди его творческих работ мы можем увидеть примеры фольклора как новхе, марсия, байаты, кошмы, герайли, и в том числе примеры из нашей классической литературы, как газаль, масневи и т. д.

В работах Керими морализм, моиза а также воспитание (дидактика) наделены совершенно новым оборотом, и уступают свое место суждению здорового разума.

Гусейн Керими не пренебрегал событиями происходящими в обществе, политические позиции и социальное положение общества его всегда волновало . Его цель - показать халатный режим шаха, жалобы народа и высокомерное отношение чиновников к его народу. Именно по этим причинам, во время правления шаха, его стихи были запрещены на 12 лет, а во время исламской революции на 10 лет.

Rəyçi: Almaz Ülvi
filologiya elmləri doktoru

TAMILLA TURABOVA,
NAZİLƏ RƏHİMOVA
ADPU
addresssecond@yandex.ru

ЖАНРОВОЕ СВОЕОБРАЗИЕ В ЛИРИКЕ АНГЛИЙСКОГО РОМАНТИЗМА. ЭПОХА ВОРДСВОРТА, БЛЕЙКА, КИТСА И ШЕЛЛИ

Açar sözlər : oda, romantizm, janr, mədəniyyət
Key words:romantic,lyric, ode, poetry
Ключевые слова : лирика, романтизм, ода

Романтизм — это целая эпоха, проникнутая особым настроением (возвышенным, поднимающим человека над действительностью). Черты этого настроения и метода можно обнаружить на разных этапах развития литературы. Как направление в искусстве и литературе романтизма развивается с конца XVIII века. В это время в Европе весьма актуальна была идея переустройства общества, велась критика современной цивилизации. Новое поколение писателей образцом избирает не Античность, а искусство средних веков и Ренессанса, то есть те периоды в развитии культуры, которые классицисты не жаловали..

В конце 18 века в Англии наступает эпоха романтизма, или век Вордсворта. В 1798 году выходит поэтический сборник «Лирические баллады», ознаменовавший переход к новым принципам эстетики и художественного творчества. Англию можно считать, в известной мере, прародиной романтизма.

Романтизм, занимающий доминирующее положение в европейской литературе первой половины 19 века, характеризовался новой картиной мира. Это литературно-художественное направление, которому характерны: интуитивно-чувственное восприятие, внимание к внутреннему миру личности, субъективность, неприятие обыденности, возвеличивание жизни духа, конфликт мечты и реальности, увлечение бессознательным, фантастическим, иррациональным, обращение к фольклору, национальной мифологии и истории, экзотике инокультур.

Одним из катализаторов английского романтизма стало написание «Предисловия к лирическим балладам» Уильяма Вордсворта, в котором он отобразил свои взгляды на поэзию. Родился в Кемберленде в семье юриста. Рано остался без родителей. Учился в Кембридже. Жил во Франции и Италии. Вернувшись в Лондон, опубликовал первую книгу

стихов (1793). Вместе с Кольриджем издал "Лирические баллады" (1798). В предисловии ко второму изданию этой книги (написано также вместе с Кольриджем) изложил эстетическую программу "Озерной школы". Писал поэмы, оды, драмы, прозу. Получил звание Поэт Лауреат (1843). Единственным его произведением официального хар-ра стала «Ода на введение его королевского высочества принца Альберта в должность канцлера Кембриджского университета» (1847), к тому же им неоконченная и дописанная его племянником. Вордсворт остался до конца жизни верен себе и официальным поэтом так и не стал.

Вордсворт настаивал на том, что поэзия должна напрямую соприкасаться с человеческим опытом низших и средних классов, которые сохранили простоту в жизни и скромный язык. Задача поэзии — это нахождение истины и удовольствия. Однако украшение языка, которое предпочитали поэты прошлого, теперь считается лишним и неестественным. Вордсворт акцентирует внимание на воображении и воображаемом, которое создается в сознании поэта, а до читателя может быть доведено через форму. Воображение автора позволяет присвоить рассматриваемому объекту произведения дополнительные свойства или наоборот, абстрагируются от некоторых его качеств, позволяя тем самым уму воспринимать объект как абсолютно новый.

Жанр оды интересует Вордсворта, его привлекает возвышенная тональность оды, необходимая ему для выражения сложной философской проблематики. Так, одна из наиболее известных од («великая ода») – «Знамения бессмертия» («Отголоски бессмертия по воспоминаниям раннего детства», 1802-1804) (Ode: Intimations of Immortality from Recollections of Early Childhood). В ней отразились идеи Платона и неоплатоников о Душе, существующей до и после земного бытия. В центре оды - образ ребенка (эпиграф: «Ребенок – отец Человека»).

Рожденье наше — только лишь забвенье;
Душа, что нам дана на срок земной,
До своего на свете пробужденья
Живет в обители иной;

Оды романтических авторов тесно связаны друг с другом, к примеру, в оде «Уныние» мы видим отсылки к произведению Вордсворта «Отголоски бессмертия» в повторении образа облака и в том, как связаны между собой природа и человек.

Развиваясь вместе с романтизмом, ода также видоизменятся. Младшие романтики более свободно обращаются с термином «воображение». Они, конечно, не отходят полностью от традиционной романтической поэзии, воспевающей «воображение», но в их произведениях видения,

вызванные силой природы, во многом сближаются с фантастическими картинами и с образами вдохновения. У Д. Г. Байрона, Дж.Китса и П.Б. Шелли ода начинает соединять в себе черты горацианской, пиндарической и «неправильной» оды. Авторы играют с отличительными чертами этих од.

Сэмюэль Тэйлор Кольридж (1772-1834) вошел в историю английской литературы как один из самых гениально одаренных поэтов эпохи романтизма, оказавших значительное влияние на творчество современников своими открытиями в поэзии, философии, эстетике.

Учился в Лондоне и Оксфорде, готовился стать священником. Из-за несчастной любви и под влиянием идей Французской революции бросает учёбу и поступает на военную службу. Планирует основать коммуну, выступает с лекциями, пишет сонеты, редактирует журнал. В 1796 знакомится с Вордсвортом. В 1798 году выходит их совместный сборник. В 1798-1799 гг. они посещают Германию, изучают немецкую философию. Кольридж издаёт книги стихов, трактаты по философии и литературе, выступает с лекциями о поэзии и драме. В 1811 ссорится с Вордсвортом, переезжает в Лондон. В 1811-1814 он на грани самоубийства. С 1814 постепенно выздоравливает, увлекается христианством. Издаёт книги стихов, трактаты по философии и литературе, выступает с лекциями. Умирает от сердечного приступа.

В ранней поэзии подражал древним ("сапфическая" ода на древнегреческом языке, "Ода в манере Анакреонта", 1792 - на англ. языке), сентименталистам и предромантикам (У. Коллинз, Т. Грей). Ранние оды Кольриджа («Ода уходящему году», «Франция»), написанные в форме Irregular pindaricks, затрагивают религиозные и политические темы. - Так, «Ода уходящему году») аллегорична, апокалиптична и проповедует идею обновления всего мира. Поэт, предрекая кары Англии за себялюбие, жадность и гордыню, впервые предстает в характерном для романтиков образе поэта-пророка.

О Дух, гремящий Арфою Времен! Чей смелый слух, не дрогнув, перейметТвоих гармоний чернотканый ход?Но, взор вперяя в вечный небосвод, Я долго слушал, сбросив смертный гнет,В тиши душевной ум смирив земной; И в вихре пышных риз передо мнойПронесся мимо Уходящий Год!Тихое забыв раздумье,В некоем святом безумье,Пока он в туче не исчез из глаз,Я бурно грянул песнь и славил этот час.

Spirit who sweepest the wild harp of Time!
It is most hard, with an untroubled ear
Thy dark inwoven harmonies to hear!
Yet, mine eye fixed on Heaven's unchanging clime,

Long had I listened, free from mortal fear,
With inward stillness, and a bowed mind;
When lo! its folds far waving on the wind,
I saw the train of the departing Year!
Starting from my silent sadness,
Then with no unholy madness
Ere yet the entered cloud foreclosed my sight,
I raised the impetuous song, and solemnised his flight.

Характерные черты поэтической манеры Кольриджа: наполнение традиционных жанров лирической поэзии новым содержанием, драматизм лирического переживания, пластическая выразительность композиционного рисунка стиха, ритмическое и интонационное разнообразие, новизна образов, синтез звуковой, цветовой и смысловой характеристики образа.

Перси Биши Шелли (1792-1822), один из младших поэтов-романтиков, приверженец философии.

Представитель древнего дворянского рода, окончил Итон, поступил в Оксфорд, откуда был исключен за памфлет "Необходимость атеизма", написанный как вызов общественной морали. Вместе с 16-летней Гарриет Вестбрук бежал в Шотландию, где обвенчался с ней. Три года странствовал. В Дублине выступал на площадях с идеями своей революционной философии. В 1814 он оставляет жену и двух детей. После попытки самоубийства уезжает в Европу вместе с Мэри Годвин и ее 15-летней сводной сестрой, описывает это в романах. Возвращается в Англию, публикует поэму "Аластор", становится известным. Лето 1816г. проводит с Байроном на Женевском озере, пишет две поэмы. Узнав, что Гарриет утопилась, Шелли женится на Мэри. Дружит с Китсом и др. В Италии (с 1818) переводит Платона, Гомера, Спинозу, Кальдерона, Гёте и Данте, арабских авторов, создает поэмы, сонеты, трагедию, трактат об общественной роли искусства и др. Утонул вблизи Ливорно во время шторма.

Его стихи поражают силой и непосредственностью чувства, музыкальностью, многообразием и новизной ритмов; они насыщены яркими метафорами и эпитетами, богаты внутренними рифмами и аллитерацией. Он часто пытается объяснить явления природы с помощью явлений психологии. Конкретное он уподобляет более абстрактному, и символ вырастает из сравнения. Шелли экспериментирует в области формы, обращается и трансформирует традиционные жанры. Ода для него была неразрывно связана с классической древностью. Жанровый

подзаголовок впервые появляется в его поздних, итальянских стихах. В одах Шелли выражает как свои политические («Ода Неаполю», «Ода Свободе»), так и философские взгляды («Ода к небесам»). Так, в «Оде к Неаполю» поэт призывает итальянцев добиваться свободы, которая приведет в воцарению в Италии Духа Красоты, что сделает ее наследницей античной культуры. Италия, ныне «потерянный рай», станет «возвращенным раем». Она — поруганная красота, которую должны воскресить сильные духом, те, кого вдохновляет поэзия. Философская «Ода к небесам» (1819) состоит из обращения трех духов к небесам. Они по-разному оценивают небо в соответствии с различными сторонами философской мысли Шелли, выражая и преклонение перед божественной его природой, и понимание его как порождения ума человеческого и как независимую от него материальную реальность.

Признанной вершиной одической поэзии Шелли является «Ода западному ветру» (1819), посвященная проблеме предназначения поэта. В ней выражена тема непобедимости и бессмертия сил жизни и свободы.

.Джон Китс (1795 -1821) самый молодой и талантливый английский романтик, автор «великих» од («К Психее», «К греческой вазе», «Ода Меланхолии», «Ода Праздности», «К соловью», «К осени»).

Родился в Лондоне, в семье содержателя конюшни. С детства увлекался античной поэзией. Рано осиротел. Учился медицине, работал в Лондонской больнице. Увлекся литературой. Первые стихи опубликованы в журнале "Examiner". Познакомился с Шелли в 1816. Первый сборник стихов вышел в 1817. Автор 66 сонетов, од, поэм. В 1920 от переутомления заболевает туберкулезом. Умирает в Риме.

Знаток поэзии английского Возрождения, античности, которые дали почву для формальных экспериментов. Китс провозглашает романтическую свободу творчества, считая, что классицисты убивали красоту, лишая ее индивидуальности и сводя к безликой копии античного образа. Прекрасное отождествляется Китсом с Истиной. Поэзия должна прославлять красоту, оставаясь свободной от философии, морали, общественных норм. Задача поэта для Китса – посвятить себя поискам красоты в окружающем мире и ее запечатлению.

Гимн Пану из поэмы Китса «Эндимион» предвосхитил обращение Китса к жанру оды. В последний год жизни он пишет шесть «великих» од, объединенных тематической общностью: они посвящены проблемам поэтического творчества и воображения, позволяющего поэту приблизиться к красоте. Эти оды представляют собой развернутые психологические этюды.

«Ода Психее» - развернутая метафора созидательной поэзии;«Ода греческой вазе», изображающая созерцание шедевра античного мастера, выражает ставшее афористичным эстетическое кредо поэта: «Краса – есть Правда, Правда – Красота» («Beauty is truth, truth beauty,—that is all») и рождает у поэта мысли о вечности идеальной красоты, запечатленной в произведении искусства.

«Ода Соловью» также построена на драматическом контрасте между жаждой смерти и жаждой прекрасного, заставляющего любить и ценить жизнь. Мир Соловья – мир красоты и блаженства, которому противопоставлена проза жизни, но поэт не может наслаждаться красотой, забывая о печальной действительности:

Прощай! Фантазия, в конце концов,

Навечно нас не может обмануть.

Грезы, сны, работа воображения, ход творчества здесь представлены россыпью неожиданных картин, образов, символов, вызванных в сознании поэта соловьиной песней

Китс считается создателем формальной модификации романтической оды, основанной, как и у Шелли, на экспериментах с сонетной формой. Китсовской одой называют стихотворения, состоящие из трех десятистишных строф пятистопного ямба. Строфы строятся на разных рифмах, но по одной схеме рифмовки – абаб вгдвгд, то есть каждая строфа представляет собой безголовый сонет (из одного катрена, позаимствованного у английского сонета (три катрена и заключительное двустишие), и шестистишия, позаимствованного у сонета итальянского (два катрена, два терцета)). Китс старался придерживаться одической традиции Пиндара: в первых двух строфах – ряд антитез, в последней – синтез противоположностей.

В некоторой степени жанр утрачивает четкую структуру, поэтому для многих литературоведов остается не полностью ясным, к какому типу оды принадлежит то или иное произведение, а также ставится под сомнение вообще принадлежность некоторых произведений к жанру. Примером такого случая можно назвать произведение Шелли «Ода западному ветру». На первый взгляд, мы можем видеть, как в ней нашли свое отражение основные черты римской оды. В ней представлена последовательность структурно идентичных строф, которые ведут нас к раскрытию личной темы: лирический герой мечтает стать свободным как ветер.

В позднеромантический период ода в Англии достигла невиданной ранее популярности, потому что в этот период наблюдалось возрождение неоклассических жанров и черт. В Бедфордском словаре литературных терминов отмечается, что многие критики рассматривают это

возрождение в качестве корректирующей реакции на крайности романтизма, стиль, традиции и идеи которого, тем не менее, до сих пор влияют на наш литературный пейзаж. Проанализировав оды английских романтических авторов, можно отметить, что ода того времени позволяет некоторую структурную свободу, но предоставляет возможность сразу задать высокий тон своему произведению. Ода не предназначена для будничных проблем и описаний. Она помогает авторам придать проблеме высокий пафос, глубокую торжественность. Затрагивая тему войны и революций, поэты ограничивают собственную романтическую свободу, в лирике появляются античные образы, структура становится более размеренной и точной, язык произведений намеренно оторван от обыденной жизни. Однако романтики никогда не отказываются от образа природы.

Классическая ода чаще всего содержала момент восторга, пик, к которому шла во время всего своего повествования, исполнения. Этот восторг, конечно, не был внезапным, он всегда был запланированной целью. Мы видим, что у романтиков, а в особенности у Китса этот восторг становится совершенно неожиданным — это настоящее незапланированное открытием, к которому приходит читатель. Обычно общее начальное настроение некоего уныния, раскрывается в совсем другие неожиданные эмоции и ответы, к которым нас подводят сами авторы. Этот момент восторга и открытия именно то, для чего создаётся романтическая ода. Китс может вызвать такой восторг у читателя, только обнажая и разрушая многие главные черты классической оды. Ода теряет божественное присутствие, зато есть земное разочарование и пугающая близость к смерти большинства романтических образов.

Список использованной литературы:

1. Duff D. Romanticism and the Uses of Genre. — N.Y.: Oxford University Press, 2009. — 380p.
2. Локс К. Литературная энциклопедия: Словарь литературных терминов: В 2-х т. / Под редакцией Н. Бродского. М.; издательство Л.Д. Френкель, 1925.
3. Curran S. Poetic Form and British Romanticism. Oxford Oxfordshire: Oxford University Press, 1986. — 288p.
4. Highet G. The Classical Tradition: Greek and Roman Influences on Western Literature. — L.: Oxford University Press, 1976. — 764p.
5. Murfin R. C. The Bedford Glossary of Critical and Literary Terms. — Bedford: St. Martins, 2009. — 624p.

6.История зарубежной литературы XIX века / Под ред. Н.А.Соловьевой [Текст] - М.: Высшая школа, 1991. - 637 с.
Лихачев Д.С. Концептосфера русского языка [Статья] // Известия РАН. Серия литературы и языка. - М., 1993. - Т. 52, №1. - С. 3-9
7.Лосев А.Ф. Очерки античного символизма и мифологии. [Соч. в 9-и томах, т.2] / Д.С. Лихачев. - М.: Мысль, 1993г. - 962 с.
Сеибелъ Н.Э. Австрийский роман Zwischenkriegszeit [Текст]: Монография / Н.Э.Сейбель. - Челябинск: Издательство ЧГПУ, 2006. - 414 с.

T.Turabova,
N.Rahimova

The genre peculiarities of the ode in the lyric poetry of the english romantic epoch of wordsworth, keats, blake and shelley

Summary

The article considers the specific images in English Romantic poetry, the peculiarities of their poetic embodiment and symbolic meaning, the transformation of the images .Critical opinion is divided as to when the Romantic Movement actually came to an end; infact, some critics consider the Victorian age to be a continuation of the Romantic Age and that the English Romantic Age extended till the beginning of the Modern Age in the twentieth century. The characteristic features of English Romantic poetry .

There are many angles and point-of-views from which one can study romantic poetry. The most of important characteristic of this form of poetry is imagination. The different characteristics of romantic poetry are elaborated on in the article below.

The article also provides the definition of term "concept" and lists its main components. The concept of "immortality" in English Romanticism is quite controversial; every poet has his own point of view on the concept. Different themes (immortal poetry, military exploits, human spirit, gone creators and their "eternal" works) are reflected in lyric poetry of W.Wordsworth,S.T.Coleridge, J. Keats, and P. Shelley.As time passed they attained iconic status,inspring others to make their voiced heard.The romantic poets continue to exert a powerful influence on popular.

T.Turabova,
N.Rahimova

İngilis romantizminin lerik serinde qəsidələr orijinal növdür (janrdir) vordsvorta, bleyka, kitsa və shelli

Xülasə

Məqalədə müəyyən obrazlara ingilis dilində baxılır. Romantik poeziya xüsusi ilə onların poetik təcəssümü və rəmzi mənası obrazların transformasiyası. Bəzi tənqidçilər hesab edirlərki, Viktorian dövr romantik dövrün davamıdır, çün ki ingilis romantic dövr 20ci əsrdə müasir dövrun başlamasına qədər uzanırdı. Tənqidi fikir onadır ki romantik dövr həqiqətən sona çatıb. İngilis romantik poeziyasının səciyyəvi xüsusiyyətləri :

Romantik poeziyanı bir çox bucaqlardan öyrənmək olar. Poeziyanın bu formasının ən mühüm xarakteri təxəyyülün olmasıdır.

Romantik poeziyanın müxtəlif xüsusiyyətləri aşağıda məqalədə ətraflı təsvir edilmişdir. Məqalədə həmçinin müddətli " konsepsiyasının " müəyyənləşdirilməsi nəzərdə tutulur və onun əsas komponentləri göstərilir.

İngils romantizmin " ölməzliyi "konsepsiyası kifayət qədərmübahisəlidi. Hər bir şairin konsepsiyada öz baxışı var. Müxtəlif mövzular (poeziya, hərbi hünər, insane ruhu və onların "əbədi " əsərlər yaradanları) U. Slemvordun, ST. koperidjanın, C.Kitsanın və P. Şellinin öz əksini tapmışdır

Rəyçi: **Faidə İsayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ÇİNARƏ ƏLİXANBƏYOVA
ADU
chinaraalk@icloud.com

A.BAYETTİN "SAHİBLƏNMƏ" ROMANINDA İNTERTEKSTUALLIĞIN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: A.Bayett, viktorian ədəbiyyatı, "Sahiblənmə", intertekstuallıq
Ключевые слова: А.Байетт, викторианская литература, «Обладать», интертекстуальность
Key words: A.Byatt, victorian literature, "Possession", intertextuality

İngilis yazıçısı Antoniya Bayett(1936) iyirmidən artıq kitabın müəllifi, müxtəlif universitetlərin bir neçə elmi adlarının sahibi və bir sıra ədəbi mükafatların, təltiflərin laureatıdır. Ədəbi tənqiddə birmənalı olaraq A.Bayettin yaradıcılığında aparıcı mövzuların Viktoriya dövrü ilə bağlılığını vurğulayırlar. Yazıçı essesində özünün viktorian dövrünə dair həssas münasibətini xüsusilə vurğulamışdır: "Mən həmin dövrdən ilham alır və etiraf edirəm ki, müasir cəmiyyət hələ də viktorian dövrünün sonunda yaşamağa davam edir. Bu dövr artıq iki əsrdir davam edir. XX-XXI əsrlər astanasında yaşayan müasir insan bir çox yeniliklərə görə viktorian dövrünə borcludur"(1;26). A.Bayettin fikrincə, viktorian dövrünü anlamaq, onun ziddiyyətlərini, mərhələlərini, eklektikliyini dərk etmək özünü dərk etmək deməkdir.

"Sahiblənmə" ("Possession") (1990) A.Bayett yaradıcılığında mühüm yerlərdən birini tutur və məhz bu roman onu görkəmli ingilis yazıçılarıyla bir sıraya qaldırıb. "Sahiblənmə" romanı postmodernist ədəbiyyatın ən uğurlu nümunəsinə də aid edilir. Elə bu səbəbdən həmin əsəri postmodernizmin xarakterik xüsusiyyətləriylə təhlil etmək mümkündür. Yazıçı əsərində intertekstual dialoqun köməyindən yararlanmış, onun müxtəlif formalarını əsərində tətbiq edə bilmişdir. İntertekstuallıq personajların obrazlar sistemində də özünü göstərir. "Sahiblənmə" – XX əsr ingilis romanları arasında ən seçilən və bənzərsiz əsərdir. Lakin, "roman" adını da bu əsərə yalnız şərti şəkildə vermək mümkündür. Roman daha çox qotik, detektiv, qadın romanlarını xatırlasa da, ayrı-ayrılıqda heç biri deyil. Eyni zamanda da cəngavərlik romanlarını xatırladır. "Sahiblənmə" romanı dərin müasir əsərdir, özündə bir çox ənənələri birləşdirir, eyni zamanda da novatorluğu ilə seçilir. Onun daxilində fərqli hədlərdə ingilis ruhu ilə ingilis ucalığı uzlaşır. Bu əsər canlı insan haqdadır və insan obrazları ən real şəkildə oxucunun gözü önündə canlanır. "Sahiblənmə" məhəbbət haqqında, zaman və ölümə qalib gəlmiş cəfakeş və üsyankar sevgi haqqındadır. Ruhun və cismin "öləri" və səmavi, gizli və aşkar meylləri haqqındadır. " Və bir də insan talelərinin faciəvi və

komik naxışlarında özünü büruzə verən ilahi Yazı haqqındadır"(2;26). Süjetin güzgülü labirintləri ilə bu qəribə əsərin personajları sirli keçmişə baş vurur: adi insanların dövrünün sakinləri – qəhrəmanlar dövrünə, qəhrəmanlar dövrünün sakinləri isə – tanrılar dövrünə keçir. Bu səhifələrdə iki aləm görüşür – zəka, parlaq təfəkkür, demək olar ki, "həssaslıq aləmi və kobud həyat materiyası ilə təxəyyülün zərif tellərinin toxunmasından törəyən incə məhəbbət aləmi"(2;26). "Sahiblənmə" romanı müasir ədəbiyyatda əhəmiyyətli yerlərdən birini tutur və özünün dərin milli özünəməxsusluğuna rəğmən bütün dünyaya məxsusdur. İntertektstual mətndən yaranması səbəbindən bir çox tədqiqatçıları onu dünya romanı adlandırırlar(7). İntertekstuallıq poststrukturalizmin nəzəriyyəçisi Y.Kristeva tərəfindən gətirilmiş termin olaraq, postmodernizmə dair əsərlərin təhlili zamanı əsas məsələlərdən birinə çevrilib. Tədqiqatçı özünün intertekstuallıq konsepsiyasını ədəbiyyatşünas M.Baxtinin əsərlərini yenidən araşdırması zamanı formalaşdırmış, ntertekstuallıq mətnin tədqiqinin əsas amillərindən birinə çevrilmişdir. A.Bayettin "Sahiblənmə" romanı XX əsr intertekstuallıq konsepsiyasının mətndə əksi baxımından ən uğurlu nümunə hesab olunur. Bir çox tədqiqatçılar romanı postmodernist təhkiyə çərçivəsində araşdırırlar. Əsərin janr müəyyənliyinə cəhd edərək, onu viktorian dövrünün romanları və postmodernist əsərlərlə müqayisə edirlər. Müəllifin özü məlumat-epiqraf hissəsində əsər haqqında romantik povest kimi danışır, lakin, bu sitat amerikalı yazıçı N.Hotornun "The House of the Seven Gables" romanına ön sözündən götürülən sitatdır. Romanda qotik əsərlərin kabusları, detektiv romanın sirlərini və hətta köhnə və yeni dünyanın gözəl xanımların xətrinə şücaətli hərəkətlər edən cəngavərlərini də görmək mümkündür. Roman ədəbi allüziyalarla zəngindir və oxucudan viktorian ədəbiyyatına, skandinav, fransız mifologiyasına dair məlumatlı olmağı tələb edir. Müasir dövrün qəhrəmanları Roland Mitçel və Mod Beyli adlı gənc alimlər viktorian dövrünün uydurma şairləri olan Henri Rendolf Padub və Kristabel la Mottun həyat və yaradıcılıqlarını tədqiq edirlər. Tapılan yazışmalar Henri ilə Kristabel arasında gizli yaradıcı və məhəbbət münasibətlərindən xəbər verir. Bu tapıntıya əsasən onların yaradıcılığının təhlilinin yeni perspektivləri meydana çıxır. Bu vaxta qədər heç bir tədqiqatçı ilk baxışdan bu qədər fərqli görünən şairlərin yaradıcılıqlarını müqayisə etməmişdir. A.Bayett onların estetik baxışlarını "araşdırır", onların yaradıcılığının poetik özəlliklərini təhlil edir və bununla da ingilis ədəbiyyatında həmin uydurulmuş ədiblərin mövcud olması haqqında illüziya yaradır. Bu illüziya bütün roman boyunca XIX əsrdə yaşamış həqiqi şairlərin yaradıcılıqlarına edilən müraciətlərlə daha da artırılır.

"Sahiblənmə" kimi tərcümə olunan əsərin adı da simvolikdir. "sahiblənmək" sirrə malik olmaq və sirri heç kimə söyləməmək, insana, məhəbbətə bir vergi kimi malik olmaq, keçmiş dünyaya dəlicəsinə malik olmaq və s.

anlaşıla bilər. Həm viktorian şairlərin, həm müasir qəhrəmanların qarşısında mənəvi, yaradıcı araşdırmalar, insanın öz seçiminə görə məsuliyyət daşıması problemi əsərin aparıcı ideyalarındandır. Cəngavərlik romanlarının qəhrəmanları kimi yetərincə qəhrəmansayağı adı olan baş qəhrəman Roland "Elm" ölkəsinə deyil, hər bir şeyi "fərqli, parlaq şəkildə görməyə imkan verən" "Məhəbbət" ölkəsinin xətrinə şücaət göstərir. Tədqiqatlar gənc alimə şöhrət gətirməli idi, lakin onun üçün şairlərin məhəbbəti müqəddəs sirrə çevrilir. Bu baxımdan romanın təşkili səviyyəsində romantik estetikanın təsiri xüsusi ilə hiss olunur(Əsərin alman romantizminin banisi N.Hotornun romanından sitat gətirməsi də bununla bağlıdır – Ç.Ə.)."Sahiblənmə" əsərində epistolyar romanın da cəhətləri hiss olunur. Romandakı məktublar və gündəliklər təhkiyəli, süjetli funksiyalar daşıyır. Kristabel ilə Henri Padubun məktubları vasitəsi ilə təkcə onların şəxsi münasibətlərinin inkişafını deyil həmçinin, Roland Mitçel və Mod Beylinin ilk əvvəllər demək olar ki, sezilməyən münasibətlərinin daha sonra yaradıcı fəaliyyətlərinin inkişafı ilə nəticələnməsini də görmək mümkündür. Iki şairin yazışması müəyyən mənada bütün viktorian dövrünə "xatırlamadır". Keçmişin indiki zamanda iştirak etməsi romanlarda xarakterik elementə çevrilir. Intertekstuallıq bir mətnin çərçivəsindən çıxaraq bir digər mətnin sahəsinə keçir. Hər iki romanda müasir qəhrəmanlar üçün canfəşanlıq, keçimişin sirlərini aşkarlamağa can atmaq, ötən dövrün poetik aləminə baş vurmaq cəhdləri xasdır. Təhkiyəyə real və təxəyyül nəticəsi olan şairlərin, keçmiş və indikinin parlaq mədəniyyət və elm xadimlərinin xatirələri daxil edilmişdir. Elə bununla bağlı Y.Kristevanın "intertekstuallıq"la bağlı fikirləri maraqlıdır: "İlk dəfə M.Baxtin tərəfindən ədəbiyyat nəzəriyyəsi sahəsində edilmiş araşdırma: istənilən mətn sitatlar mozaikası əsasında qurulur, istənilən mətn, bir digər mətnə hopdurulması və ya transformasiyası şəklidir. Beləcə, intersubyektivlik anlayışının əvəzinə intertekstuallıq anlayışı gəlir"(6). Postmodernizm öz intertekstuallığı, allüziyaları, süjet və xronologiyasının çoxlaylılığı, xüsusi "müəllif - oxucu" münasibətləri ilə birgə yeni roman janrının yaranmasına səbəb oldu. Bu janr özündə tarixşünaslıq, ədəbiyyatşünaslıq və hətta avantüra romanın əlamətlərini də birləşdirir. A.S. Bayettin yaradıcılığının fərqli aspektlərini araşdıran tədqiqatçılar birfikirlə razılaşırlar ki, bu əsərdə müəllif postmodernist həyat dərkinin əsas prinsiplərini yenidən təhlil süzgəcindən keçirir və obyekt kimi seçdiyi XX əsrdə kinayənin, istehzanın xarakterini dəyişir(4;31). Ingilis dilli ədəbi tənqid A. Bayettin "Sahiblənmə" romanındakı istehzanın təhlilinin spesifikası ilə bağlı bəzi sualları nəzərdən keçirmişlər. Bununla bağlı K. Barqes qeyd edir ki, yazıçının intertekstual istehzasının obyekti müasir ədəbiyyatşünaslardır: "Mahiyyət etibari ilə, romandakı istehza və sarkazmın mənbəyi olan personajlar "bioqrafik mənimsəmə"nin (biographical appropriation) iki parlaq nümayəndəsi kimi tanınan Sobrayl və Leonora Stern olmuşlar"(4;32). Söhbət ondan gedir ki,

romanda filoloqlarının elmi maraqları viktorian şairlərin yaradıcılıqlarının deyil, yalnız həyatlarının tədqiq olunması ilə məhdudlaşır . Bundan başqa, R. Padub və K. La Mottun talelərinin özəl detallarını istənilən yolla öyrənmək uğrunda fanatik canfəşanlıqları, onların bioqrafiyalarına belə maraq Mortimer və Leonoranın-"bioqrafiyanı mənimsəmək" həyatlarının mənasına çevrilir. K. Barqes həmçinin diqqəti ona çəkir ki, müəllif hətta əsərin sonunda da öz qəhrəmanları ilə postmodernist oyununu dayandırmır: "A.Bayett romantizmin digər ənənəvi xüsusiyyətindən istifadə edir və müasir qəhrəmanları üçün "xoşbəxt sonluq" qurur, lakin yenə də həyatın istehzasına əsaslanaraq onlarla oyun oynayır: hekayənin sonunun çatmasına əmin olan oxucu yazıçının "Postskriptum"undan həddən ziyadə təəccüb-lənir"(4;26).Ədəbi tənqidlə bilavasitə ədəbiyyatın özü arasında əlaqənin tədqiqi ilə məşğul olan amerikalı tədqiqatçı D.Birrer "Sahiblənmə" romanını metatənqid kimi təhlil edir və burada istehzadan istifadə olunmasına bəraət qazandırır: "A.Bayettin "Sahiblənmə" əsərindəki elmi cəmiyyətə, asanlıqla tanınan tənqidi və nəzəri strategiyalara parodiyaları (məsələn, Leonora Sternə fransız feminizminin təsiri aydındır) bütün dünyadakı alimlər tərəfindən vəsf edildiyi qədər də tənqid edilmişdir. Lakin A.Bayettin satirası öldürücü təsir bağışlasa da, Hatçeon parodiyasının konsepsiyası göstərir ki, onun mənfi olması vacib deyil. Parodiya daha çox tənqidi yanaşmaya zəmin yaradır"(5;38).Kinayəli tərzdə təqdim edilmiş feminizm istiqaməti ingilis tədqiqatçısı K.Frankeni də maraqlandırmışdır. O, qeyd edir ki, Leonora Sternin simasında təqdim edilən satira əslində kifayət qədər spesifik tipli feminist ədəbi tənqidə istiqamətlənmişdir: Leonoranın qeydlərində təhkiyəçi gender problemləri ilə maraqlı olan fransız filosofu Lyusi İriqarenin ideyalarını gülüş hədəfinə çevirir . Hər kəs romanda Leonoraya qarşı satirik yanaşmanın bariz nümunəsini onun La Mottun "Pəri Melyuzina" poemasının təhlilində tapmış ola bilər. La Mottun əsərinin Leonora tərəfindən oxunuşu İriqarenin "Bu tənha olmayan şövq" yazısına birbaşa istinadlardan ibarətdir və bu səbəbdən də pastişin forması kimi qəbul edilə bilər"(8;21). K.Franken belə bir fikir söyləyir ki, sanki A. Bayettin daxilində "poststrukturalizm və feminizm təhlükəsi altında olduğunu hiss edən yazıçı ilə, müasir ədəbi nəzəriy-yələrin mümkünlüyünü qəbul edən tənqidçi mübarizə aparır"(8;28). "Müəllif "tutuquşu kimi" bir-birini təkrarlayan ədəbiyyat nəzəriyyəçilərindən fərqli olaraq, öz feminist ədəbi tənqidini qurmağa çalışır ki, orijinallığı ilə seçilməli olan yazıçının bir şəxsiyyət kimi ideyasını qoruya bilsin"(8;28). Yazıçıya bu niyyətində təhkiyə üçün lazım olan əksiklər priyomu kömək olur. K.Franken misal olaraq, A.Bayettin də istifadə etdiyi aşağıdakı əksikləri göstərir: "Bu XIX əsrin şairləri ilə müasir alimlər arasında, viktorian dövr kişi təfəkkürü ilə dekonstruktivizm və feminizm kimi fərqli təfəkkür tərzlərindən ilhamlanan XX əsr tənqidi zəkası arasında fərqlərdir"(8;32).Tədqiqatçı M.Polvinen də

həmçinin qeyd edir ki, yazıçının kinayəsi müasir elmi cəmiyyətin nümayəndələrinə yönəldilmişdir, satira isə təhkiyyəni hərəkətə gətirən əsas məqamlardandır: " "Sahiblənmə"də A.Bayett rəhm etmədən dil və ədəbiyyatı bir birinə istinad edən sistem kimi görən ədəbiyyat nəzəriyyəçilərini parodiya edir və romanın süjeti "ədəbiyyatdan kənar mövzulara" "maneəsiz maraq"dan qidalanır"(9).Müasir ədəbiyyatşünaslığa qarşı bəyənməz münasibətin səbəblərindən bəhs edərkən A. Bayett yazır: " Müasir tənqid güclüdür və ədəbiyyata xammal, mənbə və ya başlanğıc nöqtəsi kimi istifadə etdiyi şəxsi təhkiyəni və prioritetləri calayır. Yaxud da yazıçının sözləri ilə gümrahlıqla oyun oynaya, özünün fərqli yorumlarını əlavə edə bilir"(1;24). M.Polvinen qeyd edir ki, yazıçının bu cür narahatçılığı sübut edir ki, "Sahiblənmə" əsərindəki Leonora Stern, Ferqus Vulf və Ceyms Aspids obrazları A. Bayettin intertekstuallığının əsas məqsədi olmaqla bərabər həm də, təhlükə haqqında həddən ziyadə ciddi xəbərdarlıqdır"(9). Əsl ingilis romanı olaraq qalmaqla yanaşı bu təkrarolunmaz əsər görünməyən, lakin möhkəm bağlarla bütün dünya ədəbiyyatı ilə bağlıdır. O bütövlükdə dil nüansları, hər sözün çox mənalılığı üzərində qurulmuşdur. "Sahiblənmə" romanındakı hər ad danışır, sadəcə ingilis dili bilgisi yetər ki, onu başa düşə biləsən. Padub – həm küldür, həm də ağac. Lakin bu adi ağac deyil, dünyəvi ağacdır, tale və həyat ağacıdır. İngilis dilində "motte" və "bailey" "motte and bailey" ifadəsində birləşirlər və mahiyyəti Avropanın ən qədim tikililərindən birini bildirir, "motte" – tökmə kurqandır, "bailey" isə - müdafiənin xarici həddini bildirir.

A.Bayett yazdığı ingilis dilini sevir və ona hörmət edir, dil və oxucu ilə bacarıqlı və incə oyun isə Britaniya mədəniyyətinin ayrılmaz hissəsidir.

Çoxları indi ifadəcə sadə və həcmcə böyük olmayan əsərlər seçsələr də, A.Bayettin əsəri təkcə ingilis ədəbiyyatına maraqlı olan mütəxəssislərin qəlblərinə deyil, həm də, dərin daxili aləmi olan oxucuların da qəlbinə yol tapıb. Heç təsadüfi deyil ki, A. Bayett özünün forma və mahiyyətcə belə gözəl romanına oxucular haqqında aşağıdakı dialoqu daxil edir: "Sənin yaxşı oxucun olubmu, Kristabel?" – mən soruşdum. Nəfəsini dərdi və üzünü turşudaraq o, qırıq-qırıq cavab verdi: "Bəli, ikisi yaxşıdır. Yəni, arzu edə biləcəyimdən çox yaxşıdır. Birincisi, həddən ziyadə yumşaqdır, lakin ağıllı ürəyi var. Ikincisi isə şairdir – məndən də yaxşı şairdir..."(3;427)

A.Bayettin yaradıcılığı haqda belə fikirləri var: "Hərdən elə olur ki, hər kəlmə aydın, sərt və şəfalı şəkildə bizim gözümüzün qarşısında "alışır", sanki gecədə bir büllur ulduzdur, sonsuz mənalarla zəngindir və bir şey dəqiqdir və biz bilirik, bizi təəccübləndirən yetərsizliklə bunun niyə və necə baş verəcəyini müəyyənləşdirənədək, bilirik ki, bu gün müəllifi fərqli, daha yaxşı, daha əhatəli dərk edə biləcəyik. İlk təəssüratda – bizim qarşımızda tamamilə yeni, öncədən görmədiyimiz mətndir, lakin demək olar ki, dərhal o digər hisslə əvəzlənir: sanki bütün bunlar burada hər zaman var idi, ən

əvvəldən, biz oxucular bunu sanki çoxdan bilirdik, şübhəsiz bilirdik, – lakin yalnız indi, yalnız bu gün bilgilər düşünülmüş oldu..”(1;41)

Ədəbiyyat:

1.Антония С. Байетт. Два эссе. “Иностранная литература”. 2006, № 1, 42с.
2.Дмитрий Дроздовский беседует с Антонией С. Байетт. “Иностранная литература”. 2006, №12, 28с.
3.Byatt A.S. “Possession”. Vintage. 1991, 576p.
4.Burgass C. “A.S. Byatt's Possession; A reader's guide” . New York: Continuum International Publishing Group, 2002. 89p.
5.Birrer D. “From campus fiction to metacritical fiction: A. S. Byatt’s academic novels”. Critical Studies of an Emerging Genre. New York: The Edwin Mellen Press, 2007, 121p.
6.Intertextuality: Origins and development of the Concept. http://faculty.weber.edu/cbergeson/quixote/martinez.pdf
7.Intertextuality . http://litmusicadaptation.wikispaces.com/Intertextuality
8.Franken Ch. “A.S.Byatt: Art, Authorship, Creativity : Art, Authorship and Creativity”. Palgrave MacMillan. 2001, 164p.
9.Polvinen M. “Habitable Worlds and Literary Voices: A.S. Byatt’s Possession as Self-Conscious Realism”. The Electronic Journal of the Department of English
at the University of Helsinki. Volume 3, 2004. http://blogs.helsinki.fi/hes-eng/volumes/volume-3-special-issue-on-literary-studies/habitable-worlds-and-literary-voices-as-byatts-possession-as-self-conscious-realism-merja-polvinen/

Ч.Алиханбеова

Литературная особенность интертекстуальности в романе А. Байетт «Обладать»

Резюме

Антонии Байетт одна из наиболее известных английских писательниц. Ее творчество однозначно относится к постмодернистской литературе. Ее деятельность привязанно к викторианской литературе. Это привело к интертекстуальному диалогу в ее работах. Известность писательницы во многом отражается в ее романе «Обладать». В романе изобилуют интертекстуальные элементы. Роману уделяется особое место в английской литературе с точки зрения изучения литературной особенности интертекстуальности. В этом контекст роман занимает одну из главных мест в английской литературе. Роман «Обладать»

достаточно сложен по структуре. Оно считается лучшим с точки зрения отрожения интертекстуальных концепций XX века. Многие литературоведы рассматривают работу с постмоденистической точки зрения. Было сделано много попыток сделать жанровое распределение романа. Исследователи относят ее к викторианскому роману. В тоже время сравнение романа с постмодернистическими работами тоже немало важно. В статье отмечается место романа «Обладать» в литературной критике. Также в статье изучается литературная особенность интертекстуальности.

C.Alixanbeyova

Literary characteristics of intertextuality in A. Bayatt's novel "Possession"

Summary

A. Bayatt is one of famous English writers. Her literary legacy doubtlessly, is accepted as an example for postmodernistic literature. She is strongly attachmented to Victorian literature. It results with intertextual dialogue in her works. Writer's fame is mainly reflected in her novel "Possession". The novel is full of intertextual elements. Novel has its specific position according the analysis of literary characteristics of intertextuality in English literature. "Posession" has an important role in English literature from this point of view. The novel is quite difficult from the structural point either. It is important for the intertextual analysis of literature of XX century. Many researchers analyze it as a victorian novel. The comparison of the novel with the postmodernist works is also important. Place of the novel "Possession" in critical literature is mentioned in the article. Besides, literary characteristics of intertextuality in the work is also analysed here.

Rəyçi: Yeganə Abdullayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

GÜLNAR RZAYEVA
Azərbaycan Universiteti
grzayeva14@mail.ru

KONTRKULTURA ƏDƏBİYYAT PARADİQMASI KİMİ

Açar sözlər: kontrkultura, subkultura, dissident altmədəniyyət, ədəbiyyat, paradiqma
Keywords: counterculture, subculture, dissident subculture, literature, paradigm
Ключевые слова: контркультура, субкультура, диссидентская субкультура, литература, парадигма

"Kontrkultura" sözün geniş və ümumi mənasında müasir mədəniyyətşunaslıqda meydana gəlmiş və müəyyən tarixi kəsimdə konkret hakim mədəniyyətin köklü prinsiplərinə qarşı yönəlmiş sosial-mədəni prinsipləri ifadə etmək üçün işlənən anlayışdır.

Kontrkultura meylləri gizli şəkildə hər mədəniyyətdə mövcuddur. Bu ilk növbədə mədəniyyətin özünün çoxtərkibliliyi və rəngarəngliyi ilə şərtlənir. Amma sözsüz ki, kontrkultura ilk növbədə hər hansı bir mədəni konsepsiyanın sosial gerçəkliklə bilavasitə bağlı olmasının nəticəsi kimi meydana gəlir. Xüsusilə sosial kataklizmlər dövründə sosial sistemin bütün tərkib hissələri, o cümlədən mədəniyyəti də şübhə altına alınır və onun paradiqmasının dəyişdirilməsinə ehtiyac duyulur. Əlbəttə ki, hakim mədəniyyət heç də asanlıqla öz mövqeyindən geri çəkilmək istəmir. Bu halda yeni meyllər hakim mədəniyyətin prinsiplərinə qarşı yönəlmiş kontrkulturanın meydana gəlməsi labüddür. Bu baxımdan kontrkulturanın bir neçə cəhətini qeyd etmək lazımdır. Kontrkultura hakim mədəniyyətin paradiqmasını əvəz etməyi özünün əsas vəzifəsi hesab edir, lakin onu əvəz etmək məqsədini güdmür; kontrkultura yalnız neqativ proqrama malikdir, kəsib-dağıtmaq prinsiplərinə söykənir. Hakim paradiqma dəyişdiyi təqdirdə onu əvəz etmək iddiasında deyil.Bu baxımdan kontrkultura bir çox cəhətdən səsləşdiyi subkulturadan (alt mədəniyyətdən) fərqlənir: kontrkultura dağıdıcıdır, bütün cəbhə boyu hücuma keçərək hakim mədəniyyəti ifşa və məhv etməyə cəhd göstərir. Subkultura isə hakim mədəniyyətdən fərqli olmasını gizlətməsə də, bəzi hallarda bunu hətta vurğulasa da, ona qarşı təcavüzkar mövqedən çıxış etmir, əksinə, çox zaman özünün mövcudluğunu mövcud durumla, yəni hakim mədəniyyətin öz mövqelərini qoruyub saxlaması ilə bağlayır.Alt mədəniyyət hakim mədəniyyətin içində formalaşır, bir tərəfdən onunla bağlıdır, onunla əlaqədar olaraq və onun kontekstində öz dəyərlərini müəyyən edir, digər tərəfdən öz dəyərlərini, hakim mədəniyyətin dəyərlərini

birbaşa təkzib etməklə yox, ondan fərqli dəyərləri ortaya qoymaqla təsdiq olunmağa, öz məkanını müəyyən etməyə cəhd göstərir. Həm kontrkulturanın, həm də subkulturanın yaranması hər hansı bir dövrün mədəniyyətinin nisbi, daha doğrusu, dinamik bütövlüyə malik olması ilə bağlıdır: mədəniyyət daim özündən fərqli tərkib hissələri ilə əlaqədar olmaq və onların kontekstində özünün hakim mədəniyyət statusunu təsdiq etmək ehtiyacını duyur. Məhz buna görə də hər bir milli mədəniyyətin tərkib hissəsini təşkil edən şəhər mühitinin mədəniyyəti kənd mühiti mədəniyyətindən, rəsmi mühitin mədəniyyəti xalq mədəniyyətindən, aristokratik mühitinin mədəniyyəti demokratik mühitin mədəniyyətindən fərqlənir. Lakin bu müxtəlif mədəniyyət konsepsiyaları və onların yaratdıqları ədəbi-bədii nümunələr müəyyən kontekstdə bir-birinə qarşı dursalar da, milli mədəniyyətin aradan qaldırılmasında nəinki maraqlı deyillər, müəyyən mənada onun qorunub saxlanması bu tərkib hissələri üçün həyati əhəmiyyət kəsb edir. Hər bir milli mədəniyyətin dinamik bütövlüyü ondakı mərkəzəqaçma və mərkəzdənqaçma meylləri arasında müəyyən tarazlığın qorunub saxlanılması ilə bağlıdır. Əks təqdirdə bu konsepsiyalar arasındakı fərqlər dərinləşir vahid milli mədəniyyətin parçalanmasına gətirib çıxara bilər. Buna görə də onlar faktiki olaraq dialektik vəhdətdə birləşib rəsmi hakim mədəniyyət üzvi tərkib hissəsini təşkil edirlər.Qəribə də olsa, məhz bu rəngarənglik bu və ya digər sivilizasiyanın, mədəniyyətin vəhdətinin zəmanəti qismində çıxış edir: bir sıra mütəfəkkirlərin üzvi bütöv kimi dəyərləndirdikləri antik mədəniyyətdə XIX əsrin sonunda Nitşenin göstərdiyi kimi Apollon və Dionis başlanğıcları mövcud olmuşdur. Onu da qeyd etmək lazımdır ki, bu iki başlanğıc həqiqətən hər bir mədəniyyətin formalaşdığı iki qütb – həyatın və ölümün arasında formalaşan gərginlik sahəsini əks etdirir. Bir mədəniyyət daxilində iki başlanğıcın eyni zamanda həm rəqabət aparması, həm də eyni zamanda bir-birini tamamlaması fenomeninə İntibah dövründə də rast gəlmək olar: bu dövrdə karnaval yaradıcılığının gülüş formaları Orta əsrlərin rəsmi, ciddi mədəniyyətinə qarşı dururdu. Onu da qeyd etmək lazımdır ki, öz bədii potensialına nisbətən alt mədəniyyət ilk növbədə karnavallarda öz əksini tapan xalq mədəniyyəti rəsmi mədəniyyətə nisbətən daha böyük imkanlara malik idi. Bu ilk növbədə xalq mədəniyyətinin o dövr üçün misli görünməmiş deyim və ifadə azadlığına malik olması ilə bağlı idi. Onu da nəzərə almaq lazımdır ki, xalqın nəhəng yaradıcılıq potensialı rəsmi mədəniyyətə deyil, məhz xalq mədəniyyətinin, karnaval mədəniyyətinin inkişafına xidmət edirdi. İntibah dövründə əldə olunmuş nəaliyyətlər bir çox cəhətdən bununla bağlı idi. Məhz buna görə də İntibah dövründə alt mədəniyyəti təşkil edən qanunlar vahid üsluba malik idilər və bütöv xalq-gülüş, karnaval mədəniyyətini təşkil edirdilər. Bununla yanaşı Avropa orta əsrlər və İntibah mədəniyyətində alt mədəniyyətinin ayrı-ayrı təşkilatları bədii yaradıcılığın magistral yolundan bir növ təcrid olunmuşdular: belə ki, misteriyaların, “axmaqların

bayramları"nın rəsmi dövlət qurumları və cəmiyyətin yüksək nümayəndələrinin təşkil etdikləri cəngavər turnirləri ilə heç bir əlaqəsi yox idi. Lakin bununla belə Baxtinin göstərdiyi kimi mürəkkəb, sosial-mədəni oyun kontekstində bu aspektlər qarşılıqlı şəkildə bir-birinə təsir edirlər.

Rəsmi mədəniyyət öz total ciddiliyi ilə dövrün əsas dünyaduyumunu və dünyagörüş sisteminin parametrlərini müəyyən edirdi və bu baxımdan xalq mədəniyyətinə antaqonist münasibət bəsləyirdi. İntibah dövrünün hüdudlarından kənarda da bu qarşıdurma yoxa çıxmır. Göstərildiyi kimi alt mədəniyyət cəmiyyətin müəyyən təbəqələrinə xidmət göstərdiyinə görə ona daha doğmadır, bu təbəqənin düşüncə tərzini, durumunu, deyim və həyat tərzini daha dərindən və hərtərəfli şəkildə əks etdirdiyinə görə hər növ sosial təbəqənin nümayəndələri ilə intim münasibətləri ifadə edir. Lakin təbəqənin hüdudlarından kənarda alt mədəniyyət bütün cazibədarlığından məhrum olub digər sosial təbəqələrin üzvlərində laqeydlik və bəzi hallarda hətta ikrah hissi aşılaya bilər. Bütün dinamikasına baxmayaraq mədəni yaradıcılıq heç də günlərin bir günü alt mədəniyyətin aparıcı mədəniyyətə çevrilməsi iddiasında olmasından xəbər vermir. Alt mədəniyyət öz fərqliliyini qoruyub saxlamaq şərti ilə daim "passiv" müxalifətdə olmağı üstün tutur. Bu mənada "kontrkultura" (mədəniyyət) ilə "subkultura" (alt mədəniyyət) arasında iddia fərqini müəyyən etmək olar: hər iki mədəniyyət konsepsiyası marginallığa meylli olmasına baxmayaraq submədəniyyət öz çərçivəsində donub qalmaq, kontrkultura isə bütün rəsmi mədəni qurumları və və təsisatları dağıdıb məhv etmək iddiasını ortaya qoyurlar. Alt mədəniyyətin və əksmədəniyyətin ictimai-ideoloji mənşələri də müxtəlifdir, mədəniyyətin bəzi təsisatları onun inkişafının sosial yaxud demoqrafik xüsusiyyətlərini əks etdirirlər. Bu ilk növbədə müxtəlif ictimai qrupların içində spesifik mədəni fenomenlərin yaranması ilə bağlıdır; bu fenomenlər insanların davranışının, şüurunun, dilinin xassələrində öz əksinin tapır. Nəticədə altmədəniyyət hadisələrinin təbiəti ilə bağlı müəyyən qrupların fərqli mentallığının xarakteristikası formalaşır. Diqqətlə fikir verdikdə məlum olur ki, alt mədəniyyət mədəni fenomenlə kifayət qədər mürəkkəb struktura malikdir: onun bir sıra təsisatları labüd şəkildə inkişafının sosial və demoqrafik xüsusiyyətlərini əks etdirirlər. Məhz alt mədəniyyət hadisələrinin bir tərəfdən mülki mədəniyyətlə, digər tərəfdən təmsil etdiyi sosial qrupun özünəməxsus inkişafı ilə bağlı formalaşmış davranış prinsipləri, spesifik dəyərlər bu qrupları təmsil edən insanların özünəməxsus mentallığını müəyyən edir.

Altmədəni təsisatlar müəyyən tellərlə milli və onun vasitəsilə dünya mədəniyyətinə bağlı olsalar da müəyyən dərəcədə özgürdürlər, qapalıdırlar, hər-halda özünəməxsusluqlarını qoruyub saxlamaq üçün özlərinə qapanmağa cəhd göstərirlər. Bu qapanmaq bir tərəfdən altmədəniyyətin özünəməxsusluğunu qoruyub saxlamaq cəhdinə dəlalət edirsə, digər tərəfdən onun öz təsir

dairəsini genişləndirib digər alt mədəniyyətlər və xüsusilə hakim mədəniyyət içində əriməkdən çəkinməsindən xəbər verir. Bu altmədəniyyətin bütün komponentlərində özünü büruzə verir.

Bu baxımdan müxtəlif xalqların içərisində yaşayan bu xalqların hakim mədəniyyətləri ilə təmas prosesindən özünühifsetmə mexanizmləri yaratmış qaraçı mədəniyyəti altmədəniyyətin təşəkkülünün bir sıra qanunauyğunluqlarını üzə çıxarmaq baxımından diqqəti cəlb edir. Belə ki, qaraçı etnosunun daxilində özünəməxsus qaydalar, əxlaq normaları və kodeksi mövcuddur. Belə ki, qaraçı altmədəniyyəti "yad"lardan oğurlamağı, "yad"ları aldatmağı ayıb hesab etmir və bunu nəinki cinayət hesab etmir, müəyyən kontekstdə hətta dəstəkləyir və rəşadət kimi dəyərləndirir. Halbuki tabor daxilində belə bir hərəkətə yol vermək cinayət hesab olunur. Altmədəniyyət öz fəaliyyətində hakim mədəniyyətin prinsiplərini daim nəzərə almaq məcburiyyətindədir. Lakin bununla yanaşı daxili problemlərini öz daxili qanunları ilə həll etməyi üstün tutur və özünəməxsus əxlaq normalarından çıxış edərək özünəməxsus hüquq prinsipləri tətbiq olunur. Altmədəniyyətlərdə həm əxlaq normaları, həm də hüquqi prinsiplər sərt iyerarxiyaya – kiçiyin, yəni yaşına, sosial durumuna görə cəmiyyətin aşağı pilləsində duran şəxs qeyd-şərtsiz özündən yuxarı pillədə durana tabe olmalıdır. Qaraçı taborunda ağsaqqala hörmət məhz bu iyerarxiya prinsipinin məhsulu kimi dəyərləndirilməlidir. Qeyd etmək lazımdır ki, bir sıra Qafqaz xalqlarında, o cümlədən azərbaycanlılarda ağsaqqala hörmət faktiki olaraq əxlaq normasına çevrilmişdir.Altmədəniyyətin ideoloqları heç də özlərinin həyat və təcrübi prinsiplərinin universal səciyyə daşıması və onların digər sosial təbəqələr arasında yayılması iddiasında deyillər. Əksinə, onlar öz mədəniyyətlərinin qanunlarını hakim mədəniyyətin qanunlarına qarşı qoymağı və fərqli cəhətlərin yalnız onların dünyaduyumuna və həyat tərzinə uyğun gəldiyini vurğulayırlar. Hətta son dərəcə böyük yaradıcılıq potensialı və geniş auditoriyası olan Orta əsrlər gülüş-karnaval mədəniyyəti də hakim rəsmi mədəniyyəti sıxışdırmaq və onu əvəz etmək istəmir. Bir qayda olaraq altmədəniyyət konsepsiyaları "yad" mədəni qatdan təcrid olunmaqla özünün sosial-mədəni əlamətlərini və təsir dairəsini qoruyub saxlamağa nail olur.

Ətraf aləmin mədəni dəyərlərindən təcrid olunmaq meylləri xüsusilə alt mədəniyyət nümunəsi kimi fəaliyyət göstərən müasir dini sektalarda özünü əyani şəkildə nümayiş etdirir. Bu kult birlikləri çox zaman iyerarxiya prinsipi əsasında qurulur və avtoritar idarəçilik üsuluna əsaslanır. Bir qayda olaraq sektanın başında xarizmatik lider durur. O özünü peyğəmbər və bəzi hallarda hətta allah da elan edə bilər. Sektanın rəhbəri onun inancını bölüşdürənlərdən sərt nizam-intizam qaydalarına riayət etməyi tələb edir və sektanın çərçivəsində pozuntuların ağır şəkildə cəzalandırması qayğısına qalır. Müasir dini sektalarda fikir azadlığı bütün vasitələrlə boğulur və azad

cəmiyyət ruhu ləğv olunur. Bir çox sektalarda dünyaya vahid baxış, meydana gələn problemlərə vahid münasibət hökm sürür və sektanın bütün üzvləri iyerarxiya prinsipinə əsaslanan sərt nizam-intizama tabedirlər. Uzun əsrlər boyu qərb aləmində tədricən təşəkkül tapmış azad cəmiyyət ruhu altmədəniyyətin ən geniş yayılmış formalarından biri olan sektalara yaddır.

Altmədəniyyət bir qayda olaraq rəsmi mədəniyyətə qarşı açıq təcavüzkar mövqedən çıxış etməsə də, ona reaksiyası nəticəsində yaranmışdır və ona münasibətdə gözləmə mövqeyini tutur. Alt mədəniyyətin özü də faktiki olaraq rəsmi mədəniyyətin məhsuludur və onun bədxassəli xərçəngin metastazları kimi sosial orqanizmin bütün məsamələrinə nüfuz etmək, insanların düşüncə tərzini, ideologiyasını, dünya görüşünü özünə uyğunlaşdırmaq cəhdi ilə bağlıdır. SSRİ-də Kommunist partiyasının totalitar siyasətinin yaratdığı dissident altmədəniyyət buna misal ola bilər. Dissident mədəniyyətinin yaranması rəsmi mədəniyyətin mühüm bir xüsusiyyətini üzə çıxarır: Sovetlər İttifaqında Kommunist partiyasının mədəniyət sahəsində siyasəti sadəcə olaraq rəsmi hakim mədəniyyəti təsbit etməklə kifayətlənmirdi, ümumiyyətlə bütün müxalif düşüncələri məhv etməyə yönəlmişdi. Buna görə də ona qarşı çıxan alt dissident mədəniyyəti özünü təsdiq etmək üçün digər alt mədəniyyət konsepsiyalarından fərqli olaraq özünə qapana bilməzdi, yalnız rəsmi mədəniyyətin təmamilə aradan qaldırılması sayəsində özünü təsdiq edə bilərdi. Bu baxımdan dissident altmədəniyyətlə kontkultura arasında səsləşən bir sıra cəhətlərin mövcudluğunu göstərmək olar. Onları birləşdirən ən mühüm cəhət hər iki konsepsiyanın hakim rəsmi mədəniyyətə sərt təcəvüzkar mövqedə durmalarıdır. Lakin əgər dissident altmədəniyyət rəsmi mədəniyyətə qarşı fərqli mədəniyyət konsepsiyası ortaya qoyurdusa, kontrkultura rəsmi mədəniyəti ümumiyyətlə rədd etməyi ona qarşı "mədəniyyətsizlik" nümayiş etdirməyi üstün tuturdu. Bu dissident alt mədəniyyətin bir xüsusiyyətini də üzə çıxartdı: bir qayda olaraq altmədəniyyətin dayanaqlılığı rəsmi mədəniyyəti məhv etməyə yönəlməməsi ilə bağlıdır. Bu halda rəsmi mədəniyyət konsepsiyasının yenisi /yeniləri ilə əvəz olunması onun möcudluğuna təsir göstərmir. Halbuki, SSRİ-də sovet mədəniyyətinin süqutu və yeni yaranan postsovet dövlətlərində yeni hakim milli mədəniyyətlərin yaranması öz tarixi missiyasını başa vurmuş dissident mədəniyyətin də bir növ özünü ləğv etməsinə səbəb oldu. Bu dissident alt mədəniyyətini kontrkulturaya yaxınlaş-dıran ikinci cəhətdir. Bu baxımdan onların arasında prinsipial fərq birincinin əvvəlcə əks mədəniyyət daşıyıcısı olması, lakin hakim mədəniyyətin ləğvi ilə bağlı olaraq özünün bəzi dəyərləri ilə yeni yaranan hakim milli mədəniyyətlərinə daxil olub onların üzvi tərkib hissəsinə çevrilməklə aradan qalxırlar. Bu göstərir ki, dissident alt mədəniyyətin mövcudluğu hakim rəsmi totalitar mədəniyyətlə bağlıdır.

Alt mədəniyyət rəsmi hakim mədəniyyət kimi çox cəhətlidir və insan fəaliyyətinin bütün sahələrini əhatə edir. Lakin bununla belə onun mənşəyi ilk növbədə onun meydana gəlməsi, fəaliyyət göstərməsi hakim rəsmi mədəniyyətə müqavimət göstərməsini şərtləndirən sosial mənşəyi ilə bağlıdır. Bu ilk növbədə hakim rəsmi mədəniyyətin bir ictimai təbəqənin tələblərini və dəyərlərini bütün cəmiyyətə qəbul etdirmək və aşılamaq niyyəti ilə bağlıdır. Birincisi, bu və ya digər mədəni standartlar müəyyən sosial təbəqə üçün təbii olan mədəni standartlar və dəyərlər digər sosial təbəqələr üçün yad ola bilərlər. İkincisi, cəmiyyətin bütün ictimai təbəqələrini ehtiva etmək iddiasında olan hakim rəsmi mədəniyət istər-istəməz digər təbəqələrin də xüsusiyyətlərini nəzərə alıb bu və ya digər şəkildə özündə əks etdirməlidir. Bu isə hakim mədəniyyətin mürəkkəbləşməsinə və daxili ziddiyyətlər kəsb etməsinə səbəb olur. Təbii ki, fərqli maraqlara və mədəni təsəvvürlərə malik olan ictimai təbəqələr bu hakim mədəniyyəti qeyd-şərtsiz qəbul etmirlər və hakim rəsmi mədəniyyət onların həyatı maraqlarına toxunursa,özlərinin fərqli alt mədəniyyət konsepsiyalarını ortaya qoyurlar. Bu mədəni standartların özünküləşdirilməsi, hakim mədəniyyətin aləminə daxil olmaq, ona uyğunlaşma prosesi ilə bağlıdır; bu proses mürəkkəb və ziddiyətlidir, psixoloji və digər çətinliklərlə müşayiət olunur. Bu çətinliklər paradoksal şəkildə ilk baxışdan cəmiyyətin müasir mədəni durumunu sarsıtsa da, tarixi inkişaf perspektivləri baxımından cəmiyyətdə mədəni dəyişikliklər üçün stimul yaradır. Bu, gəncliyin özünəməxsus həyat meyllərində baş verən dəyişiklikləri və bunların əsasında milli mədəniyyətin gələcək konsepsiyasının konturlarını müəyyən edir. Bir sıra mədəniyyətşünaslar belə hesab edirlər ki, mədəni silsilələr məhz bu şəkildə meydana gəlirlər: gənclər yaşlı nəslin mədəni ənənələrini bütöv şəkildə əxz etmək iqtidarında olması çox zaman ixtiyari şəkildə onun bəzi cəhətlərini və dəyərlərini özünküləşdirir və bununla da aktuallığını itirməmiş, hələ də fəaliyyət göstərmək ənənələri yeni dəyərləri zənginləşdirir.(1,2, 3)Bu silsilələrin meydana gəlməsi nəsillərin bir-birini əvəz etməsi ilə bağlıdır. Yeni tarixi gerçəkliyi təcəssüm edən gənclik ilk dövrlərdə özünün alt mədəniyyət konsepsiyasını yaratmaq və bu konsepsiyanı gerçəkləşdirməklə kifayətlənir. Bu alt mədəniyyət milli mədəniyyətin inkişafının ana yolunda köklü dəyişikliklərin meydana gəlməsinə səbəb olmasa da, onun bir çox kəsimlərinin strukturuna və dəyərlər sisteminə təsir göstərir. Lakin zaman keçdikcə tədricən bu təsir güclənir və milli mədəniyyəti köklü şəkildə dəyişdirir. Prof. Q. Quliyev və Ü. Rəhimovanın birlikdə yazdıqları "Multikulturalizmin əsasları" adlı kitabında qeyd edilir: "İlk baxışdan kütləvi mədəniyyət və kontrkultura fenomeni son dərəcə yaxındır və müəyyən mənada hətta üst-üstə düşürlər... Halbuki kontrkultura kütləvi mədəniyyətin janrlarından, diskursundan aktiv şəkildə istifadə edərək ona qarşı mübarizə aparır" (1.166)

İlk baxışdan kontrkultura subkulturadan fərqlənmir: onların hər ikisi rəsmi hakim mədəniyyətə qarşı düşmən mövqedən çıxış edirlər, hər ikisi bütün cəmiyyəti deyil onun ancaq müəyyən kəsimini əhatə edirlər. Lakin bu iki konsepsiya arasında prinsipial fərqlər də mövcuddur. Birincisi, subkultura rəsmi mədəniyyəti passiv şəkildə inkar edir, bir növ özünü onu "görməməzliyə vurur" və eyni zamanda hakim mədəniyyətə qarşı özünün mədəni prinsiplərini və dəyərlərini qoyur. Kontrkultura isə hakim mədəniyyəti total şəkildə inkar etməklə kifayətlənmir, ona qarşı fəal şəkildə mübarizə aparır. Bu xüsusiyyət artıq "kontrkultura" anlayışının özündə öz əksini tapmışdır. Beləliklə, "kontr-kultura" anlayışı müasir mədəniyyətşünaslıqda meydana gəlmişdir və konkret tarixi kəsimdə hakim mədəniyyətin köklü prinsiplərinə qarşı yönəlmiş sosial-mədəni, anti-mədəni prinsiplərini ifadə etmək üçün işlənmişdir. Sözün dar mənasında "kontrkultura" keçən əsrin 60-cı illərində qərbdə, ilk növbədə Amerika Birləşmiş Ştatlarında gənclərin özlərinin alt mədəniyyətləri qismində formalaşdırdıqları və mahiyyəti etibari ilə bütün müasir mədəniyyətə qarşı yönəltdikləri, bütün mövcud mənəvi və əxlaqi dəyərləri rədd edən, yaxud onları saxta hesab edən etiraz prosesini ifadə edir.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Akbar A.,Brain,F. After terror: Promoting dialogue among civilizations, London: Polity Press,2005
2. Casanova, Jose. Public religions in the modern world. Chicago: University of Chicago press. 1994
3. Quliyev Q. Ü. Rəhimova, Multikulturalizmin əsasları, Bakı-2016
4. Taylor Ch.Conditions for an Unforced Consensus on Human Rights// The East Asian challenge for human rights /Eds. J. Bauer and A.D. Bell Cambridge: Cambridge University press, 1999.P.125-144

G.Rzayeva

Counterculture As a Literary Paradigm

Summary

The article reviews the artistic and cultural peculiarities of the counterculture. In particular, it determines these features of the counterculture trend in culture, its versatility and diversity. The article also analyzes the difference of the counterculture from the subculture. In addition, the article sets forth the distinctive features of the two beginnings in the same culture, which at the same time compete with and supplement each other. Besides that, the issues of interrelations between the subculture and the dominant

culture, official culture and folk culture are touched upon. The similarities and differences between the dissident subculture and the counterculture are also considered. In general, the article helps to reveal the importance of displaying the role of the counterculture in defining various, sometimes even opposite tendencies and revealing common features in cultural processes. The counterculture, which is formed as a subculture and, in fact, rejects all existing moral and ethical values, considering them counterfeit and directed against the modern culture, occupies a special place in the literature. And, finally, the article examined the place and role of the counterculture in the literary and cultural worldview.

Г.Рзаева

Контркультура как литературная парадигма

Резюме

В статье рассматриваются художественно-культурные особенности контркультуры. В частности, определены такие особенности тенденции контркультуры в культуре, как многогранность и разнообразие. Помимо этого, проанализированы отличительные особенности контркультуры от субкультуры. Изложены также особенности двух начал в составе одной культуры, когда они одновременно соперничают друг с другом и дополняют друг друга. Помимо этого, затронуты вопросы взаимоотношений субкультуры и господствующей культуры, официальной культуры и народной культуры. Рассмотрены также сходство и различие между диссидентской субкультурой и контркультурой. В целом показана важность выявления роли контркультуры в определении различных, порой даже противоположных тенденций и выявлении общих черт в культурных процессах. Контркультура, которая формируется как субкультура и, по сути, отвергает все существующие моральные и этические ценности, считая их неестественными, будучи направлена против современной культуры, занимает особое место в литературе. В целом были рассмотрены место и роль контркультуры в литературно-культурном мировосприятии.

Rəyçi: Qorxmaz Quliyev
professor

GÜNEL MƏHƏRRƏMOVA
ADU
meherremovagunel85@gmail.com

ŞEYMAS CASTIN HİİNİ POEZİYASINDA ƏNƏNƏ VƏ MÜASİRLİK

Açar sözlər: Şeymas Castin Hiini, poeziya, ənənə, müasirlik
Ключевые слова:Шеймас Джастин Хини, поэзия, традиции, современность
Key words: Seamus Justin Heaney, poetry, traditions,modernity

İrland yazıçısı Şeymas Castin Hiini 13 Aprel 1939-cu ildə Şimali İrlandiyanın Derri qraflığında dünyaya göz açmışdır. 1961-ci ildə Belfastdakı Kral Universitetini bitirmiş, 1976-1982-ci illərdə Dublindəki Kerisfort kollecində, 1982-ci ildən Harvad Universitetində dərs deməyə başlamışdır. 1984-cü ildən isəOksford Universitetindəprofessor kimi çalışmışdır.

Onun şeirlərində bədii dürüstlük axtarışları və peyzaj motivləri, İrlandiyanın tarixi ("Naturalistin vəfatı" toplusu, 1966; "Etiraf adası" 1984; "Vaterpas" 1996) vurğulanır. Həmçinin "Tərce"(1980), "Nitqin vahidbaşlanğıcı" (1986), "Poeziya - əvəzçi"(1995) adlı poeziya haqqında kitab-esseləri də vardır.

Bütün yaradıcılığı boyunca Ş.Hiini həm "lənətə gəlmiş" – irland məsələlərini həll etməyə çalışır, həm də poeziyanın mahiyyətini təşkil edən qayəyə, dilə müraciət edirdi. Hələ 1969-cu ildə şeirlərində "bütün insanlığı özündə birləşdirə biləcək güc qütbünün tapılması və eyni zamanda zorakılığın dini məğzinin göstərilməsinin əhəmiyyətindən bəhs edirdi"(1).

Şairin yaddaşı – tarixi yaddaşın saxlanıldığı yerdir. Bu mövzu Ş.Hiinin bütün şeirlərində yaradıcılığı boyu daha da dərinləşmiş, öz ifadəsini şeirlər toplularında tapmışdır. İnsanlararsı münasibətlərdə "parçalanmanın", böhranın istirabları müəllifə dərin təsir etmiş, bu da onun yaradıcılığında şairin mənəvi borcu, onun cəmiyyətdəki rolu kimi məsələlərə dair mülahizələrinə öz təsirini göstərmişdir.

Çoxsaylı şeir toplularının müəllifi olan Ş.Hiinini ən məşhur irland şairlərindən biri kimi dəyərləndirən tənqiddəki yekdillik şairin on ikinci şeirlər toplusu olan "İnsanlıq zənciri"ndə öz ifadəsini tapmışdır. 2006-cı ildə Ş.Hiini insult keçirir lakin, sonra tamamilə sağalır. Doğrudur, bu hadisə onun həyat tərzinə təsir edir, çıxışları, mühazirələrini, xaricə səyahətlərini kəskin şəkildə azaltmalı olur. 2008-ci ildə onun şair və tənqidçi Denis O`Driskol ilə söhbətlərindən bəhs edən "Pillələr" adlı kitabı işıq üzü görür("Stepping stones" sözün hərfi mənasında çaydan keçmək üçün düzülən daşlar cərgəsi

deməkdir). Iri həcmli cild Ş.Hiinin ayrı-ayrı topluları üzrə fəsillərə bölünür və şairin öz şeirlərinə avtoşərhlərini ifadə edir. Şairin şeirlərinə belə yanaşmasıistənilən tədqiqatçı və tərcüməçi üçün ən əhəmiyyətli mənbə hesab olur. 2009-cu ildə poeziya aləmi Ş.Hiininin yetmiş illiyini qeyd etmiş və vurğulamışdır ki, o, ingilisdilli şairlər arasında ən çox oxunanıdır.

Ş.Hiinin poeziyasında sanki həyat dairəsi qapanır, şeirlərində fanilik və vida mövzusu qırmızı xətlə keçir.

"Sərgüzəşt" şeiri Ş.Hiininin infarkt keçirdiyi həmin səhərdən bəhs edir. Təsvirin süjet xəttindən məlum olur ki, şair İrlandiyanın ən uzaq hissəsindədir və irland dramaturqu Brayan Frilin(1929-2015) həyat yoldaşının yubileyinin qeyd olunduğu Doneqal qraflığının şimali-qərbində yerləşən balaca kənddədir. Xəstəxananın uzaqda yerləşməsi və "təcili yardım"ın gec gəlməsi adi süjet xəttindən xəbər verdiyi halda şeirin musiqiliyi, intonasiyası bədii detalların dəqiqliyinə xüsusi gözəllik verir. Epiqrafda böyük ingilis şair Con Donnun(1572-1631) "Ekstaz" şeirndəki sətiri ilə qarşılaşan oxucu barokko üslubunda yazılan, bədən və ruhun bərabərhüqülu olması ideyası ilə tanış olur. Şeirin istehzası, ironiyası kədərli insan həyatına işarə edir, məhəbbət etirafının tərənnümündə isə şairin zəif cüssəsi iştirak etmir, o, yalnız insan istəklərini təsvir edir.

Ş.Hiini "Sərgüzəşt" şeirində isə iqtibaslardan istifadə edir, Con Donnun məşhur «Ask not for whom the bell tolls - it tolls for thee"("Əcəl zəngi (zəng kim üçün səslənir") və digər sətirdə Con Kitsin "Ode to a Nightingale" sitatı həmin fikri davam etdirir: «Adieu! the fancy cannot cheat so well// As she is famed to do, deceiving elf»("Əlvida! Təxəyyül bizi əlbəttə/uzun müddət aldada bilməz"). Şeirin son hissəsi Delfdə yaranan, zamanın şikəst etdiyi, lakin hərəkət illüziyasını qoruyan və yüyəni saxlayırmış kimi təsir bağışlayan məşhur heykəldən bəhs edir("Delf arabaçısı" qədim yunan cəmiyyətindən dövrümüzə qədər gəlib çatan heykəltəraşlıq nümunəsi – G.M.). Burada yenidən istehza və sarkazm özünü büruzə verir. Ş.Hiininin möhtəşəm yumor hissinə malik olmasına baxmayaraq, şeirlərindəki lirik qəhrəmanı çox ciddi, özünün də latınca "gravitas" adlandırdığı cəhəti ilə seçilir.

Ş.Hiinini İrlandiyanın digər böyük ingilisdilli şairi Uilyam Batler Yeytsin(1865-1939) davamçısı hesab edirlər. Lakin bu iki şairin poetik prinsipləri az qala daban-dabana zidd idi. Onlar ilk baxışdan antipodlar kimi görünürlər: rəssam oğlu, maq, estet və şimali İrlandiyanın əyalətlərindən olan kəndli oğlu U.B.Yeytsə görə, incəsənət müəllifin gündəmindən "həddən ziyadə insani cəhətlərdən" ayrıdır. Romantik pafos, qəzəbli bəyənməzlik, zamana və taleyə üsyan – bunların heç biri Ş.Hiinidə yoxdur. Əvəzində isə Ş.Hiinin poeziyasında diqqətlilik və yaddaş, söz vasitəsi ilə bədii canlandırmanı gücləndirmək, təsvir olunan obyektə qarşı gizli acıma mövcud idi. Bir kitabdan digərinə doğru – israrla "özündən keçən, öz mən"ini

adlayan" yüksəklik dayanırdı. Qeyd etdiyimiz kimi Ş.Hiini iqtibaslara üstünlük verirdi və onun Alfred Tennisonun şeirindən iqtibası "That men may rise on stepping-stones// Of their dead selves to higher things" şairin iç dünyasını xarakterizə edir.

Göründüyü kimi Ş.Hiini özündə bir sıra poetik ənənələri daşıyır. Lakin onların orta əsrlər irland poeziyası ilə əlaqəsi getdikcə daha çox sezilir. O, dəlisov kral Suini haqqında qədim povesti və ən son VI əsrdə yaşamış müqəddəs zahid Kollum Kilin şeirlərini tərcümə etmişdir. Bir zamanlar Olster konflikti haqqında çox yazmış və öz mövqeyi ilə şimali İrlandiyanın barışığına real yardım etmiş, xalq arasında mədəniyyətin və millətinin qoruyucusu statusunu almışdır. Epiqrafında ağac altında işləyən keşişdən bəhs edən qədim irland şeirindən sitatla başlayan "Zahidin nəğməsi" bu haqdadır: "Mən meşədəki çəpərə şadam, / Yarpaqların arxasında quşlar səslənir, / Dəftərimin üzərində / Küləklərin səsi və yuvaların xırıltısıdır" (sətri tərcümə – G.M.).

Kitabın adı "Human Chains" ("İnsan zəncirləri") çoxmənalıdır. O, yazırdı: "İnsan zəncirdə bənddir: / Çünki onun daxilində / İki ölümsüzlük birləşir: / Nə onun ruhu, nə də nəsli ölməz"(Sətri tərcümə – G.M.)(2).

Ş.Hiinin də yaradıcılığında iki sonsuzluqların uzlaşması öz ifadəsini tapır: ölüm, valideynlər, özünün kəndli cəhətləri haqqında (torpağın və nəslin sonsuzluğu haqqında) şeirlər və digər tərəfdən isə keçmiş dostlar haqqında elegiyalar, müxtəlif ölkə və dövrlərin şairəri ilə səsləşmələr, insanlıqda ruh yaxınlarının axtarışı və tapılması. Lakin "zəncir" yalnızca əlaqə deyil, həm də yükdür, o elə bir "bəşər qandallarıdır" ki, illər ötdükcə daha da ağırlaşır. Bu zaman azadlıq xəyalları başlayır, hansısa qaldırıcı qüvvə, sonuncu yüngüllük meydana çıxır. Bu motiv artıq ilk şeir olan "İnsanlığın zənciri"ndə səslənir və şeirlər toplusunun sonuna yaxın güclənir. "Düz damın altında" şeirində pəncərədən boylanan şair özünü qəflətən dəniz quldurları gəmisinin üzərində yellənən yunqa Cim Hokins kimi hiss edir.

Şeirlər toplusunun son şeiri olan "Eyvin üçün çərpələng"də səmaya doğru can atan artıq yunqa deyil, yöndəmsiz kağız quşdur. Şeirlər Ş.Hiinin kiçik qız nəvəsinə həsr olunmuşdur: onlar otuz il öncə şairin oğulları Maykl və Kristofetr üçün yazdığı hava şarları haqqında şeirləri ilə səsləşir.

İrland yazıçı üçün yetərincə ağrılı olan tarix mövzusu, onun şeirlərində zorakılıq mövzusu ilə birləşir və Ş.Hiininin bir çox şeirləri "axıdılmış qanın yaddaşı" kimi tanınmışdır. Təəccüblü deyil ki, Ş.Hiininin lirik qəhrəmanı tez-tez zamanın çoxüzlüyü, bitib-tükənməyən terror qarşısında çaşqın vəziyyətdə qalır. Ədəbi irland problemlərinə müraciət Ş.Hiinin ruhuna yaxın mövzulara diqqətini inkar etmir: kəndli uşaqlığı, torpaqla bağlı insanların, onların sadə gündəlik fikirləri. Şairin yaradıcılığında anasına müraciətlə yazdığı mövzular da az deyil ("Şimal").

Orta əsrlər anqlosakson eposu "Beovulf"un Ş.Hiini tərəfindən edilən tərcüməsi 2000-ci ildə Britaniya və ABŞ-ın bestsellerlər siyahına aid edilmişdir. Ş.Hiininin "Elektrik işığı" (2001) adlı şeirlər toplusu "öz həyatının və yaradıcılığının mənbələri və qaçılmaz finalı haqqında düşünən şairin yükunlaşdırıcı hesabatları sayılır"(3).Kitabdan oxuyuruq: "In the first house where I saw electric light /she sat with her fur-lined felt slippers unzipped, /year in, year out, in the same chair, and whispered /in a voice that at its loudest did nothing else /but whisper"(4).

Ş.Hiinin ilk üç şeir toplularında "Naturalistin ölümü"(1966), "Qaranlığa qapı" (1969) və "Qışın sonu" (1972) onun yaradıcılığının əsas motivlərini: ölüm və torpağı ifadə edir. Torpaq – tale simvolu kimi, dağılma və dərketmənin birləşdiyi hər bir şeyin əsası və başlanğıcı kimi, əbədi sakitlik və yenidən doğuluş və özünü ifadə, özünü ehtiva etmə kimi görünür. İnsan şəxsiyyəti üzərində zorakılığı Ş.Hiini İrlandyanın torflu bataqlıqlarında və Şimali Avropanın digər ölkələrində edilən arxeoloji qazıntılar zamanı əldə olunan araşdırmalarda tapır. Şair 1969-cu ildə arxeoloq P. V. Qlob tərəfindən yazılmış "Bataqlıq xalqı" adlı kitabını oxuyur. Ş.Hiinin "bataqlıq adamları"na aid şerilərindən ilkləri onun "Qaranlığa qapı" adlı toplusunda işıq üzü görsə də, mövzu "Şimal" (1975) şeirlər toplusunda davam etdirilir. Elə həmin ildə, bu şeirlərdən səkkizi ayrıca kitab şəklində, az sayda "Bataqlıq şeirləri" adı altında işıq üzü görür. Bir çox tənqidçilər Ş.Hiininin "Şimal" şeirlər toplusunu ən yaxşı poetik əsər hesab edir və qeyd edirlər ki, burada tarix və mifologiya zorakılıq və əzabın universallığı motivlərini təcəssüm edir.

"Çöl işləri" (1979) adlı şeirlər toplusuna daxil olan şeirlər daha geniş mövzuları əhatə edir. Tənqidçilərin bu topluya aid yetərincə münasibət bildirmiş, xüsusi ilə də "Məhsul yığımı" şeirini bənzərsiz hesab etmişlər. "Qlenmor sonetləri" adlı topluda Hiini İrlandiyanın çiçəklənən təbiətindən bəhs edir. Hiini poeziyasının əsas mövzuları ingilislərin gətirdiyi mədəniyyətin içinə qarışan dərin kelt mədəniyyəti və qitə mədəniyyəti ilə çulğaşan əyalət sakinlərinin adət-ənənələridir. Şairin "Etiraf adası" poemasına daxil olan "Dəlisov Suini" şeiri onun lirik "mən"i hesab olunur. "Yemişan fontanı" (1987) şeirlər toplusundan sonra Ş.Hiini "Əşyaların görünüşü" adlı şeirlər toplusunu nəşr etdirir və bu toplu şairin görüşlərini, onun keçmişə müraciətini əks etdirir.

"Əşyaların görünüşü" toplusunda (1991) realizmin estetik dərinliyi ilə Şimali İrlandiyadakı vəziyyətə aid həyəcanlarını tərənnüm edən şair irland həqiqətlərini çatdırırdı. Bununla belə məhz İrlandiyada onu çox zaman ən sərt tənqid atəşinə tutan, onu sırf milli şair kimi görməyən tənqidçilər mövcud idi. Şair Ş.Hiininin şeirlərinin mərkəzi mövzularından biri də cəmiyyətdəki fiziki, mənəvi və siyasi tarazlığın pozulması məsələləri idi. Təsadüfi deyil ki, Ş.Hiini Oksford universitetində oxuduğu mühazirələri

sonralar “Əvəzçi poeziya” (1995) şeirlər toplusunda tərənnüm etdi və əsas tezis kimi “poeziya ruhi tarazlığı bərpa etmək, dünyanın bütün qaranlıq, qeyri-insani cəhətlərə tab gətirə bilmək qabiliyyətinə malikdir”(5;32) ideyasını irəli sürdü.

1995-ci ildə Ş.Hiini “qarşımızda möhtəşəm gündəmləri və keçmişi canlandıran, poeziyanın lirik gözəlliyini və etik dərinliyini sərgilədiyinə”(6;27) görə Nobel mükafatı ilə təltif olunmuşdu.

Ədəbiyyat:

1. Terminus. Памяти поэта-нобелиата Шеймаса Хини. https://-lenta.ru/articles/2013/08/31/heaney/
2. Human Chain by Seamus Heaney – review. “The Guardian”. https://www.theguardian.com/books/2010/aug/21/seamus-heaney-human-chain-review
3. Robert Potts. Electric Light. Seamus Heaney. “The Guardian”. https://www.theguardian.com/books/2001/apr/07/poetry.tseliotprizeforpoetry2001
4. Seamus Heaney.Electric Light. Personal Helicon.http://www.blueridge-journal.com/poems/sh-elect.htm
5. Шеймас Хини. Стихи с ирландского. Перевод и вступительная заметка Григория Кружкова. “Дружба Народов”, 2003, №6, 32с.
6. Шеймас Хини. Дань поэзии (Нобелевская лекци 1995 года. Перевод с английского и вступление А.Ливерганта).Иностранная литература 1996, №6, 28с.

G.Maharramova

Tradition and modernity in Seamus Justin Heaney’s literary legacy

Summary

Nobel Prize laureaut Seamus Justin Heaney is one of poets whose poetry has a spesific place in XX century poetry.

His poetry is accepted as the representative of old Irish culture, synthetic relation of tradition and modernity.

The topics asdeath feeling, longing for the land, the fakeness of the world and farewell are controlling in his works. Seamus Justin Heaney’s literary legacy can be analysed as the symbol of modernity. Poet depicts the tradition and modernity in the same level.

Poetry of the great author is researched and analysed from this point in the article.

Г.Маггеррамова

Традиция и современность в творчестве Шеймаса Джастина Хини

Резюме

Лауреат Нобелевской премии Шеймас Джастин Хиниявляется одним из поэтов творчество которого имеет особую роль в поезии XX века.

Его поэзия считается носителем древнейших ирландской культуры, синтезем традиции и современности.Как правила в его работах темы чувства смерти, привазонность к земле и расстания являются основными.

Творчество Шеймаса Джастина Хиниможно также рассматривать как символ современности. Поэт рассказывает традиции и современность одинаково изысканно.

В статье творчество поэта рассматривется и анализируется в этом направлении.

Rəyçi: Şahin Xəlilli
Filologiya üzrə elmlər doktoru, professor

ÇİNARƏ HÜSEYNLİ
Bakı Mühəndislik Universiteti
chuseynli@beu.edu.az

YALQUZAQ ROMANINDA BAŞ QƏHRƏMANIN TİMSALINDA İNSAN ŞƏXSİYYƏTİNİN TƏZADLARI

Açar sözlər: ikili şəxsiyyət, insan, canavar, meşşan, fərd, Mən, humanizm, ziddiyyət
Key Words: dual personality, human, wolf, bourgeois, "Individuality", humanism, confrontation
Ключевые слова: раздвоение личности, человека, волк, буржуазных, индивидуальность, гуманизм, конфронтация

Yalquzaq əsərinin dünya ədəbiyyatında xüsusi yeri vardır. Yazıldığı zamandan etibarən hafızələrdə iz qoya bilən əsərlərdən biri ola bilmişdir. Əslində, romanın bir dövrü yoxdur, bütün zamanları əhatə edir və hər dövrdə də öz orijinallığını qoruyub saxlaya biləcəyini inandığım əsərlərdəndir. Yalquzaq 1927-ci ildə Herman Hesse tərəfində Der Steppenwolf adı ilə çap olunmuşdur. Və tezliklə sadəcə alman ədəbiyyatında deyil, həm də bütün dünya ədəbiyyatında şöhrət qazanmışdır. Bu əsər struktur və ideya baxımından çox zəngin, yaddaqalan bir əsərdir. Əsərdə qoyulan problemlər fərd və cəmiyyət, eləcə də insanın özü ilə olan problemlər həmişə gündəmdə qala biləcək məsələdir. Elə buna görə də əsər dünyanın ən yaxşı əsərlərindən biri hesab edilə bilər. Kitabı ilk başda oxumağa başlayarkən fəlsəfi ağırlıq məni qorxutmuşdu, amma kitab o qədər gözəl poetik dillə yazılmışdır ki, oxucunu heç də yormur, əksinə süjet xəttinin ahəngliyi insana daha da sevdirir kitabı.

Əsərin baş qəhrəmanı Harri Haller iki xarakterə və ikili şəxsiyyətə sahibdir,amma daima onlar arasında seçim etməyə məcbur qalır. Əslində o da hamı kimi normal insan idi. Amma o bu cəmiyyətdə xoşbəxt deyildi və heç vaxt nə özündən nə də həyatından razı qalmırdı.(2) İnsanlar onu Yalquzaq adlandırırdı. Çünki o iki cür təbiətə malik idi: biri insan, digəri isə canavar. Bu cür insanlar çox deyildi, ama az da deyildi. Belə insanlar mübarizə içərisindədir, çünki onlar bilmir cəmiyyətin tələblərinə uyğun olaraq yaxşı insan yoxsa pis insan olsunlar. Yalquzaq yəni Harri meşşan heyatına nifrət edir, özünü onlardan biri kimi hiss etmir. Amma bəzən elə hərəkətlər edir ki sanki əsl meşşandır. Ona görə də əslində o çox təzadlı şəxsiyyətdir, gah meşşan olur, gah da onlara, burjua həyatına nifrət edir. Əsərdə də deyildiyi kimi; "insan ya ideal olmaq uğrunda mübarizə etməli, bu yolda qəlbini ancaq ilahi qüvvəyə təslim etməli, ideallıq, paklıq amalı ilə yanıb tutuşmalıdır; ya da ki dünya ehtirasına özünü qurban edərək, hisslərinin

əsirinə çevrilə bilər, və bircə anlıq həvəs üçün bütün ideallarından vaz keçə bilər. Amma meşşan olmaq üçün isə bunların tən ortasında olmalısan, nə ilahi qüvvəyə qapılıb dünyadan vaz keçmirsən, nə də ki əxlaqsızlığa düçar olmursan"(2). Deməli,Yalquzaq bir yandan normal insan olur amma bir yandan da ikinci şəxsiyyətini ortaya çıxarır. Beləliklə, kitab, modernizmin insanlara aşıladığı homogenliyi, tək bir həqiqətin varlığını və bütöv digər standartları qəbul etməyərək, post-modernizmin qapılarını üzümüzə açır. Müəllif, homogenliyin yerinə heterogenliyi, tək bir gerçəklik qarşısında müxtəlif rəyləri, standartlar yerinə olduqca fərqliləşməyi, bütövlük əvəzinə parçalanmağı gözə alaraq oxuyucuya post-modernist bir əsər təqdim etmişdir. (3)

Romanı həmçinin də post humanist bir əsər saymaq olar. Çünki Yalquzaq 1900-cü illərdə cəmiyyətın payına düşən humanizmlə mübarizə aparır. Romanı analiz etsək görərik ki, Yalquzaq humanizmi və onun individual olma anlayışını inkar etmir, həmçinin də bütöv olma, tam bir fərd olaraq fərdi mükəmməllik anlayışını da yox etməyə çalışır. Və əvəzində hər bir kəsin bir neçə şəxsiyyətdən ibarət olduğunu və özünü tanımaq və tapmaq üçün də insan daima axtarışda olmalı olduğu fikrini ortaya qoyur. Məhz buna görə də Yalquzaq ikili şəxsiyyətdən əziyyət çəkir. Bir tərəfi insanpərvər humanist, digər tərəfi isə insanlığa, bəşəriyyətə nifrət edir. Əsərin yazılma ilinə nəzər salsaq aydın olar ki, əsər müharibə əleyhinə yazılıb, ama bəzən təzadlı məqamlar da ortaya çıxır. Məsələn, Yalquzağın fikirlərindən elə nəticəyə gəlmək olar ki, sanki o da müharibə tərəfdarıdır, axı onun ikinci şəxsiyyəti iinsanlığın məhvini arzulayir. (1) Yalquzaqla cəmiyyət arasında böyük bir uçurum vardır.İnsanlar onu başa düşmədikcə bu uçurum daha da genişlənə bilər. O daha da təhlükəli bir vəhşi canavara dönüşə bilər. Əslində isə tək çarə sevgidir, insanlıqdır. Yalquzaq cəmiyyət qarşısında bütün məsuliyyətlərindən azaddır. Onun heç kimi yoxdur. O bu yolda təkdir, və tək də mübarizə aparır. Əslində hər birimiz bir Yalquzağıq. Sadəcə bir sual verməliyik özümüzə; Biz bizi nə qədər tanıyırıq? Kimik biz? Nə istəyirik? Daxilimizdə yatan o canavar nə vaxt oyanır və bizi özünə necə ram edir? Ya da onu bizə təslim etmək bu qədər mi asandır? Əgər biz daxilimizdəki canavarla mübarizə aparıb qalib gələ bilsək, o zaman insanlığın rifahı mümkün olar. Hesse özü əsəri belə izah edir: "Əlbəttə, mənim bu hekayətimi necə başa düşməyi əvvəlcədən oxucunun boynuna qoya bilmərəm və heç istəmirəm də. Qoy kim necə istəyir, elə də başa düşsün, nə lazımdırsa, onu da götürsün. Ancaq kaş onların çoxu görəydi ki, Yalquzağın hekayəti xəstəlikdən, böhrandan danışsa da, insanı ölümə, fəlakətə deyil, sağlamlığa, dirçəlişə doğru səsləyir".(1)

Bəs nəyə görə Hesse öz romanına bu adı vermişdir sualının da çox maraqlı hekayəsi var. "Deməli, uzun müddət Hindistanda xristianlığın yayılması ilə məşğul olan atası ona iki canavar haqqında bir hind pritçası

danışmışdı və bu onun yaddaşında iz qoymuşdu. Dünya görmüş nurani bir hindli öz nəvəsinə həyat həqiqətlərini belə anladır:

- Hər bir insanın içində sanki iki canavar gizlənib və onların arasında daima ölüm-dirim mübarizəsi gedir. Bu canavarlardan biri şəri-zülmü təmsil edir, digəri isə xeyri-haqqı təmsil edir.

Uşaq bir qədər düşünüb soruşur:
- Bəs, axırda hansı canavar qalib gəlir?
- O, baxır insana...hansını yemləsə o, da qalib gəlir.” (4)

“Əslində,”Yalquzaq” adı qəhrəmanın-Harrinin xarakterindəki döyüşkənliyi ifadə etməklə bərabər, həm də onu üzvi şəkildə təbiətlə bağlayan bir “vəhşilikdir”. “Vəhşilik”-insanın üzvi şəkildə təbiətlə bağlılığı, alman ədəbiyyatında həmişə aparıcı tendensiya olub. Hətta Yohan Volfqanq, Volfqanq Amadey Motsart kimi dahilərin adında (volf – almanca canavar deməkdir.) “canavar” sözü işlənmişdir. Sən demə, Harrinin pərəstiş etdiyi bu dahilərin də daxilində bir yırtıcı canavar gizlənib daim ölüm-dirim mübarizəsi aparırmış. Və onların xarakterindəki insani keyfiyyətləri şərtləndirən humanizm o qədər güclü və yenilməzdir ki, onlar bu şəxsi keyfiyyətləri məhz daxillərində gedən amansız mübarizədə qazanıb təsdiq ediblər”. (4)

Əvvəl də dediyimiz kimi əsəri posthumanist bir əsər kimi qəbul etmək olar. Post-humanizm humanistlik paradiqmasını üstələsə də, hələ də humanizm ənənəsi ilə yaşayır və hətta onun mövcudluğunu qəbul edir və tanıyır. Əsərin qəhrəmanı Harri Haller nəhayət dərk edir ki, Alman filosofu Nitşenin təsirinə düşərək daxilində formalaşdırdığı anti-humanist mövqeyi elə əslində 18 və 19-cu əsrlərdə Alman humanizm ənənəsindən bəhrələnmişdir. Yalquzağın öz daxilində humanizm və anti-humanizm mübarizəsi bir növ metaforadı. Və bu metafora sadəcə ənənəvi humanizmin “Mən” üzərində və heyvani xisləti üzərində hakim kəsildiyini göstərmir, həmçinin də insanın insani və heyvani düşüncə tərzində də ikili növ düşüncəyə sahib olduğunu göstərir. Daha dəqiq desək, Yalquzaq metaforası simvolik funksiya daşıyır, o qəhrəmanın bir fərd olaraq yüksəliş və eniş məqamlarını göstərərək şəxsi dilemmaya sahib olduğunu nümayiş etdirir. Yalquzaq öz miskin səfil həyatında humanizm təzyiqinə məruz qalan insani müəmmadır.

Tənhalıq, ikiyə bölünmə, və özünü hamıdan üstün tutmaq əsərdə parallel olaraq özünü büruzə verir. Yalquzağın əsas problemi cəmiyyəti necə təsəvvür etməsindən və sosial təbəqələr içində rolundan qaynaqlanırdı.(5).O burjuaziya cəmiyyətinə nə qədər nifrət etsə də, o cəmiyyətdən özünü tam xilas edə bilmir. Meşşanlıq onun gözündə adi bir insan olmaqdan başqa bir şey deyildi. Amma o isə tamam fərqli biri olmaq istəyirdi. Daha ali biri olmağa can atırdı. Buna görə də bəzən Motsart və Göte kimi dahilərin əsərlərinə

sığınırdı.Amma bəzən bu da kifayət etmirdi. O çıxış yolu tapmalı idi, axı cəmiyyət hələ də onu qəbul etməmişdi və onun nə istədiyini də tam anlamamışdı və bəlkə də heç vaxt anlamayacaqdı da. Çıxış yolu Yalquzaq üçün artıq bəlli idi: özünə qəsd.

Hesse öz romanında humanizm paradiqmasını özünəməxsus tərzdə bir neçə müstəvidən izah edir. Əsərin mərkəzində şəxsiyyətin parçalanması və bunun uğrunda aparılan mübarizə dayanır. Baş qəhrəmanın şəxsiyyətinin parçalanması onun ikili təbiətə malik olması ilə əlaqədardır. Fəlsəfədə, hər bir fərd əslində ağıllı, düşünə bilən bir heyvan kimi təsvir olunur. Eynilə də, Yalquzaq əsl heyvan olmasa da, metafora kimi Harri Hallerə istinad olunuşdur. Hermanın baş qəhrəmanı gecələri küçələri dolaşmağı sevən tənha bir səfildir, və cəmiyyətin saxtakarlığına nifrət edir. Bir daha qeyd olunmalıdır ki, müəllif bizə əslində hər bir insanın içində heyvani bir tərəf olduğunu xatırladır, və bu heyvani tərəfimiz sivilizasiya nəticəsində insanların özləri tərəfindən unudulmağa məhkum edilmişdir. Beləliklə də, Yalquzaq bir neçə mənanı özündə birləşdirən heyvan və eyni zamanda insanı təcəssüm etdirən simvoldur. Bir tərəfdən, sivil olmayan, pərişan bir səfili, digər tərəfdən isə daha təmiz, korlanmamış insan təbiətini xarakterizə edir.

Onun cismən deyil də ruhən ikiyə bölünməsi bir növ də cəmiyyətimizdəki sosial bölünmənin təzahürü kimi də qəbul edilə bilər. Çünki Harri özü buna inanır ki, o sadəcə ikili təbiətə malik olduğu üçün deyil, həmçinin də sosial təbəqələşməyə və bu təbəqələşmələrdəki ziddiyətlərə görə özünü parçalanmış hiss edir. Əsərin ta əvvəlində müəllif oxucu üçün çox asan başa düşülən bir istiqamət seçır.Əsərin ilk səhifələrində artıq oxucuya məlum olur ki Yalquzaq kimdir. Çünki o özü buna iddia edir ki yarı insan və yarı canavardı, və bunu oxucuya inandırmağı bacarır. Əsərdə də deyildiyi kimi: “Qoy ağıllı adamlar onun doğrudan mı canavar olduğunu, bəlkə də bu dünyaya gəlməmişdən qabaq haçansa cadunun köməyi ilə canavara çevrildiyini və ya dünyaya insan kimi gəlib sonradan canavar ruhunu əxz elədiyini, yaxud da onun özünə canavar kimi görünməsini xəyal, ya ruhi xəstəlik olduğunu özləri aydınlaşdırsınlar.” (2) Onun ikili şəxsiyyəti daima mübarizə halında olduğu üçün o çox nadir hallarda sakitlik, rahatlıq tapırdı. O artıq cəmiyyətdən təcrid olunmuşdu. Çünki insanlar onun sadəcə bir tərəfini görə bilirdi. Hətta bəzi hallarda, o özünü tam bir şəkildə nece idisə ele qələmə verməyə çalışsa da, yenə də insanlar bu həqiqəti görə bilmirdi. Axı, insanlar ondan qorxurdu, onun canavar təbiəti insanları özündən uzaqlaşdırırdı.İnsanlar onu artıq vəhşi, islaholunmaz, təhlükəli və bir o qədər da güclü şəxsiyyətə malik biri olaraq tanıyırdı.

Artıq intihar yeganə çıxış yolu olaraq qalmaqda idi. Onun daxili ikiyə bölünməsi və burjuaziya cəmiyyətinə olan nifrət hissi onu inandırmışdı ki öz canına qəsd etmə tək çıxış yolu idi. O özünü sadəcə bu dünyadan azad etmək

istəmirdi, həmçinin də daxilindəki iki şəxsiyyətdən də qurtarmaq istəyirdi. Bu da intiharla mümkün ola bilərdi ancaq. Amma başqa bir məsələ də var idi ki o özünə fiziki işcəncə verə bilmirdi. Sehrli Teatrla rastlaşandan sonra intihar etmə fikrindən vaz keçməli olur. Çünki artıq anlayır ki məqsədinə çatmaq üçün özünü öldürməyə ehtiyac yoxdu. O sadəcə özünü tanımalıdı. Və nəhayət ki onun həyatını dəyişdirəcək biri qarşısına çıxır. Bu Herminedir. İntihar etməyə qərar verdiyi axşam Hermineni tanıyır, və bundan sonra Harri əvvəllər etmədiyi şeyləri etməyə başlayır, həyata fərqli bir pəncərədən baxmağa çalışır.

Hermine Harrini dəyişməyi bacarır. Hermine Hallerin idealist arzuları və daha sonra əldə etdiyi qərəzsiz və həyatdan zövq almağa imkan yaradan düşüncəsi arasında vasitəçi rolunu oynayır. Hermine Haller üçün tək dost rolunu oynamır, o Hallerin digər tərəfidir və onu tamamalayır, həm onlar bacı-qardaşdır. Həm Hermine Haller üçün ana funksiyasını daşıyır. Eyni zamanda o bir filosof, əxlaqsız qadın, həm də onun rəqs müəllimidir. Onun bu cür çoxşaxəli şəxsiyyəti öz ideologiyasının da bir növ sübutudur. Axı o inanırdı ki, insanlığın xüsusi bir tərifi yoxdur, onun tərifini vermək qeyri-mümkündür. Bu yolla da Hermine Halleri insan xarakterinin qeyri-stabil və heterogen olduğuna inandırmağa çalışır. Herminenin varlığı ilə artıq Haller həyatı daha yaxşı anlamağa başlayır, və onun varlığı Hallerə həyatın digər üzlərini əyani şəkildə göstərir. Herminenin təsiri ilə artıq Haller dərk edir ki onun əvvəlki halı illuziyadan başqa bir şey deyildi. Və o Herminenin bir insanda bir neçə ruha sahib ola bilər, və bir neçə şəxsiyyətdən ibarət ola bilər düşüncəsini qəbul edir. Təbii ki bu proses ele də asan başa gəlmir. O artıq zamanla tanıdığı və qəbul etdiyi "Mən"indən azad olmağa başlayır və yeni yaratdığı "Mən" isə artıq daha güvənilir biridi. Artıq Harri qeyri-ixtiyari olaraq özünü Hermineyə təslim etmişdir, onun dediyi hər seyi bir qanun kimi həyata keçirir. Hermine ona rəqs etməyi, həyatdan zövq almağı öyrədir, hətta Herminə sayəsində Harri Mariya adlı qızla tanış olur və onunla sevgi münasibəti qurur. Herminə sayəsinda Harri əvvəllər heç dadmadığı zövqləri dadmağa başlamışdır. Harrinin artıq xoşbəxt, özünü məmnun hiss etdiyi günləri başlamışdır. Onun Mariya ilə də işləri pis getmir. Son vaxtlar yaşadığı dünyəvi zövqlərə baxmayaraq, Harrinin bir tərəfində susdurmağa çalışdığı canavar onu yenə də narahat edir. O hələ də dünya zövqlərini unudub ilahi ucalığa, mənəvi həzzə çatmağa çalışır. Qəlbindəki bütün bu qarışıq hissləri Hermineye izah edərkən çox maraqlıdır ki yüngül həyat tərzi yaşamağına baxmayaraq Hermine buna təəccüblənmir, əksinə onu anladığını söyləyir. Kim bilir bəlkə də Yalquzağı özündən daha çox Hermine başa düşürdü. Təsadüfi deyildi ki, Harri elə Hermine demədən onun adını tapa bilmişdi. Çünki Hemrine ona köhnə dostu Hermanı xatırladırdı. Əsərin sonlarına yaxın anlayırıq ki, Hermine elə Harrinin bir hissəsidir. Harri sonda

onun istəyi ilə Hermineni öldürür. Çünki artıq Yalquzağın Hermineyə ehtiyacı qalmayır. Hermine onun güzgüsü olmuşdu. Harri artıq özünün əksini güzgüdə tam olaraq gördükdən sonra, nə istədiyini bildikdən sonra Hermine öz missiyasını tamamlamışdır.

Haller öz inkişafı ərzində anlayır ki, iki təbiəti və ikili şəxsiyyətini qəbul etməklə onlarla mübarizə aparmaq elə də asan olmaya bilər. O Yalquzaq olmaqdan əl çəkməli və özünü həm hər kəsdən üstün, həm də bəzən ən zavallı kimi görməməlidir. Bununla da, Hesse öz romanında miskin və insanlar tərəfindən çarəsiz duruma düşülən, və eləcə də özünü onlardan qorumaq üçün maskalanan bir insanı təsvir edir. Həm Hermine, həm yeni tanış olduğu digər insanlar sayəsində zamanla aydın olur ki, onun üçün bir zamanlar o qədər də əhəmiyyətli olmayan əyləncə növləri əslində insan psixologiyasının, insan ruhunun formalaşması üçün çox vacib rola malikdir. Həqiqət isə bu idi ki, o ruhu, hissləri nə istəyir heç vaxt anlamayıb və özü istəməsə də aldığı burjua təhsili onun dünya zövqlərindən bir növ məhrum etmişdi. Halleri bəziləri Faustla müqayisə edirlər. O da Faust kimi yüksək təhsilə sahib olsa da, bir o qədər də pessimist idi. Və o da Faust kimi dünyəvi zövqləri tanıdıqdan sonra artıq öz idealist inkişafı prosesində unutduğu ehtiyaclarını bir daha xatırlayır. Həmçinin Halleri tanıdıqdan sonra onda olan Nitşenin təsirini gördükdən sonra sosial təbəqələr arasında olan fərqlərə niyə ikrah hissi ilə yanaşdığını anlamaq olar. Nitşeni özünə örnək götürən Haller və eləcə də Nitşeni yaşadıqları dövr və həmin dövrün insanları başa düşməmişdi. Ona görə Haller də insanlar yerinə həmişə əhliləşməmiş, vəhşi heyvanları üstün tuturdu, onlara pərəştiş edirdi.

Hallerin öz dövrünün insanları ilə, onların düşüncə tərzi ilə yaşadığı ziddiyyətlərin tək səbəbi onun intellektual və yaxud da mənəvi cəhətdən fərqliliyindən irəli gəlmirdi. O həm də əzab çəkirdi və azad olmaq istəyirdi. O dünyaya burjua gözü ilə baxsa da, müasir zamanın tələbləri onu heç də qane etmirdi. Ətrafında olan hər şey çox sürətlə dəyişirdi və bu dəyişikliyə ayaq uyudrmaq üçün sadəcə intellektual cəhətdən özünü inkişaf etdirmək kifayət etmir. Bəzən bilik kifayət etmir. Hər anı yaşamaq lazım gəlir, və bu anı yaşamaq üçün də ətrafında olanları duymalı və hiss etməlisən. O isə artıq öz ikili xarakterinin əsirinə çevrilmişdi. Amma bilmirdi ki xilas olma yolunda apardığı bu mübarizədə bir çox qurbanlar verməli olacaq. Bu o deməkdir ki, Hellerin inkişafının sonu xoşbəxtliklə nəticələnmir deyə belə qərara gəlmək olar ki, Hesse öz romanı ilə əslində demək istəyirdi ki, insanlıq, humanist dəyərlər artıq ikinci plandadır, insanlar üçün insani hisslərin daha önəmi qalmayıb. Hessenin bu romanı humanist dəyərlər barəsində nə demək istədiyini iki cür anlamaq olar. Bu isə başqa bir araşdırmanın mövzusudur.

Ədəbiyyat

1. Cavid Qədir. Ədəbiyyat qəzeti.- 2017.- 18 noyabr.- S.26.
2. Herman Hesse. Yalquzaq. Bakı, Yazıçı.1990
3www.kitabyurdu.org/kitab/dunya-edebiyyati/1659-hermann-hesse-yalquzaq-eseri-ile-tanisliq-ve-qisa-mezmunu.html
4. http://kulis.lent.az/news/16555
5. https://www.cliffsnotes.com/literature/s/steppenwolf/critical-essays/major-themes-within-steppenwolf

Ch. Huseynli

The Contradictions of Individuality in the Context of the Protagonist in Steppenwolf

Summary

In this article, I tried to search human characteristics and its confusing parts discussed in literature.Human psychology has always been in the spotlight of the writers. Herman Hesse also wanted to show people the different invisible sides of individualism. Every person is individual. However, behind this individualism there lies dualism which means everyone has dual characteristic and individuality. In order to identify their two souls, two personalities, human being might go through some stages dragging them into some eccentric situations where they end up in perplexing feelings. Not everybody is able to identify the reason that make them feel stressed out. In this situation, you can find yourself struggling with trying to be a good person or a bad person. Choosing either of them depends on how strong personality you possess and how deeply you understand who you are. The real “Man” is inside of us that needs to be found. However, to find your “Man”, you should be ready to face the “inner” confrontation. By finding the real You, you will be immortal. Harry Haller is a perfect example for it. He does not consider himself a regular person. Indeed, he does not fit in well with the world he lives. This article explains his feelings, the reasons why he was called Steppenwolf, how he understood he had dual individualities, how he fought with them, and finally how he found the real Harry.

Ч. Гусейнли

Противоречия индивидуальности на примере протагониста в произведении "Степной волк"

Резюме

В данной статья я попыталась раскрыть человеческие характеристики и их запутанные стороны, обсуждаемые в литературе. Психология человека всегда была в центре внимания писателей. Герман Гессе также хотел продемонстрировать людям различные невидимые стороны индивидуализма. Каждый человек индивидуален. Однако за этим индивидуализмом стоит дуализм, что означает, что каждый человек обладает двойственной характеристикой и индивидуальностью. Для идентификации обеих душ, обеих личностей, человек может пройти через несколько этапов, которые втягивают их в определенные странные ситуации, когда они оказываются в смястении. Не каждый человек может понять причину испытываемого им стресса. В подобной ситуации вы можете поймать себя на попытке быть хорошим или плохим человеком. Выбор любого из них зависит от того, насколько сильной личностью вы обладаете, и насколько хорошо вы понимаете, кто вы. Настоящий «человек» внутри нас, но его нужно найти. Однако чтобы найти в себе «человека», вы должны быть готовы к «внутренней» конфронтации. Найдя настоящего себя, вы обретаете бессмертие. Гарри Галлер является отличным тому примером. Он не считает себя обычным человеком. В действительности, он не вписывается в мир, в котором живет. Данная статья объясняет его чувства, причины, по которым его называли степным волком, как он понял, что у него две личности, как он сражался с ними, и, наконец, как он нашел настоящего Гарри.

Rəyçi: Ətrabə Gül
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ELAN

"Elm və təhsil" nəşriyyatı "Filologiya məsələləri" jurnalında çap olunan məqalələrlə bağlı "İlin məqaləsi" adlı müsabiqə elan edir. Məqalələr münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Müsabiqənin nəticələri ildə iki dəfə – iyun və dekabr aylarında açıqlanacaq. Qaliblərə diplom və pul mükafatı veriləcək.

I yer 300 manat
II yer 200 manat
III yer 100 manat

Mündəricat

DİLÇİLİK

МАСУД МАМЕДОВ
ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ ТОПОНИМОВ
РАЗНОСИСТЕМНЫХ ЯЗЫКОВ
(на материале Ленкоранской низменности)..... 3
LEYLA MAHMUDOVA
MÜASİR FARS DİLİNDƏ XƏBƏR BUDAQ CÜMLƏLİ TABELİ
MÜRƏKKƏB CÜMLƏLƏR 11
SEVİNC ƏLİYEVA
"KİTABİ-DƏDƏ QORQUD"UN ZAMANLA İŞLƏNMƏ
MƏHDUDLUĞUNA MƏRUZ QALMIŞ BƏZİ MÜRƏKKƏB
FEİLLƏRİNƏ DAİR..... 16
FİRUDİN RZAYEV
NAXÇIVANIN ORONİM VƏ HİDRONİMİK ADLARINDA
QƏDİM TÜRK MİFİ 21
GÜLNARƏ QURBANOVA
QLOBALLAŞMA ŞƏRAİTİNDƏ KÖHNƏLMİŞ VƏ YENİ
SÖZLƏRDƏN İSTİFADƏ..... 30
ZƏMİNƏ MUSTAFAYEVA
ALMAN VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SINONIMLƏR LÜĞƏTI
HAQQINDA 36
LALA MASIMOVA
SEMANTIC GROUPING IN THE VOCABULARY SYSTEM OF
THE ENGLISH LANGUAGE 41
NAİLƏ MİRZƏYEVA
GÖYÇƏ MAHALININ TARİXİ VƏ SOSİAL-MƏDƏNİ MƏNZƏRƏSİ 46
SƏNUBƏR ZEYNALOVA
METAPHER AUS SICHT DER KOGNITIVEN LINGUISTIK UND IHRE
STILISTISCHEN AUSDRUCKSWERTE 51
SEVİNC MƏMMƏDOVA
GERHART HAUPTMAN DRAMATURGIYASINDA NOVATORLUQ 58
СЕВИНДЖ СЕИДОВА
О НЕКОТОРЫХ ОСОБЕННОСТЯХ ВОСПРИЯТИЯ ВРЕМЕНИ И ЕГО
ОТРАЖЕНИИ В ЯЗЫКЕ..... 64
SEVƏR ORUCOVA
İŞGÜZAR İNGİLİS DİLİ FƏNNİNİN TƏDRİSİ VƏ ONUN
ƏHƏMİYYƏTİ..... 71

XOŞQƏDƏM HÜSEYNZADƏ
XARICI DİL TƏDRİSİNİN MƏQSƏDI, MƏZMUNU VƏ ONUN BAŞQA ELMLƏRLƏ ƏLAQƏSİ 76
SƏKİNƏ SEYİDOVA
ÇOXMƏNALILIĞIN AÇILMASINDA TRANSFORMASİYA METODUNUN ROLU..... 81
САИДА КАМАРЛИ
ВИДЫ ОБУЧЕНИЯ 86
LALA İLDRIMZADA
XARİCİ DİL SİNİFLƏRİNDƏ TƏLƏBƏLƏRİN ÜNSİYYƏT PROBLEMLƏRİ 92
ФАРИДА МЕХБАЛИЕВА
КАК СТУДЕНТЫ МОГУТ ИСПОЛЬЗОВАТЬ МОБИЛЬНЫЕ ТЕЛЕФОНЫ ПРИ ИЗУЧЕНИИ АНГЛИЙСКОГО ЯЗЫКА..... 97
MEHRİBAN ƏFƏNDİYEVA
FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN TƏHLİLİ..... 102
JALƏ FƏRHADLI
İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİ YOLLARI 107
SARELLA QAİBOVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQ MƏSƏLƏSİ 112
GÜLCAN MÜSEYİBOVA
УПРАВЛЕНИЕ ГЛАГОЛОВ В РУССКОМ И ФРАНЦУЗСКОМ ЯЗЫКАХ (I ЭТАП) 117
QUMRU ƏLƏKBƏROVA
FRANSIZ DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ VƏ ÖYRƏNİLMƏSİNDƏ QRAMMATİKANIN İNKİŞAF DİNAMOKASI 122
MEHRIBAN BALAKIŞIYEVA
KINDS OF SYNONYMS AND THEIR SPECIFIC FEATURES 131
SƏBUHİ İBRAHİMOV
XIX ƏSRİN AXIRI – XX ƏSRİN ƏVVƏLLƏRİ NAXÇIVANA DAİR BƏZİ HƏRBİ-SİYASİ VƏ MƏDƏNİ ƏLYAZMA SALNAMƏLƏRİ 136
AYNUR MAMMADOVA
TEACHING WRITING 141
KÖNÜL BABAYEVA
AZƏRBAYCAN VƏ İNGİLİS DİLİNDƏ FEİLİ SIİƏT İLƏ DÜZƏLƏN FEİLİ BİRLƏŞMƏLƏR 147
ANARA NƏSİRLİ
İNGİLİS DİLİNDƏ KOMPARATİV FRAZEOLOJI BIRLƏŞMƏLƏRİNİN BƏZİ STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ (AZƏRBAYCAN DİLİ İLƏ MÜQAYİSƏLİ) 153

ELMIRA HÜSEYNOVA
GERMAN DİLLƏRİNDƏ KONTEKST, KONTEKST FORMALAŞDIRMA, KONTEKSTDƏN ASILILIQ MƏSƏLƏLƏRİ VƏ ONLARIN PRAQMATIKADA ROLU 163
RANA BABAYEVA
INFORMATIVE SPEECH AND ITS TYPES 170
ELNARƏ ƏHMƏDOVA
ULAŞLI VƏ HAT ETNONİMLƏRİ QUBADLI TOPONİMİKASINDA 175
ARİF KAZIMOV
AZƏRBAYCAN TAPMACALARININ DİLİNDƏ TƏQLİDİ SÖZLƏR 181
RƏNA ƏLİYEVA
THE EFFECT OF DIALOGUE "JOURNAL WRITING " 187
ГЮНАЙ МИРЗОЕВА
ПРИНЦИПЫ И МЕТОДЫ СОВРЕМЕННОГО ЯЗЫКОЗНАНИЯ 194
SƏBİNƏ NƏSİBOVA
ORTA MƏKTƏBDƏ ŞAGİRDLƏRDƏ EŞİDIB-ANLAMA VƏRDİŞİNİN FORMALAŞMASI VƏ İNKIŞAF ETDİRİLMƏSİ 199
ƏSMƏR KƏRİMOVA
İNGİLİS DİLİ FƏNNİNİN TƏDRİSİNDƏ MÜASİR TƏLİM TEXNOLOGİYALARININ TƏTBİQİ 204
ÜLKƏR İMANOVA
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ İNNOVATİV METODLARIN İSTİFADƏSİNƏ DAİR 209
NURANƏ ALLAHVERDİYEVA
AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ PROSESİNDƏ BACARIQ VƏ VƏRDIŞLƏRİN FORMALAŞDIRILMASININ VƏZİFƏLƏRİ VƏ ƏHƏMİYYƏTİ 214
RƏHİLƏ MƏMMƏDOVA
FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN ANA DİLİNƏ TƏRCÜMƏSİNDƏ SPESEFİK HALLAR 219
ЛАЛА МАМЕДОВА
ИЗУЧЕНИЕ ТЕРМИНОЛОГИЧЕСКОЙ ЛЕКСИКИ НА МАТЕРИАЛЕ ТЕКСТОВ ПО СПЕЦИАЛЬНОСТИ 224
TAMILLA ATAKIŞIYEVA
ЛИТЕРАТУРНО-РАЗГОВОРНЫЙ ТИП- КАК РАЗНОВИДНОСТЬ ЭЛИТАРНОЙ РЕЧЕВОЙ КУЛЬТУРЫ 229
AĞAXANIM QARAYEVA
TƏLİM PROSESİNDƏ YAZININ FONETİK VƏ MORFOLOJİ PRİNSİPLƏRİNİN ƏHƏMİYYƏTİ 234
FƏXRƏDDİN EYLAZOV
MAHMUD KAŞĞARININ HƏYATI VƏ "DİVANİ -LÜĞATİT TÜRK" ƏSƏRİ 239
AYBƏNİZ HƏSƏNOVA
FRANSIZ VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOGİZMLƏRİN ƏSAS VƏ APARICI ƏLAMƏTLƏRİ 244

ГЮЛЯР НАЗИРОВА
СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ ТЕКСТОВ С ЗООНОМИЧЕСКИМИ КОМПОНЕНТАМИ В РУССКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ 249
KƏMALƏ HÜSENOVA,
LƏMAN AXUNDOVA
MÜASİR İNGİLİS DİLİNDƏ CÜMLƏNİN CTRUKTUR TİPLƏRİ VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ TƏRZİNİN MƏQBUL EKVİVALENTLƏRİ 254
KƏMALƏ MEHDİXANLI
İNGİLİS DİLİNDƏ FEİLİN ARZU FORMASININ SADƏ VƏ MÜRƏKKƏB CÜMLƏ DAXİLİNDƏ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ VƏ AZƏRBAYCAN DİLİNDƏ İFADƏ ÜSULLARI 259
MİNAXANIM MÖVLİYAROVA
MÜASİR FRANSIZ DİLİNDƏ ANTROPONİMLƏRDƏN YARANAN TƏKTƏRKİBLİ VƏ CÜTTƏRKİBLİ QİDA MƏHSULLARI ADLARININ AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ METOD VƏ ÜSULLARI 264
СВЕТЛАНА МАММАДОВА
ИНОЯЗЫЧНЫЕ СЛОВА В РУССКОМ ЯЗЫКЕ..... 270
XALİDƏ ZAMANOVA,
AYTƏN HACIYEVA
MÜXTƏLİF SİSTEMLİ DİLLƏRDƏ SİNTETİK VƏ ANALİTİK FORMALARIN QARIŞILIQLI ƏLAQƏSİ VƏ İNGİLİS DİLİNİN BU SİSTEMDƏ FƏRQLİ XÜSUSİYYƏTLƏRİNƏ DAİR 274
YEGANƏ QURBANOVA
MÜASİR İNGILİS DİLİNDƏ MÜRƏKKƏB CÜMLƏ DAXİLİNDƏ TABELİLİK VƏ TABESIZLİK ƏLAQƏSİNİN MÜHÜM ŞƏRTLƏRİ VƏ AMILLƏRİ HAQQINDA 279
MAHMUDAĞA QASIMOV
ƏNƏNƏVİ TƏHSİLDƏN TƏFƏKKÜR MƏKTƏBİNƏ 284
NEMƏT QASIMOV
MÜASİR TƏHSİLDƏ İNFORMASİYA TEXNOLOGİYALARININ ROLU 290

ƏDƏBİYYATŞÜNASLIQ

TƏRLAN NOVRUZOV
M.F.AXUNDZADƏNİN MAARİFÇİ-DEMOKRATİK ŞEİR SAHƏSİNDƏ FƏALİYYƏTİ 298
SONA VƏLİYEVA
HÜSEYN CAVİD ROMANTİZMİNİN SƏRKƏRDƏ QƏHRƏMANI – SƏYAVUŞ..... 305
NAZİR ƏHMƏDLİ
DƏRƏLƏYƏZLİ AŞIQ CƏLİLİN SOYKÖKÜ 314

ŞAHBAZ ŞAMIOĞLU (MUSAYEV)
M.F.AXUNDZADƏNİN "ALDANMIŞ KƏVAKİB"
POVESTİNDƏ XALQ OBRAZI 329
PƏRVANƏ MƏMMƏDLİ
XALQINI HƏM AĞLADAN HƏM DƏ VƏ GÜLDÜRƏN ŞAİR 337
TAMILLA TURABOVA,
NAZİLƏ RƏHİMOVA
ЖАНРОВОЕ СВОЕОБРАЗИЕ В ЛИРИКЕ АНГЛИЙСКОГО
РОМАНТИЗМА. ЭПОХА ВОРДСВОРТА, БЛЕЙКА,
КИТСА И ШЕЛЛИ 343
ÇİNARƏ ƏLİXANBƏYOVA
A.BAYETTİN "SAHİBLƏNMƏ" ROMANINDA
İNTERTEKSTUALLIĞIN BƏDİİ XÜSUSİYYƏTLƏRİ 352
GÜLNAR RZAYEVA
KONTRKULTURA ƏDƏBİYYAT PARADİQMASI KİMİ 359
GÜNEL MƏHƏRRƏMOVA
ŞEYMAS CASTIN HİİNİ POEZİYASINDA ƏNƏNƏ VƏ MÜASİRLİK ... 367
ÇİNARƏ HÜSEYNLİ
YALQUZAQ ROMANINDA BAŞ QƏHRƏMANIN TİMSALINDA
İNSAN ŞƏXSİYYƏTİNİN TƏZADLARI 373

«Elm və təhsil» **nəşriyyatının direktoru:**
professor **Nadir MƏMMƏDLİ**

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Yadigar Bagirova

Çapa imzalanmış **1. 02. 2018.**
Şərti çap vərəqi **24,5** Sifariş **№ 2.**
Kağız formatı **70x100 1/16.** Tiraj **300.**

*jurnal **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində*
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.